AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## X KİTAB

BAKI – 2020

**Layihə rəhbəri:** akademik **Muxtar KAZIMOĞLU-İMANOV**

**Tərtib edən:** f.ü.f.d., dosent **Mətanət MAŞALLAHQIZI (ABBASOVA)**

**Redaktoru**: fil.ü.f.d., dosent **Ləman VAQİFQIZI (SÜLEYMANOVA)**

**Səsli faylların üzünü köçürən:** **Lalə BƏDİROVA**

**Güney Azərbaycan folkloru, X kitab,** Bakı, Elm və təhsil, 2020, -356 səh.

Kitabda Güney Azərbaycanın zəngin şifahi xalq yaradıcılığına aid dastan nümunələri toplanmışdır.

folklor.az

G $\frac{4603000000}{N\text{-}098\text{-}2020}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2020

# ÖN SÖZ

“Güney Azərbaycan folkloru” kitabının təqdim etdiyimiz növbəti X cildi, əsasən, Təbriz-Qaradağ, Zəncan, Şahsevən və s. bölgələrə mənsub aşıqların repertuarından götürülmüş dastanlara həsr olunmuşdur. Kitabda xalq içərisində geniş yayılmış “Şah İsmayıl”, “Qurbani”, “Nəcəf”, “Bəy Aslan və Hüsnüpəri” dastanlarına yer verilmişdir. Qeyd edək ki, “Güney Azərbaycan folkloru” seriyasından VI və VII cildlərimizdə Güney folklor mühitinin zəngin, təkrarsız dastançılıq ənənələrinə aid – Aşıq Həsən Qəffari, Aşıq Əziz Şəhnazi, Aşıq Hüseyn Sayi, Aşıq Əmiri, Aşıq Hüseyn Təbrizi kimi aşıqların canlı ifalarından dinlənilərək yazıya alınmış 12 dastan mətni və aşıq deyişməsini (VI cild), ayrıca Aşıq Yədullahın ifasında “Şikari”dastanını (VII cild) bir araya gətirərək oxuculara təqdim etmişdik.

Təbriz-Qaradağ, Urmiya, Sulduz-Qarapapaq, Zəncan, Qum-Savə, Xorasan-Türkmənistan, Qaşqay aşıq mühitlərini əhatə edən İran türklərinin aşıqlıq məktəbi ifaçı şair-aşıqları, dastançılıq ənənələri, aşıq havaları, çalğı alətləri və s. baxımından zəngin irs olaraq seçilməkdədir. Qeyd edək ki, aşıq sənətinin Güney folklor mühitində inkişafı və xalq məişətində geniş yer almasına bağlı olaraq, zamanla Güneydə bu sahədə tədqiqatların aparılması və dastan mətnlərinin yazıya alınması işinə marağı artırmışdır. Nəticədə Güney ziyalıları – aşıqlar, saz həvəskarları, yeri gəldikcə bölgə aşıqları, onların yaradıcılığı, dastanlar və s. üzərində çalışmalar aparmış, kitablar çap etdirmişdilər. Nəbi Kobotarianın məlumatına əsasən, İranda aşıqlar haqqında məlumat verən ilk kitab 1969-ci ildə Hüseyn Məmmədzadə Sıddıq tərəfindən hazırlanmış (“Aşıqlar”, Tehran, Azər Kitab yayınları, 1969), ayrıca Məhəmməd Əli Fərzanə və Səməd Behrəngi xalq ədəbiyyatı əsasında araşdırma

və toplamalar aparmış, Tehranda "Huşəng" dərgisində Azərbaycan aşıq ədəbiyyatı üzərinə məqalələr çap olunmuşdur.[1] Bu sırada ardıcıl şəkildə İranda müxtəlif aşıq ədəbiyyatı nümunələrinin çap olunması işi surətləndirilmişdir. Əhməd Ruşənrəvanın "Aşıqlar-el elçiləri" (1954), "Aşıq Xəstə Qasım" (Toplayanı: Məmmədəli Niqabi, 1954), Mənuçehr Əzizinin "Aşıqlar" (1955), Məmmədrza Şəfiyəi Kədkəninin "Aşıq və aşıq sənəti haqqında", Pərviz Zare Şahmərəsinin "Aşiqhayi-Azərbaycan" (1965), Feyzullahi Hüseynin "Elli aşıq, elli nəğmə" (Təbriz, Mehran yayınları, 1990), "Azərbaycanın müasir aşıqları" (Yaran yayın evi, Təbriz, 1990), Məhəmməd Hani Hüseynin "Dədə-Qorqud kitabı" (Tehran, 1999), Niyayış Rızanın "Əz qoşan ta ozan" (Qoşandan ozana. Tehran, 1999), "Aşıq Mikayıl Azaflının kamil divanı"(Təbriz, Dərviş yayınları, 2002), Kəmali Əli, Zehtabi Məhəmməd Tağının hazırladığı "Telim xan. Həyatı və yaradıcılığı" (Tehran, 2002), "Dədə-Qorqud" kitabında sözlər-adlar" (Tehran, 2002), Nemətpur Kıyasın "Aşıq şeirləri" (Tehran, Endişeyi-Nov yayın evi, 2002) kitablarında Güney aşıqları, aşıq mühitləri, aşıq sənəti haqqında məlumatlar toplanmışdır. Qeyd olunan kitabların bir çoxunda konkret şəkildə aşıqların yaradıcılığı haqqında verilən məlumatlarla yanaşı, ümumiyyətlə, aşıq ədəbiyyatının yaranması, aşıq-ozan-baxşı ifadə fərqlərinin yayıldığı türk bölgələri, onların mənası, tarixiliyi və s. baxımından da geniş məlumat verilmişdir. Mənuçehr Əzizinin "Aşıqlar" kitabında aşıq havaları, onların yaranması özəlliyi, aşıq dastanları, ardıcıl olaraq ayrı-ayrı aşıqlar, eləcə də xüsusi başlıqda dünyasını dəyişən aşıqlar haqqında məlumatlar toplanılmışdır. "Aşıq və aşıq sənəti haqqında" (M.Ş.Kədkəni) kitabında isə aşıq sözünün etimiologiyası, aşıq-qoşan-goşan sözlərinin

[1]Nəbi Kobatarian. Təbriz aşıqlıq gələnəyi və aşıq ədəbiyyatı. Qarahan kitab evi, 2013, səh 37.

kökləri, işlənmə yerləri və s. tədqiqata cəlb olunmuşdur. Güney aşıq mühiti, xüsusilə Təbriz aşıqları, Təbriz aşıqlıq gələnəyinin tarixi haqqında ən fundamental araşdırma Əli Qafqasiyalının "İran türkləri aşıq mühitləri" (Ərzurum, 2006) və Nəbi Kobatarianın "Təbriz aşıqlıq gələnəyi və aşıq ədəbiyyatı" (Qarahan kitab evi, 2013) tədqiqatlarıdır.

Aşıq ədəbiyyatının İranda inkişafı vaxtilə müstəqil qurumlar tərəfindən idarə olunmamış, aşıqların bir araya gəldiyi təşkilatlar fəaliyyət göstərməmişdir. Belə bir şəraitdə aşıq dastanlarının yayılması və ustad aşıq münasibətlərinin formalaşması üçün aşıqların, aşıq sənətini sevən insanların öz aralarında toplandığı məişət yönlü mərkəzlər-qəhvəxanalar fəaliyyət göstərmişdir. Müxtəlif dərnək və aşıq birliklərinin fəaliyyətinə qədər aşıqlar bu qəhvəxanalarda toplanar, dastanlar söyləyər, deyişmələr aparar, söylənilən dastan və aşıq rəvayətlərinin həvəskarlar tərəfindən yazıya alınmasına şərait yaradardılar.

Kitabda təqdim etdiyimiz Güney folklor mühitində yaranan dastanlardan biri "Şah İsmayıl" dastanıdır. Bu dastan Cənubi Azərbaycanda, daha dəqiq desək, Təbriz aşıqları tərəfindən yaradılmış və sonradan Azərbaycan aşıqlarının dilində dolaşmış, Türkiyədən başlayaraq Avropa ölkələrinə qədər geniş bir ərazidə yayılmışdır. Məlumdur ki, Şah İsmayıl Azərbaycan tarixində geniş bir əraziyə malik Səfəvilər dövlətinin qurucusu, görkəmli dövlət xadimi və istedadlı şair kimi əbədiləşmişdir. "Sah İsmayıl" dastanı hər şeydən əvvəl, tarixi şəxsiyyət olan Şah İsmayılla bağlı el arasında – Təbriz, xüsusilə Ərdəbil ərazilərində yaranan və yayılan əfsanə və rəvayətlərdən qaynaqlanmışdır. Güneydə "Şah İsmayıl" dastanı Əli Təbrizlinin təşəbbüsü ilə toplanılmış (1998) və 2000-ci ildə Mahmud Abadi tərəfindən nəşr etdirilmişdir. Qüzeydə isə dastan ilk dəfə olaraq daşbasma üsulu ilə nəşr olunmuş

(1847), sonrakı nəşrləri isə SMOMPK məcmuəsində aparılmışdır. “Şah İsmayıl” dastanının əlimizdə olan variantı H.Əlizadə tərəfindən 1928-ci ildə Aşıq Mirzənin (Tovuz rayonu) dilindən yazıya alınmışdır. Dastanın xalq tərəfindən sevilməsinin nəticəsi olaraq “Şamaxı”, “Tovuz”, “Quba”, “İrəvan”, Təbriz” və s. variantları mövcuddur.

“Şah İsmayıl” dastanı, xüsusilə, Təbriz-Qaradağ aşıq mühtində ən geniş yayılmış xalq hekayətləri sırasındadır. Aşıq Hüseyn Sayi Mahmudabad, Aşıq Rəsul Qurbani, Məsum Heydəri, Firidun Xudayi, Barat Süleymani, Bulut Dehaqani, Barat Sərbazi, Rza Əsədi, Əvəz İbadpur və s. Təbriz aşıqları, eləcə də digər aşıq mühitlərində Aşıq Səlcuq Şəhbazi, Aşıq Şirindil Əlipur, Aşıq Rza Puyəndənin (Urmiya variantı) və s. repertuarlarında geniş yer tutmuşdur.

Güney folklor mühitində ayrı-ayrı aşıq repertuarından izlədiyimiz “Şah İsmayıl” dastanının bəzi variantlarında tarixi hadisələrə geniş yer verilmiş, digər mətnlərdə isə Şah İsmayıl-Gülzar xanım süjeti əsas götürülərək mövzu tamamilə məhəbbət motivləri üzərində qurulmuşdur. Məsələn, Aşıq Rəsul Qurbaninin söylədiyi “Şah İsmayıl” dastanında hadisələr Şah Səfinin nəzir-niyazdan sonra doğulan oğlu Şah İsmayılın təhsili və onun şikara çıxarkən qovduğu ceyranın ardınca getdiyi çadırda Əhməd şahın qızı Gülzar xanıma vurulması və Gülzar xanımla əhd-peyman bağlaması ilə başlayır. Sonrakı süjet isə Şah İsmayıl-Rəmdar Pəri, Şah İsmayıl-Ərəbzəngi süjet xəttləri üzərindən davam edir. Hadisələr yenidən inkşaf edərək Şah İsmayılın Ədil şah tərəfindən xəyanətə uğraması, yenidən Ərəbzənginin köməyi ilə ona qalib gəlməsi süjetində sona çatır. Dastanda Şah İsmayılın tarixi şəxsiyyət kimi iştirak etdiyi müharibələr, göstərdiyi qəhrəmanlıqlara yer verilməmiş, hadisələr yalnız məhəbbət qəhrəmanının yaşadığı

hisslər, çəkdiyi əziyyətlər, məhəbbəti yolunda apardığı mübarizəyə bağlı hadisələr əsasında inkişaf etdirilmişdir.

Kitabda təqdim etdiyimiz "Şah İsmayıl" dastanı Hüseyn Sayinin "Oğuz elindən, Oğuz dilindən" kitabından götürülmüş, lakin müəllif dastanı söyləyən aşıq haqqında ayrıca məlumat verməmişdir. Aşıq Səlcuq Şəhbazinin "İran aşıqlarının dastanları" kitabında isə bu dastan variantı Aşıq Xankişi Hatəminin ifasında qeydə alınmışdur. Aşıq Xankişi Hatəmi 1947-ci ildə Miyananın Ağçaqışlaq kəndində anadan olmuş, hələ kiçik yaşlarından kənd aşıqlarının saz-sözünə böyük maraq göstərmişdir. Aşıq 1973-cü ildə Miyanadan Tehran şəhərinə köçmüş, ustad Aşıq Yədulla ilə Tehran və ətrafında yaşayan Azərbaycan və Şahsevən türklərinin toylarında aşıqlıq etmişdir. Aşığın ifasında qələmə alınan bu dastanda Şah İsmayılın hökmdar və sərkərdə olaraq qüdrəti onun məhəbbət macəraları ilə birlikdə rəvayətləşdirilmişdir. Dastan qəhrəmanı Şah İsmayıl dərvişin Sultan Heydərə bağışladığı qızıl almanın möcüzəsi ilə dünyaya gəlir, Xoca Daniyal ona qılınc vurmaq, kəmənd, ox atmağın sirrlərini, eləcə də oxuyub-yazmağı öyrədir. Şah İsmayıl bir gün ovda olarkən ceyranın ardınca düşərək Rəşid bəyin qızı Gülzar xanımın çadırına rast gəlir, burada bir-birlərinə vurulan qəhrəmanlar əhd-peyman bağlayaraq ayrılırlar. Hadisələrin sonrakı inkişafı Şah İsmayılın Qafqaz dağlarına üz tutan Gülzarın ardınca yola düşməsi, Pəri xanımın qalasına gəlməsi, döyüşdə onun qardaşlarına kömək etməsi, nəhayət, Ərəbzəngi ilə rastlaşması, ona qalib gəlməsiylə davam edir. Dastanda Şah İsmayıl-Pəri xanım və Şah İsmayıl-Ərəbzəngi süjet xətti ardıcıl olaraq qəhrəmanın döyüş səhnələri, sərkərdəlik bacarığı, qalibiyyətinə bağlı hadisələrlə davam edir. Burada Sultan Yaqubun Şirvanşahı Fərrux Yasarla birləşib Şah İsmayılla döyüşə başlaması, qəhrəmanın Ərəbzəngi ilə zindana salınması, Rüstəm Mirzənin onları zindan-

dan azad etdikdən sonra Ərdəbildə qoşun toplayan sərkərdənin yenidən Şirvana hücum etməsi, Şah İsmayılın Əlvənd Mirzə ilə qarşılaşması, tezliklə özünü Təbrizdə şah elan etməsi və s.tarixi hadisələrə geniş yer verilmişdir. Dastanda Şah İsmayılın şah, hökmdar olaraq siyasi fəaliyyəti tarixi hadisələrin xronoloji ardıcıllığında öz ifadəsini tapır. Dastanın sonuna doğru qəhrəman yenidən ilk sevgisi – Hindistanda xan oğluna nişanlanan Gülzarın ardınca yola çıxır. Nağıl poetikası motivinə uyğun Şah İsmayılın nişan verdiyi qızıl daraqla Gülzar toy evindən qaçırdılır və şah öz sevgilisinə qovuşur. Dastanın sonunda Şah İsmayıl Sultan Səlimlə olan son döyüşündə məğlub olur və yaralanaraq dünyasını dəyişir.

"Şah İsmayıl" dastanı ilə bağlı əlimizdə olan Güney variantlarının bir çoxunda Haqq Aşığı Qurbaninin də obrazı canlandırılmışdır. Təqdim etdiyimiz Aşıq Xankişi Hatəminin söylədiyi dastan variantında da sonda Aşıq Qurbani ağır yataqda olan qəhrəmana Azərbaycan dağlarından gül-çiçəkdən məlhəm gətirmək üçün yollanır, lakin aşıq geri dönərkən Şah İsmayıl artıq dünyasını dəyişmiş olur. Aşıq Qurbani Təhmasib Mirzəyə Şah İsmayıldan sonra daha burada qala bilməyəcəyini söyləyib, saraydan uzaqlaşır. Qeyd edək ki, Hüseyn Sayinin adı çəkilən kitabında dastanın sonunda bu süjetə yer verilməmiş, Aşıq Səlcuq Şəhbazinin təqdim etdiyi dastanda isə Aşıq Qurbani ilə bağlı mətn qorunub saxlanmışdır. Aşıq Səlcuq Şəhbazinin söylədiyi "Şah İsmayıl" dastanında isə Aşıq Qurbani dastanın əvvəlindən hadisələrin gələcək inkişafı üçün başlıca möcüzəvi obraza çevrilir. Belə ki, övladsızlıq həsrəti çəkən Şeyx Heydərin yuxuda gördüyü quş Aşıq Qurbanini şaha nişan verir, Haqq Aşığı sultanın yuxusunu yozur, sarayda şahın baş məsləhətçisi kimi çalışır və vaxtı gəlib çatdıqda ağ geyimdə əlinə saz alıb, məclis qurub qəhrəmana ad qoyur.

Dastanın forma-bədii xüsusiyyətlərinə gəldikdə isə qeyd edək ki, "Şah İsmayıl" dastanı mükəmməl forma-xüsusiyyətlərə malikdir, nəql olunan hadisə və vəziyyətlər nəsr və nəzmin növbələşməsi üzərində qurulmuşdur. Dastanın təhkiyəsi nəql edilən hadisələrin konkret siyasi məsələləri və məhəbbət mövzusuna bağlılığı baxımından fərqli səciyyə daşıyır. Məsələn, Aşıq Rəsul Qurbaninin danışdığı "Şah İsmayıl" dastanında mövzu bilavasitə məhəbbət mövzusu olduğundan dastanın təhkiyəsi də daha çox nağıl təhkiyəsinə əsaslanır. Şah İsmayılın gözləri kor olduqdan sonra göyərçinlərin köməkliyi ilə işığa qovuşması, Ədil şahın hiylələrində tulanın ona yardım etməsi və s. tamamilə nağıl motivləri üzərində qurulmuşdur. Təqdim olunan dastan variantında isə mövzunun xüsusilə döyüş, mübarizə səhnələrini əhatə etməsi aşıq təhkiyəsində pafos və mübaliğəni ön planda saxlayır.

"Qurbani" dastanı da Güney folklor mühitində geniş yayılmış və aşıq məclislərində davamlı şəkildə ifa olunan dastanlardandır. Əsrlərlə xalqın yaddaşında qorunub saxlanan bu dastan XVI-XVII əsrlərdə Diri kəndində (indiki Cəbrayil rayonu ərazisi) yaşamış Aşıq Qurbaninin həyat və yaradıcılığından bəhs edən bir dastandır. Dastanın Gəncə, Diri, Zəncan, son dövrlərdə isə elmə məlum olan İstanbul variantları mövcuddur. Dastan "Qurbani-Pəri", "Dirili Qurbani" adları ilə Güney mühitində bir çox aşıqların – Qafar İbrahimi Dinvər, İsa Qaraxanlı, Mədəd Yusifi, Ədalət Məhəmmədpur, Həsən Məhəmmədi və s. el aşıqlarının repertuarında oxunmaqdadır. Bundan başqa Aşıq Qurbaninin yaradıcılığı və dastan haqqında məlumatlara Əbdülkərim Mənzuri Xamnənin "Aşıq Qurbani", Alışıq Qaraxanlının aşığın şeirləri üzərində topladığı "Aşıq Qurbani" (1970, "Əxtər yayınları"), Aşıq Hüseyn Sayinin hazırladığı "Oğuz elindən, Oğuz dilindən" ("Şah İsmayıl-

Dədə Qurbani" və "Aşıq Qurbaninin Diriyə qayıtması" dastanları qeyd olunmuşdur) kitablarında rast gəlirik.

Təqdim etdiyimiz dastanın mətni isə Aşıq Mustafa Abbasinin repertuarından alınmışdır. Aşıq Mustafa Abbasi 1940-cı ildə Qaradağın Vərziqan mahalının Humay kəndində anadan olmuş, 15 yaşından 40 yaşına qədər doğulduğu bu kənddə yaşamış, daha sonra Təbriz şəhərinə köçmüşdür. Onun ustadı Aşıq Məhəmməd Mərəndi və Aşıq Əziz Şəhnazi olmuşdur. Aşıq Mustafa Abbasi bir şox aşıq dastanlarını el məclislərində ifa etmiş və ustadlarından yadigar qalan aşıqlıq sənətinin sirrlərini qoruyub saxlamışdır. Aşıq hal-hazırda Təbriz şəhərində yaşayır.

Dastan Ərənlər vadisində Həzrət Əlinin qəhrəmana buta verməsi ilə başlayır. Qurbaniyə Gəncə bəylərbəyisi Abdulla xanın bacısı Pəri xanım buta verilir ki, o, bu yolda haqq aşığına çevrilir. Pərinin ardınca Gəncəyə yola düşən Qurbaninin sazbənd, həmşəhərliləri, Abdulla xan, Nazır Məmmədalı, Şah Abbas və s. obrazlarla qarşılaşması dastanın ayrıca süjet xətlərini müəyyən edir.

Kitabda təqdim etdiyimiz növbəti dastan "Nəcəf" dastanıdır ki, bu dastan Böyük bəy Ələkbəroğlu tərəfindən səsli dinləmə variantında bizə təqdim olunmuşdur. "Nəcəf" dastanıUrmiya aşıqlarından Aşıq Dərviş Vahabzadə tərəfindən söylənilmiş, səsləndirilmədən yazıya alınmışdır. Aşıq Dərviş Vahabzadə 1923-cü ildə Urmiyanın Kürdlər kəndində anadan olmuşdur. O, hələ 20 yaşında olarkən aşıqlıq sənətinə başlamış, 50 il bu sənətlə məşğul olmuşdur. Dollu Abuzər Aşıq Dərviş Vahabzadəyə ustadlıq etmiş, ona aşıq sənətinin sirrlərini öyrətmişdir. Sonradan Aşıq Dollu Mustafa Borçalı mahalına köçmüşdür. Aşıq Dərviş Vahabzadə müxtəlif xalq dastanlarını sazının simlərində yaşatmaqla el məclislərində yaxından iştirak etmişdir. Aşıq 1993-cü ildə Urmiyada dünyasını dəyişimişdir.

Bu dastan Güney folklor mühitində sevilərək oxunan dastanlar sırasındadır ki, daha çox "Nəcəf və Pərzad" adı ilə yayılmaqdadır. Aşıq Dərviş Vahabzadə ilə yanaşı, Məhəmməd Əli oğlu Aşıq Səttar Bəraziş, Əli Bəylərzadə və s. aşıqların da repertuarlarında qorunub saxlanılmış və bu gün də oxunmaqdadır. Dastan Əlirza Zihəq tərəfindən 1393-cü ildə "Nəcəf və Pərzad" adı ilə çapa hazırlanmış və nəşr olunmuşdur. "Nəcəf" dastanı İsfəhan tacirbaşısı Məhəmmədin oğlu Nəcəf və Misir tacirbaşısı Əhmədin qızı Pərzadın məhəbbətindən bəhs edir. Dastan mətnində iki sevən gəncin qarşılaşdığı müxtəlif maneələr, çətinliklər cadu və sehr yolu ilə yaradılmışdır. Nəcəf Əhməd tacirbaşının qızı Pərzadı İsfahana apararkən yolda ilk gecə bilmədən qızın qoynundakı tilsimli duaya toxunur, nəticədə sehrin təsiri ilə göyərçinə dönüb uçur. Uzun zaman tənha bir mağarada quş cildində yaşayır, sonra isə sehr və dua elmini öyrənmiş Həmədan valisi Əhməd xan tərəfindən tilsimdən azad edilir. Əhməd xanın evində qonaq saxlanarkən qızı Xanı xanım ona vurulur və Nəcəf onunla kəbin kəsdirməyə məcbur olur. Atası kimi sehr və dua elmini öyrənən Xanı xanımdan ehtiyat edən Nəcəf Pərzadın adına bir məktub yazıb başına gələnləri nişanlısına bildirir. Dastanın sonunda Şah Abbas tərəfindən dar ağacına gətirilən Nəcəfi yenə də sehrin gücü ilə xilas edirlər. Belə ki, Xanı xanım elə bir sehr oxuyur ki, İsfəhanın üzərinə od və daşlar yağmağa başlayır. Dastanda diqqət çəkən digər maraqlı cəhət Pərzadın kişi geyimində Nəcəfin adı ilə onun ailəsinin yanına qayıtması və burada qəhrəmanın işini davam etdirməsidir. Pərzad Nəcəf kimi tanındığından Şah Abbasın vəzirinin qızı Nazı-dilbərlə evlənməyə məcbur qalır ki, sonda Pərzad 7 illik qəza namazının qılınıb qutardıqdan sonra gərdəyə girə biləcəyini bəhanə gətirərək toyun müddətini uzadır. Dastan maraqlı süjet üzərində qurulmaqla qəhrəmanların hiss-

həyəcanlarının təsvir və tərənnümündə poetik detallardan daha çox istifadə olunmuşdur.

Təqdim olunan digər dastan isə "Bəy Aslan və Hüsnüpəri" dastanıdır. Dastanı bizə Böyükbəy Ələkbəroğlu səsli dinləmə variantında təqdim edib. "Bəy Aslan və Hüsnüpəri" dastanı Güneydə bir çox aşıqların repertuarında yer almış, daha çox "Bəy Əslan" adı ilə tanınmışdır (Əkbər Namvər Tazakənd, Əli Səlimi və s. aşıqlar tərəfindən ifa olunmuşdur). Dastan Aşıq Oruc Nacivəndinin repertuarından səsli ifadan alınaraq yazıya alınmışdır. Aşıq Oruc Nacivənd 1963-cü ildə Təbriz yaxınlığındakı Bostanabad şəhərinin İrana kəndində anadan olmuşdur. O, aşıqlıq sənətini ustadı, tanınmış el sənətkarları Aşıq Qasım İranalıdan öyrənmişdir. Bir müddət doğulduğu yerdə aşıqlıq edən ifaçı təxminən 30 yaşında olarkən sonradan Təbriz şəhərinə köçmüşdür. Aşıq hal-hazırda Təbriz şəhərində öz sənətini davam etdirir.

Dastan Misir sultanı Həsənin qızı Hüsnüpəri ilə İranın Xoy şəhərindən olan İsmayıl xanın oğlu Bəy Aslanın məhəbbətindən bəhs edir. Digər dastanlarımızda olduğu kimi, bu dastanda da sevgililər şikar zamanı ceyran cildinə girən dayənin Bəy Aslanı Hüsnüpərinin çadırına gətirməsi ilə bir-birlərini görüb, sevirlər. Rum padşahının dərvişi Kökəh tilsim yolu ilə Hüsnüpərini oğurlayıb şahın hərəminə gətirir ki, hadisələrin sonrakı inkişafı da buradan şaxələnərək inkişaf edir. Dastan qəhrəmanı Mövlası İmam Əlidən mənəvi güc alaraq sonda düşməninə qalib gəlir və sevgilisini xilas edir.

Qeyd etdiyimiz dastanlardan üçü – "Nəcəf"," Qurbani" və "Bəy Aslan və Hüsnüpəri" dastanları səsli dinləmələrdən yazıya alınmış, aşıqların məclisdə söylədikləri mətnlərdən əldə olunmuşdur. Tamamilə orijinal təhkiyə üzərindən yazıya alınan bu mətnlər aşıqlarla bilavasitə əlaqə saxlamaq imkanımız olmadığından müəyyən epizod natamamlığı, mətn təkrar-

lığı və süjet yarımçıqlığı ilə müşahidə olunur. Məlumdur ki, el aşıqları iştirakçısı olduqları məclisin ruhuna uyğun olaraq bəzən müəyyən dastan mətnlərinə əlavələr etdikləri kimi, bir çox hallarda hadisələri qısa epizodlarda nəql etməyə də üstünlük verirlər. Lakin dinləmələrdəki qüsurlara baxmayaraq xalq içərisində sevilə-sevilə oxunub, el şənliklərini bəzəyən bu dastanların aşıq dilindəki bütün üstün cəhətlərini – dialekt, şivə xüsusiyyətlərinin qorunması, orijinal el deyimləri ilə zənginliyi və s. nəzərə alaraq yazıya alıb, oxuculara təqdim etməyi daha məqsədəuyğun bildik.

Nəzərdən keçirdiyimiz və oxuculara təqdim olunan bu dastanlar mövzu və süjet zənginliyi, bədii-poetik xüsusiyyətləri, tarixi-mifoloji obrazlar sistemi, eləcə də oxunduğu saz havaları ilə təkrarolunmaz xalq yaradıcılığından götürülən kiçik bir xəzinədir. Hər bir dastan mətni zaman-zaman onu yaradan ustadların, bu xəzinəni qoruyub saxlamağa çalışan onlarla aşığın sazında, sinəsində cilalanmış və müasir günümüzə qədər gəlib çatmışdır. Güney Azərbaycan folklor mühitində aşıq ədəbiyyatı, aşıq sənətinin zənginliyi belə bir fikri söyləməyə əsas verir ki, daha qədim tarixi dövrlərdən yol alan dastanlarımız bu gün də xalqın ruhunu oxşayıb, ona güc və mənəvi zövq verməkdədir.

Güney aşıq ədəbiyyatı bu gün yerində – aşıqların öz mühitində öyrənilməməsi səbəbindən bizim üçün dastanların yazıya alınmasında müəyyən çətinliklər yaradır. Bu baxımdan dastan mətnlərinin dinlənilib, yazıya alınmasındakı qüsurlara baxmayaraq, güman edirik ki, aşıq yaradıcılığından gələn bu zəngin irs oxucular tərəfindən maraqla qarşılanacaqdır.

***Mətanət MAŞALLAHQIZI (ABBASOVA)***
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

# ŞAH İSMAYIL

Keçmişlərdə Ərdəbil şəhərində Şeyx Səfiəddin sülləsindən Sultan Heydər adlı bir böyük, dahi insan var idi. Heydər çox cəsur və igid bir oğlan idi. Bütün döyüşlərdə onun dava eyləməyinə hamı tanış idi. Buna görə etibar sahibi və tərəfdarlı insan idi. Sultan Heydər neçə yol vuruşmalarda yaralanmışdır. Az qalmışdı dünyadan getsin. O üzdən də həmişə qəmli və qüssəli olardı. Çox vaxtlar tək qalanda aynanı əlinə alardı, özünə zinət verərdi. Bir gün aynanı əlinə aldı. Aynaya baxanda üzündə ağ tükləri görəndə qüssəsi çoxaldı. Ustadlar belə deyirlər ki, günlərin birində dəllək çağırdı, onun üzün islah eyləsin. İslahdan sonra usta aynanı verdi əlinə ki, üzünə baxanda gördü, üzündə qara tük çox azdı, buna görə yenə də qüssəli oldu, ürəyi sıxıldı.

Nəhayət, günlərin birində səhər namazın qıldı, yerində oturan zaman arvadı Xanım Sultanı yanında görən kimi dərindən bir ah çəkdi. Xanım Sultan ərinin ah çəkməyinə çox təəccüb eylədi. Soruşdu:

– Sultanım Heydər, nədən ah çəkdin? Allaha həmd olsun ki, hər nə istəsən varımız, dünyanın gözəl nemətləri varımızdı. Nə üçün bu yalançı dünyada ah çəkirsən?

Sultan Heydər yenə də bir söz demədi. Dərindən ah çəkdi. Gözlərindən damcı-damcı yaş tökdü. Sultan Xanım Sultan Heydəri bu halda görəndə onu ovutmağa başladı. Dedi:

– Sultanım, nə üçün qəmli və qüssəli olubsan. Yoxsa bir gizlin dərdin var? Mənə de, mən ki sənə məhrəməm. Məndən dərdini gizlin saxlama.

Sultan Heydər bu sözü eşidən kimi başın saldı aşağı, yavaş səs ilə dedi:

– Mən öləndən sonra məndən bir nişanə qalmayacaqdır. Ondan ötrü ah çəkirəm, ağlayıram.

Sultan xanım bir az fikrə gedib sözü anladı. Sonra ərini dilə tutmağa başladı. Sultan xanım Uzun Həsənin qızıdır. Dedi:

– Bu dünyada heç bir dərd yoxdur ki, çarəsi olmasın. Allah-təala dərd verib, dərmanı ondan qabaq verib. Hər kəs dərdin dərmanın gəzə bilsə, tapar.

Bir gün Sultan Heydər əmr verdi:

– Mənim vəzirimi tez buraya çağırın gəlsin.

Vəzir tez özün ora yetirdi, yeddi yerdə baş vurub ədəb yerində dayandı, Sultan Heydərə dedi:

– Qurban, mənə görə əmrin nədi?

Sultan Heydər dedi:

– Fevri get bazara, iki dərviş libası al gətir.

Vəzir dal-dala qayıtdı. O qədər çəkmədi, gəldi. Bazardan iki dəst dərviş paltarı aldı, qayıtdı. Paltarı verdi Sultan Heydərə. Paltarı görəndə dedi:

– Vəzir, bu paltarların bir dəsti sənin, bir dəsti mənimdir. Gey, hər ikimiz gəzməyə çıxacağıq. Görək Allah qabağımıza nə gətirir.

Bəli, əzizlər, Sultan Heydər qabaqda, vəzir də dalınca atların minib yola düşdülər. Günəş o gün gözəl nur saçırdı. Yolda ağac kölgəsi yox idi. Atlar tərləyib hərdənbir şahə çəkirdilər. Bir müddət yol gedəndən sonra günəş daha qızışdı. Sultan Heydərlə vəziri su dalınca gəzirdilər. Yorulub taqətdən düşmüşdülər. Çox gəzdilər, ta ki yetişdilər bir qaynar bulağın başına. Orda oturdular. O gözəl suyun başında bir-birinə dedilər:

– Azca burda dincələk.

Atları bağladılar göy çəməndə bir yerə. Orda istirahət eylədilər. Durdular, namaz qıldılar. Namazı qılıb təzə oturmuşdular, yanlarında bir nurani qoca dərviş gördülər. Bunlar heyran qaldılar ki, bu baba dərviş hardan gəldi. Sultan Heydər dedi:

– Baba dərviş, sən kimsən? Hardan gəlib, hara gedirsən?

Dərviş baba gülümsədi, dedi:

– Sultanım sağ olsun, mən bir səyyah kimi dünyanı dolanıram. Xorasandanam.

Sultan Heydər soruşdu:

– Baba dərviş, sən məni hardan tanıyırsan?

Dərviş gülə-gülə dedi:

– Biz Allahın inayət və kərəmi ilə bilirik. Yanındakı da sənin vəzirin olur.

Sultan Heydər mat qaldı. Sultan Heydər dedi:

– Vəzir, bu görəsən kimdir?

Vəzir də mat qaldı, dedi:

– Qurban sağ olsun. Mən də bu kişinin işinə mat qalmışam. Bu dərviş bilici və alimdir.

Sultan Heydər tutdu dərviş babanın əllərindən, dedi:

– Adımı bildin, ürək sirrimi də gərək deyəsən.

Dərviş gördü, Sultan Heydər bunu boşlamayacaq. Dərviş dedi:

– Sultan sağ olsun, dərman verən Allahdır. Hər nə gəlir, Allahdan gəlir. Biz onun dərgahının fəqir bəndələriyik. Bizim əlimizdən bir iş gəlməz.

Sultan Heydər dərvişi boşlamadı ki, boşlamadı. Dedi:

– Baba dərviş, gərək muradımı verəsən.

Dərviş gördü ki, düzün söyləməlidir. Naçar qaldı. Əlin saldı cibinə, bir qızıl alma çıxardı, verdi Sultan Heydərə, sonra ona dedi:

– Bu qızıl almanı al, gecə namazını qılandan sonra onun qabıqların soyub yarısını özün, yarısın da xanımına verərsən, yeyər. Allahın iznilə doqquz aydan sonra bir oğlan gələr dünyaya. Unutma, qabıqları da atınıza verərsən, ondan da bir Qəmərday olar. Onu da oğluna verərsən, minər. Mən gəlməyincə uşağa ad qoymayasan.

Sultan Heydər o saat dərvişin əllərindən öpdü. Almanı qoydu cibinə, istədi dərvişə pul verə, gördü ki, gördü ki, baba

dərviş yoxdur. Sultan Heydər mat qaldı. Fikir edə-edə evinə döndü, gəldi namazın qıldı. Sonra qızıl almanı soydu, iki böldü. Bir hissəsini özü yedi, bir hissəsini verdi xanımına. Qabıqlarını da ata verdi. Sultan xanım o gündən hamilə oldu. Doqquz aydan sonra bir oğlan uşağı dünyaya gəldi. Bu xəbəri Sultan Heydərə verdilər. Sultan Heydər şad oldu. Yoxsullara ehsan eylədi. O saat Sultan Heydər münəccimləri çağırdı, dedi:

– Oğlumun taleyinə baxın.

Münəccimlər rəml atdılar. Dedilər:

– Qurban sağ olsun. Rəml belə göstərdi ki, bu uşaq qoçaq, igid, düşüncəli bir insan olacaq. Lazımdır ki, yeddi yaşına qədər ondan çox müvazib olsunlar.

Günlər, aylar, illər dolanır. Şahzadə günü-gündən yekəlir. Yeddi yaşına gəldi çatdı. Hələ ad qoyulmayıbdı. Uşaqlar bunu görəndə deyirdilər ki, adsız şahzadə budur, gəldi. Şahzadə bu adı eşidəndə çox narahat olurdu. Ağlaya-ağlaya bir gün gəldi anasının yanına. Dedi:

– Anacan, bəs mənim adım nədir, mənim adımı niyə qoymursuz?

Anası dedi:

– Oğlum, get bu sözü atan Sultan Heydərdən xəbər al.

Oğlan gəldi atasının yanına, dedi:

– Ata, mənim adımı kim qoyacaq?

Bu sözü eşidən Sultan Heydər dedi:

– Səni mənə baba dərviş Allahdan alıb. O gərək gələ, sənə ad qoya.

Dövrədə olan vəzirlər, vəkillər dedilər:

– Qurban, şahzadəyə gərək ad qoyaq. Bu qədər adsız qalmaq olmaz.

Sultan Heydər münəccimləri çağırdı, dedi:

– Oğlumun taleyinə yaxşı baxın görüm.

Rəml atdılar. Dedilər:

– Sultan Heydər sağ olsun, şahzadə elə bir yerdə olsun ki, pis əxlaqları görməsin.

Bu sözə Sultan Heydər bilmirdi nə cavab versin. Bir az fikir eylədi. Gördü buna gərək Xacə Danyal tərbiyə verə. Onu bargaha çağırdı. Xacə Danyal gəldi bargaha. Heydərə təzim eylədi. Sultan Heydər ona yer verdi, o da oturdu. Yedilər, içdilər. Sultan Heydər mətləbi Xacə Danyala söhbət elədi. Xacə Danyal fikir edib Sultan Heydərə dedi:

– Sultan sağ olsun, dəstur verin, bir yaxşı saray tikilsin, orda mən şahzadəyə dərs verim – elm öyrədim.

Bu söz Sultan Heydərin xoşuna gəldi. Bir saray tikdirdi az müddət ərzində. Səhər tezdən hələ günəş parlaq nurun aləmə saçmamış – dan yeli ətrli qızılgüllərin xoş iyin ətrafa dağıtmamış, xoruzlar banlamamış şahzadə durardı, bədəninə qulluq eylərdi. Bu oğlanda bu adəti götürüb Xacə Danyal sevinirdi. Onun düşüncəli olmağına inanırdı. Xacə həm dərs, həm də qılınc vurmaq, kəmənd atmaq, ox atmaq öyrədirdi. Xacə gördü boy uca, qollar yoğun, bel nazik, üzü ağ, barmaqlar uzun, iri gözlü, gülər üzlü bir igid olub. Şahzadə on beş yaşına dolmuş, saraydan savayı bir yer görməmişdi.

Günlərin bir günü ona yemək gətirdilər. Şahzadə yeməyi yeyib gördü ki, içində bir sümük var. Şahzadə o zamana kimi sümük görməmişdi. Sümüyü gördü, heyran qaldı. Öz-özünə dedi:

– Bu nədir?

Onu götürüb atdı. Atanda sümük şüşəni sındırdı. Bu vaxt birdən-birə günəşin işığı içəri düşdü. Şahzadə o zamana kimi günəş görməmişdi. İstədi günəşi tuta, nə qədər çalışdı, günəşi tuta bilmədi. O qədər əlləşdi, yoruldu. Bu zaman Xacə Danyal girdi otağa, gördü şahzadə qan-tər içindədi. Bildi ki, bu istəyib günəşi tuta, tutammayıb. Xacə günəşi buna şərh verdi. Şahzadə dedi:

– Mən haçana kimi azadlığa həsrət qalacağam?!

Xacə Danyal bunu gəzməyə aparmağa razı oldu. Yaraq-yasaq götürdülər. Gəzməyə hazır olub yola düşdülər. Bu zaman bir igid at üstündə gəlirdi, yanında tazı. Bu yerdə şahzadə dedi:

– Bu atlı kimdir, yanındakı nədir?

Xacə Danyal dedi:

– Bu cavan atlının yanındakı tazıdır.

Şahzadə ata hərəkət verdi. Gəldi qabağa. Xacə şahzadədən bu rəftarı görüb ona icazə verməyə peşman oldu. Dedi:

– Şahzadə, qayıt gedək.

Şahzadə razı olmadı qayıda. Xacə dedi:

– Niyə qayıtmayırsan?

Şahzadə dedi:

– Qayıdaram, amma atama deyərsən mənə də bu atdan birin ala, bir də ki, tazı ala.

Xacə qəbul eylədi. Dedi:

– Atan Sultan Heydərə bütün mətləbi bəyan edərəm.

Bu zaman ordan qayıtdılar. Danyal gəldi, mətləbi Sultan Heydərə andırdı. Sultan Heydər sevindi. Şahzadə dediyin qəbul eylədi. Sonra bütün vəzirlərini yanına çağırdı,dedi:

– Daha şahzadənin ad qoymaq zamanı gəldi.

Vəzirlər baş əydilər, onun məsləhətin qəbul eylədilər. Buna görə ad qoymaq tədarüklərin başladılar. Gün on gün oldu. Ad qoymaq məclisi quruldu. Bütün ölkələrdən elçilər gəliblər. Şahzadənin ad qoyma gününə hamı baxırdı. Görəsən, Sultan Heydər nə adı qoyacaq. Sultan Heydər yola baxırdı. Birdən gördü, qapı açıldı, bir dərviş əsasın ölçə-ölçə gəlir. Sultan Heydər durdu bunun ayağına, ona öz yanında yer verdi.

Dedi:

– Sultan, sən sözün üstə durdun, mən də gəldim. İndi şahzadənin adı olacaq İsmayıl. İsmayıl adına görə Allah qorusun. Atın balasına da Qəmərday deyərsən.

Bu sözdən sonra qeyb oldu. Nə qədər axtardılar, dərvişi tapa bilmədilər.

O gündən neçə gün keçdi. Bir gün şikar üçün amadə oldular. İsmayıl atını mindi, qılınc-qalxan götürdü. Yoldaşları yanında, şikara yola düşdülər. Təpədən aşıb dərədən çıxdılar. Uca dağlardan endilər. Hər kəs bir yana dağıldı. Şahzadə İsmayıl yolun saldı bir bulağın başına. Bulağın başında atından piyadə oldu. Birdən gözü bir dağa düşdü. Gördü, dağı yaman duman bürüyüb. Şahzadə atına süvar oldu. Bir az yol gəlib gözü dağın ətəyində bir gözəl ceyrana düşdü. İstədi ceyranı tutsun, ceyran aradan çıxdı. İsmayıl atın saldı ceyranın dalınca. Ceyran özün yetirdi, bir çadıra girdi, girdi çadırın içinə. Şah İsmayıl ceyran girən çadırın dövrəsinə baxdı, gördü, ora doludur ağ çadırnan. Bir az dayandı, fikir verdi, gördü çadırdan bir gözəl qız çıxdı – gözəl saçlı, qələm qaşlı. Şahzadə təəccüb eylədi, bir baxışda o gözələ aşiq oldu. Qız dönüb baxanda gördü, at üstə bir igid oğlan dayanıbdır. Oğlan nə oğlan. Qız bir könüldən min könülə oğlana vuruldu. Durub dinməzdəb bir-birinə baxırlar. Qızın rəngi qaçdı. Şahzadənin dizləri titrədi. Az qaldı, atından yerə düşsün. Hər ikisi həsrət-həsrət bir-birinə baxdılar.

Qız gəldi oğlana tərəf, elə o saat çadırdan bir qarı çıxdı. Qızı bu sayaq səslədi. Dedi:

– Ay qız, harda qaldın, gəl çıx görək.

Qız dedi:

– Burda bir igid oğlan var, ona kömək üçün gəlmişəm. İndi sən də gəl, ona yolu göstərək, savabdır. Tez gəl, indi babam gələr, yaxşı olmaz.

O yerdə qoca qarı yaxına gəlib gördü, bu qızın gözü bu oğlandadır. Nə qədər elədi, gördü, bu qız burdan ayrılmaq istəmir. Onların arasında elə bir gizlin sirr vardı. Bu zaman qarının öz cavanlığı yadına düşdü. Gözləri sulandı. Daha mane

olmadı. Qız keçən gecə bu cavanı yuxusunda görmüşdü. Ona aşiq olmuşdu. O gündən gözlərinə yuxu gəlmirdi.

Qoca qarı bunların halına yandı. Çünki özü də cavanlıqda aşiq olmuşdur. Odur ki, gəldi qızın yanına, dedi:

– Mən sizə inandım, dur, oğlandan ayrıl, gedək.

Qız oğlannan sağollaşdı. İstədi ayrıla, bu halda Şah İsmayıl ayıldı, dedi:

– Dayan, getmə, sənə bir-iki xana sözüm var.

Burda aldı cürə sazını əlinə, görək qıza nələr deyir:

Gözəllər gözəli, mələklər xası,
Bir də bir vədə ver, qurbanın olum.
Gər bir gün olmasan, tutaram səni,
Bir də bir vədə ver, qurbanın olum.

Belə olanda aldı qız, belə cavab verdi:

Qadasın aldığım, belə söyləmə,
Qoy mən olum, cavan, qurbanın sənin.
Xəncər alıb qara bağrım teyləmə,
Qoy mən olum, cavan, qurbanın sənin.

**Şah İsmayıl:**

Sənə qurban olum, gözü sürməli,
Ürək istər daim səni görməli.
Əbirşim geyimli, gümüş düyməli.
Bir də bir vədə ver, qurbanın olum.

**Qız:**

Gəlmişəm qapına misali sayil,
Sən deyən sözlərə qayiləm, qayil.
Allahı sevisən, ol mənə hayil,
Qoy mən olum, cavan, qurbanın sənin.

**Şah İsmayıl:**

Atam Sultan Heydər, Şah İsmayılam,
Allah bilir, təkcə sənə mayiləm.

Boynundan asılan bir həmayiləm,
Bir də bir vədə ver, qurbanın olum.

**Qız:**

Səhərin sübhünün dan ulduzuyam,
Kölgədə bəslənmiş əmlik quzuyam.
Adım Gülzar, Rəşid bəyin qızıyam,
Qoy mən olum, cavan, qurbanın sənin.

Bunlar bir-birinə adların dedilər. Qarı girdi otağa, dedi:

– Ay cavan, indi bu qızın atası gələr, səni burda görər, yaxşı olmaz.

Oğlan qıza qızıl daraq verdi. Qız oğlana qızıl ürək verdi. Qolların saldılar, bir-birnnən sağollaşıb ayrıldılar. Şah İsmayıl ordan istədi uzaqlaşsın, gedir dala baxa-baxa. Şah İsmayılın və qızın gözlərindən yaş axır ab və leysan kimi. Gəldi həmən bulağın başına. Yoldaşları gördülər, Şah İsmayıl gəldi yetişdi. Onlara salam verdi. Yoldaşları Şah İsmayılın salamını aldı. Şah İsmayılın yoldaşları vurduqları ovu ona nişan verdilər. Dedilər:

– Ay şahzadə, bəs sənin ovun hanı?

Şah İsmayıl əliboş qayıtmışdı. Ovu yoxdur. Cürə sazın aldı əlinə, görək yoldaşlara nələr deyir:

Ay qardaşlar, ay yoldaşlar,
Alagöz yardan ayrıldım.
Xeyli danışdıq onla mən,
Ləbi şəkərdən ayrıldım.

Bu gün şad olub gülərəm,
Desə, yolunda ölərəm.
Xudadan mətləb dilərəm,
Zülfü şahmardan ayrıldım.

Şah İsmayıl eylər dilək,
Məni həsrət qoyma fələk.
Sərvi boylu, huri, mələk,
Mən gülüzardan ayrıldım.

Bu sözü tamam eylədi.

Şah İsmayıl gördü, yoldaşları yaman heyrətə düşüblər. Yoldaşları dedilər:

– Şahzadə, bu gün hansı səmtə gedək?

Bu sözü eşidən Şah İsmayıl aldı görək burda yoldaşlarına nələr dedi:

İtirmişəm bu dağlarda maralı,
Geri dönə bilməm, dayanacağam.
Ondan ayrı bu gül rəngim saralı,
Geri dönə bilməm, dayanacağam.

Yadıma düşəndə ala gözləri,
Şərbətdən, şəkərdən şirin sözləri.
Bağrımı yandırdı eşqin gözləri,
Geri dönə bilməm, dayanacağam.

İtirdim bu yerdə gözəl maralı,
Daha düşəmmərəm ondan aralı.
Şah İsmayıl olub qəlbi yaralı,
Geri dönə bilməm, dayanacağam.

Bu sözü tamam eylədi.

Bütün yoldaşları ağlayırdılar. Ona dildarlıq verdilər. Deyirdilər ki, gərək səbr edəsən, yoxsa Məcnun kimi çöllərə düşərsən, Əsli və Kərəm kimi od alıb yanarsan.

Ordan gəldilər şəhərə. Şah İsmayıl getdi öz otağına. Orda Gülzarın gül üzü gəlir onun gözünün qabağına, rəngi saralır. Bu söz gəldi çatdı onun atasıyla anasının qulağına. Gəldilər, gördülər ki, şahzadə payız yarpağı kimi saralıb. Nə qədər

həkim gəldi, çarə edə bilmədi. Gördülər ki, günü-gündən saralıb solur.

Bir gün Şah İsmayılın yoldaşlarından biri gəldi Sultan Heydərin hüzuruna. Dedi:

– Sultan sağ olsun. Şahzadənin həkimlik işi yoxdur. Onun dərmanı öz məşuqəsi əlindədir.

Sultan Heydər bu sözü eşidən kimi şad oldu. Dedi:

– Get gör, kimin qızın deyir, ona gedim alım.

Şah İsmayılın yoldaşı gəldi. Dedi:

– Kimin qızın alacaqsan?

Şah İsmayıl dedi:

– Yad kimsənin qızıdır.

Başladı ağlamağa. Ah çəkməkdə olsun, Şah İsmayılın yoldaşı gəldi, bu cərəyanı Sultan Heydərə dedi:

Sultan Heydər dedi:

– Şikara gedəndə nələr oldu?

Dedi:

– Qurban sağ olsun, bizlər şahzadə ilə ova getdiyimiz zaman onun gözü bir səfalı dağa düşdü. Şahzadə o dağa tək-tənha getdi. Dağdan gələn zaman gördük rəngi saralıb. Əlində ov yoxdur. Özü də oradan gəlmirdi. Biz onu bura zorla gətirdik.

Sultan Heydər bu sözü eşidən kimi dəstur verdi, bir çapar gətirdilər. Dedi:

– Get gör, o dağda ki Şah İsmayıl şikara getmişdi, gör orda nələr var. Tez mənə xəbər eylə.

Çapar atı hazır oldu. Gəldi həmən dağa. Gördü dağın ətəyində çadırlar qurulub, bir yaylaq var. Yaylaqda çoxlu oba var. Ordan qayıdıb gəldi şəhərə. Sultan Heydərin yanına gəldi, dedi:

– Qurban, mən anladığıma görə, orda bir qızı bəyənib. Şah İsmayıl ona aşiq olubdur.

Sultan Heydər dedi:

– Ordan bura bir nəfər gətirin, ondan xəbər alım, görüm bu nə işdi.

Əmr verdi bir nəfəri o yaylaqdan gətirdilər Sultan Heydərin yanına. Baş vurdu, ədəb yerində dayandı. Sultan Heydər dedi:

– Oğlum, sizin eldə sənin tanıdığın bir qız var?

Dedi:

– Bəli. Mən tanıdığıma görə Rəşid bəyin bir qızı var, adına da Gülzar deyirlər.

Sultan Heydər dedi:

– Onun adaxlısı var, ya yox?

Dedi:

– Qurban, ona layiq cavan igid yoxdur.

Bu sözü eşidən Sultan Heydər dedi:

– Şadlıq olsun.

Bu yandan Şah İsmayıl otağı xəlvət eylədi. Bilmir ki, nə xəbərdi, sazını aldı əlinə, görək Gülzarın fərağında nələr deyir:

Səndən ayrı düşən gündən,
Gecə-gündüzüm qaradır.
Əllərim üzüşən gündən
Gecə-gündüzüm qaradır.

Hicran dərdi yaman imiş,
Aşiqin qəlbi qan imiş.
Məşuqə can alan imiş,
Gecə-gündüzüm qaradır.

İsmayılam, talan könlüm,
Qızıl qana dolan könlüm.
Atəşə odlanan könlüm,
Gecə-gündüzüm qaradır.

Bu sözü tamam eylədi.

O gecəni səhər oldu. Gördü, onun dərdindən bir kimsə xəbər tutmur. Günü belə qəmli keçirdi. Məclisdə şadlıq edən-

lər dağıldılar getdilər. Bu yandan Sultan Heydərə Rəşid bəyin gəlməyin xəbər verdilər. Sultan Heydər Rəşid bəyi hüzuruna qəbul eylədi. Dəstur verdi, qonaqlıq ziyafətin hazır eyləsinlər. Dedilər, güldülər, Heydər dedi:

– Ay bəy, sənin Gülzar adlı qızın var?

Bəy dedi:

– Bəli, var.

Sultan Heydər dedi:

– İstəyirəm, sənin qızın Gülzarı oğlum şahzadə İsmayıla alam.

Bu sözü eşidən bəy utancaq başın saldı aşağı, yavaşca dedi:

– Fərman sultanımızındır. Allah mübarək eyləsin.

Sonra hər iki tərəf görüşdülər. Bu səs getdi yetişdi Şah İsmayılın qulağına. Qulluqçulardan biri gəldi Şah İsmayılın otağına, dedi:

– Şahzadə sağ olsun. Atan səni Rəşid bəyin qızı Gülzarla adaxladı.

Şah İsmayıl müjdəçiyə bir ovuc qızıl verdi, yola saldı. Cürə sazını kök eylədi, aldı sinəsi üstə, görək nələr dedi:

Yarımı bir də görəydim,
İnanmıram bu xəbərə.
Göreydim, zülfün höreydim,
İnanmıram bu xəbərə.

Xəyalı gözümdən getməz,
İndi ona əlim yetməz.
Heç vaxt o bəy qəbul etməz,
İnanmıram bu xəbərə.

Şah İsmayıl yarə yetsə,
Əli əlinə yetişsə,
Əgər mənim eşqim bitsə,
İnanmıram bu xəbərə.

Bu xəbər bütün hər yana yayılıb hamı şad oldu.

Gülzar kimi sevinən yoxdur. Gülzarın rəngi elə açılıb ki, qızılgül kimi. O qədər çəkmədi ki, bu sevinc xəbəri getdi çatdı qoca qarının qulağına. Qarı bu xəbərdən şadlandı. Qarı gəldi, Gülzarın anasından müjdə alsın ki, Gülzarı Şah İsmayıla verdilər.

Qarı varid oldu Gülzarın anasının yanına. Salam-kəlamdan sonra bu xəbəri ona verdi. Gülzarın anası az qaldı dəli olsun:

– Mən ona qız verməræm.

Əmr eylədi:

– Durun, çadırları cəm eləyin!

Çadırları cəm elədilər, üz qoydular Qafqaz dağlarına tərəf. Dağlardan-təpələrdən keçib getdilər.

Bu yandan Rəşid bəy Sultan Heydərdən icazə alıb öz elinə tərəf gəlir. Gələndə qırx gün Sultan Heydərdən möhlət aldı. Bəy gəldi, gördü, çadırları yoxdur. Başa düşdü ki, bu iş onun arvadının işidir. Daha sakit qaldı.

İndi eşidək Şahzadə İsmayıldan. Bu xəbəri bütün yoldaşlarına demişdi. Amma qırx gün keçdi, bəydən xəbər olmadı. Bu yanda Sultan Heydər əmr eylədi, bir qasid gedib ordan xəbər gətirsin. Qasid getdi, qayıtdı. Dedi:

– Sultan Heydər sağ olsun. Çadırlardan əsər yoxdur. Ordan gediblər.

Sultan Heydər bu xəbəri eşidən az qaldı dəli olsun. Sultan Heydər vəzirə dedi:

– Bu işə tədbir nədir?

Vəzir az fikrə getdi. Sonra dedi:

– Qurban sağ olsun. Bir yaxşı sözüm var. İcazə versən, onu ərz eyləyim.

Sultan Heydər dedi:

– Buyur.

Vəzir dedi:

– Dəstur ver, car çəksinlər ki, şahzadə evlənəcək, şəhərdə nə qədər qız var, gəlsin. Onlardan birin sevib alsın.

Sultan Heydər az fikrə getdi. Sonra qəbul eylədi. Dəstur verdi, car çəkdilər.

Bu xəbəri Şah ismayıl bildi, Gülzarı atası qaçırıb. Narahat oldu.

Gülşən bağçası doldu. Hər kəsin bir qızı var, var-yoxdan çıxıb ona paltar alıb geydirib ki, bəlkə şahzadə onu ala. O yandan qulluqçular Şah İsmayılı gətirdilər bağçaya. Qızlar bir-bir gəlir, keçir, Şah İsmayıl baxmır. Atası gəldi yaxına, dedi:

– Oğlum, hamısı gözəldir.

Burda görək Şah İsmayıl nələr dedi:

Bölük-bölük olub bu gələn qızlar,
Heç birisi o Gülzara bənzəməz.
Sinəmə çəkiblər atəşli közlər,
Heç birisi o Gülzara bənzəməz.

Hicran atəşdir, yandırır bizi,
Kimi gülü dərib, kimi nərgizi.
Qabaqda yerir vəzirin qızı,
Heç birisi o Gülzara bənzəməz.

Kimi xatırladır ayı, günəşi,
Kimisi doldurmuş yeni on yaşı.
Kiminin dünyada bilinməz işi,
Heç birisi o Gülzara bənzəməz.

Kiminin qoynunda narı, turuncu,
Kiminin ağzında dişləri inci.
Kimisi görünür durub birinci,
Heç birisi o Gülzara bənzəməz.

Kimi al geyinmiş, kimi şərabi,
Kiminin yoxdur daha ərbabı.

Kimi parlaqlıqda cəvahir qabı,
Heç birisi o Gülzara bənzəməz.

Kimisi əlində oynadırdı saz,
Kimisi eyləyir görürsən naz,
Kimisi oxuyur işvə, qəmdən az,
Heç birisi o Gülzara bənzəməz.

Şah İsmayıl dərsin aldı, tutuşdu,
Qızlar ilə halallaşdı, görüşdü.
Gülşən bağçasına vəlvələ düşdü,
Heç birisi o Gülzara bənzəməz.

Bu sözdən sonra bağçadan qızlar dağıldılar, getdilər. Sultan Heydər Şah İsmayıla nə qədər nəsihət verdi. Şah İsmayıl dedi:

– Mən gərək gedəm, sevgilim Gülzarı tapam. Şah babam sağ olsun.

Sultan Heydərin əllərindən öpdü, dala qayıtdı.

Şah İsmayılın üzündən rəngi qaçmışdır. Sultan Heydər bir söz tapa bilmədi oğlu Şah İsmayıla desin. Axırda dedi:

– Oğlum, mən səndən ötrü deyirəm, indi ki qəbul eyləmirsən, yolun açıq olsun.

Şah İsmayıl gördü, atası razılıq verdi, şad oldu. Dübarə atası Sultan Heydərin əllərindən öpdü, ordan uzaqlaşdı. Şahzadə bargahdan tələsik halda eşiyə çıxıb burbaşa xəzinəyə tərəf gəldi. Girdi xəzinəyə, bir qədər qızıl götürüb yol üçün amadə oldu. Qılınc, əmud, qalxan, şişpər, kəmənd, bütün vuruşmaq vəsaillərin götürdü. Gəldi, Qəmərdayı hazırladı. Hələ yollanmamışdı ki, anası bu işdən xəbərdar olub, özün Sultan Heydərin yanına yetirdi. Yalvardı, gəl qoyma gedə. Başladı ağlamağa. Sultan Heydər dözə bilmədi. Yerindən qalxıb dedi:

– Qaravullar bütün qapıları bağlasınlar, Şah İsmayılın getməyinə imkan verməsinlər.

Şahzadə gəldi Xanım Sultanın yanına, halallıq istədi. Anası dedi:

– Ey gözümün işığı, hara gedirsən? Məni gəl gözü yollarda qoyma. Mənim səndən başqa bir həmdəmin yoxdur.

Şahzadə anasın dilə tutdu:

– Anacan, gedirəm, yenə də qayıdaram. Bu son ayrılıq deyil, gəl mənə südünü halal eylə.

Anası ağlaya-ağlaya gözlərinin yaşın tökür ovcuna:

– Sənin üçün bir qız yoxdur?

Bu yerdə Şahzadə sazı aldı əlinə, görək anası Sultan xanıma nələr dedi:

Gedirsəm də, səni mən yad edərəm,
Ana, südün halal eylə, gedirəm.
Yarsız bu dünyanı daha neylərəm,
Ana, südün halal eylə, gedirəm.

Hər kim dərdə düşüb, bilir halımı,
Döndərə bilmirəm ona dalımı.
Fələk qara yazdı mənim falımı,
Ana, südün halal eylə, gedirəm.

Gedirəm, gələrəm yenə yanına,
Qanım qatışıbdı sənin qanına.
Qurbanam, ağlama, əziz canına,
Ana, südün halal eylə, gedirəm.

İsmayılam, dərdə kabab oluram,
Hər dəqiqə yanıram, xarab oluram.
Əgər qalsam burda, bitab oluram,
Ana, südün halal eylə, gedirəm.

Bu sözün tamam eylədi. Anasının əllərindən öpdü, yola düşdü.

Qızılquş kimi qalxdı Qəmərdayın belinə. Ata bir qamçı vurdu. Özün yetirdi dəmir qapıya, gördü, bağlıdır. Bütün qa-

pılar bağlıdı. Dəmir əmudu aldı əlinə, iki zərbə vurdu, qapı iki bölündü, aradan çıxdı. Qaravullar gördülər ki, şahzadə getdi. Bu xəbəri Sultan Heydərə verdilər:

– Qapını Şahzadə sındırdı, aradan çıxdı.

Şahzadə gəldi dağlardan aşdı, çaylardan keçdi. Gördü, at yaman tərləyib. Atından piyadə oldu. Onun tərin pakladı, bağladı bir ağaca. At ot yeyir, özü də bir gözəl bulağın başında oturub. Gördü bir bülbül fəryad edir. Ora-bura qaçır. Bu halda Şah İsmayıl dedi:

– Ay sona bülbül, sən də mənim kimi əsir olmusan? Dayan, sənə bir neçə kəlmə sözüm var.

Cürə sazı kök eylədi, götürdü, görək nə dedi:

Səni də qərq edib dərdə qızılgül,
Ay mənim tək yanan, ay sona bülbül,
Ağlama, gözlərin gəl yaşını sil,
Ay mənim tək yanan, ay sona bülbül.

Səni gül dərdinə, məni Gülzara,
Gülzar dərdi məni gətirdi zara.
Sızıldama, hərdən-hərdən söz ara,
Ay mənim tək yanan, ay sona bülbül.

Mən Şah İsmayılam, tanımır gözün,
Vəli, sənin mənə aydındır sözün.
Aləmə yandırır eşq ilə sözün,
Ay mənim tək yanan, ay sona bülbül.

Şah İsmayıl durdu, atını mindi. Gəldi çatdı çadırlar olan yerə. Gördü çadırlar yoxdur. Amma bilmir Gülzara necə çatacaq. Oturub bir axar-baxar, güllü-çiçəkli çayın kənarında götürüb görək nələr dedi:

Məntək yalqız qalan ağlar-ağlamaz?
Ay dağlar, dərələr, gördüz Gülzarı?

Ürəyi qan olan ağlar-ağlamaz?
Ay dağlar, dərələr, gördüz Gülzarı?

Bilməm Hində gedib, ya ki Yəmənə,
Bülbül kimi mayıl olub çəmənə.
Ürəyi yanmadı bir ləhzə mənə,
Ay dağlar, dərələr, gördüz Gülzarı?

Hey baxıram bu dağların üzünə,
Şah İsmayıl bağlanıbdı sözünə.
Od düşübdür ürəyinin gözünə,
Ay dağlar, dərələr, gördüz Gülzarı?

Bu sözdən sonra ürəyi soyumadı, üzün tutdu dübarə dağlara. Aldı, görək nə dedi:

Qorxuram ayrılıq oduna düşüm,
Dağlar, mənim Gülzarımı gördüzmü?
Gəldim ki, yar ilə bir də görüşüm,
Dağlar, mənim Gülzarımı gördüzmü?

Gəldim ki, var idi ona bir sözüm,
Haçanadək yanıb dərdinə, dözüm.
Mən səni tapınca qan ağlar gözüm,
Dağlar, mənim Gülzarımı gördüzmü?

Şah İsmayıl deyir, bu dağlar daşdı,
Məni dərdə salan bir qələmqaşdı.
Bilmirəm bu yerdən haraya köşdü,
Dağlar, mənim Gülzarımı gördüzmü?

Şahzadə bir az sakit oturdu. Sonra durdu, atına süvar oldu, bikef yola düşdü. Az yol gələndən sonra gördü, qabaqda bir qala var. Yaxınlaşanda gördü, qapısı bağlıdı. Nə qədər çalışdı, yol tapa bilmədi. Ürəyi odlandı. Cürə sazını basdı bağrına, görək nələr dedi:

Üzümə bağlanma, qapı,
Saray, səndən yol istərəm.
Gəl məni eylə qonağın,
Saray, səndən yol istərəm.

Dəmirdəndi qapın sənin,
Çox uzundur sapın sənin.
Hər dərdə var tabın sənin,
Saray, səndən yol istərəm.

Divarın göyə çəkilib,
Dağ kimi qəddin biçilib.
Min il ömründən keçib,
Saray, səndən yol istərəm.

Məni dərdə salan vardı,
Geniş dünya mənə dardı.
İşim-gücüm ah və zardı,
Saray, səndən yol istərəm.

Şah İsmayıl dağlar keçir,
Dost ilə düşməni seçir.
Qılıncım yağını biçir,
Saray, səndən yol istərəm.

Gəldi dolandı, saraya bir yerdən yol tapa bilmədi. Əmudun aldı əlinə, divara iki zərbə vurdu. Divar dağıldı, girdi saraya. Sarayın içində dolanırdı. Hər tərəfə göz gəzdirdi, bir insan görmədi. Öz-özünə dedi:

– Bu yekəlikdə saraya adam gəlməmiş olmaz.

Birdən qulağına yanıqlı bir səs gəldi. Şahzadə bu səsə sarı gəldi. Gördü bir gözəl qız oturub qalanın üstündə, ipəkdən fərş toxuyur, ağlayır. Yaxınlaşıb bu qızın yanına, salam verdi. Qız dinmədi. Başladı ağlamağa. Burda görək Şah İsmayıl nələr dedi:

Başına dolanım, gül üzlü gözəl,
Sən eyləyib ah və fəğan ağlama.
Sızıldayıb məni salma qəmlərə,
Könlümü qan etmə, aman, ağlama.

Bu qızın adı Pəri xanımdır. Aldı görək Pəri xanım Şahzadə İsmayıla nələr dedi:

Gəl sənə söyləyim, gözəl şahzadə,
Dolubdur qəlbimə fəğan, ağlaram.
Dərdim çoxdur, nədən sənə söyləyim,
Tanrı eyləmir divan, ağlaram.

**Şah İsmayıl:**

Gözlərin dolubdu, qanlı yaş ilə,
Hazıram yolunda can və baş ilə.
Gəl məni özünə sən sirdaş eylə,
Bağrımı eyləyib al qan, ağlama.

**Pəri xanım:**

Ay igid duruşlu, qəhrəman cavan,
Ay ürəyi rəhmli, mehriban cavan.
Eyləmə əlimdən al-aman, cavan,
Çün bağrım olubdur al qan, ağlaram.

**Şah İsmayıl:**

Mən Şah İsmayılam, söylə, gözəlim,
Şayəd ki, dərdinə dərman eyləyim.
Hazıram, sən eylə ölümə gəlim,
Edirəm, sən eylə peyman, ağlama.

**Pəri xanım:**

Pəriyəm, saraya gələn bir qızam,
Dərdimə yetişən yoxdur, yalqızam.
Qaranlıq gecədə yanan ulduzam,
Bu halım olubdur yaman, ağlaram.

Bu sözü tamam oldu. Şah İsmayıl dedi:

– Nədən belə tək qalmısan və niyə ağlayırsan?

Pəri dedi:

– İgid şahzadə, mənim qardaşlarım var, dava edirlər. İki rəşid qardaşım olub, onlara ağlayıram.

Şah İsmayıl davanın yerini xəbər aldı, qız nişan verdi. Şah İsmayıl alıcı quş kimi qalxdı atın belinə, ata bir qamçı vurdu, aradan çıxdı. Gəldi, bir yerə çatdı. Gördü dağı-daşı toz-duman bürüyüb, insan səsi göyə ucalıb. Şah İsmayıl anladı ki, bura dava meydanıdı. Qızın qardaşları burda olacaq. Özün yetirdi. Atların səsi, qəhrəmanların nərəsi, qılıncların günəş işığında parlaması, əmudların şaqqıltısı döyüş meydanını cəhənnəm eyləmişdi. Şahzadə dayandı kənarda, Pəri verən əlamətlərə baxdı. Onun qardaşlarını tanıdı. Bir nərə çəkdi, dağlar-dərələr səsləndi. Qılıncı aldı əlinə, yüyürdü düşmənin üstünə. Dedi:

– Mənə qulaq verin, sizə sözüm var.

Pəhləvanlar hamısı dayandılar. Şah İsmayıl dedi:

– Nə üçün vuruşursuz?

Qızın qardaşları dedilər:

– Ay cavan, bizdə günah yoxdur. Bunlar bizim qalamıza hücum ediblər.

Şah İsmayıl dedi:

– Ay qardaşlar, yaxşıdır ki, siz bunlardan əl götürüb öz yerinizə gedəsiz.

Bu mövqe həmən qolu güclü pəhləvan dedi:

– Ay cavan, sən kimsən. Gəl burdan get, sənə bir əmud vuram, tikən ələ gəlməz.

Şah İsmayıl bir dəfə də onları barışmağa dəvət eylədi. Şah İsmayıl gördü, o pəhləvan qılınca əl atdı, ona hücüm eylədi. Şah İsmayıl qaraquş kimi onun biləyindən tutdu, bir az fəşar verdi. Pəhləvanın barmaqlarından qan töküldü. Qılınc əlindən yerə düşdü. Şah İsmayıl bunun kəlləsindən bir yum-

ruq vurdu, təpəsi dağıldı. Qalanlar qaçdı. Dava qurtardı, bunlar gəldilər, bir bulağın başında özlərin yudular. Üzlərindəm toz-torpağı təmizlədilər. Sonra bir ov ovladılar, kabab çəkdilər. Şah İsmayılın çiynindən sazı götürüb dedilər:

– Bizə bir oxu, qulaq asaq.

Burda görək Şah İsmayıl nələr deyir:

Sizi barışdırdım, şad oldu könlüm,
Barışmaq yaxşıdır, vuruşmaq nədir.
Qüssədən, möhnətdən duruldu könlüm,
Barışmaq yaxşıdır, vuruşmaq nədir.

Bizim ellər gərək qardaş olalar,
Bütün insanlara yoldaş olalar.
Yoldaş nə deməkdir, sirdaş olalar,
Barışmaq yaxşıdır, vuruşmaq nədir.

Şah İsmayıl deyir, anlayan kişi,
Əgər anlayırsan, bilirsən işi.
Gərək düşmən üstə edək yerişi,
Barışmaq yaxşıdır, vuruşmaq nədir.

Dövrədə oturanlar dedilər:

– Sağ ol.

Şahzadə İsmayıl dedi:

– Qardaşlar, məni halal edin.

İstədi ordan ayrıla, qızın qardaşları qoymadılar ki:

– Gərək bizim çay-çörəyimizdən götürəsən. Sən bizi ölümdən qurtardın.

Şah İsmayıl qəbul eylədi. Saraya tərəf yollandılar. Gəlib yetişdilər saraya. Qapıda atlarından piyadə oldular. Böyük qardaş qapıda qalanın tökülmüş divarın görüb təəccüb eylədi, dedi:

– Şah İsmayıl, baxın, bizdən sonra bacımız Pəriyə ittifaq düşüb.

Dayanmadı, içəri girdi. Bu yan, o yana göz gəzdirib bacılarını evində görən kimi çox şad oldu. Bacıları da Şah İsmayılı gördü, şadlandı. Qardaşı dedi Pəriyə:

– Bizdən sonra bura kim gəlmişdi?

Pəri qardaşlarına dedi:

– Sizdən sonra Şah İsmayıl gəlmişdi.

Pərinin qardaşları Şah İsmayılın üzündən öpdülər. Məhəbbətləri Şah İsmayıla birə min çoxaldı. Qardaşlar bir-birinə dedilər:

– Pərini gəlin verək Şah İsmayıla. O, bizə çox kömək eylədi.

Bu sözü şahzadəyə dedilər. Şah İsmayıl dedi:

– Mən gedirəm sevgilim Gülzarın dalınca, bəlkə gələmmədim.

Yeddi qardaşlar dedilər:

– Şahzadə, adaxlı ol, qayıdanda apararsan.

İslamın şəriətilə əqd oxundu. Şirini içdilər.

Bir gün Şah İsmayıl otağı xəlvət eylədi. Oxuyurdu. Pəri xanım qulaq asır. İndi görək Şah İsmayıl nələr dedi:

Dərələr, təpələr olub məkanım,
Ayrılıq oduna yaxıldı canım.
Gərəkdir Gülzarın eşqinə yanım,
Ayrılıq oduna yaxıldı canım.

Yadıma düşəndə onun camalı,
Gözümdə bu geniş dünya daralı.
Haçandır düşmüşəm ondan aralı,
Ayrılıq oduna yaxıldı canım.

Şah İsmayıl, dərdin Pəri bilməsin,
Pəridən savayı biri bilməsin.
Məni bir sögülü yeri bilməsin.
Ayrılıq oduna yaxıldı canım.

Pəri Şah İsmayılin bu cür oxumağına qulaq verirdi. Şah İsmayıl sözün qurtaran Pəri gəldi içəri, qolun saldı Şah İsmayılın boynuna, onu qucaqladı. Şah İsmayıl baxanda gördü Pəri xanımdır. Pəri onun ürəyin ələ gətirdi. Şah İsmayılin qüssəsi, qəmi azaldı. Hər iki aşiq dərdləşməyə başladılar. Şah İsmayıl bir dəqiqə Gülzarı unuda bilmirdi. Şah İsmayıl dedi:

– Pəri, mənə icazə verirsən? Gülzarın dalınca getməliyəm.

Bu sözü Pəri qardaşlarına dedi. Qardaşları Şah İsmayıla "yaxşı yol" dedilər. Sonra Pəri Şah İsmayılı qırağa çəkdi, dedi:

– Ay şahzadə, rəva deyil ki, məni bu tezlikdə tək qoyub gedəsən.

Başladı ağlamağa. Burda aldı görək Şah İsmayıl Pəri xanıma nələr dedi:

Ayrlıram səndən, ürəyim dönməz,
Ağlama-ağlama, Pərim, ağlama.
Səndən ayrı olsam, qanlar ağlaram,
Ağlama-ağlama, Pərim, ağlama.

Gülzarı taparam, gələrəm yenə,
Baxmaram desələr gözəllər mənə.
Deməli sözüm var, nazənin sənə,
Ağlama-ağlama, Pərim, ağlama.

Sənə qurban olum, gözəllər şahı,
Şah İsmayıl sənsiz çəkəcək ahı.
Ağlaıyb eyləmə dahi günahı.
Ağlama-ağlama, Pərim, ağlama.

Bu sözü tamam Pəri dedi:

– Qulaq as, sənə sözüm var.

Aldı görək Pəri Şah İsmayıla nələr deyir:

Gəl sənə söyləyim, gözəl şahzadə,
Çarə ağlamaqdır, ağlayam gərək.
Səndən ayrı bu sinəmi dağlaram.
Çarə ağlamaqdır, ağlayam gərək.

Gedirsən ürəyim dalınca gedər,
Çəkdiyim əməyi eyləmə hədər.
Yollarına baxıb gözüm yaş ələr,
Çarə ağlamaqdır, ağlayam gərək.

Pərim, gedirsən yerin görünür,
Ürəyim dalınca yerdə sürünür.
Qəlbim parçalanıb, yeri bölünür,
Çarə ağlamaqdır, ağlayam gərək.

Bu sözü tamam eylədilər. Ayrılıq məqamı gəldi çatdı. Pəri də ağlamağa naçar oldu. Şah İsmayıl yaraqlandı. Atıldı, mindi Qəmər atın belinə, dedi:

– Pəri, mənə dua eylərsən.

Ata bir qamçı vurdu. Toz kimi ordan uzaqlaşdı. Alagöz Pəri bir neçə dəqiqə baxdı, ürəkdən sızıldadı. Qayıtdı qalaya. Şah İsmayıl atını o qədər sürdü, gözünə bir qala göründü. Gəldi, qalaya yaxınlaşdı. Gördü qalaçının dövrəsində çadırlar var, bir də bir saray var. Dövrəsində heykəlli qaravullar durub. Şah İsmayıl yavaş-yavaş gəlir, gördü bir əli çomaqlı qaravul dayanıb. Qaravul dedi:

– Dayan görüm, kimsən?

Qaravul Şah İsmayılı görmürdü, səsin eşidirdi. Daldan Şah İsmayıl qaravulu vurdu, yerə yıxdı. Onu soyundurub paltarların geydi, gəldi qalanın pəncərəsinin yanına. Ordan yol tapdı, içəriyə girdi. Vəli içərdə bir kimsə yoxdur. Gördü qazanlar dolu ət var. Onlardan istədi yesin, gördü bir səs gəldi:

– Ay cavan, o ətlərdən yemə, o səni həlak eylər.

İstədi dübarə yesin, bu dəfə çox qorxulu səs gəldi:

– Ay cavan, yemə ondan!

Şah İsmayıl dala döndü o səsə baxa, gördü,bir qoy heykəl Ərəb durub. Doğrusu, qorxmalıdır.

Şah İsmayıl burda cürə sazını çıxardı, aldı görək Ərəbə nələr deyir:

İgid olan qonaq sevər evində,
Bu gecə mən sənə qonağam, ərəb.
Qərib oldum, düşdüm sənin yerində,
Bu gecə mən sənə qonağam, ərəb.

**Ərəb:**

Bu yer o yerdi ki, quş qona bilməz,
Gələndən, gedəndən bac alam gərək.
Hər yetən gələnə qonaq deyilməz,
Gələndən, gedəndən bac alam gərək.

**Şah İsmayıl:**

Nahaqdan mən qılınc çalan deyiləm,
Gedirəm, bu yerdə qalan deyiləm.
Mən səni zəhmətə salan deyiləm,
Bu gecə mən sənə qonağam, ərəb.

**Ərəb:**

Görürsən belimdə iti qılıncı,
Adam öldürməkdən paslanıb ucu.
İstər məzlum isən, istər yırtıcı,
Gələndən, gedəndən bac alam gərək.

**Şah İsmayıl:**

İndi ki, sevmədin qonaq saxlamaq,
Qərib kəsin ürəyini yoxlamaq.
Gözlərinə indi mən salaram ağ,
Bu gecə mən sənə qonağam, ərəb.

**Aldı Ərəb:**

İndicədə çıxardaram gözünü,
Mərd, igid eyləməz tərif özünü.
Açar əllərini, deyər sözünü,
Gələndən, gedəndən bac alam gərək.

**Şah İsmayıl:**

Yaramaz igidin canını alan,
Gərək ki, axıdam su yerinə qan.
İstəmirəm sən verəsən belə can,
Bu gecə mən sənə qonağam, ərəb.

**Ərəb:**

Elə bil bilmirsən hesab və kitab,
Salaram boynuna kəməndi əzab.
Qan ilə eylərəm üzünü xəzab,
Gələndən, gedəndən bac alam gərək.

**Şah İsmayıl:**

Şah İsmayıl deyir, bu meydan, ərəb,
Ya igid ol, ya da özün dan, ərəb.
Yoxsa içəcəksən qızıl qan, ərəb,
Bu gecə mən sənə qonağam, ərəb.

**Ərəb:**

Ərəbi zəngim qılınc oynadan,
Tapılmayıb hələ məni aldadan.
Yoxsa doyubsan sən fani dünyadan,
Gələndən, gedəndən bac alam gərək.

Sözlərin hər iki pəhləvan tamam eylədilər. Ərəbzəngi bir neçə rübai oxuyub meydanı dolandı, bir dəli nərə çəkib sonra belindəki qılınca əl aparıb, qılıncı qınından çəkib Şah İsmayıla hücum gətirdi. Şah İsmayıl isə qılıncı başı üstə tutdu. Ərəbzəngi bütün var gücü ilə qalxanın ortasından elə bir zərbə vurdu ki,

Şah İsmayıl ömründə belə bir zərbə görməmişdi. Ərəbzəngi meydanı dolanır, gözünün altından baxırdı ki, Şah İsmayıl daha ayağa dura bilməz. Baxdı ki, Şah İsmayıl qoç igid kimi qalxdı. İkinci zərbəni gözləyir. Bu dəfə Ərəbzəngi var-gücü ilə qılıncı çaldı Şah İsmayılın başına. Şah İsmayıl gördü ki, anadan əmdiyi süd az qala burnundan gəlsin. Çünki Ərəbzəngi yaman güclü igid imiş. Ərəbzəngi üçüncü zərbəni də vurdu, Şah İsmayıl təslim olmadı. Şah İsmayılı bərk tər basmışdı, əllərindən tər süzülürdü. Ərəbzəngi əlin atdı qılınca, həmlə gətirdi Şah İsmayılı vursun, Şah İsmayıl qalxanın altından əlin uzatdı, tutdu Ərəbzənginin biləyindən var-qüdrətilə, elə fəşar verdi, Ərəbzənginin barmaqlarından qan sıçradı. Qılıncı əlindən düşdü yerə. Şah İsmayıl qılıncı yerdən götürüb dizi üstə iki böldü. Ərəbzəngi başın saldı aşağı, bədənindən isti tər başladı axmağa. Durduğu yerdə quruyub qaldı. Şah İsmayıl gördü ki, Ərəbdə daha taqət yoxdur. Ərəbzəngi hirsindən dırnaqların gəmirdi. Şah İsmayıl gördü ki, Ərəbzəngi yaman narahat oldu. Dedi:

– Gəl güləşək.

Ərəb də qəbul eylədi. Güləş başladı. Əl atdılar bir-birinin kəmərinə. Ərəbzəngi dəli bir nərə çəkib Şah İsmayılı dalı-dalı apardı və sonra bir də bir dəli nərə çəkib onu qabağa gətirdi. Şah İsmayıl gördü ki, qəflət eyləsə, onu yıxar. Bunlar bir neçə saat güləşdilər, murad hasil olmadı. Şah İsmayıl gördü ki, olmayacaq, bir dəli nərə çəkib tutdu Ərəbzənginin əllərindən, elə fəşar verdi, onun qolları gücdən düşdü. Ərəb nə qədər çalışdı, daha əllərin onun əlindən qurtara bilmədi. Şah İsmayıl onu götürüb yerə vurdu, oturdu sinəsi üstə. İstədi başın kəssin, Ərəbzəngi dilləndi:

– İgid, kəsmə.

Şah İsmayıl qalxdı ayağa, Ərəbzəngi də durdu, özün tanıtdı. Şah İsmayıl gördü ki, bu qızdır. Əgər o bunu yuxuda da görsəydi, inanmazdı. Ərəbzəngiyə baxdı, Ərəbzəngi utan-

dı. Qara telləri töküldü gül üzünə. Şah İsmayıl ona bu halda baxır, görək Ərəbzəngi Şah İsmayıla nələr deyir:

Başına dolanım, gül üzlü yarım,
Tarix iftixarı, can Şah İsmayıl.
Bir dola boynuma igid qolların,
Mən sənə söyləyim can, Şah İsmayıl.

Ömrümdə sən təki igid görmədim,
Çox igidlər gördüm, kişi bilmədim.
Namərd adamlara mən didilmədim,
Mən deyim sözümü qan, Şah İsmayıl.

Ərəbəm, dərələr dolardı qana,
Cəngidə ovlanar, gəlməzdi saya.
Kim əyri baxsaydı dinə, Qurana,
Gərəkdi verəydi can, Şah İsmayıl.

Şah İsmayıl Ərəbzənginin belə oxumasına təəccüb edirdi. Ərəbzəngi baxdı gördü ki, Şah İsmayıl mat-məəttəl baxır, Ərəbzəngiysə burda fürsəti qənimət bildi. Aldı görək Şah İsmayıla kişiliyi necə bəyan edir:

Hər gələn kişiyə kişi deməzlər,
Düz kişi eyləyər elə diqqəti.
Hər yetən sevgiyə sevgi deməzlər,
Təkcə bu deyil ki, kişi sifəti.

Əhd eylədim gedəm igid oğlana,
Gördüm ki, doğmayıb hələ ki ana.
Görmədim bir kişi gələ meydana,
Zəbətimə o da vura zərbəti.

Ərəbəm, əhdimdir kim yıxa yerə,
O mənə sevgidir, uymaram zərə.
İgid odur bir şəhamət göstərə,
Onda mən də olam onun övrəti.

Ərəbzəngi dedi:

– İgid sağ olsun, mən əhd eyləmişdim, mənə kim qalib gəlsə, ona ərə gedəm.

Şah İsmayıl razılaşdı və onunla evləndi. Bir neçə gün orda qalandan sonra dedi:

– Mən getməliyəm bir uzaq səfərə.

Ərəbzəngi dedi:

– Məni də apar. Yolda sənə köməyim dəyər.

Hər ikisi yola düşdülər, getdilər. Yolda yırtıcı heyvanlara rast oldular. Gecəni sabaha kimi heyvanlar ilə çalışdılar. Səhərə yaxın heyvanların cəngindən qurtarıb bir ayrı yerdə atların bağladılar. Bir çinar ağacının kölgəsində istirahət eyləməyə başladılar. Ərəbzəngi görür ki, Şah İsmayıl gizli dərdli adama oxşayır. Ərəb bu işə dözə bilmədi, gəldi durdu Şah İsmayılın bərabərində, aldı görək Şah İsmayıla nə demək istəyir, Şah İsmayıl ona nə deyir:

Soruşma ürəkdə olan sirrimi,
Məni bu çöllərə salan dərdimi.
İçimdə alov tək bir yanarım var,
Qoy qala ürəkdə yanan dərdimi.

**Ərəbzəngi:**

Mənə söyləginən, dərman eyləyim,
Gedim dərman tapım yanan dərdinə.
Kim salıbdı səni Məcnun çölünə,
Yoxsa sən düşübsən canan dərdinə?

**Şah İsmayıl:**

Yaralı dərdimi nə soruşursan,
Sakit ürəyini mənə qoşursan.
Eşitsən dərdimi, dağa düşərsən,
Bu ürək dərdimi, bu can dərdimi.

**Ərəbzəngi:**

Sənin dərdlərini dana bilmərəm,
Keçən günlərini sana bilmərəm.
Səndən ayrı günüm sana bilmərəm,
Gərəkdir eyləyim dərman dərdinə.

**Şah İsmayıl:**

İsmayılam, yarın bağı nar ola,
Sevgi sevən aşiq sarala, sola.
İtirir çox zaman getdiyi yolu,
Qoy sənə söyləyim həmən dərdimi.

**Ərəbzəngi:**

Ərəbzəngi deyir, mehriban yarım,
Bir sənsən dünyada tək vəfadarım.
Bilməsəm dərdini, gəlməz qərarım,
Dərman edəcəkdi zaman dərdinə.

Şah İsmayıl dedi:

– Ərəbzəngi, mən Gülzar adlı bir qıza nişanlıyam. Odur mənim aramımı alan.

Ərəbzəngi cərəyanı başa düşdü. Bir də Pərini almağını Ərəbzəngiyə söylədi. Ərəbzəngi dedi:

– Mənə qəbuldur. Dur, yolumuza davam verək. Görək başımıza nələr gələcəkdir.

Şah İsmayıl Qəmər atı mindi, Ərəbzəngi də öz atını mindi, yola düşdülər. Ərəbzəngi dedi:

– İndi hansı tərəfə gedirik?

Şah İsmayıl dedi:

– Mənə xəbər veriblər ki, Gülzar Hindistana tərəf gedibdir. Vəli mənim əqlimə görə onu anası Şirvan şəhərinə aparıbdı. Ona görə gedək Şirvana tərəf.

Hər iki sevgi atlarına bir qamçı vurub aradan çıxdılar.

Şah İsmayılın atası Sultan Heydər Şeyx Cüneydin oğlu ki, Ağqoyunlu dövlətinin padşahı Uzun Həsənin qızın almışdır. Şah İsmayıl o xanımdan dünyaya gəlibdir. Sultan Heydər onun qızın alandan sonra günü-gündən qüdrət tapırdı. Həsən bəyin bacısı Sultan Heydərin anası olubdur. Belə məlum olur ki, Səfəvilərlə Ağqoyunlu arasında bir qohumluq var imiş. Qaraqoyunlular bala-bala aradan gedirdi. Həsən bəyin yerində oturan Sultan Yaqub Sultan Heydərin qüdrətlənməsindən yaman qorxuya düşmüşdür. Ona görə Şirvanşah ilə rabitə bağlamışdır, onun vəsiləsilə Sultan Heydəri aradan götürsün. Sultan Heydər öz qoşununa qızıl başlığını vermişdir. Qızılbaşların börükləri on iki qat olardı.

Bir gün rəvayət edirlər ki, Sultan Heydər yuxuda görür ki, ona əmr edirlər ki, qoşun on iki xətli qırmızı börk qoysunlar, ayrılar ilə onların fərqi bəlli olsun. Sultan Heydər Qafqazda çoxlu şəhərlərə həmlə edib, onların çoxun fəth eyləmişdi. Ona görə Sultan Yaqub Şirvan şahı Fərrux Yəsar ilə birləşib onun qabağına çıxmışdı. Dava Dərbəndə gəlib çatıbdır. Sultan Heydər səfəvilərin hər tərəfə göndərmişdi.

Sultan Heydərlə Şirvanşahlar arasında tez-tez dava olurdu. Bu davaya Ərdəbil, Təbriz, Həmədan çox kömək göndərirdi. Bir səhər tezdən dava təbili çalındı. Bütün qoşun əhli atlarına süvar oldular. Qoşun dərya kimi hərəkətə gəldi. Hər iki qoşun səf çəkib dayandı. Döyüş başladı. Düşdülər bir-birinin canına. Elə bil ki, tufan qopdu, göy üzünü toz bürümüşdür. Qardaş qardaşı tanımırdı. Sultan Heydərin qoşunu az olmağına görə zəfər çalmaq çətin idi. Qatmaq təbil çaldılar, hər kəs qayıtdı öz yerinə. Yaralı olanları götürdülər, ölənləri dəfn etdilər. Yenə də qılınc-qalxanlarına baxardı pəhləvanlar. Bir-birindən halallıq istəyirdilər. bunlar burda qalsınlar.

İndi görək Ərəbzəngiylə Şah İsmayıl nə etdilər. Ərz eylədik ki, Şah İsmayıl Ərəbzəngiylə Şirvana sarı gəlirlər. Yol-

da ona Sultan Yaqub ilə atası Sultan Heydərin dava eləməsin xəbər verdilər. Ərəbzəngiylə Şah İsmayıl dayanmadan özlərin Dərbəndin yanındakı dava meydanına yetirdilər. O zaman yetirdilər ki, düşmən qoşunu Qızılbaş qoşununu dildən salmışdı. Ərəbzəngi ilə Şah İsmayıl vəziyyəti belə görən götürüb görək Şah İsmayıl Ərəbzəngiyə nələr deyir:

Başına dolanım, ərəb,
Var meydana, mən də gəldim.
Düşməni öldürmək hədəf,
Var meydana, mən də gəldim.

Düşmənləri salaq haldan,
Gör nə çıxar qeyli-qaldan.
Sən də, mən də canı-dildən,
Var meydana, mən də gəldim.

Durma, Şah İsmayıl yarı,
Bu oylaqdan qovaq sarı.
Kömək olsun sənə Tanrı,
Var meydana, mən də gəldim.

Onlar qılıncı çəkdilər, düşdülər qoşunun canına. Sultan Heydərin qoşunu gördü ki, pəhləvan girdi meydana, sağa dönəni, sola dönəni qırıb-tökürlər. Bu iki pəhləvanın dava eləməsindən bütün düşmən düşdü qorxuya. Sultan Yaqubun qoşunun dala qaytardılar.

Bu xəbəri Sultan Yaqub eşitdi. Az qaldı dəli olsun. Sultan Yaqub dəstur verdi ki, əlli min təzə nəfəs qoşun meydana yollasınlar. Qoşun gücü ilə dava edirdi. Şah İsmayılın birdən gözü Sultan Heydərin nəşinə düşdü. Atından endi, börükün başından götürüb ağladı. Ərəbzəngi gördü ki, Şah İsmayıl ağlayır, "ata, vay" deyir. O da gəldi atından düşdü yerə, dedi:

– Şah İsmayıl, bu kimdir?

Dedi:

– Atam Sultan Heydərdi.

Ərəbzəngi onun üzündən öpdü. Heydər bir zaman gözün açdı, dedi:

– Oğlum, gəlinim, qoymayın ellərimiz qəm çəksinlər. Mən ölürəm, əgər şah oldun, böyük Təbriz şəhərində oturaq eylə, oranı özünə paytaxt elan elə. O, şəhərlərin gözüdür.

Şah İsmayıl atasının əllərindən öpdü, əllərin qoydu gözü üstə. Sultan Heydər oğluna sözlərin dedi, canın Yaradana təslim eylədi. Həmişəlik bu fani dünyadan getdi. Elə bu halda bunları düşmən dövrələyib tutdular. Zəncirlə bağladılar. Qalan Qızılbaşlar ordan aralandı getdi. Sultan Yaqub dəstur verdi ki, Sultan Heydərin bütün ailəsin tutub Əstəxar şəhərində zindan eyləsinlər. O, xanədanın böyük oğlu Sultanəli, İbrahim, Şah İsmayıl, Ərəbzəngi zindanda qaldılar.

Bir gün zindanı xəlvət görüb təkcə halda sədəfli sazı bağrına basıb görək Gülzar haqqında nələr dedi:

Sınıbdır qanadım, qolum, budağım,
Məni bu dərdlərə salan Gülzar.
Zindanlar bucağı olub yatağım,
Məni bu dərdlərə salan Gülzar.

Baxıram hər yana, sıldırım daşdı,
Gözlərimdən axan qan ilə yaşdı.
Ürəyim partladı, qüssədən pişdi,
Məni bu dərdlərə salan Gülzar.

Dəmir pəncərələr dalında qaldım,
Günü-gündən yandım, oda qalandım.
Şah İsmayıl deyir, gültək saraldım,
Məni bu dərdlərə salan Gülzar.

Ərəbzəngi Şah İsmayılın belə yanıqlı oxumasın görüb dayana bilmədi. Gəldi durdu Şah İsmayılın yanında. Şah İsmayıl dala baxanda Ərəbzəngini gördü, ondan utandı. Amma

Ərəbzəngi ona macal vermədi, ondan artıq utansın. Buna görə onu dilə tutub aldı görək ona nələr dedi:

Yanıqlı-yanıqlı nə ağlayırsan,
Eylədin könlümü qan, Şah İsmayıl.
Mənim bu qəlbimi dərdə salırsan,
Eylədin könlümü qan, Şah İsmayıl.

İgidlər düşəndə qara zindana,
Gərəkdir səbr edə, ona dayana.
Dünya belə qalmaz, dönər zəmanə,
Eylədin könlümü qan, Şah İsmayıl.

Ərəbəm, yolunda ölüncə duram,
Yağı düşmənlərə zərbələr vuram.
Əl atsam qılınca, hamısın qıram,
Eylədin könlümü qan, Şah İsmayıl.

Şah İsmayıl Ərəbzənginin belə vəfalı olmağın görüb onu basdı bağrına, üzündən-gözündən öpdü. İllər, aylar dolandı. Bir gün nahar vaxtı gördülər, carçının ucadan səsi gəlir:

– Bu adamlar ki səsləyirəm, yaxşı qulaq assınlar. Sultanəli Səfəvi, İbrahim Səfəvi, İsmayıl Səfəvi, bir də ailələri zindandan azad oldular.

Amma Şah İsmayıl qəmli, yanıqlı bayatılar deyirdi. Sultan Yaqubun yerində oturan Rüstəm Mirzə onları azad eylədi. O, çox mehriban, rəhmdil insan idi. Çalışırdı insanların arasında bir məhəbbət yaratsın. Dövrədə Rüstəm Mirzəni tərpətdilər Sultanəlinin üstünə. Rüstəm Mirzə onu təqib eylədi, öldürdü. Şah İsmayılı, bir də İbrahimi Gilana apardılar. Bir müddət orada qaldılar. İbrahim məriz oldu, sonra da öldü. Qardaşların ölümü Şah İsmayılı pozmuşdur. Altı il Şah İsmayıl gizlində qaldı. Onun mənzuri Səfəvi silsiləsin diriltmək idi. Öz tərəfdarları ilə Ərdəbilə getdi, on min qoşun yığdı başına. Tası Sultan Heydərin qanın almaq üçün Şirvana həmlə

apardı. Dava meydanı düzəldi. Bakı yaxınlığında meydanı suladılar. Hər iki tərəfdə qoşun amadə olub düşdülər bir-birinin canına. Bir vurhavur düşdü, qollar, qıçlar havada oynayır. Şah İsmayıl Ərəbzəngini səslədi. Bir yandan Ərəbzəngi, bir yandan Şah İsmayıl düşdülər bu qoşunun içinə. Tarixdə belə dava olmamışdı. Şirvan qoşunu təslim oldu, Dərbəndi, Bakını aldılar. Şirvan şahı aradan çıxıb əkilmişdir. Şirvan şahını bir yerdə tapıb mindirmişdilər at belinə, gətirdilər Şah İsmayılın yanına. Şah İsmayıl onu görən kimi üzünə gülüb dedi:

– Xoş gəldin.

Atasının onun əlində ölməsi yadına düşdü, dedi:

– Mən də gərək atamın qanın səndən alam.

Şah İsmayıl dəstur verdi, onu saldılar zindana. Şah İsmayıl düşdü Gülzarın fikrinə. Onun dalınca getmək üçün hazır oldu. Ərəbzəngi Şah İsmayılın bu fikrini başa düşüb alıb görək Şah İsmayıla nələr dedi:

Tutubdur hər yanı yağı düşmənlər,
Dayan, Şah İsmayıl, görək nə olur.
Atavın yurdunu qarət edənlər
Dayan, Şah İsmayıl, görək nə olur.

Bakını, Dərbəndi alandan bəri,
Başına yığıbsan bütün elləri.
Olubsan ölkədə dillər əzbəri,
Dayan, Şah İsmayıl, görək nə olur.

Götür bir namə yaz öz Gülzarına,
Mən Ərəb dərdini söylə yarına.
Çox çəkməz çatarsan öz diyarına,
Dayan, Şah İsmayıl, görək nə olur.

Şah İsmayıl Ərəbzənginin belə oxumağına qulaq verib Şah İsmayıla dedi:

– Namə yaz, göndər.

Şah İsmayıl namə yaza-yaza gözləri yaş tökür. Naməni yazdı, bir Qızılbaş çağırdı, naməni verdi ona, dedi:

– Bu naməni Gülzara yetirərsən.

Qızılbaş naməni alıb tez aradan çıxdı. O zaman Əlvənd Mirzə tərəfindən bir qasid gəldi. İcazə verdi, bargaha daxil oldu. Əlvənd Mirzə də gətirdiyi naməni verdi Şah İsmayıla. Əlvənd Mirzə Ağqoyunlu dövlətinin başçısıdı. Şah İsmayıl naməni verdi, bir nəfər dedi:

– Oxuyun görüm, namədə Əlvənd Mirzə nələr yazıb.

Şah İsmayıl Dərbəndi, Bakını alandan sonra Əlvənd Mirzə qorxuya düşdü. Ona belə yazıb:

– Əziz qardaşım, Şah İsmayıl Xətai,mən otuz min qoşun ilə gəlirəm sənlə dava edəm. Əgər mənə təslim olub qoşulsan, səni bir neçə yerə başçı edərəm. Namə yazan Əlvənd Mirzə.

Şah İsmayıl qasidin üzünə baxdı, sonra ucadan gülməyə başladı. Şah İsmayıl gördü ki, Ərəbzəngi də gülür, dedi:

– Ərəbzəngi, sən niyə gülürsən?

Ərəbzəngi dedi:

– Ona güldüm ki, Əlvənd Mirzə elə bil ki, dəli olub.

Ərəbzəngi dedi:

– Qasid, Əlvənd Mirzəyə deginən gəlsin.

Qasid qayıtdı. Bir neçə gün sonra gördülər ki, təbil cəng səsi gəlir. Səsi hər yanı bürüyüb. Şah İsmayıl bildi ki, bu gələn Əlvənd Mirzədir. Şah İsmayıl fərman verdi öz qoşununa, onlar da amadə oldular. Dava paltarların geyindilər, silah götürdülər. Şah İsmayıl elə bilirdi, Əlvənd Mirzə gecə həmlə edəcək. Səhər oldu, həmlədən xəbər olmadı. Buna görə qoşun istirahət edir. Birdən-birə təbil cəng səsi gəldi. Qızılbaşlar amadə oldular. Həmlə başlandı. Bir dava düşdü, gəl görəsən. Meydanda göz gözü görmürdü. Ərəbzəngi üzün tutdu Şah İsmayıla, belə dedi:

Görürsüz belimdə iri qılıncı,
Gərəkdir sizlərdən intiqam alam.

Adam öldürməkdən paslanıb ucu,
Gərəkdir sizlərdən intiqam alam.

Boyaram dağları, daşları qana,
Yağı düşmənləri gətirim cana.
Rəhm etmərəm nə sultana, nə xana,
Gərəkdir sizlərdən intiqam alam.

Hələ olmayıbdır qəhrəman Ərəb,
Sizlərə göstərəm gərək mən ədəb.
Ta ki bu ədəbə edəsiz icab,
Gərəkdir sizlərdən intiqam alam.

Bu sözləri eşidən cavanlar cuşa gəldilər, düşmənə həmlə eylədilər. Yeddi min qoşun Şah İsmayılda, otuz min qoşun Əlvənd Mirzədə. Əlvənd Mirzənin qoşunu belə görəndə qorxuya düşüb qaçmağa başladılar. Şah İsmayıl bu döyüşdən başı uca çıxdı. Gəldi dəstur verdi, qoşun Təbriz şəhərinə yeridi. Gəlib çatdılar Təbrizə. Şah İsmayıl oranı paytaxt eylədi. Bir neçə gün orada qalandan sonra qayıtdı Ərdəbilə. Orada bütün qoçaqları başına cəm eylədi. O halda Ərəbzəngi zülflərin saz, barmaqların mizrab eylədi, aldı görək nələr deyir:

Eşitsin ölkədə obalar, ellər,
Birləşsin ölkədə can ellərimiz.
Əgər istəsələr xoşbəxt olalar,
Bir-birinə desin can, ellərimiz.

Yaşasın bu ellər, yaşasın Vətən,
Vətənin yolunda siz geyin kəfən.
Zalım binasını kökündən kəsin,
Söyləyir bir-birinə can, ellərimiz.

Getsin aramızdan qeyz, ədavət,
Ədavət yerinə olsun səxavət.

Ərəbzəngi də deyir, məhəbbət,
Daha tökülməsin qan ellərimiz.

Ərəbzənginin bu sözlərinə bütün qoşun əhli "Əhsən! Əhsən!" dedilər. Nahar çəkdilər. Qoşun yedi, şərbət içdilər, çalğıçılar çaldılar, bir el aşığı gəlib götürüb görək nə dedi:

Nahar ola, bülbül ola, gül ola,
Oxuya ortada ceyran gözəllər.
Saqilər mey tökə, badə düzülə,
İçiban dolana məstan gözəllər.

Baxdıqca onlara açıla könül,
Oxuya bülbüllər, fərəhlənə gül.
Bağçalarda ola süsəni-sünbül,
Açılan güllərə heyran gözəllər.

Qızlar bağçalardan alma dərər,
Gözəl qızlar hər gün bu bağa gələr.
Uca dağ başında quzular mələr,
Olaram hüsnüvüzə heyran, gözəllər.

Oxuyan aşiqə əhsən dedilər. Ərəbzəngi baxdı gördü ki, Şah İsmayıl elə fikrə gedibdir. Bu halı Ərəbzəngi Şah İsmayılda görəndə ürəyi yanır. Alıb görək indi Şah İsmayıl nə deyir:

Dünyalar qədər istərəm səni,
Ay mənim oduma odlanan, Ərəb.
Məni bu çöllərə salan Gülzardı,
Ürəyim olubdur qəmdən qan, Ərəb.

**Ərəbzəngi:**

Başına döndüyüm, söylə məramın,
Sənə qurban olsun can, Şah İsmayıl.
Yandırır ürəyi odlu kəlamın,
Mən deyim mətləbi qan, Şah İsmayıl.

**Şah İsmayıl:**

Bu yaslı qəlbimi yasdan silərsən,
Nə sual edərsən, nə söyləyərsən.
Hamı da bilməsə, sən ki bilirsən,
Ay mənə istəkli, mehriban, Ərəb.

**Ərəbzəngi:**

Sevgilim, bir dayan, bir az tut qərar,
Dayansan, qurtarar bu yük, intizar.
Səni unutmayıb yəqin Gülzar,
Eyləmə bağrımı qan, Şah İsmayıl.

**Şah İsmayıl:**

Ay mənim ürəyim, sözüm, diləyim,
Ay gözümün nuru, qolum, biləyim.
Şah İsmayıl deyir, arxam, köməyim,
Ay mənə mehriban, qəhrəman, Ərəb.

**Ərəbzəngi:**

Ay mənim istəkli, əziz sevgilim,
Yolunda razıyam, saralım, solum.
Nə qədər çəksəm də yolunda zülüm,
Yenə söyləyərəm can, Şah İsmayıl.

İki sevgili şad, xuraman gəldilər öz mənzillərinə istirahət eyləməyə. O gecəni yatdılar, səhər oyandılar. Gördülər ki, hər yanı Allah öz nuruynan işıqlandırıb. Durdular, atlarına süvar oldular. Gəldilər Təbrizə, orda qalarqı oldular. Günləri xoş keçir. Şah İsmayılın Şirvanı, Bakını, Dərbəndi alması hər yana yayılmışdır. Təbriz əhli Şah İsmayılı bağrına basıb saxlamışdır. Təbrizdə Şah İsmayılı məclis əhli şah elan eylədilər, dəftərləri imzaladılar. Din İslam, dil Türk dili oldu. Şah İsmayıl dedi:

– Ay camaat, siz məni şah eylədiz, mən də sizə qeyrətli bir oğul olacağam.

Şah İsmayıl dedi:

– Gərək biz ata-babalarımızın getdiyi yolu gedək.

Şah şahlığa başladı. Paytaxtı Təbriz şəhəri oldu. Bütün xanları, bəyləri, boynu yoğunları öz yerində oturdub sakit eylədi. Bir gün öz otağında Ərəbzəngiylə elə istirahət edirdilər, Gülzar yadına düşdü, qəmli oldu. Elə bildi ki, Ərəbzəngi yatıbdır. Otağın bir xəlvət yerində oturub aldı görək nələr dedi:

Sallana-sallana çıxdı çadırdan,
İtirdim çöllərdə Gülzarımı.
Allah ayırmasın heç yarı yardan,
İtirdim çöllərdə Gülzarımı.

Görüm, bais, sənin üzün gülməsin,
Bir dərdə düşəsən, həkim bilməsin.
Dərdinin dərmanı heç bilinməsin,
İtirdim çöllərdə Gülzarımı.

Bağçası gülşəni, xar olan canım,
Bu geniş dünyası dar olan canım.
Şah İsmayıl deyir, var olan canım,
İtirdim çöllərdə Gülzarımı.

Şah İsmayıl öz sevgilisi Gülzarın ayrılığından gecə-gündüz xəzan görmüş bülbül kimi danışıb fəryad edirdi. Gözləri yol çəkirdi, bir xəbər olmurdu. Gülzarın cəmalı onun gözünün qabağından getmirdi. Yeni əlin atdı sazına, aldı görək dübarə nələr deyir:

Doymadım bir dəfə şirin sözündən,
Nə səndən bir xəbər gətirən vardı.
Nə bir xəbər vardı sənin özündən,
Nə səndən bir xəbər gətirən vardı.

Ürəkdən çıxmayır neyləyim qəmin,
Bilirəm eşqini unutmaq çətin.
Sənsiz mən olmuram heç kimdən əmin,
Nə səndən bir xəbər gətirən vardı.

Dalınca yolladım bir odlu namə,
Xatəm tala kimi baxdı səvayə.
Şah İsmayıl burda baxdı kəlamə,
Nə səndən bir xəbər gətirən vardı.

Şah İsmayıl o qədər oxuyub ağladı, daha taqətdən düşüb. Gülzardan xəbər gətirən yoxdur,nə də onun yeri bəlli deyildir.

Bir gün öz otağına tək-tənha oturmuşdu. Namə aparan qızılbaş atından endi, Şah İsmayıla ədəb-ehtiram eylədi, qabağında dayandı. Qızılbaş əlindəki naməni verdi Şah İsmayıla. Şah İsmayıl naməni oxudu, dünya başına fırlandı. Qızılbaş dedi:

– Qurban, Gülzar xanım o yerdən köçüb özgə diyara gedib.

Şah İsmayıl daha dinmədi. Öz-özünə Gülzarın dalınca getməyə qərar verdi. Bu sözü Ərəbzəngiylə arada qoydu. O da razıalşdı. Şah İsmayıl səhər tezdən Ərəbzəngi ilə atlarına süvar olub o qədər atları çapdılar, dərələrdən sel kimi, təpələrdən yel kimi keçib gedirlər. Bunlar da qalsınlar, görək Gülzar nə edir.

Gülzar Hindistana çatandan sonra atası onu Hindistan şəhərində onu bir xanın oğluna verib toy başlanmışdır. Az qalırdı onu gəlin aparsınlar. Gülzar hər gün bir bəhanə gətirir, xanın oğlu otağa gələ bilmir. Şah İsmayılın yolun gözləyir. Bir gün Şah İsmayıl ilə Ərəbzəngi gəlib Hindistan şəhərinə daxil oldular. Gördülər ki, bu şəhərdə şadlıq var. Şah İsmayılın ürəyindən keçdi ki, bu Gülzarın toyu olacaq. Şah İsmayıl bir qəhvəxana tapdı, orada varid oldular. Şah İsmayıl bir nəfərdən soruşdu:

– Bu kimin toyudu?

Dedi:

– Gülzarın toyudu.

Şah İsmayıl dedi:

– Nə vaxt gəlin gedəcək?

Elə bu halda əlində saz bir aşıq girdi qəhvəxanaya. Dövrədən dedilər:

– Ay aşıq, bizə bir türkü söylə.

Aşıq sazı kök eylədi, görək burda nələr dedi:

Gözüm yolda, göz intizarda,
Harda qaldı yar, gəlmədi.
Bağrımı eylədi al qan,
Harda qaldı yar, gəlmədi.

Uzaq yollar ona yoldu,
Ağlamaqdan gözüm doldu.
Saraldı gül rəngim, soldu,
Harda qaldı yar, gəlmədi.

Aşıq Vəli qəmlər içər,
Yar yolunda candan keçər.
Yuvalı quş kimi uçar,
Harda qaldı yar, gəlmədi.

Bu sözü eşidən Şah İsmayıl dedi:

– Ərəbzəngi, bu sözü məni də tutdu.

Şah İsmayıl bu cavan aşığa hörmət eylədi. Külli ənam verdi, o da Şah İsmayıla dua eylədi. Şah İsmayıl ordan çıxdı, Ərəbzəngi ilə gəldi, bir qarı tapdılar. (Atalar deyib: Bir evi yıxsan da bir qarı tap, tiksən də bir qarı tap). Onun evində qonaq oldular. Qoca qarı onlara bir otaq verdi. Şah İsmayıl dedi:

– Qarı ana, ürəyimə bir neçə xana söz gəldi. İcazə ver, onları söyləyim.

Qarı dedi:

– Söylə görüm.

Aldı Şah İsmayıl qarıya belə dedi:

Qarı ana, qulaq ver sən sözümə,
Bu gün sevgilimi yad aparacaq.
Yarı özgələrə yar olan canım,
Bu gün sevgilimi yad aparacaq.

Ey düşən çöllərə, yanıb odlanan,
Gecəni, gündüzü dağlarda qalan.
Bu eşqin odunda alışıb yanan,
Bu gün sevgilimi yad aparacaq.

Xəbərin yoxdur ki, gəlib sevgilin,
Tərkin qılmağını bilib sevgilin.
Şah İsmayıl deyir, gülüb sevgilin,
Bu gün sevgilimi yad aparacaq.

Qarı bu sözləri eşidən kimi dedi:

– Oğlum, sən aşıqsan?

Şah İsmayıl qarıya başının macərasın dedi. Qarı bunun dərdin biləndən sonra güldü. Şah İsmayıl elə bildi ki, qarı bunu ələ salıb. Bir az qəmləndi. Qarı dedi:

– Sevgilin kimdir? Adı nədir?

Şah İsmayıl dedi:

– Qarı ana, adı Gülzardır.

Qarı dedi:

– Qəm eylə, mən onun evində qulluqçuyam. Əgər sözün varsa mənə söylə, günorta çağı onu mən görməliyəm. Gülzar günorta zamanı bəy evinə gəlin gedəcək.

Şah İsmayıl bu sözü qarıdan eşitdi, az qaldı qəşş eyləsin. Yuxuda görsəydi, inanmazdı. Dedi:

– Qarı ana, ona deyin, sevgilin Şah İsmayıl gəlib.

Ondan sonra əlin saldı cibindən bir ovuc qızıl çıxartdı, verdi qarıya. Qarı qızılları görüb gözləri işıqlandı. Dedi:

– Nişanə də var.

Şah İsmayıl qızıl darağı verdi qoca qarıya. O, darağı da götürüb yola rəvan oldu.

Bu yandan Gülzarı məşatlar bəzəyib hazır eyləmişdilər. Bütün otaqlarda çalhaçal idi. Bəy Hindistanın birinci varlı cavanlarından idi. Gülzar Şah İsmayılın fikrindədir. Gülzar öz-

özünə deyir, bu niyə vəfasız çıxdı, gəlmədi. Gülzar ağlaya-ağlaya görək nələr deyir:

Ara sənin dağların, qarı arasın,
Vəfalı sevgilim, nə gəlməz oldun.
Sellər, sular bu dünyanı bürüsün,
Vəfalı sevgilim, nə gəlməz oldun.

Dərdimi söylərəm dağ ilə daşa,
Ayrılıq atəşi yetişə başa.
Ürəyim həsrətdən az qalır daşa,
Vəfalı sevgilim, gəlməz oldu.

Sənə qurban olum, ay qadir Allah,
Gülzar yar eşqində daim çəkər ah.
Nədir axır mənim etdiyim günah,
Vəfalı sevgilim, nə gəlməz oldu.

Gülzar yalqız oxuyardı, ağlardı. Elə bu halda qarı girdi qəsrə. Gəldi gördü ki, Gülzar yanıqlı-yanıqlı ağlayır. Əlində bir qara şişə var. Onun ağzın açdı, tutdu Gülzarın qabağına:

– Ey böyük Allah, sən şahid ol ki, bu zəhəri Şah İsmayıla çatmadığıma görə içirəm, məni bağışlayasan.

Sonra şişəni istədi yuxarı qozasın, qarı girdi içəri, şişəni onun əlindən aldı. Gülzar nə qədər yalvardı, qarı qəbul eyləmədi. Onu otağın bir xəlvət bucağına çəkdi. Ona dedi:

– Ay mənim balam, nə üçün zəhər içirsən? Hələ arzuna çatmamısan. Sənin hələ nə vaxtındır.

Gülzar ağladı, dedi:

– Dərdimi niyə deşirsən?

Qarı əl götürmədi. Gülzar dedi:

– Ay qarı, mənim Şah İsmayıl adlı sevgilim var. Ondan xəbər yoxdur. Məni yada ərə veriblər. Nə qədər yol gözlüyüm. Qulaq as, sənə bir neçə kəlmə sözüm var.

Aldı görək Gülzar qoca qarıya nələr deyir:

Qarı ana, bir qulaq ver sözümə,
Gəlmədi yarımdan mənə bir xəbər.
Az qalıram qəsd eyləyim özümə,
Gəlmədi yarımdan mənə bir xəbər.

**Qarı:**

Gülzar, qəm eyləmə, göz yaşı tökmə,
Yarından bir xəbər gətirdim sənə.
Bu qədər qəddini gəlginən bükmə,
Yarından bir xəbər gətirdim sənə.

**Gülzar:**

Qarı, nədir xəbər, düzünü danış,
Gəldin otağıma, işimə qarış.
Onun nişanəsin bir məndən soruş,
Gəlmədi yarımdan mənə bir xəbər.

**Qarı:**

Yarından tutmuşam mən də sorağı,
İndidən var idi cəngi, sorağı.
Nişanə göndərib qızıl darağı,
Yarından bir xəbər gətirdim sənə.

**Gülzar:**

Amandı, ürəyim od aldı, yandı,
Eşqin atəşindən elə bil qandı.
Amandı bu Gülzar səndən utandı,
Gəlmədi yarımdan mənə bir xəbər.

**Qarı:**

Qarı deyir, gözəl olar yurd adı,
Ləzzət verər insan meyli, yurd dadı.
Şah İsmayıl, Ərəbzəngi burdadı,
Yarından bir xəbər gətirdim sənə.

Gülzar dedi:

– Ay qarı, səni and verirəm tək bir olan Allaha,sən Şah İsmayılı harda görübsən?

Qarı dedi:

– O, mənim evimdədir. Qızıl darağı nişanə veribdir.

Gülzar qızıl darağı görən kimi az qaldı qəşş eyləsin. Özünü saxladı. Qarının boynun qucaqladı. Qocaya o da bir ovuc qızıl verdi. Qarı dedi:

– Qulaq as, gör sənə nə deyirəm. Səni gəlin aparmamışdan bir saat qabaq səni Şah İsmayıl gəlib aparacaq Təbrizə.

Amma Gülzar bu sözə inanmırdı. Təbriz hara, Hindistan hara.

Qoca qarı Gülzara dedi:

– Oyaq qal, mən gedirəm Şah İsmayılı amadə edəm.

Qarı ordan qayıtdı. Şah İsmayıl qarını görən bilmədi neyləsin. Qarı hələ danışmamışdı. Şah İsmayıl bir ovuc dübarə qızıl verdi, dedi:

– Şah İsmayıl, amadə ol. Gecə vaxtı divarın dalından, dedim, ip salladılar. O ipdən tutub çıxarsan Gülzar olan otağa. Səni gözləyir.

Bu yandan Hindistan bəyi şadlıq edir. Gülzar isə Şah İsmayılı otağında gözləyir. Şah İsmayılın gəlməyinə götürüb görək burda Gülzar nələr deyir:

Doğrudur görəsən, gəlib İsamyıl,
Bilmirəm sevinmək, ya qüssə-qəmdir.
Mənim bu könlümün olan əzbəri,
Bilmirəm sevinmək, ya qüssə-qəmdir.

Haçandır tutaram onun sorağın,
Öpərəm üzünü, görsəm ayağın.
Yollayıbdır mənə qızıl darağın,
Bilmirəm sevinmək, ya qüssə-qəmdir.

Sarala-sarala aralanmışam,
Gülzaram, həsrətdən yaralanmışam.
Ölüsü ölən tək qaralanmışam,
Bilmirəm sevinmək, ya qüssə-qəmdir.

Gəlin aparma vaxtı yaxınlaşırdı. Gülzarın ürəyi başlamışdır vurmağa ki, doğrudan Şah İsmayıl gəlibdir, ya yox? Şah İsmayıl əgər qol versə, başı da getdisə, gələr. Qarı bu yandan Şah İsmayılı gətirib qoyub divarın dalında, özü gəldi içəri, dedi:

– Yubanmayın, durun gəlini aparaq.

Gülzarı görüb hamını otağından saldı eşiyə. Gülzarı ağacların dalından çıxartdı. Qaravullardan biri bunları görüb dedi:

– Dur, kimsən, burda neyləyirsən?

Qoca qarı özünü itirməyib dedi:

– Məni görmürsən, qoca qarı (nənəyəm) – deyib onu dilə tutdu.

O yandan Şah İsmayıl, Ərəbzəngi düşdülər, Gülzarı otağında tapammadılar. Gəldilər bağa, orda Gülzarı görüb onu götürüb, ordan çıxdılar. Gəldilər atlar olan yerə. Gülzarı mindirdi atın belinə. Ərəbzəngi də qarını götürüb gəldilər qarının evinə. Qarı dedi:

– Siz aradan çıxın. Mən başıma çarə edərəm.

Hər yana səs düşdü. Gəlin yoxdur. Bu əhvalatı oğlan adamı eşidib bildi. Gəlib nə qədər axtardılar, Gülzarı tapammadılar.

Bu yandan Şah İsmayıl, Ərəbzəngi, Gülzar qarıdan halal-hümmət eləyib düşdülər yola. Gəldilər, bir bulaq başında oturub istirahətə məşğul oldular. Bulaqda əllərin, üzlərin yudular. Ərəbzəngi dedi:

– Siz burda olun, mən bir şikar edim, qayıdım.

Bir də gördülər ki, qarı nənə gəldi. Salam əleyk eylədi, o da oturdu. Şah İsmayıl ona hörmət edir. Ərəbzəngi yay, ox götürüb meşəyə tərəf yollandı. Qarı nənə də çəkildi kənarda

yatdı. İki sevgili oturdular söhbət eyləməyə. Bir-birinə dediklərin dedilər. Şah İsmayıl aldı görək nə dedi:

Dolandım dağları, yetişdim sənə,
Oduna alışıb yanan mən oldum.
Göstərmədi səni bir kimsə mənə,
Saralıb gül kimi solan mən oldum.

**Gülzar:**

Sənə qurban olum qurban gecəsi,
Bahar buludu tək dolan mən oldum.
Çəkmişəm minlərcə hicran gecəsi,
Yolunda saralıb solan mən oldum.

**Şah İsmayıl:**

Gözlərin şövqündən edim xəyalı,
Bu könlüm qəmindən oldu yaralı.
İllərdi düşmüşəm səndən aralı,
Ürəyi titrəyib vuran mən oldum.

**Gülzar:**

Sən eli dolandın, düşdün uzağa,
Hər ikimiz düşdük eldən qırağa.
Bülbül necə həsrət qalar budağa,
Bağçası, gülşəni xəzan mən oldum.

**Şah İsmayıl:**

Dərdimi söylədim divara, daşa,
İsmayılam, canım yandı atəşə.
Az qaldı qüssədən ürəyim daşa,
Gizlində odlara yanan mən oldum.

**Gülzar:**

Bulağa gedəndə su doldurmağa,
Gülzaram, baxardım səni tapmağa.

Eşqindən düşmüşəm arana, dağa,
Hindistana düşüb qalan mən oldum.

Bu yanda Ərəbzəngi bir gözəl ahu şikar eylədi gətirdi, yedilər-içdilər. Şah İsmayıl Ərəbzəngiyə öz təşəkkürünü bildirdi, sazı aldı əlinə, görək nə dedi:

Bütün aləm dola gözəllər ilə,
Gözəllikdə bizim yarə bənzəməz.
Həyada, hüsnüdə bütün hurilər,
Bizm nazlı bu gözəllərə bənzəməz.

Ürəkdən şad olub şad olaq gərək,
Bizi bilməm nədən ayırır fələk.
Bundan sonra gərək şadlıq eyləyək,
Heç nalə biz çəkən zarə bənzəməz.

Gülzaram, hamıdan tutdum sorağı,
Çıxmışdı Yəmənə, Hində ayağı.
Şah İsmayıl kimi vardı dayağı,
Gül vardı ki, bizim barə bənzəməz.

Bunlar bulaq başında olsunlar, keyf eyləməkdə. Görək Pəri nə edir. Müddətdir ki, Pəri xanımın gözləri yollarda idi. İntizar çəkməkdən canında can qalmamışdı. Gəlib keçən karvanlardan Şah İsmayılı xəbər alırdı. Ondan xəbər verən yoxdur. Bir gün qızları yığdı başına, alıb görək qızlara nələr deyir:

Dumanlı dağlara bənzər ürəyim,
Pərinin ciyəri yaralandı, gəl.
Böyük Yaradandan budur diləyim,
Pərinin ciyəri yaralandı, gəl.

Mən qurban olaydım yarın boyuna,
Məni çərxi-fələk çəkdi oyuna.
Ürəyim istərdi gəlim toyuna,
Pərinin ciyəri yaralandı, gəl.

Gülü budağında xar olan Pəri,
Yarı uzaqlara yar olan Pəri.
Bu geniş dünyası dar olan Pəri,
Pərinin ciyəri yaralandı, gəl.

Pəri sözünü qurtardı. Gördü ki, Ağca qız ağlayır, dedi:

– Ay Ağca, sən nədən ağlayırsan?

Ağca qız dedi:

– Bir zamandı mən də bir cavana aşiq olmuşam. O burda deyil. Dedi, gələrəm. Müddətdir ki, gedib, qayıtmayıbdır. Və mən də onun yolun gözlüyürəm.

Pəri dedi:

– Allah qadirdi, gələr çıxar, ağlama.

Amma Pəri bunu görəndən öz dərdi yadından çıxıbdır. Ağca qız öz dərdin görək necə bəyan edir.

Sənə qurban olum, ay gözəl Pəri,
Dərdimə tapılmaz çarə, ağlaram.
Bu dərdə, möhnətə düşəndən bəri,
Vurublar qəlbimə yara, ağlaram.

Ağlaram gecəni, açılmaz səhər,
Neyləyim ki, məndən əl çəkmir qəhər.
Haçanatək daha yanacaq cigər,
Görürsən düşmüşəm dara, ağlaram.

Ağca qızam, yarsız rəngim saralır,
Hərdən-hərdən mənim gözüm qaralır.
Bülbüllü bağımı baxsan xar alır,
Tapılmayır bu dərdə çarə, ağlaram.

Pəri elə bilirdi ki, o da Şah İsmayıla aşiq olub. Amma Ağca qız Həsən adlı bir cavana aşiq olmuşdur. Həsən də Pərinin qardaşı idi. Pəri ondan soruşdu ki:

– De görək, kimə aşiq olmusan?

Utanıb başın saldı aşağı. Amma Pəri xanım əl götürmədi. Çox isrardan sonra Ağca qız dedi:

– Həsən adlı bir igid oğlana.

Pəri bildi ki, bu, onun qardaşına aşiq olubdur. Onun üzündən, gözündən öpdü. O da Pəri xanıma dərd-diləyin dedi. Pəri xanım bu sözü Həsənə dedi. Həsən də onu el qaydasıyla aldı, toy eylədi. Həsən bir gün yenə atına süvar olub yollandı gedə. Ağca qız onun dalınca baxırdı.

Bunlar burda qalsın, görək Şah İsmayıl, Ərəbzəngi, qoca qarı, Gülzar nə edirlər. Şah İsmayıl yolları qatıb qabağına gəlirdi Təbrizə sarı. Yolda ona xəbər verdilər ki, İranda yağılar baş quzayıblar. İraqdakı hökumət edən Murad Mirzə İrana həmlə etmək istəyir. Bu xəbəri eşidən kimi gecə-gündüz qatıb yol gəldi, çatdı Təbriz şəhərinə. Öz qəsrinə daxil oldu. Bir ayrı paltar ilə qəsrə girdi, onu tanımadılar. Çoxdandı ordan gedibdir, yerinə də bir şəxs qoymuşdur. Sabah olcaq dəstur verdi, məclis amadə olsun. Məclis quruldu. Şah İsmayıl o məclisdə hazır oldu. Murad Mirzənin İrana həmlə eyləməyinə görə danışdı, fərman verdi, bütün qoşun amadə olsun.

Gəldilər Həmədanın yaxınlıqlarına. Bu yandan Murad Mirzənin qoşunu cəngə hazır oldu. Hər iki qoşun döyüşə amadə oldu. Şah İsmayıl dəstur verdi, qoşun neçə qesmətə bölündü. Səhərə yaxın gördü, düşməndən xəbər yoxdur. Xəyal eylədilər ki, Murad Mirzə qaçıb, qoşunu dağılıb. Qəfildən Murad Mirzənin qoşunu həmlə eylədi. Şah İsmayıl dəstur verdi, qoşun düşdü davaya. Bir vurhavur düşdü, gəl görəsən. İki qoşun düşüb bir-birinin canına. Qırhaqırdı. Qızılbaşlar hər yandan yolları kəsdilər, qaçan olmasın. Bir nəfər Murad Mirzənin bir sərdarı gəldi Şah İsmayılı öldürsün, bunu bir qızılbaş sərdarı gördü. O istədi Şah İsmayılı vursun, qızılbaş daldan ona elə bir əmud vurdu, özü də bilmədi necə oldu. Şah İsmayıl tez qızılbaşın adın yazdı.Təbilçi aralanma! Təbili çaldı, hər kəs

qayıtdı öz yerinə. Bu yandan Murad Mirzə oxunun daşa dəyməyinə baxıb narahat olmuşdur. Qoşunun belə görüb özü də aciz olmuşdur. Qoşunu amadə eylədi, o biri şəhərlərə həmlə eyləsin. Şah İsmayıl bunu başa düşdü, o da hazır oldu, bütün şəhərlərə qasid yollandı. Sərab, Mərənd, Xoy, Maku, Ərdəbil, Zəncan, Gəncə əhli amadə olsunlar. Dava on gündən sonraya qaldı. Şah İsmayıl istirahət eyləməyə başladı.

Şah İsmayıl bir gün şikara çıxmışdı. Dağda sevgililəri yadına düşdü. Oturub bir ağacın yanında, aldı görək öz dərdinə münasib nələr dedi:

Doyunca görmədim qara gözlərin,
Bağrımı yarıbdır bu hicran mənim.
Düşəndə yadıma şirin sözləri,
Qəlbimi tutur qızıl qan mənim.

Haçandır çatmayıb əlim Pəriyə,
Az qalır ürəyim yanıb əriyə.
Ərisin qarların qarı dərəyə,
Olub əzəl gündən bu peyman mənim.

Qurban olum yarı doğan anaya,
Onu gördüm, yaman düşdü bəlaya,
Gözləri ulduza, ağ üzü aya,
Çıxıbdır əlimdən o ceyran mənim.

Davaya iki gün qalırdı. Şah İsmayıl bütün qoşunu yığdı başına, onlara danışdı. Onlar da baş ilə, can ilə amadədir. Gecə keçdi, səhər açıldı. İki gündən sonra hər iki tərəfin qoşunu saf çəkib dayandılar. Çölü qoşun bürümüşdür. Nəhayət, bir azdan sonra döyüş başlandı. Şah İsmayıl qabaqda, əlində misri qılınc gedir, gələni xiyar kimi bölür. Şah İsmayılın qabağında bir kimsə dayana bilməz. Bu xəbər Murad Mirzəyə çatan kimi Murad Mirzə əmr verdi ki, böyük pəhləvanlardan biri onun qabağın alsın. O zaman İldırım adlı bir pəhləvan dəmir-

dən paltar geydi, meydana yollandı. Şah İsmayıl davaya qızışmışdı. Qabağına gələni bir qılınca qurban edirdi. Birdən gördü ki, qabağına dəmir geyimli bir pəhləvan çıxdı. Qalxanı tutub dayandı. İldırım pəhləvan əlin atdı qılınca, meydanı dolandı. İstədi Şah İsmayılı vursun, Şah İsmayıl onun əlin göydə tutdu. Elə fəşar verdi, qılınc yerə düşdü. Pəhləvan başladı qaçmağa. Təbil çalındı, hər kəs qayıtdı öz yerinə. Sabah yenə dava başladı. Hər iki qoşun davaya başladı. Murad Mirzənin qoşunu az qalır həlak olsun. Murad Mirzə iki-üz pəhləvan ilə Şah İsmayılı haldan salmışdılar. Qızılbaşlar özlərin yetirdilər, onları qaçaq saldılar, Şah İsmayılı gətirdilər öz çadırına. O da istirahət eyləyir. Bir nəfəri yolladı, dedi:

– Tez Təbrizdən Ərəbzəngiyə deyin, bura gəlsin.

O da gəlib bu sözü çatdırdı, o da gəldi. Ərəbzəngi gəlib Şah İsmayılı bu halda görən kimi ürəyi qüssələndi. Onun başı üstə oturub yavaş-yavaş ağlamağa başladı. Gözlərindən yaş tökülür, amma səsi çıxmır. Çünki istəmirdi Şah İsmayıl onun ağlamağın görsün. İsmayıl yuxuda gördü ki, hər yanı fəth eyləyib. Sevgilisi yanında, gəlib atası Sultan Heydərin yanına. Atası Heydərin gözü düşdü onun sevgililərinə, dedi:

– Söylə görüm, bunları hardan gətirmisən?

Şah İsmayıl başın aşağı salıb dinmədi. Atası yenə dedi:

– Nə üçün cavab vermirsən?

–Çox yaxşı, cəllad, bu həraminin gözlərin çıxardın!

Şah İsmayıl o zaman sazı aldı əlinə, görək atasına nələr deyir:

Məni kor eyləyib salma quyuya,
Buyur, günahım nədir, şah baba.
İxtiyar səndədir, öldürsən məni,
Buyur, günahım nədir, şah baba.

Məni tez öldürmə, azcadır yaşım,
Çox bəlalar çəkib bəlalı başım.

İcazə ver, anamla mən halallaşım,
Buyur, günahım nədir, şah baba.

İnanma, dalımca deyiblər yalan,
Düşmənlər salıblar ortaya talan.
Doğrudur sözlərim, gəl mənə inan,
Buyur, günahım nədir, şah baba.

Gözlərim sənindir, canım sənindir,
İsmayılam, vuran qanım sənindir.
Şövkətim sənindir, şanım sənindir,
Buyur, günahım nədir, şah baba.

Şah İsmayıl atasına belə yalvarsa da, atası fərman verdi. Cəllad onun gözlərin çıxardı, bir quyuya saldılar.

Ərəbzəngi Şah İsmayılın tərin silirdi. Gördü ki, Şah İsmayıl bir dəli nərə çəkdi, yerindən atıldı, durdu. Ərəbzəngini başı üstə görən kimi gözlərin silib diqqət ilə baxmağa başladı. Ama elə nəzərə gəlirdi ki, Ərəbzəngini tanımır. Şah İsmayıl yavaş-yavaş toxdadı. Qızılbaşlar Ərəbzəngiylə bir yerdə döyüşə başladılar. Şah İsmayıl bir yandan, Ərəbzəngi bir tərəfdən qoşunu qırmağa başladılar. Çox çəkmədi Murad Mirzənin qoşunu şikəst yeyib dala qayıtdılar, qaçmağa başladılar. Şah İsmayıl dəstur verdi, Təbrizə qayıtdı. Yenə məclis qurdular, şadlıq eylədilər.

Bir gün yenə xəbər verdilər ki, yağılar Xorasan, Kərman, İsfahana həmlə edib. Şah İsmayıl qoşun hazır eylədi. Qızılbaşlardan yolladı, onları aradan götürsünlər. Özü də qoşun götürüb başladılar yol getməyə. Bu anda Şah İsmayıl Ərəbzəngiyə baxdı, ürəyi cuşa gəldi. Aldı görək nələr deyir:

Qaradır qaşların, qaradır gözün,
Qurbandır yolunda baş və can, Ərəb.
Şəkərdən, şərbətdən şirindir sözün,
Sənsən bu qəlbimdə yar, dayan, Ərəb.

Baxıram gözlərin xumardı, xumar,
Belə baxmaginən, görənlər umar.
Hər gün məhəbbətin qəlbimə cumar,
Ay mənim ruhuma olan can, Ərəb.

Şah İsmayıl ilə dayim davada,
Şahin kimi hey süzürsən havada.
Görmədim bir gözəl sən vəfada,
Gözəllər gözəli, can Ərəb.

Bu sözü tamam eylədi. Ərəbzəngi sazı Şah İsmayıldan aldı. Götürüb görək Şah İsmayıla nələr deyir:

Ay mənim sevgilim, sona bülbülüm,
Ay mənim mehriban, gözəl sevgilim.
Səni unudarsam, lal olsun dilim,
Ay mənim mehriban, gözəl sevgilim.

Bir canım var, sənə qurban eylərəm,
Min canım olsa da, bir can eylərəm.
Qurban bu canımı hər an eylərəm,
Ay mənim mehriban, gözəl sevgilim.

Bürüsün aləmi adın, bürüsün,
Sənə kəc baxanın canı çürüsün.
Ərəb düşmənləri bir-bir sürüsün,
Ay mənim mehriban, gözəl sevgilim.

Şah İsmayıl qoşun qabağında gedir, qoşun onlara baxır, ləzzət alır. Meşələrdən, dağlardan, dərələrdən, təpələrdən keçdilər, çatdılar Bağdadın yaxınlığına. Bunları belə görən əhali baxəbər oldular.

Bu yandan qoşun yol gözləməkdə olsunlar. Gecə gəldi araya. Bağdad əhlindən bir neçəsi gəlib gecə Şah İsmayılı öldürsün. Şah İsmayıl xəbərdar olub onları tutub öldürdü, gəldi öz sevgilisi olan çadıra. Orada Ərəbi gördü ki, oturub qılınca

zinət verir. Onu bağlayır. Ərəbi belə görəndə götürüb görək Şah İsmayıl ona nələr deyir:

Sənə qurban, nazlı nigar,
Mələksən, ya ki insansan.
Şirin-şirin sözümsən sən,
De, hurisən, ya ki qılmansan.

Sən maralsan, ya ki, ceyran,
Ordubad hüsnünə heyran.
İnşallah ki, soraq duran,
Maralsan, ya ki, ceyran sən.

İsmayıl sənə pərvanə,
Sənin tək şəmi sözünə.
Ürək sənsiz donur qana,
Bu cana canı canan sən.

Ərəbzəngi dedi:

– Şah İsmayıl, sazı ver mənə, gör mən nə deyirəm.

Sazı aldı Ərəb əlinə, görək Şah İsmayıla burda nələr deyir:

Olum bu canına qurban,
Ya xansan, ya ki, sultan sən.
Məni mehrin qoyub heyran,
Mənim dərdimə dərman sən.

Vəfadan əl götürməzsən,
Vəfa hər yara verməzsən.
Vəfasızlıq da görməzsən,
Həmişə əhd-peyman sən.

Ərəbəm, sən mənim canım,
Mənim istəkli cananım.
Yolunda gər axa qanım,
Həqiqi bir müsəlmansan sən.

Ərəb belə deyəndə Şah İsmayıl bunu basdı bağrına. Oxuyub güldülər. Şah İsmayıl dedi:

– Ey böyük Allah, özün tamam mərd oğullara nicat ver.

Ərəb də amin deyir. Birdən-birə bir qorxulu səslər qulağa gəlirdi. Uzaqdan hay-küy səsi dağları bürümüşdür. Bu səslə qoşun əhli çadırlardan çölə çıxdılar. Silahlanıb atlarına mindilər. Şah İsmayılın fərmanın gözləyirdilər. Şah İsmayıl dayandı, görsün bu gələn səs nədir. Bala-bala nərə səsi çölləri bürümüşdür. Atların şahə səsi dağlara səs salmışdır.

Çadırların qabağında Qızılbaşlar nigaran baxırdılar. Bu halda Ərəbzəngi atın üstündə gəldi qabağa. Şah İsmayıl dedi:

– Sevgilim, niyə fərman vermirsən, düşməni tar-mar edək.

Ancaq Şah İsmayıl onu dilə tutub sakit edirdi. Bu yandan gedən Qızılbaşlar gəldilər. Dedilər:

– Qurban, yağılar, həramilər gəlir. Özləri də çoxdular.

Şah İsmayıl həmlə verdi. Qoşun alıcı quş kimi töküldülər dağlara, bütün çölləri tutdular. Yağılar belə güman etmirdilər bu qədər qoşun görsünlər.

Bu yandan Ərəbzəngi, Gülzar düşdülər qoşunun canına, talan saldılar. Qaçan qaçdı, axşam üstü hər kəs qayıtdı. Öz çadırında şadlıq məclisi başlandı. Qoşun əhli çaldılar, oynadılar. Şah İsmayılın bir yanında Ərəb, bir yanında Gülzar, şad olub.

Şah İsmayıl bir gün yuxusunda alagöz Pərini görüb daha yuxusu gəlmirdi. Çadırdan sazı götürüb çıxdı çölə. Gəldi bir bulağın başına. Oturub orda indi götürüb görək xəlvət gecədə müddətdir ayrı düşən alagöz Pəri ayrılığında nələr deyir:

Gecələr uzundur, yata bilmirəm,
Oduna yandığım, alagöz Pəri.
Əlim üzülübdür çata bilmirəm,
Oduna yandığım, alagöz Pəri.

Gecələr olubdur uzun, gecələr,
Uzundan uzundur, uzun gecələr.
Deyiblər dərdlərə dözün, gecələr.
Oduna yandığım, alagöz Pəri.

Şah İsmayıl dərdi heç gəlməz saya,
Dərdimi deyirəm ulduza, aya.
Üzümü döndərəm tək bir Xudaya,
Oduna yandığım, alagöz Pəri.

Tamam oldu sözləri. Gəldi çadırına, orda bir Qızılbaş məmuruna bir namə verdi:

– Bu naməni aparıb verərsən Pəri xanıma, cavabın alıb gətirərsən.

Qızlbaş naməni alıb birbaşa gəldi Pəri xanımı tapdı. Naməni verdi ona. Pəri naməni oxudu, şad oldu. Otağı xəlvət eylədi. Göz yaşın tökə-tökə aldı görək Şah İsmayılın naməsinin cavabın necə verir:

Alagözlü igid, bəsdir yaxın gəl,
Çürütdü canımı cəfa, bəsdi, gəl.
Bu eşq aləmi məzar eyləmə,
Çürütdü canımı cəfa, bəsdi, gəl.

Bir namə yazıram can üzə-üzə,
Ayrılıq gətirdi qəlbimi sözə.
Gözümdə fərq yox gecə gündüzə,
Çürütdü canımı cəfa, bəsdi, gəl.

Pəriyəm, əzəldən xəzan olmuşam,
Qanadı qırılmış yaralı quşam.
Sənsiz bu dünyadan daha doymuşam,
Çürütdü canımı cəfa, bəsdi, gəl.

Naməni verdi qızılbaşa, yola saldı. Məmur naməni aldı, gülə-gülə qayıtdı. Bu yandan Pərinin qardaşları dedilər:

– Bacı, Şah İsmayıl elə bil ki, dava edir. Gərək ona kömək olaq.

Həsən bu sözü dedi. Ağca bu sözü eşidən oturub balaca uşaq kimi ağladı. Həsən Ağcanın bu ağlamağın görüb içəri

girdi. Ağcanın könlünü aldı. Ağca dinmədi. Həsən burda götürüb görək Ağca qıza nələr deyir:

Gedirəm qürbətə, məni bağışla,
Ayrılıram səndən, Allah saxlasın.
Gəldim mən səninlə söhbət eyləyəm,
Ayrılıram səndən, Allah saxlasın.

**Aldı Ağca:**

Gedirsən ürəyim dalınca qalır,
Gedirsən sevgilim, gülə-gülə get.
Amandır sən qayıt bayram olunca,
Gedirsən sevgilim, gülə-gülə get.

**Həsən:**

Gedirəm, gələrəm mən, ağlama sən,
Mən ölsəm, yaşasın bu şanlı Vətən.
Bu yolda geyərəm əynimə kəfən.
Ayrılıram səndən, Allah saxlasın.

**Ağca:**

Ürəyim dözmür bu getməyinə,
Neyləyim bu candan əzizdir vətən.
Gözlərəm yolunu qayıdınca mən.
Gedirsən sevgilim, gülə-gülə get.

**Aldı Həsən:**

Səndən ayrılmağım yamandır, yaman,
Necə olur yarından ayrılan cavan.
Həsənəm, sözümü edəm ərməğan,
Ayrılıram səndən, Allah saxlasın.

**Ağca:**

Qovginən ürəkdən kədəri, kini,
Qoruginən sən də əziz vətəni.

Ağcayam, ölüncə gözlərəm səni,
Gedirsən sevgilim, gülə-gülə get.

Bunlar bir-birindən ayrılıb, qardaşlar bacısı Pəri ilə görüşüb sonra atına minib "Şah İsmayıl", – dedi, yollandı. Gəldi çatdı Şah İsmayılın ordusuna. Şah İsmayıl Həsəni pişvaz eylədi. Pərini ondan xəbər aldı. O da əhvalatı ona bəyan eylədi.

Daha qoşun çoxaldı. Nəhayət, o gün gəldi çatdı ki, Şah İsmayıl fərman verdi, qoşun yollandı Bağdad şəhərinə sarı. Bir nəfər xəbər gətirdi ki, İraq sərhəddində çox ağır bir qoşun var. O yandan İraq qoşununun sərdarı bu xəbəri eşidib dedi:

– Kimdə cürət var bizə həmlə edə. Mənim atımı, qılıncımı gətirin görüm. Kimdə qüdrət var İraqa həmlə edə?

Dövrədə olan sərdarlar qılıncların aldılar əllərinə, qabağa gəldilər. Sərdarı-İraq dedi:

– Gərək sağirdən kəbirə amadə olsunlar cəngə ki, vətən əldən gedir.

Bu yandan Şah İsmayıl qoşunun bir neçə qesmət eylədi. Qoşunlar amadə oldular. Şah İsmayıl birinci, ikinci qoşunları hazır eylədi həmləyə. Cavanlar fevri qondular atların belinə, amadə oldular. Qızılbaşlar dövrəsinə baxan gördülər ki, İraq əhli onları aldadıblar. Daha bir az vuruşandan düşmən onları təslim eylədi, öz tərəflərinə apardı. Şah İsmayıl üçüncü qoşunun davasın gözləyirdi. Düşmən hiylə eylədi. Onları tutub Bağdad şəhərinə yollandılar. Şah İsmayıl fikri iraq olmuşdur. Qızılbaşlar yaman şikəst yemişdi. Şah İsmayılın qoşunu azuqəni dağlardan, daşlardan alırdı. Bu şikəstədən yaman narahat olmuşdur. Ərəb Şah İsmayılı belə qəmli görüb görək Şah İsmayıla nələr deyir:

Saralıb solmaqdan, söylə, nə çıxar,
Ay mənim istəkli, gözəl sevgilim.
Durub belə baxmaq tez məni yıxar,
Ay mənim istəkli, gözəl sevgilim.

Çəkginən belindən misri qılıncı,
Hələ ki, qolunun var indi gücü.
Düşmənə verməyək almağa dinci,
Ay mənim istəkli, gözəl sevgilim.

Ərəbi gəl sayma naşıdır, naşı,
Adam öldürməkdən qızışıb başı.
Yağı düşmənlərə pişirəm aşı,
Ay mənim istəkli, gözəl sevgilim.

Ərəb sözün tamam eylədi. Aldı Gülzar belə dedi:

Gəl sənə söyləyim, gözəl şahzadə,
Yağı düşmənlə, bil, dalaşmaq gərək.
Onları gərəkdir gətirək cana,
Səbr ilə dayanıb atışmaq gərək.

Vətən düşmənindən qorxmaz, İsmayıl,
Yaradan Allaha olubdur qail.
Dostlara dar gündə ay olan hayil,
Yağı düşmənlə vuruşmaq gərək.

Gülzar deyir, məndə yoxdur hövsələ,
Gərəkdir düşmənə salaq vəlvələ.
Əlbir olsaq əgər fəth gələr ələ,
Millətin uğrunda çalışmaq gərək.

Şah İsmayıl bu sözləri xanımlardan eşidib bilmədi neyləsin. Ürəyi cuşa gəldi. Aldı görək burda nələr dedi:

Sizə qurban olum eşidən canlar,
Parlayar gözümdən alovlar mənim.
Gizlində ürəkdən çox axar qanlar,
Parlayar gözümdən alovlar mənim.

Qılıncımda mənim dama qan gərək,
Yoxsa qalmayacaq candacan gərək.

Pozulsun bu aləm, bu dövran gərək,
Parlayar gözümdə alovlar mənim.

And ola haqqıza, and ola sizə,
And ola verdiyiz əməy bizə.
Şah İsmayıl deyir, çökmərəm dizə,
Parlayar gözümdən alovlar mənim.

Şah İsmayıl dedi:

– Mən şikara gedirəm.

Amma Ərəb icazə vermədi, dedi:

– Özüm gedərəm.

Ərəb icazə alıb atın mindi, yollandı dağlara sarı. Ərəb bir qədər at çapandan sonra bir böyük meşəyə çatdı. Gözü birdən bir ala ceyrana düşdü. Ceyran onu görən kimi qaçmağa başladı. Ərəb düşdü bunun dalınca, o qaçdı. Ərəb qovdu. Dağ aşağı at sürürdü, at birdən uçdu, düşdü dərəyə. Ərəb haldan düşmüşdür. Özündən xəbəri yox idi. Ərəbi ordugahdan çıxandan düşmən adamları təqib edirdilər. Onu dövrələyib tutdular. Onun əl-ayağın möhkəm zəncir ilə bağladılar. Ərəb üzünə niqab salıb kişi paltarı geyinmişdi. Düşmən məmurları bilmirdilər ki, o qızdır. Nəhayət, Ərəb bir az yaxşı olub hala gələndən sonra gözün açıb dövrəyə baxanda mat qaldı. Bilmədi neyləsin. Gördü ki, düşmən əlindədir. Bu halda bir nəfər onu araya çəkdi. Dedi:

– Cavan, Şah İsmayılın nə qədər qoşunu var?

Ərəb dedi:

– Mənim adım Xanoğlandır. İşim də çobanlıqdır. Şah İsmayılı tanımıram.

Rəis bu sözə inanıb dedi:

– Düzün deməsən, səni öldürərəm.

Ərəb dedi:

– Adım Xanoğlandır. Şah hara, mən hara. Onun mənlə işi yox, mənim onla işim yox.

Rəis dedi:

– Bir taxta gətirin, qoyun onun üstünə, buna şallaq vurun. Bu düzün demir.

Bəli, Ərəbi doyunca vurdular,amma dinmir. Şallaq vurdular, bədənindən qan çıxırdı. Rəis baxdı buna, yüz nə, dörd yüz şallaq vurdular. Dedi:

– Aparın salın bir qaranlıq anbara, qalsın orada.

Yenə bir ayrı qızılbaş gətirdilər, dedilər:

– Gördün, yoldaşını neylədik?! Sən də düzün söylə.

Qızılbaş dedi:

– Mən qızılbaş deyiləm, xəbərim də yoxdur.

Onu da gətirdilər anbara saldılar. Bunlar burda qalsınlar, görək Şah İsmayıl nə edir.

Şah İsmayıl, Gülzar Ərəbin belə yubanmağından yaman pərişan oldular. Şah İsmayıl ilə neçə nəfər qızılbaş dağlara tərəf yollandılar. Gəlib Ərəbin atın tapdılar ki, ölüb. Şah İsmayıl Ərəbi axtarmağa başladı. Bir çadır qurdu, tikanlardan yandırdı. Əvvəlinci qaravul Şah İsmayıla icazə verdi, yola düşüb getsin. Qaravul gördü ki, bu deyir:

– Çobanam.

Amma bu danışmağından çobana oxşamır. Qaravul Şah İsmayılı yavaş-yavaş təqib eylədi, görsün bu kimdir. Çadır qurulan yerə gəldi. Salam verib oturdu. Dedi:

– Yaxşı yerdə qurmusuz. Qonaq istəyirsiniz?

Şah İsmayıl dedi:

– Buyurun.

Qaravul bir az orda oturub sonra dedi:

– Allah sizi saxlasın.

Onlardan ayrıldı. Gecə gəldi araya. Yaman qaranlıq olmuşdur. Yoldaşlar ilə paltar əvəz eylədilər. Çoban paltarı geydilər, gəldilər. Birdən bir qaravul dedi:

– Dayanın görüm, siz kimsiniz? Hardan gəlib, hara gedirsiz?

Dedi:
– Yol adamıyıx.
Qaravul baxdı, onları yola saldı. Saz əlində girdi düşmən ordusuna. Gecə yarısı dedilər:
– Ay aşıq, adın nədir?
Şah İsmayıl dedi:
– Həsən.
Dedilər:
– Ay Həsən, bir az saz çal, oxu görək.
Burda görək Şah İsmayıl nələr dedi:

Zalim fələk başa saldı min kələk,
Şaxtalı təpələr, boranlı dağlar.
Sizə əmanəti verən olmadı,
Ay qanlı dərələr, qanlı dağlar.

Rəva deyil dilim yada yalvara,
Yada yalvaranı çəkdilər dara.
İndi belli deyil gedibsən hara,
Qüdrətli, cürətli, amanlı dağlar.

Gördülər daşlara qanın süzülüb,
Elindən, obadan əlin üzülüb.
Bütün ətrafına düşmən düzülüb,
Gedişli, gəlişli, zəmanəli dağlar.

Qaravul dedi:
– Yaşa, Həsən xan, yaxşı oxudun.
Qaravul dedi:
– Sən aşıqsan?
Şah İsmayıl dedi:
– Yox, aşıq deyiləm, amma bir itgim var.
Qaravul dedi:
– Allah qadirdi, taparsan bir gün.

Gözünün altı ilə Şah İsmayıla baxırdı. Şah İsmayıl gördü ki, bu qaravul bunu nəzərdə saxlayıb. Daldan onu tutdu boynundan, boynun sındırdı, qaravulu öldürdü. Şah İsmayıl girdi içəri, otaqları gəzirdi. Gördü ki, Ərəbin səsi gəlir. Dedi:

– Ey ağlayan, kimsən?

Ərəb də gördü ki, Şah İsmayılın səsi gəlir. Dedi:

– Ay insan, sən kimsən?

Şah İsmayıl dedi:

– Ərəb, mən Şah İsmayılam.

Bu səsə yaxınlaşdı. Ərəbi, qolubağlı gördü ki, zəncir ilə bağlayıblar. Ərəb dedi:

– Ay sevgilim, əzizim, Xətayi, sənsən?

Şah İsmayıl dedi:

– Bəli, mənəm.

Atların mindilər, gəlib çatdılar öz ordularına. Bütün qoşun əhli bunları salamat görüb sevindilər. Amma Ərəbi yaralı gördülər. Onun yaralarına dəva qoydular.

Şah İsmayıl İraqı fəth edəndən sonra qayıtdı. Alagöz Pəri yadına düşdü. Ərəbdən, Gülzardan icazə alıb istəyir gələ Pərini apara. Atına süvar oldu. Şah İsmayıl atını o qədər qovub Pərinin diyarına yaxınlaşıb. Bir azdan sonra boylanıb baxan kimi Pərinin evi uzaqdan göründü. Şah İsmayıl o evi görən kimi ürəyi az qaldı partlasın. Ala qaranlıqda özün yetirdi Pərinin qapısına. Atdan düşüb yavaş-yavaş içəri girdi. Diqqət ilə baxdı gördü ki, Pəri yatıb, yuxudadır. Burda alıb görək Pərini necə yuxudan oyadır.

Yatıbsan sən xabi-qəmdə,
Ayıl, alagözlü Pəri.
Niyə ayrılmısan cəmdən,
Ayıl, alagözlü Pəri.

Uzaq yollardan gəlmişəm,
Qəmi, qüssəni bilmişəm.

Hicran qəmini görmüşəm,
Ayıl, alagözlü Pəri.

Şah İsmayıl sənə heyran,
Eyləmə bağrımı al qan.
İndi gəlib sənə mehman,
Ayıl, alagözlü Pəri.

Şah İsmayıl gördü ki, oyanmadı. Durdu gəldi eşiyə. Pəri yuxudan oyandı. Gəldi həyətə, gözü düşdü Şah İsmayılın atına. Gəldi, onun boynun qucaqladı. O yan, bu yana baxdı, bir kimsə görmədi. Öz-özünə təəccüb eylədi. Dedi:

– Bu at burda neyləyir?

Sonra xəyalında:

– Şayəd bu at Şah İsmayılın atı olmasın.

Elə bu halda ürəyi yandı. Sazı basdı bağrına, aldı görək nələr deyir:

Dad eylərəm bu fələyin əlindən,
Bağrımı döndərib qana ayrılıq.
Söyləsəm, günlərim heç gəlməz sana,
Gətiribdi məni cana ayrılıq.

Tikərəm gözümü uzun yollara,
Gah baxaram sağa, gahi sollara.
Allah heç qızlara, heç oğullara
Göstərməsin belə yaman ayrılıq.

Nə gecə şad ollam, nə var gündüzüm,
Nə durar göz yaşım, nə gülər üzüm.
Pəriyəm, qəlbimdə dərd düzüm-düzüm,
Yara üstən yara qoyan ayrılıq.

Pəri belə oxudu. Bu vaxtda Şah İsmayıl divarın dalından onu gördü. Yavaşca sazı bağrına basıb aldı görək gizlindən Pəri xanıma nələr dedi:

Başına döndüyüm, alagöz Pəri,
Ay məndən inciyən, bağışla məni.
Yolunda qoyaram can ilə səri,
Ay məndən inciyən, bağışla məni.

Pəri xanım bu səsi axtarır. Aldı Şah İsmayıl:

Utanır üzünə baxmağa üzüm,
Yanında yalana dönübdür sözüm.
Sənə qurban olsun bu iki gözüm,
Ay məndən inciyən, bağışla məni.

İsmayıl qurtardı od ilə qandan,
Sən də məndən ötrü keçdin tufandan.
Görüşə gəlmişəm Ərəbistandan,
Ay məndən inciyən, bağışla məni.

Bu səsi Pəri Şah İsmayılın səsinə oxşatdı. O yan, bu yanı gəzirdi. Gözü Şah İsmayıla düşən kimi az qaldı qəşş eyləsin. Şah İsmayılın gözü Pərinin gözünə düşən kimi Pəri qəşş eylədi, bihuş oldu. Bu bihuş olan zaman aldı görək Şah İsmayıl Pəri xanıma nələr deyir:

Ay nazlı yar, belə yatma biqərar,
Oyan, gözlərin aç, mehriban Pəri.
Nə vaxtdan çəkirəm mən də intizar,
Oyan, gözlərin aç, mehriban Pəri.

Oyan, aç gözlərin, gözün qurbanı,
Bir kəlmə söz danış, sözün qurbanı.
Eşqinə sadiqsən, özün qurbanı,
Oyan, gözlərin aç, mehriban Pəri.

Gəlmişəm aparam buradan səni,
Qurtaram bəladan, cəfadan səni.
İsmayıldır indi oyadan səni,
Oyan, gözlərin aç, mehriban Pəri.

Pəri gözlərin açdı. İki aşiq bir-birləriylə görüşdülər. Şah İsmayıl dedi:

– Amadə ol, bugün burdan getməli olacağıq.

Pəri gəlib qızlar ilə, ata-anası ilə görüşüb Şah İsmayıl ilə bahəm atlarına mindilər, düşdülər yola. Gəlib çatdılar ordularına. Ərəb, Gülzar Pərini görüb şad oldular. Şah İsmayıl, Pəri qəsrə varid oldular. O yandan Ərəb getdi, onların şərəfinə şikar eylədi, ov əti gətirdi. Gülzar, Ərəbzəngi Pəriyə xoş gəldin eylədilər. Şah İsmayıl, ailəsi bir yerdə ədalət ilə yaşayırdılar. Təbriz şəhərində dövləti qurmuşdur.

Nəhayət, günlərin bir günü şadlıq məclisi qurulub şadlığa başladılar. Bu zaman bir el aşığı sazı əlində Şah İsmayıl qabağında dayandı, dedi:

– Qurban, icazə versən, bir el havası oxuyum.

Şah İsmayılın dövrəsi aşığa afərin dedilər. Şah İsmayıl dedi:

– Ay el anası, oxu görüm.

Aldı aşıq burda belə dedi:

Şah İsmayıl, yaşa Qızılbaş ilə,
Öyrənsin bülbüllər bizim dilləri.
Açılıb ölkədə təzəcə güllər,
Xoş keçsin ayları, uzun illəri.

Bizim ellər indi verib əl-ələ,
Düşmənin canına salıb vəlvələ.
Qardaşlıq dəmidir day indən belə,
Ucalsın səmaya bizim elləri.

Ayrılmasın, ellər bir-birindən,
Ayrılsalar, talar onları düşmən.
Ay mənim dərdimi oxuyan, bilən,
Solmasın bu elin açan gülləri.

Şah İsmayıl dedi:

– Məni istəyən aşığa külli ənam versin.

O qədər aşığa ənam verdilər, indiyə qədər heç aşıq belə yol aparmamışdır.

Şah İsmayıl heç vaxt doyunca istirahət eyləmirdi. Doyunca şadlıq etmirdi. İnsanlara fikir edirdi. Günlər, aylar, illər dolanıb. Şah İsmayıl bu günlərdə yaman uşaq arzusu edirdi. Çünki o zamana qədər ömrün cənglərdə sürmüşdür. Heç vaxt uşaq fikrində olmamışdı. Vəli, indi ürəkdən arzu edirdi ki, gözəl oğlu olaydı. Onda Şah İsmayılın 28 yaşı var idi. Vəli, 28 ili şad gün həsrətində qalmışdı. Atası düşmən əlində qalmışdır. Özü neçə müddət zindanlarda qalmışdı. Şah İsmayıl uşaq arzu eyləyir. Qəmli oturduğu yerdə gördü ki, dayələrdən biri gəldi. Dilə tutar-tutmaz dedi:

– Şah İsmayıl sağ olsun. Allah sənə bir oğlan mərhəmət eyləyib.

Şah İsmayıl bu xəbəri qarıdan eşidən bilmədi neyləsin. Əlin saldı cibinə, bir kisə o qarı arvada qızıl verdi. Bir azdan sonra gəldi uşağın başı üstə, gördü ki, Gülzarın uşağıdır. Gülzarın əlindən öpdü. Şah İsmayılın qəmi, qüssəsi bir qədər azaldı.

Bu yandan millət şadlıq edirdi. Bir neçə gündən sonra uşağa ad qoymaq günü gəldi, çatdı. Şah İsmayılın əmrinə görə şəhərlər, kəndlər bəzəndi, qonaqlıq başlandı. Şah İsmayılın arvadları Pəri, Ərəb yuxarıda oturublar. Ərəb uşağı növbə ilə əldən-ələ verir. Bir el aşığı durdu oxusun. Aldı görək burda nə dedi:

Xoş gəlibsən bu dünyaya,
Qədəmin mübarək olsun.
Səfa veribsən buraya,
Qədəmin mübarək olsun.

Allah adı dildə qalsın,
Adın oba, eldə qalsın.
Qılınc daim beldə qalsın,
Qədəmin mübarək olsun.

El-obadan sən ol hayıl,
Yüzlər ilə doyur sayıl.
Üzün gülsün, Şah İsmayıl,
Qədəmin mübarək olsun.

Bu sözü aşıq tamam eylədi. Ona külli ənam verdilər. Şah İsmayıl dedi:

– Bu oğlanın adın qoydum Şah Təhmasib Mirzə. Allah dalında dursun.

Məclis əhli bu ada razı oldular. Şadlıq oldu. Qaravullardan biri gəldi Şah İsmayılın hüzuruna. Onun qulağına dedi:

– Qurban, bir nəfər səfir gəlib, Osmanlıdan sizə gizlin sözü var.

Şah İsmayıl məclisi boşaltdı. Səfir gəldi Şah İsmayılın hüzuruna, Şah İsmayıla ehtiram eylədi. Sultan Səlimdən namə gətirmişdi. O naməni verdi Şah İsmayıla. Şah İsmayıl naməni alıb bir az onun boy-buxununa tamaşa eylədi. Sonra naməni oxumağa başladı. Sultan Səlim namədə yazmışdır: “Mən, Sultan Səlim, böyük Osmanlı padşahı ki, həmişə çalışmışam türklər arasında birlik olsun, qardaşlıq olsun. İndi görürəm ki, siz özgələrə baxıb ədavət edirsiz. Amadə olun ki, sizə dərs vermək lazımdır”.

Şah İsmayıl bilirdi ki, Sultan Səlim acıqlıdır. Məhəmməd xanın dərisinə saman doldurub Şah İsmayıla göndərmişdir. Şah İsmayıl namənin cavabında yazdı: “Necə salahdır, elə eylə”. Səfir naməni aldı, qəsrdən çıxdı, atına mindi. Türkiyə ölkəsinə sarı yollandı. Şah İsmayıl fikir içində qərq oldu. Bu güclü paşa ilə necə vuruşsun. Xoy yaxınlığında olan Çaldıran məhəlləsində iki ordu düzəngahları bürümüşdür. Şah İsmayıl qoşunu bir tərəfdə, Sultan Səlim qoşunu bir tərəfdə. İki ləşkər bir neçə gün orada qaldı.

Bir gün Sultan Səlim həmlə verdi, bu yandan Şah İsmayıl həmlə verdi. İki qoşun düşdü bir-birinin canına, qırhaqır düşdü. Neçə aylar cəng oldu. Şah İsmayıl gördü ki, qoşun tab

gətirmədi, dala qayıdırlar. O yandan Gülzar, bu yandan Ərəb tək qalıb. Onları dala qaytardı ki, namusun düşmən əlinə keçməsin. Aşıq Qurbani həmən davada əsir oldu. Qoşun dala qayıtdı. Təbrizin yaxınlığında olan Ana Xatun məhəlləsinə qədər Sultan Səlimin qoşunu gəldi. Hər iki qoşun Ana Xatun məhəlləsində dayandılar. O qədər çəkmədi, Şah İsmayılın qoşunu təslim olub, bir qədəri də ölüb, bir qədəri də şəhərdən çıxmağa başladı. Azərbaycanın çox şəhərləri, kəndləri türklərin əlinə düşdü. Sultan Səlim məmurlara dedi:

– Türklərnən düz rəftar eyləyin, məbadə onları incidəsiz.

Bu yandan Şah İsmayıl öz oğlu Təhmasib Mirzəyə deyirdi:

– Əgər qəza məni öldürsə, Vətəndən yaxşı muğayət olasan.

Şah oğluna deyirdi. Oğlun bağrına basıb xəlvət xəzan olmuşdu. Bağda bir az sakit qalandan sonra sazı bağrına basıb görək qəmli, qüssəli halda nələr deyir:

Günüm gündən qaralandı,
Düşünürsənmi, Təhmasib.
Qəlbim yandı, yaralandı,
Düşünürsənmi, Təhmasib.

Azərbaycan, Azərbaycan,
Aralanmış bu iki can.
Bu dünyaya eylə elan,
Düşünürsənmi, Təhmasib.

İsmayılam, bax üzümə,
Qulaq versən bu sözümə.
Bir diqqətlə bax gözümə,
Düşünürsənmi, Təhmasıb.

Şah İsmayıl xırdaca oğlun qucaqlayıb bu cürə oxuyurdu. Görürdü ki, Ərəbin, Gülzarın gül rəngi solub, gözləri yaşlar içindədir.

Beləlikdə, indi eşidək Şah İsmayılın oğullarından.

Günlər, aylar, illər döndü. Yenə də bir gün ad qoymaq məclisi quruldu. Bu ad qoymaq üç uşaq üçün idi. Pəri və Ərəb doğandan sonra Gülzar yenə də bir oğlan doğdu. Qərar oldu ki, bu üç oğlana bir məclisdə ad qoysunlar.

Məclis qurulub bütün qonaqlar gəldilər. Dedilər:

– Ad qoymaq başlansın.

Pəridən olan oğlanın adın qoydular Sam Mirzə,Gülzarın oğlunun adın qoydular Bəhram Mirzə, Ərəbdən olan oğlanın adın qoydular Əlqas Mirzə.

Şah İsmayıl bu oğlanları üçün sazı aldı əlinə, görək burda nələr deyir:

Bu ölkəmiz sizə baxır,
Qoruyun bu ölkəmizi.
Zülüm bu ölkəni yaxır,
Qoruyun bu ölkəmizi.

Vətəni abad eyləyin,
Ürəkləri şad eyləyin.
Əsiri azad eyləyin,
Qoruyun bu ölkəmizi.

Unutmayın vətənimizi,
Daim geyin kəfənimizi.
Bilin xidmət edənizi,
Qoruyun bu ölkəmizi.

Vətəndi bizə iftixar,
Saxlayın onu yadigar.
Əgər ki olsaz bəxtiyar,
Qoruyun bu ölkəmizi.

Şah İsmayıl sözün qurtardı. Ürəyi yanırdı. Bədəni yaralı idi. Həkimlər, təbiblə ona çarə edə bilmədilər. Şah İsmayıl canın Yaradana təslim eylədi.

## QURBANİ

Günün hərəkətindən yer qızanda
Gen dünya başıma dar olacaqdır.
İsrafil götürüb Surun çalanda,
Rovşən gözlərimiz tar olacaqdır.

Alma bir meyvədi, təbi şirindi,
Heyva ribadı, qandı, irindi.
Danəsi həbibdi, həsbi dərindi,
Danəsi cəsəddə, nar olacaqdır.

Gözəllər təşbehdi dalın gülünə,
Uymaginan simasına, felinə.
Həvəslənib siqal vermə telinə,
Hər muyin məşhər günü bir mar olacaqdır.

Huşimdə sirqədi, sinəmdə dağdı,
Namusun bilməyənlər həmişə sağdı.
Dövlətdən qismətin beş arşın ağdır,
Çəkdiyin əməllər bütöv zay olacaqdır.

Yığılar məhluqat, qurular məhşər,
Sinələrdə kəfən, əllərdə dəftər.
Vay halına olsun, aşıq Ələsgər,
O gündə bəs halın necə olacaq?

Bəli, zaman o zamandı, ustaddar belə nəzmə çəkirlər, deyirlər, Qərədağ mahalında İri kəndində bir kət var, Baş İri deyillər adına. İki qərdəş var orda. Birinin adı Fəraməz bəydi, birinin adı Mirzalı bəydi. Mirzalı bəy Şah Abbasın yanında, əlbəttə məclisdə olar, vəkildi. Amma ömrünün son çağında Allah-tala muna bir dana övlad verib. Hardasa, biri görürsən bayram ayı olur, adını qoyurlar Bayram. Biri görürsən oruc-luxda olur, adın qoyurlar Oruc. Həlbəttə ki, Allah bu kişiyə

bir oğul kəramət eliyib, Qurban bayramında olmuşdu, Qurban ayında olmuşdu. Adını qoymuşdular Qurbani. Onda atası əlbəttə kətdə idi, qardaşına vəsiyyət elədi:

– Qərdəş, mən gedirəm, çün mənim işim dövlət işidi, dövlət işinin ixtiyaratı adamın özündə olmaz, dövlətin əlindədir. Hara gedəsən, gərəh gedəsən. Gecə yatmayasan, gərəh yatmayasan. Mən bu işimi tapşırıram sənə, mədrəsəyə, filananına yetişəsən.

Deyir:

– Baş üstə.

Qurbanini qoyublar, mədrəsədə dərs oxuyur. Bu zaman məktəb deyirdilər, mədrəsəxanada oxuyur. De, bir il, de, iki il, de, üç il... Qurbaninin təlimə on iki sinni var. Cümə axşamıdı, qədimnən bu cümələr bayramdı, hər yan tətil olar, mədrəsələr bağlı olar. Gedillər, gəzmağa, sayahata. Cümə axşamıydı, naharıydı, dərsdən qurturdular. Qurbani dedi:

– Bu günnəri böyüh bayramdı (yoldaşlarına dedi). Bizim bu kəndin yanında ocax var, ziyaratgah var, Ərənlər yatağı deyirlər. Gəlin biz də bir gedəh ora gəzmağa, səyahata.

Yoldaşları dedi:

– Eybi yox, gedəh.

Beş nəfər oldular, üş nəfər oldular, on nəfər oldular, durdular. Hərə evinnən bir şey, azuqə götürdü. Qurbani gəldi evlərinə, anasına dedi:

– Anacan, böyünnəri biz gecə gedəcəyix Ərənlər yatağına. Bu gecə gəlməsəm, niyaran qalma. Gedirix ziyarata.

Oğlanlar az gəldi. Hərə bir az azuqə götürüb, düşdülər yola. Ziyaratgah kətdən indi iki ağaş, ağaş yarımdı, necə burda Eynalı var, ya digəri ölçülü bir yerdi. Yetirdilər haman yerə ki, ziyaratgahdı. Dövrəsində ağaşdan, sudan, filannan var. Harda su var, orda ağaş olar, göy-göyərti olar. Ərənlər yatağının qabağında bir dənə bulax var, sudu da su. Həlbəttə,

yetirib sudan üzlərinə bir səfa verdilər. Günün batar çağıydı, şamı-zadı yedilər. Qurbani dedi:

– Hərənin bir niyyəti olar. Gətirin bu sudan bir dəstəmaz alax, öz namazımızdan sonra adama da bir ikicə rikət əlavə hacət namazı qılax, Allah-tala bəlkə bizi burada lütf eliyə.

Dedilər:

– Baş üstə.

Dəstəmazı aldılar, hərə bir tərəfdə namazın qılıb. Əmma Qurbani mehrab ki, vardı Ərənlər yatağında mərsiyə-filan olardı, mehrab tərəfindən namazı qılandan sonra başın qoydu yerə, xurreyi-xab elədi. Amma yuxulamamışdan bu sözü dedi yoldaşlarına:

– Gecə kim yuxuda nəmənə görsə, yadında saxlasın.

Dedilər:

– Baş üstə.

Xurreyi-xaba doldular. Ayə, gecə olub, Quraninin üstünə kim sayə salıb? Ərşin sütunu, yerin ləngəri, mərd igidin dizinin qüvvəti mərd Murtəza Əli. Üz dolandırdı:

– Qurbani!

– Bəli.

– Al bu badəni, mənim əlimnən iç!

Qurbani gördü, bir seyyidi-alicənab əyləşib başı üstə, mübarək bir bilur dəsdində cam tutub. Aldı ağasının əlinnən bu badəni, işdi. Badə, nə badə? Baldan şirindi yüz kərə.

Dedi:

– Ağa, sənə qurban olum, bundan birin də verəsən.

Dedi:

– Oğul, birin də işsən, o mətləb ki var, mətləbinə çatmazsan. Leyli, Məcnun, Şirin, Fərhad bu badədən iki dənə işdilər, murad-mətləblərinə çatmadılar. Bax, barmağınmın arasından gör nə görəssən?

Qurbaninin... gözü düşəndə gördü, ucalar alçaxlandı, alçaxlar ucalandı. Çox uzax yerdə bir şəhər görsənir. Şəhrin kənarında bir səxtuman, apartman var. Bir dənə qız əyləşib küləfrəngidə. Allah-talanın kərəmi cuşa gələndə bu qızı xəlq eliyib. Buyurdu:

– Oğul, görürsən?

Ərz elədi:

– Bəli. O şəhəri ki, görürsən, ora Gəncədi, Bakının Gəncəsi.

– Çox yaxşı.

– O qızı ki görürsən, o Gəncənin bir hökuməti var. Adı Abdullah bəylərbəyidi. Qızın adı Pəri xanımdı, o Abdullah bəylərbəyinin bacısıdır. O sənin məşuqəndi. Day, dərsin dibi yoxdur, day nə qədə dərs oxuyasan? Day, dərsin bunacan bəsdi. Bu, sənin alnıvın yazısıdır. Harda da çağırsan, qorxmaginən, mən dadıva yetişərəm.

Qurbani o qədə qıza əlavə yetirdi, o qədər qıza əlavə yetirdi, ayılanda gördü ağası qayıbdı. Amma uşaxlar yatışıblar, gecədi. Çün bu badə içib, ustaddar belə nəzmə çəkirlər ki, bu badədən içənlər, elə adam var, üş günəcən ayılmaz, elə adam var qırx səkkiz saatacan ayılmaz. Qurbani gözün aşdı, gördü gecədi, təzədən başın qoydu yerə. Ağa, o vaxt oldu səhər-tezdəndi, sübh namazının vəqtidir. Uşaxlar durdular əyağa, dəstəmaz alıb, namaz qıldılar. Gördülər, ay Allah, bu bəy oğlu, xan oğlu durmadı. Uşaxların biri yavaşca gəldi:

– Dadaş, ağa!

– Bəli.

– Nəmazın getdi qəzaya, gün çıxıb, dur əyağa.

Qurbani dik qalxdı yerindən, dəstəmazın alıb, nəmazın qıldı. Qurbaninin birdən yadına düşdü ki, mən ərz elədim, hər kim yuxuda nə görsə, desin. Dedi:

– Kim nə görüb?

Hərə bir söz dedi. Hərə bir söz dedi, növbə yetirdi Qurbaniyə.

Dedilər:

– Sən nə gördün?

Üz dolandırdı:

– Əgər mən gördüyümü dilimnən desəm, Səməndər kimi od tutub yanaram.

Uşaxların bəzisi məsxərəyə qoydu, bəzisi güldü. Bunun bir yoldaşı vardı ki, üz dolandırdı, dedi:

– Sən nəmənə görmüsən, de.

Qurbani orda bir dəstgah başdıyır. Day, Qurbaninin orda sazı yoxdu. Nə görüb, nə deyir, mən də deyim cəmi bu navara qulaq asannarın sağlığına:

Anamın bətnində bir qətrə idim,
Bir can əhli gördüm, cana yetişdim.
Əldən-ələ, qabdan-qaba süzüldüm,
Bir qətreydim, mən ümmana yetişdim.

Uşaxların bəzisi qah-qah çəhdilər, güldülər. Allah heş kimin təhnədə çörəyin bir etməsin. Çün təhnədə bir çörəyi olsa, yiyər qurtular, yeməsə, acından ölər. Acından ölər. Oğlan ki, bu kişinin ömrünün axırlarında olmuşdu, öz yoldaşları heyfsləndilər ki, heyf olsun bu oğlana bu gecə yatmaxnan burda biçarənin başına hava gəldi. Qah-qah çəkib güldülər, amma sözdən baş tapammaadılar. Üz dolandırdı o biri:

– Xan oğlu, dəxi nə demək istirsən de, olların gülmağın baxma. Nəmənə görmüsən, de.

Dedi:

"Bəli" dedim, bəlasına bələndim,
Narın oldum, fəlasından ələndim.
Yeri-göyü yaradandan dilədim,
Bu mərifətdə mən bu kana yetişdim.

Bu ki deyir, bəli... Bir adam ki bir işə "bəli" desə, hər zəhmətinə gərək dözə. Odu ki, bu sözü oxuyur.

Yoldaşlarının biri dedi:

– Uşaxlar, durun əyağa. Gedax bunun nənəsinə xəbər verax, əmisinə xəbər verax, görsün ki, munun başına hava gəlib. Salallar bu işi bizim əyağımıza, bizim başımıza, bizi döydürəllər, qırdırallar, ya zindana saldırallar, ya cərimə elətdirəllər. Durun, gedax munun nənəsinə deyax. Görsünnər ki, bizdə təxsir yoxdu. Gecə bunun başına hava gəlib.

O yoldaşı dolandırdı:

– Xan oğlu!

– Bəli.

– Daxı nə görmüsən?

Deyir, sözünün xatəməsin, onu da "Ceyran Kərəmi"-yənən deyir.

Amma Qurbaninin sinəsindən sözlər kərvan-kərvan gəlir keçir. Sizə ərz eləmişəm, bu ki, badə içib rəngi pörtüküb, halı özündə dəyil. İstiyir dursun əyağa, yoldaşları yapışdılar, gördülər səndəl-məndəl vurur. Yapışdılar qolundan gətdilər haman çeşmənin başında otdular. Ərz elədim xidmətivə, Qurbaninin sözü çoxdu, çün badə içib. Qız nəzərinnən keçir, deyir, gecə mən vaqeədə qız gördüm. Çox narahatdı. Amma o uşaxlardan biri gəlirdi Qurbaninin nənəsi bizim dildə çörək yapırdı. Dedilər:

– Ana, sənin oğlun ki, dünən axşam biznən gedib Ərənlər Yatağına gecə biz yatmışıx orda, səhər-səhər oğlan namaza da dura bilməmişdi, bir saat sora durdu əyağa. Durannan səndil-məndil vurur.

Elə əli-əyağı xəmir, alayarımçıq yerindən qalxdı, başı açıq həmən Ərənlər Yatağına üz qoyub. Qurbani gördü anası gəlir, elə gəlir ki, əgər dəysə yerə, tikə-tikə olardı. Durub əyağa bala-bala gəlir anasına sarı. Ana-bala hər ikisi qol-boyun

oldular. Qurbaninin nənəsi gördü, Qurbanidən bir ətir iyi gəlir, bir gözəl iyi gəlir.

– Oğul!

– Bəli.

– Deyirlər, sən burda yuxudan durannan bəzi-bəzi sözləri deyillər, hən?

Üz dolandırdı:

– Ana, gedax evə, sənə bir söz deyəcəm.

Qurbani yapışıb əlinnən, ana-bala yetirirlər evə.

– Oğul!

– Bəli.

– De görüm, sən o yoldaşlarıva dediyin sözlər nəmənədi? Nə cür deyibsən? Olardan bir-iki kəlmə də məə de görüm. Deyirlər, sənin başuva elə bil hava gəlib.

Qurbani:

– Qulax asginən, deyim da:

Gönül, bəxtim mənə sarı yürüdü,
Orda bir ölkə var, adı Gəncə hey.
Gözəlləri, məhbubları, xubları,
Xubca batıb malü-mülkə onca hey.

Anası üz dolandırdı:

– Oğul!

– Bəli.

– Bu sözlərdən ki deyirsən, o yoldaşlarıva da bu sözlərdən demişdin?

Üz dolandırdı:

– Ana, xeyir. Yoldaşlarıma ayrı söz demişdim. Çün demişdim hər kim yuxuda nə görsə, desin. Məndən soruşdular, nə gördün, mən də gördüxlərimdən bir-ikicə kəlmə demişəm.

– Çox yaxşı, daxi nəmənə deyacaxsan mənə?

Deyir:

– Ana, o qız ki, alacağam Gəncə şəhrindədi.

Anası dedi:

– Oğul, bu şəhərdə, bu məmləkətdə hər kimin qızın desən, gedərəm qapısınnan girrəm, qorxma, nə qədəri desən də, xərş qoyaram. Ananın-atanın arzusudu. Əvvəla, Allah-tala mənə bir evlad verdin, o qədəri öldürmə ki, mən munun toyun eliyim onnan soora. Sənin dədən, əmin, tayfan hammız gözdüyürüx ki, inşallah sənə bir toy eliyəcıx, tarixlərə yazılsın. Sən də elə bil özuu dağa-daşa atsan, hər kimin qızın desən, allam.

Qurbani dedi:

Əmmək üçün ləblərinin abı var,
Yatmax üçün gözlərinin xabı var.
Hər kəsənin tayı, tuşu, babı var,
Yetərinən qoymax olmaz pəncəyi.

Hər kəsin tay-tuşu, babı var. Mən hər kəsin qapısın döyərəm, hər qızı qəbul elərəm? Hər kəsin tay-tuşu, babı var.

Dedi:

– Axı, sənə kim nişan verdi onu? Hardan dolandırdın, hardan gördün onu?

Dedi:

– Qulaq as, ərz eliyim:

Qurbaniyəm, muradıma varmadım,
Əl atıban, dəstə gülün dərmədim.
İran gəzdim, Turan gəzdim, görmədim,
Gözəllikdə, məhbubluqda onca hey.

– Elə bir gözəl görə bilmədim, ana.

Dedi:

– Yaxşı oğul, çox yaxşı.

– Ana!

– Bəli.

– Eliyə biləsən, mənə pul verəsən, özümə bir saz alam.

– Saz?

– Hə.

– Qoy, bala, əmivə deyim, onnan sora.

Bəli, deyir, uşaxlar kətdə bir-birinə xəbər verdi. O dedi, oğlan, bilirsiz nə var? Bəli, Qurbaninin bu gecə başına hava gəlib. Bəli, cəmaət bir-birinə dəydi.

Bəli, Qurbani o vəxtindəki ərz olundu Allahın xidmətinə Fəraməz bəy eşitdi, bildi. Məsələni düzdi ki, bu aşıxlıx Adəm atanın zamanından başdıyır. Amma bir dənə söz var, eşidib, bilənlər bilirlər, məsələm, o böyük xanə vadələrdən heş bir biədəb üzir bir iş çıxmaz. Şayət, böyük xanə vadələrdən də bir dənəsi məsələm, bir övladı aşıx olsa, bu məşqə düşsə yığışallar, dəlil-nəsihət diyəllər. Baba, bu bizə toxunar. Sən bu işi görməginən. Fəraməz bəy dedi, ey vay, mənim qərdəş oğlum əgər oxuya, aşıxlıx məşqinə düşsə, bizim bu məntəqədə bütov abırhəyamız gedər. Görəsən, neyniyim, nə cür eliyim? Gəldi, qapıdan varid oldu içəriyə. Gördü, bəli, bəqioğlu çörək yapır, Qurbani də oturub, amma rəh verib rəh alır. Qurbaninin yanaxları elə biləsən, qıpqırmızı qızarıpdı. Yerindən qalxdı əyağa:

– Əmi, saləməleyküm.

– Əleykümə salam.

– Qərdəşoğlu.

– Bəli.

–Bir söz eşitmişəm. Nəmənədi?

Üz dolandırdı:

– Deyillər, sən dəli olmusan, başıva hava gəlib. Bəzi sözləri deyirsən.

Dedi:

– Əmi, belə söz demərəm ki, sənə toxuna, mənə toxuna, xanə-vadəmizə toxuna.

Dedi:

– Deyillər, axı aşıx olmusan.

Dedi:

– Aşıx var, aşıx var. Bir aşıx var səngər aşığidi, bir aşıx var İmam Hüseyin kimi aşıxdı. Aşiqinən aşıx iki dənədi, üş dənədi.

– Sən hansı sözlərdən deyə bilərsən? Hangi sözləri diyacaxsan ki, bizə toxunmasın?

Üz dolandırdı:

– Əvvəlan, mən aşıxlıx eləmirəm. Mənim ki, başıma o bəd namə gəlib onu diyəcağam.

– Başıva nə oyun gəlib? Onnan iki kəlmə də mənə diyəsən də.

Dedi:

– Əmi, qulaq assan, diyərəm.

Götürüb görax, əmisinə nə deyirdi, hammı eşidənlər sağlığına:

Yatmış idim xabı-qəflət içində,
Nə yatmısan, qafil, oyan, dedilər.
Oyanıbən həx söylədim sözimi,
Doxsan min kəlməni mənə bəyan dedilər.

Qurbaninin əmisi gördi, deyir, yəni məsələmnəmənə ki, qismətində sözlər var, neçə kəlmə ayeyi-Quran var, onların hammısını mənə bəyan dedilər. Bildim, yəni onları. Gördü, xeyir, tutan bir söz dəyil.

– Əmi, söz xoşuva gəldi? Sənnən mənim bir dənə dərxasım var.

– Üz dolandırdı:

– Nəmənədi?

Dedi:

– Əgər söz xoşuna gəlsə, mən eşitmişəm ki, bizim nəslimizdə söz diyəcək varmış. Mənim dədəmin bir dənə bala cürə sazı varmış. Saxlıyır mahatın, o yan bu yana aparanda dəri üzündən keçəndə, danışığı dayandırıb sazı çalarmış. Həmən

sazı çiyninə dastan diyərmiş. Məxluqun başı qarışarmış, dəryanın xofu tutmazdi biləl追rin.

– Hanı, əmi, saz?

– İşqafda qalır.

– O işqafın da açarı səndədi. Səndən bir dənə xaişim var ki, o işqafdan sazı açarın verəsən mənə, o sazı götürəm.

Dedi:

– Hələ saz söhbəti dəyil. De görüm, dahı nə deyiblər sənə? Sözlərivi deginan eybi yoxdu, sazı da verəcəm sənə.

Belə deyir:

Oyanıb qəflətdən aşdım gözimi,
Ərənlərin tayına sürtdüm üzümi.
Soruşdular həx söylədim sözümi,
Əmi, məğribdən məşriqə mənə rövşən dedilər.

Fəraməz bəy gördi, elə bil vergi veriblər beləsinə.

– Bala!

– Hə.

– Axı, bu sözləri sənə diyən kim idi? Bu sözləri ki, deyirsən, soruşdular həx söylədim sözimi, səndən kim söz soruşurdi?

Üz dolandırdı:

– Əmi, qulaq as,diyim:

Qurbaniyəm, çıxdım dağ səhrasına,
Quşimal verdilər gönül pasına.
Sirrimi dedim Qurandakı yasinə,
O durana Şahi-Mərdan dedilər.

Mənnən ki, nəmənə söz soruşurdi, nəmənə ki badə vermişdi mənə, o ağaların ağası ibarətdi Həzrəti Əlidən. Onu gördüm.

Çəhdi qərdəşoğlunun alnından öpdi. O üzündən, bu üzündən öpdi:

– Oğul!

– Bəli.

– Amma bir dənə söz var axı.

– Nəmənədi?

Dedi:

– Mən ölüm bu sözləri sən, Ərənlər Yatağında örgənibsən? Axı, mən səni qoymuşam mədrəsiyə. Bəlkəm, vallah, sənə bir dənə bu cür sözlər örgədib.

Dedi:

– Xeyr, mənə bu gecə orda vergi veriblər.

Fəraməz bəy fikrə düşdü. Dedi, bəs neynəginən? Bu, sazı alacax, ayrı yerrərə gedəcax. Mən baxdım, qabağın zəncirriyəsən, bu oğlan durmaz. Bunun da saz götürmağı bizim abrımızı aparacax. Yaxçısı budu, neynəginən? Bu işi yıx mollanın boynuna ki, ibadət, dərs verən müəllim örgədib.

Gədə yetirdi evlərinə. İndi bir dənə qoyun kəsdilər, ya bir dənə quzu kəsdilər, onnan işim yox. Kəndin o başbilənlərin, ağsəqqələrin, böyühlərin bu gecə şama Fəraməz bəy dəvət elədi. Həman bu mollanı da çağırdı ki, Qurbaniyə dərs verən müəllimi. Ağa, cəmahət şam vaxtiydi. Gəldilər bir-bir.

– Salam.

– Salam.

Yeyişdilər, şam gəldi. Yedilər, işdilər. Müəllim yuxarı başda əyləşib, amma Qurbani hələ bu məclisə gəlmiyib. Qurbani əvlərindədir. Fikr eliyir görəsən, Allah, əmim sazı mənə verəcax, ya vermiyəcax? Gecə dəstəxan yığışandan sonra molla üz dolandırdı:

– Fəraməz bəy!

– Bəli.

– Əgər toydu diyax, Allah mübarək eləsin, Allah rəhmət eləsin, ehsandı diyax, Allah qəbul eləsin. Bu işlərin hansıdı?

Dedi:

– O işlərin heş biri dəyil. İsdirəm burda cəmahətin yanında gülə bu kənd əhlisi, sən mənim qərdəş oğluma bir ada-

mın adamı burda olmasa, təqib eləməsə, malla çəkər onu ayrı yollara?

Malla yazıx, novdan budu kimi dondu:

– Bu nə sözdü sən deyirsən? Bir dənə bizə şam verdin, isdiyirsən bizim boynumuza bir dənə söz gətirəsən. Boynumuza yüh verəsən? Dolandırdın əl-əyağıvı, dağıtma. İsfahanııyıx, kəndisi yaxın. İndi ələm gələr bura, deyərəm sənə.

Camahat dedi:

– Həə, bular belədilər, mallalar.

Yerindən qalxdı əyağə, nökərinə üz dolandırdı:

– Yeri get, Qurbanini çağır, gəlsin bu məclisə.

Nökər gəldi qapıdan Qurbanini çağırdi, dedi:

– Bir dənə qonaxlıx eliyib əmin. Kəndin o baş bilənlərin, sənin o mallan, o müəllim ki var dərs verib, o da ordadı. Gəlginən, qorxub eləmə haa. Səndə bir heç işqal yoxdu. Mallanın, diyəsən, bir az işqali var, kötək yeri var.

Qurbani durdu əyağə, libasların geyindi əyninə, qapını aşdı:

– Salam əleykim!

– Ələykümə salam!

Gördü, bəli, kəndin ağsaqqallari, bir də onun bu müəllimi-mollası yuxarı başda əyləşib. Yuxarı başdan yavaşca əyləşdi. Fəraməz bəy üz dolandırdi.

– Mən heş bu işi indiyəcən bax, faş eləməmişdim. Dur əyağa, oğul, bax bu açar, bu da sən.

Qurbani yerindən qaxdi əyağə. Neçə kəlmə ki, şeirləri oxuyub, buna qərətyazı oxuyupdu. İşqapı açıb, sazı götürdü. Saz da neçə müddətdi qalmışdı orda. Bala-bala sazın tozun-filanın aldi, simlərin kökü elədi, varid oldu məclisə. Malla dedi:

– Ağayar, özüğuz bilirsuz ki, mən çalqiyə müxalifəm. Bu kişi görün mənə nə ad qoyub? Deyir, sən buna aşıxlıx dərsi vermisən.

Fəraməz bəy üz dolandırdı:

– Qərdəşoğlu!

– Bəli.

– Günün ki, o sözlərdən oxuyurdun, bir üş-dörd dənə də burda oxi. Bunlar görsinlər ki, nəyin kimidi.

Fəraməz bəy eliyib ki, bu oğlan aşıxlığa gedəcax, qoy bunu bir nəxşə salım ki, abırımız getməsin. Bilsinlər ki, buna vergi verilipdi. Bilirdi elə buna dərdi kim verib. Qurbani o vəxtində sazı çəhdi sinəsi üsdə:

Cümə günü vardım gönül şəhrinə,

(Çünki soruşurlar. Əmisi dedi ki, sən bu sözləri ki, günüz mənə demisən, o sözlərdən deginan haa. Gözdə mənə əvvəl dediğın sözlərdən haa onca hey, onca hey bu sözlərdən dimə.

Qurbani bilir ki, hər məclisin öz sözü var. Hər məclisin özünün bir dastanı var. Qurbani sazı saldı çiyninə, həmin sazı şövqi bir yandan həmi də gördi, bu məclisdə ki ağyan ki, əyləşib hammısı danəndə, bilən adamlardı. Odu ki, ayrı söz başlamadı. Bir həqiqi söz var bir məcazi. Bu sözlər həqiqisi.)

Gördüm o şəhridə şahlar şahı var.
Üş yüz altmış altı küçəsinin gəzib, seyr etdim,
Dedilər, qırx səkkiz dəm-dəzgahı var.

– Həftəmi?

– Bəli.

İlimizdə qırx səkkiz dənə həftə var oları deyir. Üş yüz altmış altı da gün də günnərimizdi. Olar da günnərimizi deyir. Malla bir əyaxdan başa baxdi. Həman müəllim Qurbaniyə dedi:

– Əgər qəlbində bu seri getsə, sözlədi bütün söz olsa, eybi yoxdu, mən öhdəmə çəkərəm ki, mən bu sözləri götürmüşəm.

Üz dolandırdı Fəraməz bəy:

– Ağa, di buyur, görürsən, dərs əvəzinə mənim qərdəş oğluma aşıxlıx dərsi vermisən.

Dedi:

– Eybi yoxdu. Bu sözlər bu cür getsin başa. Mən alıram öhdəmə ki, eybi yoxdu, mən bütün aşıxlıx dərsi vermişəm ona.

Qurbani sözün dübarəsin deyir:

Bir molla görmüşəm başı bənəhli,
Qiyamətin günündə o molla bizə gərəkdi.
Amma bir məçiddərinə vardı, min bir dirəkdi,
Hər yanında namaz qılsan, şəcdəgahı var.

Məkkənin evini deyir haa. Molla yuxarı başdan əndəndi. Dedi:

– Sən öləsən, bu elə sözlər deyir ki, hələ mən fəliyəm. Mənnən on qlaz da artıx savadı olan adam bu sözləri bilməz. Amma bu desin ki, kaş ki mənim ustam elə budi.

– Oğul.

– Bəli.

Molla burda dilləndi:

– Oğul.

– Bəli.

– Axı sən ki, bu sözlərə gülüsən, bu sazı niyə çalırsan?

– Nə sazı?

Dedi:

– Əlindəki sazu saz, axı sən ki, bu sözlərə gülüsən, günahdı, sən niyə çalırsan?

– Deməli, saz çalmaz günahdı?

– Hə.

– Özgənin həqqini yemax səvapdi? Qulaq as deyim ki, saz çalmax günahdı, ya sevapdı.

Yeriyib-yeriyib tuş oldum şaha,
Ərənlər sərvəri o qibləgaha.
Qurbaniyəm, düz deyirsən, batdım külli-günaha,
Cəmi günahların bir Allahı var.

Mən ki saz çalıram, saz Allahın özünə lazehdi. Allahın kərəmi böyikdi, on səkkiz min aləmi yox yerdən xəlq eliyip. Allah bəşəri yaratmıyıb ki, cəhənnəmdə yandırsın. Allahın güzəşdi var. Allah güzəşt eləsin. Odu ki, deyir, Qurbaniyəm, batdım külli-günaha. Sən diyən o sözü, amma cəmi günahların bir Allahı var.

Qurbani keşdi əyləşdi, icazə verdilər, bir tərəfdən əyləşdi. Əmisi dedi:

– Qərdəşoğlu!

– Bəli.

Dedi:

– Çün mənim sən diyən elə savadım yoxdi. Sənin o pünizki sözlərinnən mən baş tapmamışam. Əgərə ki, o pünizki sözləri ki, mənə deyirsən, mən baxıram bu Ağa Mirzə ki sənə müəllimdi, dərs deyir, bu sənin sözlərivi məddi-məni eliyir.

Çünki Qurbaninin sözünün ara kəlməsində deyir, bir molla görmüşəm başı bənəhli, onu Peygambərüs-salam deyir. Qiyamətin günü bizə gərəhdi. Molla buların mənasın deyib. Molla deyib cəmahət gülür. Deyir, eybi yoxdu, bir movqeyi mən örgətmişəm boynuma qalar. Mən pis yola deməmişəm ki. Bu sözləri ki, buna örgətmişəm, bular yap yaxçı sözlərdi.

Dedi:

– Günüz, qərdeş oğlu, mən o sözləri məna eliyəmmədim. Sən o sözləri burda diyəsən, bu Ağa Mirzə məni eliyə, biz də görax nəmənədi bu sözlər.

Qurbani dedi:

– Baş üstə.

Qurbani istiyirdi günüz o əmisinə dediğı sözləri dibarədən bu məclisdə desin. Dedi:

Yatmış idim xabı-qəflət içində,
Nə yatmısan, qafil, oyan, dedilər.

Biri əlində tutmuş idi gülicen-cami,
O gələnə Şahı-Mərdan dedilər.

Molla gördü qəribə sözdü. Üz dolandırdı:

– Oğul.

– Hə.

– Qərdəşoğlu, günüz ki, bu sözləri ki deyirdin mənə, mən oların məddi-mənasınnan baş tapammadım.

Elə bil isdiyir ki, arının yuvasına çöp uzatsın. Odur ki, deyir, mən baş tapammadım. Deyir:

– Qoy camahət bilsin, sənə vergi verilib.

Molla dedi:

– Oğul, dedginən. Nə qədər diyəcaxsan diginan.

Qurbani deyir:

Oyanıb qəflətdən aşdim gözümi,
Ərənlər tayına sürtdüm üzümi.
Soruşdular, həx söylədim sözümi,
Məğribdən məşrikə mənə roşən veriblər.

Əlbəttə, sözü əhli-xiblətinə desən, sözdən baş tapar ki, nə deyirsən. Əhli-xibləsi olmasa heş yerində də baş tapmaz ki.

Bəli, o vaxtın ki, söhbətimiz həmin ki salmənzil qalıb. Qurbani isdiyir sözünün xətmi-kəlməsini, görax nə deyirdi, mən də deyim tamam navara qulaq asanlar sağlığına:

Nə yatıbsan, Qurbani, qəflətdən oyan,
Həqqin buyurduğunu sən eylə bəyan.
Amma bir əlində tutmuşdu puli-zəncam.
O qərələr seyidi-əzcam dedilər.

Söz tamam, vəssalam. Molla qərdeşim dedi:

– Ağa, hara gedirsən get, deginən. Eybi yoxdu, bu sözləri mən demişəm buna.

Qurbani burda sözlərini tamam eliyipdi. O gecə qonalıx tamam oldi. Vər amma söz buradadı. Qurbani gəldi evlərinə. Sazı da kı əmisindən geri alıp, anasına dedi:

– Ana.

– Bəli.

Dedi:

– Ana, bu gecəni mənə müxtəsər yol sənədivün üsdə eliyəsən, səhər mən gedəcağam.

– Oğul, hara gedəcaxsan?

Dedi:

–Gedəcağam da. Hərənin bir qisməti var da. Hara qismət olsa, gedəcağam ora.

Anası gecəni sübhə kimin yatmıyıb. Ərz eləmişəm, Allah heç sizin pəhrizdə çörəyin bir eləməsin. Yiyər qutular, yiməsə acından ölər. O vaxtında səhərə kimin Allah, görəsən, mən bunu kimə tapşırim? Axı kimə ərxeyin olum? Bu çıxıb gedəcax. Bunun başından bu sovdanı necə bir nəfər çıxartmadı ki, mənim bu oğlum çöllərə düşmiyə. Sözünün pis vaxtidi. Səhəri vəxtlidi. Durdi, üş-dört dənə kökə yapdi. Amma buların kənddərində bir dənə tacir var. Bizim dilimizdə alverçi diyir. Ərz qəza matah bağlıyıb, isdiyir getsin. Neçə məmləkətdara gedəcax. Birdən yadına düşdi. Mən aparım bu oğlumu tapşırım haman bu sovdəgərə, bəlkə heş Gəncə şəhrinə aparmıyax. Aparax ayrı məmləkətdərdə, ayrı yerlərdə beş-on gün dolandırax, bəlkə bu sovdalıx onun başından rədd olub, çıxa gedə. Səhər tezdəndi, Qurbani durdi əyağa. Dəstəmazı alıb namazı qıldı. Anasına üz dolandırdı:

– Ana!

– Bəli.

– İcazə verirsən?

Üz dolandırdı:

– Mən səni aparıb sovdəgara tapşırram, sən bu dərsləri ötəri töhməginən, gedəcaxsan, aparıb tapşırım sovdəgara. Sovdəgar burdan gedəcaxdı.

Gətdi həman sovdəgarın evinə. Sovdəgarın matahı bağlanıb, isdiyir bala-bala sovdəgarın qəfləsi açılıb yola düşsün.

– Salam!
– Əleykümə salam!
Sovdəgərin gözü düşəndə gördü, hə, Mirzəli bəyin oğlu Qurbanidi. Amma əlində də bir dənə sazı var.
– Oğul!
– Bəli!
– Hara gedəcaxsan?
– İsdiyirəm Gəncəyə gedəm sizinən.
– Gəncəyə, hə? Lap yaxşı. Ana, sən nə üçün gəlmisən?
Ərz elədi:
– Bu oğlanı tapşıram sənə.
– Narahatçılıx-zad hardan verdin sənə?
Üz dolandırdı, qulaq asginən. Qurbaninin anası zilflərinin cütdəyip, götürüb görax, Qurbanini sovdəgərə nə cür tapşırır:

Başına döndüyüm sovdəgərbaşi,
Can sənin, can balamın, əmanət.
İnnən belə ağlaram, didəmin gələr qanli yaşi,
Can sənin, can balamın, əmanət.

Üz dolandırdı:
– Ana, müsafirətə gedənin dalısıncan ağlamazlar. Müsafirətə gedənin dalısıycan behkəkçilik olmaz. Çün narahat gedər. Qorxmaginən, sən nə cür oğluvu nə cür istirəhatdıxda saxlasan, mən də səndən yaxçı saxlıyacağam.
– Niyə?
– Bu xan oğludu, bəy oğludu.
Üz dolandırdı, qulaq asginən:

Yaxşı olar hər iyidin vətəni,
Axtarmazlar qürbət yerdə itəni.
Qızılgül yerinə çalıb tikanı,
Can sənin, can balamın, əmanət.

– Çünki bu oğlan vətənində qalseydi, indi ki, mən də qocalmışam öləndə bunun qabağında can verəcəyik. Aparır-

san ki, ayrı yerrərə amanın bir günüdü haa, özünü də qəyterib gətirəcəksən, haa....

Üz dolandırdı:

– Ana, heş narahat olmaginan. Nə gecələr keşik qoyacam, nə quru yerdə yatırdacam, nə çörəyin vəxtin qoyacağam yisin. Heş narahat olmaginan.

Amma qız istiyirdi azad sözünün xülasəsini desin. Qurbaninin anası sözün xatəməyə yetirib. O vaxtında ərz elədim, sovdəgərin qəfləgatı yollamışdi, sovdagər Qurbaniyə bir dənə at verir. Bala-bala bir dənə günə bir mənzil təbliği-nazir, bir orda, bir burda,o zaman ayınan, ilinən tuğl olmasın. Əlbəttə, İrandan Gənciyə kimi burdan ərazi addamax o zaman çox çəhməzdi. On gün çəhdi, beş gün çəhdi, neçə gün çəhdi onnan işimiz yoxdu. Amma sovdəgər Qurbaninin anasının sözünə görə, Gəncəyə gedəcax məsələn, bizim dil ora gedəcaxdı, ora getmədi. Bir söz dedi anasi, aparıb beş-on gün dolandırasan, bu sövda bunun başından çıxa gedə. O gün ki, gedəcaxdılar məsələn, Təbrizdən çıxıb gedəcaxdılar Culfiya, o gün getdilər Xoya. Bir gecə qaldılar orda, ordan getdilər Şapura. Şapurdan da, məsələn, Nizaya, belə. Neçə gün dolandı, onnan sora Qurbani narahatdi. Üz dolandırdı bu kişinin bir sərdəstə qulamlarına. Qəflə-qatır sahuzar idi, üz dolandırdı:

– Qardaş!

– Bəli.

– Bu Gəncə məmləkətinə hareynən gedək?

Dedi:

– Oğul, Gəncə məmləkətinə burdan isteyirsən Gəncə şəhrinə gedəsən?

– Nə getmiyəcağam, istəyirəm soruşam.

Dedi:

– Hə.

– Əgər biz əvvəldən ki, istədıx Qaradağın başında çıxdıx, Gəncəyə getsəydıx,elə üş günə gedərdıx ordan, ya iki günə gedərdıx ordan. Yəni dolanıb gəldıx saldıx bura. Ayıldıx ki, Salmas mahalına tərəf.

– İndi bəs nə cür olacax?

Dedi:

– Nəmənədi?

Dedi:

– Allahdan üzün gizlətməyəcağam. Amma sovdagərə dönmiyəssən?

– Mənim başımın bir qəzası var, mən Gəncə şəhrinə gedəcağam.

O sözlərin birini dolandırdı:

– Oğul, sən əyər Gəncə şəhrinə getsən, o ki, anan tapşırıpdı sovdəgərə. Səni qoymuyacaxlar, vəssalam.

– Demirəm, bəlkə əkini qoyub gedəsən.

Dedi:

– Xeyir.

– Araz qırağına ki, yetişdi. Arazı addıyasan, gedəsən o tərəfə. O tərəfdə hayanı soruşsan nişan verəllər. Ordubaddi, Ağdamdaşdi, məsələn, bizimdi Gərzədi, Bakıdi, Şirvandi. Şəhirlərin adıdı. Hayana getsən, soruşsan, nişan verəcaxlar. Amma çətini odur ki, Arazı o tərəfə addıyasan.

Qurbani yolu amma ki, necə eliyir, nə cür eliyir, dağabala dolanıplar, gəlirlər. Bir gecə hammı həsrət o zobasında indi iki saat-iki saatdi, üş saat-üş saatdi, ya gecəni səhərəcəndi. O ki o günü bir tərəfə çatammır, çöldə qalırlar, keşik verir o adam, Qurbani o gecə gördü ki, bəli, məsələn gələcaxdılar Şapura. Şapura məsələn, beş ağaş qalanda gələndıxladı. Neynədilər? Çadırlarını qurdular. Üz dolandırdı:

– Sovdagərbaşı.

Dedi:

– Bəli.

Dedi:

– Ay sovdəgərbaşı, düzdü, anam sənə tapşırıb məni. Amma bir dənə sözüm var.

– Nəmənədi?

– Bu gecə fəqət yol keşidırıx.

Dedi:

– Oğul, elə əvvəl ki, özün söz verdin, əmanətə xəyanət olmaz.

Dedi:

– Axı mənim qərəzimə gəlir. Mən bu cavanlardan kəsir dəyiləm. Hər kəs öz nöbəsində gərək öz işini görsün. Bu gecə fəqət mən keşik duraram. İsdiyəsən əgər məni qoymuyasan, mənim qəlbimə gələ.

Sovdəgər gördü, xeyir, bu neçə gündü bu bilir ki, atdaların hansı yaxşı yol gedər. Hava o vəxtində bəli, cəmahət indi qırx nəfərdilər, otuz nəfərdilər, onnan işim yoxdu. Hərə bir tərəfdə çadır qurub. Beş nəfər, üş nəfər gedə xüzeyxalfa bülənd olurlar. Gedirlər gecəyə. Bir nəfər də keşik durur. İndi ərz elədim da iki sahat çəkir, üş sahat çəkir, ya gecəni səhərəcən. Sovdəgər başı xüzeyxalfa bülənd olub hammısi, bu oğlan – Qurbani, günüzlər o atın yeridir, zili zamandı belinə bağlıyıb. Gecənin misli şərti, ata suvar oldu. Atı sürdü Gəncəyə sarı. Bunnan qədim bu dağların damənin də yani ki bu yollarda elə bu soyqunçu, çapulçu olarmış. Qırx hərami deyirlər. Bular günüzlər gecədi. O günü günüzdən əllərinə bir şey yolaşmayıb. Bir yeri kəsəmmiyiblər, bir yeri çapammıyıblar. Sübhə yaxındı, alator bir yol var ki, haman Araza gedir. Gedir çıxır Araz qırağına həman yol. Qurbani yolu hədəfliyib. Bala-bala gedir ki, özünü vursun Araza, atınan keşsin o yana. Amma sübhə yaxındı, hava isdiyir bala-bala işıxlansın. Həramilər baxşın dibindən gördülər bir dənə atdı gəlir, amma atı bərk

qovur. Atın şaqqıltısına bular tüfənk əllərində hazır dayanıblar. Kəsdilər yolu, Qurbani yetirdimi, kəsdilər Qurbaninin qabağını. Burda bir dənə tacir bizim dildə xan oğludu, bəy oğludu, qorxdi, atı saxladi. Gördü, iki dənə cavandı. Yarın əsləhər zamanı idi, tüfənkləri varıdı, ya tüfənkləri yox idi, əmuddan, qalxandan şeşbərdən. Ona maşallah ki, hər bəlali var idi. Qurbani torunu dəstir elədilər.

– Ağa, məni hara aparırsız?

Üz dolandırdılar:

– Hara aparırırx?

Hava qəşəng işıxlanıb, gündən də bir yarım saat gedib, həramilərin ki məskəni haradi, yetirdilər ora. İndi bir dənə şöhildi, ya bir dənə kiyənin altıdi, özlərinə məskən eliyiplər, çapulculux eliyirlər. Gecələr o yandan, bu yandan çalarlar, çaparlar gələrlər orda gecə elərlər. Qurbanini yetirdilər haman o adamlardı ki, məmuriyyət çıxıxlarına əncam veriblər. Həramibaşı yuxarı başdan baxdı gördü, bir cavan oğlandi. Amma həb əvəzinə atasan ağzıva, qırx günə kimi neşəlisən, o yana getməz, elə gözəl oğlandı. Qurbanini çağırdi.

– Hardan gəlib, hara gedənsən?

Qurbani yazıx gah ağlıyır, gah gülür, gah özünü sındırmır. Həramibaşı dedi:

– Bu oğlanı yaxçı gətirmisiz. Bunun yaxçı sazlığı çıxar. Burda bizə şərəf məclisimiz olanda, bizə mey paylıyar.

Həramibaşı dəstur verib, bir dənə işki məclisi qurdular. Qurbaninin sazı əlindədi, hara getsə, o sazını da aparır. Həramibaşı dedi:

– Oğul, sənin belə sazın var, musiqi əhlisən, şərab verəndən sonra bizə bir-iki kəlmə də çalıb, əgər oxumax başarsan, oxuyarsan. Səni biz elə Allahdan axtarırdıx ki, Allah yaxçı yetirdi səni bizə. Bizə sənin kimi bir nəfər lazımdı.

Qurbani qəlbində dedi, sən öləsən. Qurbani qəşəngcənə gətdi, bacioğlu, iki stəkan içənə dörd istəkan verdi. Dörd istəkan içənə, səkkiz istəkan verdi. Doyunca buları möhkəm kefləndirdi. Həramibaşı üz dolandırdı:

– Oğul!

– Bəli!

– Bizə bir-iki kəlmə də oxuya bilərsən? O sazunla oxuyarsan.

– Baş üstə!

Qurbani gördü bular hammısi məsdiyib. Amma həramibaşi Qurbaniyə qulaq asır. Qurbani sazı zilin zil, dəmin dəm sinəsin üstə qoyub, üz dolandırdı, qulaq asın, deyim.

Həramibaşı qulaq asır, o qədir içiblər məsti-məstanə olublar. Qurbani orda nə diyir, mən də ərz eliyim tamam eşidənlər sağlığına:

Dəli könlüm, sənə sultan dedilər,
Öz yanından sultan olmaz, yarı nə?
Əvvəl otir, son işivi tiğ elə,
Sondan dönüb peşman olmaz yanında.

Həramibaşı çünki bular xan oğlu, bəy oğlu dedilər. Dedilər:

– Sən xan oğlusan, sənə iş gördürmiyəciyıx. Səni bu məclisdə özümüzə saqi eliyəciyix. Sən çün böyük xanəvarıdısan.

Həramibaşı gördü, qəşəng də səsi var, gözəl də oxuyur.

– Oğul!

– Bəli!

– Axı nəmənə demişıx, peşman olmuşux?

Dedi:

– Qulaq asginan.

Qurbaniyə üz dolandırdı:

– Heş narahat olma. Sənə burda o qədir pul verəcağam, o qədir pul verəcağam ki, puldan qəni olasan. Oxuginən.

Qurbani baxdı bir bunun nökərlərinə, öz-özünə deyir, buların yol çapmağı, buların özgəyə pul bağışlamağını. Qurbani isdiyir sözün dübarəsin desin. Amma bular hammısı məstiyatıblar yana-yana. Qurbani sözün xatəməsini belə deyir:

Bir dərdim var, dağ çəhməz,
Süfrə çalıb, çörəh verən ah çəkməz.
Bir baba ki, öz xəstəsinə baş çəkməz,
Özgələrə təbib olmax yanına.

Şairin sinəsində söz, hər cürə sözü var. Eliyə bilər ki, bir adamı tərif də eləsin, eliyə də bilər ki, bir adamı rüsvayicahan eləsin. Qurbaniyə bular çox vədələr verdilər. Çün Qurbani burda əməllərin gördü nəmənədi. Qurbani buları məst eliyip, o vaxt didi, sözü diyip, həramibaşı belə uyup, çün o qəddir məşrub içib ki, huşu başından çıxıb. O vaxtı idi Qurbani qalxdı haman öz atının belinə. Bir vaxt ayıldılar, gördülər, həə, o oğlan idi ki, tutmuşdular o, daha gedir.

– Ay oğlan, bu saatda hayana getdin?

Ərz olundu, Qurbani özünü vurdu Araza. O vaxt dedi, at axı üzə. Bir tərəfə çıxacax. Amma Qurbaninin libası, sazi heç oldu. Arazı ki, addadı o yana, atı ötürdü bu yana. Çün gördü, bu kərvansarayın tanımır, bir yer tanımır. Nabələd adam, bu atda bir tərəfdən ki, tək özüm bir tərəfdən şayət keçinə. Amma bu atda axı, olmayacax. Arazı o taya atdıyandan sonra atı ötürdü bu yana. Onnan işim yox, at gəldi, gəlmədi, onnan işim yoxdu. Qurbani bala-bala rəvani-irah olub. Amma ustaddar belə nəzmə çəkirlər, çün Qurbaninin o tayda Abdullah xan bəylər bəyi göndərir hükümətidi. Bunun bir dənə nazırı var. Bizim dildə nümayəndə. Adı Məmmədalı. Adına Nazır Məmmədalı deyirlər. Bunun bir dənə oğlu var. Pəri xanımı nişanlı eliyiplər, həman oğlana ki, neçə müddətdə bunnan qabax ağası ki, Qurbanini yuxuda vaqiyedə nişan verirlər sinəsinə. Abdulla xan, bəylərbəyi bu söz burda qalsın, qızın nəzərinə Na-

zır Məmmədalının oğlu qalır çaynı çayında. Səhər durur, kənizlərinə deyir:

– Mən Nazır Məmmədalının oğluna getmirəm. Sövmürəm, bəyənmirəm. Şəriyətdə də zor yoxdu.

Sən zorunan bu oğlana gərək gedəsən? Sövmür, getmir da. Bu beləsi. Gəlir, bir dənə erməni tapır, sazdar. Bu sazlardan qeyirər, satar. Çün ağası yuxuda demişdi ki, sinəsində sazı, belində sazı, üzü belə bir oğlandı, gələcax. O tarixdən gəlir, həman erməniyə bir dənə saz qeyitdirir. O zaman sazın birinə indi tüz tümən verilir, iki yüz tümən verir. Elə bir saz qeyitdirir ki, Gəncədə əvvəlin saz ibarət olmasın.

Qurbani gəlir, amma bu Qurbaninin neçə rivayət diyəllər ustaddar. Mən ustad dilindən belə eşitmişəm. Qurbani, Gəncədə avarə-sərgərdan dolanir. Soruşa-soruşa, xəbər ala-ala gəlir çıxır Gəncə şəhrinə. Gəncə şəhrində avarə-sərgərdan dolanır. O tayda çox iranlı var. Gediblər, qaryarçılığa görürlər, bir cavan oğlandi, iranlıdı. Buların həmşəhirliləridi. Deyirlər, Allah, görəsən bu sinnində bu niyə vətəndən çıxıb? Dərdin nə imiş? Kamil kətdə oleydi, ya şəhərdə oleydi, sinni kamil, üzü qəşəh tühlənmiycən kətdə olseydi, kənddən çıxa bilməzdi kənarə, şəhirri olseydi, o şəhirdən ayrı şəhrə gedə bilməzdi. Bu kiçikdi, uşaxdi, hara gedəcax bu? Yəni getməzdi də. Amma indi görürüsən bir dənə səkkiz, doqquz, on, on iki sinnində bir uşaxdi, məsələn, evdə bir müxtəsər söz olub. Sabah, biri gün Tehrandan sorağın verirlər, Əhvandan sorağın verirlər.

Qurbani avarə-sərgərdandı. Həmşəhriləri bunu təqib eliyirlər. Amma erməni o sazı o müqəddən bağlıyıb, asıb tükanda qabaxdan gəlib-gedən tamaşa eliyir. Qız iki gündən bir, üş gündən bir kənizin yollar, get gör, o saz ordadı, ya satılıb, ya qalıb. Qurbani küçeynən keçirdi. Cibdə bir qram pul yox. Vəziyyət dürüst dəyil, əyni-baş dürüst dəyil. Gördü, sağ tərəfdə

bir tükan var. Tükanın içəri tərəfində camaşırın dalısında balabandan, sazdan, qavaldan, qarmandan, tardan belə şeylərdən. Keçdi içəriyə:

– Salam əleykə!

– Ələykəmə salam!

Erməni gördü, bir cavan oğlandı. Amma vəzdən bir az qolaydı.

– Hə, oğul.

– Usta, bir dənə saz alacağam.

– Saz?

– Hə.

– Oğul, bu sazlar elə satdıx dəyil. Bax, o sazın qiyməti filan qədirdi. Bu sazın qiyməti filan qədirdi. O sazın qiyməti filan qədirdi.

Qurbani bir baxdi dövriyə. Nədən belə qədim zamandan ha. Elə bil bir nəfər gedib bazara şey almağa. Cibində bir üş yüz tümən, dörd yüz tümən pulu var. Gedir, iki min tümənlıx, beş min tümənlıx şey danışdırır. Bu elə bil oyundu, camahatın arasında bu söz var. Çün Qurbaninin bir qrami yoxdi, o bahalı sazı danışdırır.

– Usta.

– Bəli.

– Bu saz neçədi?

Dedi:

– Oğul, o sazın qiyməti çoxdı, onnan işin yoxdu. Onu isdiyirsən axı sazı çala biləsən?

Dedi:

– Mən elə onu istiyirəm. Mən müştəriyəm.

– Çox yaxşı. Onu verəcağam sənə. Əgər kökəldib çala bilsən, bir qram pul almıyacağam. Özüm də cibində nəmənə var verəcağam.

Dedi:

– Eybi yoxdu.

Haman sədəfli sazi, endirdi verdi Qurbaniyə. Qurbani o vaxtı sazın simlərin kök eliyip, basdı bağrına. Saza bir mizrap vurdi, erməni əyaxdan başa baxdı Qurbaninin qiyafəsinə, baxdı saz çalmağına. Gördü, xeyir, neçə ildi cəhənnəmə kötük atıb, belə saz çala bilməzsən.

– Oğul!

– Bəli.

– O sazı ki, özün çalırsan, mənə bax görüm, mən ölüm, oxuya biləsən, ya yox?

Dedi:

– Usta, icazə versən, oxuram.

İranlılardan bir neçəsi Qurbanini təqib eliyə-eliyə gəldilər erməninin tükanına. Qurbani içəridədi. Bular eşidirlər azcan eliyirlər ki, görax bu oğlan nə deyir burda. Qurbani dedi:

– Usta, deməli, sən indi icazə verirsən? Buyurursan ki, oxu da.

– Bəli də.

Qurbani sazı çəhdi sinəsinə. Qulaq asax görax, orda nə cür diyirdi, mən də deyim, tamam qulaq asanların sağlığına:

Bir gözəl söymüşəm sizin ellərdə,
Tamam gözəllərin səbəb dağidi.
Tərlan qiynaxlıdı, qəmər üzlidi,
Laçın oğlaxlının can şikarıdı.

Erməni bir baxdi əyaxdan başa, əz qəza, bunun bir dənə qızı var bu erməninin. Naharı verib tükana gedib. Əyaxdan başa baxdı dedi, sən öləsən, qoy görüm, bu ki deyil, çıxmışam sizin ellərdən. Şayət qız naharı tükana verib çıxanda, bu görüb o qızı. Qoy görüm bunun kürəkanlığa ləyaqəti var, ya yox? Əyaxdan başa bir müştəri gözüynən baxdi, gördü, xeyir, Allah-talanın kərəmi cuşa gələndə bu oğlanı xəlq eliyip. Amma bir söz yadına düşdi.

– Oğul!

– Bəli.

Dedi:

– Çox qəşəng oxuyursan, qəşəng səsin var, qəşəh də ləhcən var. Amma bir söz var.

– Nəmənədi, ustad?

Dedi:

– Hər nəmənə deyirsən de, burda iki adı qədağan eliyiplər.

– Bir olardan denən.

– Bir Qurbani adı gətimiyəcaxsan, bir Pəri.

– Niyə?

Dedi:

– Burda bir dənə bizim hökümətimizin bir bacısı var, adı Pəridi. Onu vermişdilər Nazır Məmmədalının oğluna. Qız yatır yuxuda Qurbani adında bir oğlan sövür, əcəb olub o da iranlıdı. Mən Nazır Məmmədalının oğluna day getmirəm. O tarixdən dəstur veriblər, Nazır Məmmədalı hər kim Qurbani, Pəri adını gətirsə, arıya verəcaxlar dilini, qoy onu kökündən çıxartsınlar. Qurbani dedi:

– Hə.

Qəlbində dedi, mənim bir qram pulum yoxdu, bu da deyir, Qurbani adı, Pəri adı gətirmalıyam. Mən oların ikisin də gətərəyam, bu sazı bir nəx eliyim bu tükandan çıxartginan.

– Usta!

– Bəli.

Dedi:

– Biz iranlıyıx, onu da bilirsən?

– Necə?

Dedi:

– Bizdə bir təsip var. Əgər bir söz boynumuza düşsə, dar ağacının dibinə getmağa da posdumuz var. Aşıx sözü bir kəlmə oxumaz. Heş olmasa üş kəlmə gərək deyə. Söz üş kəl-

mədi, beş kəlmədi, yeddi kəlmədi, doqquz kəlmədi, on bir kəlməyə kimin bizim sözümüz var. Bəli, amma sən xub deyirsən qədəğandı, mən üçün oxuram. Məndə ki bu sözü başlamışam burda. Burda Qurbani adı da var, Pəri adı da var.

Eşikdən iranlılar gördülər, bu erməni manih olub bu oğlanın oxumağına. Camı döydülər.

– Həmşəri!

– Bəli.

– Oxu, qorxmaginan. Oxu, nə qədər desən pul verəcağam. Heş narahat olma.

Qurbani isdiyirdi sözün dübarəsin desin, onu da "Dilqəmi"ynən diyacax:

Eşitsə gəlməyimi cana can eylər,
(Əgər bilsə ki, mən gəlmişəm bura, qurban kəsər)
Qəmzələri işvəlidi, qan eylər.
Canını dust yolunda o qurban eylər,
Gözüm o Pərinin intizarıdı.

Yavaşca yapışdı Qurbaninin qolundan:

–Aşıx!

– Bəli.

– Mən demişdim oxuginan, indi deyirəm oxuma.

Dedi:

– Olmaz axı.

– Onda bilərlər axı bu qulaq asanlar, mən sözü yarımçıx kəsirəm, bilmirəm. Mən üş kəlmə oxuyacağam.

Erməni bir düşdü zada, narahat oldu, o yana, bu yana baxdı dedi, qəribi qəbirə qoydux.

– Qardaş, sən ayrı söz de da. Olmaz axı.

– Hələ çoxdu söz, qulaq as, hələ çoxdu söz.

Qurbani isdiyirdi sözün xatəməsin desin. Deyim, tamam qulaq asanların sağlığına:

Qurbani deyir, iki qaşı şeydadi,
Quranda yazılan əlif, beydadı.
Xəbər alan olsa, bu, nə sovdadı,
Diyərəm, Pərimin yadigarıdı.

Yavaşca yapışdı Qurbaninin qolundan, dedi:

– Dədəş, bax, bu saz da sənin. Xoş gəldin. Bir qədəmin də istəmirəm, oxumağın da istəmirəm sənin.

Həmşəhriləri dedi:

– Minnət qoyma, qoy bu bizi oxumaxdan qən eləsin, sazuvun pulunu verax.

Dedi:

– Yox, qərdeş, mən saza bir qram istəmirəm. Sazı da götürsün bu, daa çıxsın.

Kor düşünsün, Allah yuva da yetirər. Qurbani yavaşca sazı götürdi, yavaş tükandan süzildi eşiyə. Həmşəhriləri üz dolandırdı:

– Aşıx!

– Bəli.

– Gecə hayandasan?

Dedi:

– Vallah, hara qismətim olsa, ordeyim.

Dedilər:

– Sən iranlı deyilsən?

Dedi:

– Bəli, iranlıyam.

– Haralısan?

Dedi:

– Azərbaycanlıyam.

– Azərbaycanın hansı məntəqəsindən gəlmisən?

Ərz elədi, Qaradağın Baş İciyimməd.

Bular gördülər, bəli, buların həmşəhrisidi.

Dedilər:

– Bizə sən adres versən, gəlax, gedax səni aparax. Burda bir mənzilimiz var. Burda yüz əlli, nəfər, iki yüz nəfər iranlı var. Gecələr hammımız yığışarıx bir yerə, darıxırıx çün qürbətdi. Sən gecə bizə bir az oxuyarsan, sənə doyuncan pul verax. Aparax Arazdan ötürax, gedəsən məmləkətimizə.

Üz dolandırdı:

– Xeyir, mənim burda işim var. Mən puldan xatirə gəlməmişəm bura.

Hələ bular belə qalsınlar, bu həmşərisiynən sual-cavab, Qurbani bala-bala gedir. Qurbani bala-bala gedir bir küçeynən. Qəlbində deyir, barı-pərvərdigara, bir məclis yetirəsən, mən bu sazı çalam, bir doyuncan oxuyam. Bizim dildə bir denə memar var, bir saxtuman başdıyıb. Bir dənə saxtuman başdıyıb, az qaza. Ustanın da adı Əlidi. Onnan qədim aşıxların özünün libası varımış. Necə mollalar əba geyirlər, əmmamə qoyurlar, məsələn, deyillər, molla, hüzura gəl. Molla gəlir, ağa gəlir. Qədim aşıxların da Qurbani zamanın ki ərz eliyirəm, aşıxların da çiynində əbası varımış. Memar işdiyirdi. Gördü bir can oğlandı, çiynində bir əba var. Bəllidi ki, bu aşıxdı. Yetişdi:

– Salam əleykəm, yorulmuyasız.

– Sağ olasan.

Bənna usta üz dolandırdı:

– Aşıx!

– Bəli.

Dedi:

– Aşıx, mənim bu saxtumanıma, adıma bir tərif desən, dünən axşam pul almışam, sənə o qədir pul verəcağam ki, puldan qəni olasan. Amma diyəmməsən, bu şam-qoza kərpişdərindən bir dənə salacağam yerə, bihapışarsan yerə onu bu günü.

Qurbani dedi:

– Baş üsdə. Mənim başım üsdə.

Əl atıb sazı çıxartdı. Yavaşcana əyləşdi yerə. Usta baxırdı:

– Usta, sənin adın nədir?

– Adım Əlidi.

Qurbani isdiyir görax, saxtumanə nə cür tərif deyirdi, mən də deyim tamam bu qulaq asanlar sağlığına:

Allahdan əmr olundi, gəldıx dünyaya,
Gözümüzü açıb, mail oldux o burca.
Dərs almadım, kitab açıb oxudum,
Əli qəlblim, dal yazılmış o burca.

Usta bir baxdı Qurbaninin qiyafəsinə. Gördü, insafən ləyaqəti məclis, özü də qəşəh şeirlər deyir.

– Çox sağ ol, sağ ol. Sözün dalısın deginan, qorxma, puldan qəni eliyəcağam ha.

Qurbaninin çün cibində pul yoxdi. Elə sən diyən ürəyi gəlmir. İsdiyir Qurbani sözün dübarəsin desin:

Göydən gedən Cəbraildi, pəridi,
Qızılgüllər Məhəmmədin təridi.
O burcun sahibi ağam Şahı-Mərdan Əlidi,
Peygambərrər mehraca gedər o burca.

Ustadın bizim dildə bilmirəm, yüz manat idi, əlli manat idi, əl atdı cibinə ki, çıxartdı, atdı Qurbaninin üsdünə.

– Aşıx!

– Bəli.

– Çün sənin sözdərinnən mən sövdüm, elə özünü də sövdüm. Sənin adın nəmənədi?

– Adım?

– Hə.

– Adunu diyəsən, mənim toyum zadım çox olar. Sənin yeruv, adresin, aduv deginan, gəlləm səni aparaceyəm toya.

– Baş üstə.

Qurbaniyəm, haq yolunu tapmışam,
Şahı-Mərdan nəğməsindən çıxmışam.

Ərənlər sərvərindən pay almışam,
Bu göylümə bir yol gəzər olmuşam.

O qədim zamana ilişib, iynə salmağa yer yoxdu. Keşdi camahatı aralaşdırdı, o yan, bu yana. Boylanıb baxanda gördü, hə bir neçə dənə sazçı, aşıx bir tərəfdən düzülüblər, vəsətdə bir kişi əyləşib səndəlin üsdündə, qabağında bir miz var. Mizin üsdünə bir məcmeyi qoyublar, dövrədən başdıyırlar oxuyurlar, pulu yığırlar, gətirib verirlər həman cəndərtə. Dedi, hə, qədim kişilər deyiblər haa, kətxudanı gör, dön, kəndi çap. Bu aşıx elə bil buların böyüyüdü. Əgər burda icazə verə, beş-on dəqiqə də sən oxuyasan, burda sənə yaxçı pul olar. Keşdi yavaşcana meydanın vəsətinə, ərz-qəza bu meydanın vəsətindəki aşığın adı Aşıx Əhməddi. Otuz doqquz dənə şəyirdi var. Oxuyurlar, dövrədən pulu yığırlar, gətirirlər tökürlər. Qurbani gördü bular oxudular, bala-bala istiyirlər yığışdırsınlar. Dedi:

– Oğlan, bura bax. Burda diyəsən heş ağlamıyan uşağa süd yoxdi. Mən dinmədim heç, mənə demirlər ki, yarım saat da sən oxi, bir saat da sən oxu, dövrəni eləginan.

Yavaşca bu əbanın altındakı bu sazı bir belə elədi. Aşıx Əhməd gördü bu aşıxlar sazların yığışdırıblar, amma sim səsi gəlir. Dönüb sağ çiyninin üsdən baxanda gördü, bir cavan oğlan dayanıb sağ tərəfdə, əba çiynindədi. Elə bil aşıx libasındadı.

– Ağa!

– Bəli.

– Aşıxsan?

Dedi:

– Elə sən diyən qabil aşıx dəyiləm. Gəlmişəm sənin kimi ustaddardan dərs almağa.

– Çox yaxşı.

– Sazın-zadın var?

Dedi:

– Bəli.

Əbanı çəhdi kənara, Aşıx Əhmədin gözü düşəndə gördü, vallahi, bunda bir saz var, dairətin satıb versə, bir dənə saz ala bilməz.

– Oğul!

– Bəli.

Həməşə tamahkarı yalançı toğlar. Yalançı yalan vədələr verər, tamahkar da çün tamahkardi, tamahı çoxdu toğlanar. Qəlbində dedi, bunun ki, bu sazı var, buna bir dənə qıfılbənd diyərəm, bu tapammaz, sazını əlindən alaram. Diyərəm:

Dolaydan gələn dilbər,
Tih-tih dingildədir məni.
Eşqin vurub dabanıma,
Tih-tih dingildədir məni.

Əlbəttə, bunun bir sözü var haa:

Dolayıdan gələn dilbər,
Köndələndən sövdüm səni.
Əşqin vurub dabanıma,
Tih-tih dingildədir məni.

Bu sözün mənası nədi, bu tapammaz, mən bunun sazını əlindən alaram.

– Oğul, bizim buranın qanununu bilirsən?

Dedi:

– Buyursan, billıx da.

Dedi:

– Bizim burda hansı aşıx qərib ola, alim ola Məşəddən gələn qabaxcan biznən gərək deyişə. Əgər biz diyən sözlərin cavabın verdi, eybi yoxdu, o da burda oxuyar. Yox, biz diyən sözlərin cavabın diyə bilmədi, sazın əlindən allıx, özünü də yola sallıx, qəyidər gedər hardan gəlib, gedər məmləkətinə.

Dedi:

– Usta, güzəşt elə. Mən axı, elə söz deməröm, sən narahat olasan. Mən dedim, əvvəl Allah, ikinci gəlmişəm sənin ki-

mi ustadlardan dərs alam. İcazə versən, burda bir yarımca saatıx oxuyum.

Dedi:

– Oğul, olmaz, mən qanunu poza bilmərəm.

– İndi sən nə istiyirsən, neyliyax? Mənlə deyişax da.

Dedi:

– Bəli, da.

Bu şahiddərin birisi varıdı, gördü oğlanın bu hünəri olmasa, bir belə adamın içinə burda eldən gələ bilməz belə aşığın yanına. Bunda bir cəsarət, hünər var ki, meydanə gəlib.

Dedi:

– Usta!

– Bəli.

– Evin yıxılmasın, sənin indi əlli ildi burda sənətin aşıxlıxdı. Özündən sonra da bir otuz doqquz nəfərə də ustaddıx eliyirsən. Darayı eliyirsən, tümeni atırsan?

Bu indi yerindən qalxdı.

– Bəlkə sənə elə bir söz dedi ki, nə sən, nə biz bunun cavabın verəmmədıx, onda biz bu məmləkətdan yığışdırax, qoyax gedax ha. Sənətimizi tərgidax, toba eliyax. Hər yerdə diyəcaxlar ki, filan yerdən bir aşıx gəlmişdi. Bir söz dedi, onu tapıf diyəmmədilər, yığıb-yığışdırdılar. Bizim abır-həyamız gedər.

– Bə neyniyax?

Dedi:

– Bir qabın ki ağzı örtülüdü, nə bilirsən o qabın içində yağ var, bal var, su var, ya boşdu.

– Qoy bu dursun əyağa bir-iki kəlmə oxusun, biz bunun oxumağına, səsinə, sözünə baxax. Bir söz diyax, başdıyax qurtarsın, sazı əlindən alax.

Aşıx Əhməd dedi:

– Yaxçı deyirsən.

– Oğul!

– Bəli.

– O sazı köynəyindən çıxart, bir-iki dənə oxu görax, nə cür oxuyursan?

– Baş üstə.

Qurbani əbanın altından sazı çəhdi, iranlılar gördülər, bəli, həmşəriləri varid oldi meydanın vəsətinə, alıb sinəsi üsdünə. Hər kəs pulu çıxardıb əlində saxlıyıb ki, qoy bir-iki kəlmə oxusin. O qədir pul verəciyix ki, puldan qəni olsun.

Qurbani görax meydanda nə diyir, mən də diyəcağam tamam qulaq asanlar sağlığın. "Keşişoğlu" havasıynan diyəciyıx:

"Bismillah" eylədim, girdim meydanə,
Ustalar ustadı görüm handadi?
Bir dərdim var, pünhan çəkirəm,
Dürri-gövhərlərim halə kandadı?

Aşıx Əhmədin o şairdi, ağa, söz sahibi sözdən başlar. Ustadına vaşcaqaş atır. Di buyur.

Qurbani əyağın qoydu pulların üsdünə. Dedi:

– Ustad, indi ki belə oldu, mən deyirdim bu işlər ürək çəhməsin. Əgər mən səni məhkum elədim, bu pulları götürəcağam, mənim sənlə işim yoxdu. Yox, sən məni məhkum elədin, sazım da sənindi, özümü də apar qul əvəzinə sat, xərşlə.

Yavaşca şairlər bir-bir əkildilər. Bu puldan biz bu dəfə nəddi-nəzər elədıx, axırımız baqi olsun kisəmizdə.

O vəxtində Abdulla xan bəylər bəyi, Nazır Məmmədalı, əmir-ümarə, vəzir-vüzəra şikardan gəlirlər. Abdulla xan bəylərbəyi yolda Nazır Məmmədalıya dedi:

– Nazır Məmmədalı!

– Bəli.

Dedi:

– Axı, mənim qəlbim paslanıb. Bir dənə bir aşıx tapa bilseydik, gecə aparardıx barıgahda beş-on dəqiqə oxuyarda, söhbət elərdi bizə, qəlbimizi pasdan çıxardardı.

Qəm-qəmi gətirər, əzizim, dəm-dəmi gətirər. Niyyət hara, mənzil ora. Hər kimin niyyəti elə mərsiyədi, daim mərsiyədən çıxmıyacax, onu bilin.

O vəxtində tuğla olmasın, gəldilər, yetirdilər meydanın vəsətində aşıxdı, mollادı, dərvişdi. Əlbəttə, hərəsinin bir dənə bəyanı var. Aşıx diyər, Allah, cəmahətə oğlan ver, qız ver. Bolluğ elə, əmin-əmanlıx ver, mən gedim toylarını toy eliyim. Cəmahətin kefini saz elə. O biriləri də nə diyər, da o da eşidənlər bilir də. O vəxtində Qurbani əyax üsdə oxuyurdi, gördü bir dəstə atdı gəlir, amma meydanın kənarında dayandılar. Molladı, aşıxdı, buların nə qədir dövrəsi cür olsa,ey belə sözlərin yetirəcax. Dövrəsində adam olmasa, kimə diyəcax, dirəhlərə diyəcax? O vəxtində Qurbani gördü ağalar dayanıblar. Atdılar dayanıb kənardan tamaşa eliyirlər. Qurbani isdiyirdi sözün dübarəsin desin. Aşıx Əhməd dedi:

– Neçə kəlmə, qardaş, diyəcəksən de, hammısına bir səqqaz verəcağam.

O vəxtində istiyir Qurbani görax sözünün dübarəsini desin. Onu da "Qaradağ" şikəstəsiynən:

Başına döndüyüm, ey mənim ağam,
Bir yalın əlindən mən sıradağam.
Sürəyya tək yatmamışam, oyağam,
Hələ göz dikmişəm sübhi dandadı.

Sürəyya bir dənə ulduzun adıdi. Yeddinci göydədi. Daim işıxdı. Nazır Məmmədalı gördü bir cavan oğlandi, meydanın vəsətində durub əyağa. Amma sis-simatı, qiyafəsi nəyə desən dəyər. Dedi, sən öləsən, Pəri diyən Qurbani adında oğlan bu.

– Qurbani dəyil? Atdarın sürün, gedax. Bizim burda durmağımız yaxçı dəyil. Hansı aşığı desən, sən buyurginən, mən deyim, gətirsinlər.

Dedi:

– Ayrı aşığı demirəm. Elə bu meydanın vəsətindəki aşıx nədi, bunu gətirəsiz barigaha.

Dedi:

– Qurban, mən tanıyıram bunu.

– Kimi? Bu aşığı?

– Bəli.

– Necədi?

Dedi:

– Bunun saqibəsi xərapdi. Bunu aparallar bəzi yerlərdə oxudallar. Bu ləyaqət məclisi yoxdu, gedəm gətirəm mən bunu məclisə.

Dedi:

– Əziz qardaş, sən işdi beləsən. Bunun elə ləyaqət məclisi var, beş yüz nəfər ona tamaşa eliyir. Gecə bu aşığı həyanda olsa, gətirəcaxsan.

Nə qədir Nazır Məmmədalı bunu vurdu o yan, bu yana ki bəlkə bunu gətimiyələr. Olmuya, bir adamı ki Allah qovladı, bəndə yıxa bilməz.Vəssalam, şüt tamam. Nə qədir əlləşdi, gördü, xeyir, heş yandan nəcat yolu tapa bilmədi. Hüseyin bəy var, atdan enincə əşağıya bu aşıx neçəyə tamam olsa, gedib gətirəcaxsan bunu məclisə. Hər nəmənə istəsən, verəcağam.

Atdılar sovuşdular, Hüseyin bəy yeni məşaya bala-bala durub tamaşa eliyir ki, görax aşıx nə diyəcax. Qurbani üzün tutdi həman bu aşığa. Üz dolandırdı:

– Aşıx qərdeş!

– Bəli.

– Bir layıx söz danışdım, cavabın de axı.

Dedi:

– Demişəm. Sən üş kəlmə oxu, üçünə mən bir səqqəl verəcağam.

Şahiddər o vaxtı əkiliblər, Aşıx Əhməd isdiyir başmaxların tutub gətirsin. Qurbani amma isdiyirdi sözün xatəməsin desin:

Başına döndüyüm, öz ağam Əli,
Gəl dağıt, başından bu qalmaqali.
Qurbaninin fikri, zikri, xiyali,
Hələ deyin görüm, Pərim hardadı?

Qurbani bu sözü demax, Nazır Məmmədalının qulağı dəldi bu sözü.

– Qurban!

– Bəli.

– Məgər sən buyurmamısan ki, iki ad qəraram, Pəri, Qurban.

Dedi:

–Aşıxdı.Aşıx oxuyar da. Şeirdi də, deyir də.

Dedi:

– Qurban, sən deyirsən, mən bu aşığı məsləhət bilmirəm. Amma oxuyub da.

Dedi:

– Axı çün bu aşığın hələ sinni dolmuyub ki, gedə məclislərdə aşıxlıx eliyə.

Yəni, bu məsələn, bu Nazır Məmmədalının nəzərində bu Qurbanini hərrəməriyə oxşadır. Deyir, yəni bu uşax tayfasıdı. Bu bəzi məclislərə düşər, orda qalar məsələn. Odu ki, məsləhət bilmir. Bir də tərəfdi axı Qurbaniynən tərəfdi. Dedi:

– Mən deyirəm, bu aşıx həqq aşığıdi. Sırr dəyil ki, vergi verilib biləsinə, odu ki, oxuyur.

Dedi:

– Qurban, deyirsən, həqq aşığıdi. Əgər gələr dərbara, mən bunnan gecə imtahan allam. Bir adam həqq aşığı olsa, duvarın o üzündə bilərdi nəmənə var. Bunnan mən bir imtahan allam, görax, həqq aşığıdı, yoxsa dəyil.

Dedi ki, elə oldi xub, o sözlərin yeri bura dəyil. İnşallah, Hüseyin bəy gətirər məclisə, orda biz söhbət elərıx.

Qurbani bir vəxt baxdi gördü, hə, dövrədə bir dənə aşıx yoxdu. İranlılar o qədir pul töhdülər, Qurbani qaldı pul altında. O qədir pul yığdı, o qədir pul yığdı pulları saydı doldurdu bir dənə qol dəsmala, bağladi qoydu satına. O zaman heybeydi haa. Sak indi mod olub. Qədim aşıx, balabançının heybəsi olar. Bular qəşəg ağacın başına balabançı qərdeş heybəni, bəli, gedir toya. O vəxtində Hüseyin bəy yetirib:

– Aşıx qərdeş, salam əleyküm.

Üz dolandırdı:

– Əlekiməsalam.

– Aşıx!

– Bəli.

– Bu gecə toyun-zadın var, yainki yox?

Dedi:

– Xeyr.

– Yap bir kərəm. Səni mən bu gecə bir məclisə aparsam, gedərsən?

– Niyə getmərəm, nə məclisi?

Dedi:

– Sən ölsən, ölən yeridi. Səni bu gecə bir toya aparacağam, qorxma, dərd-səridə yoxdu. Demiyəcaxlar ki, sübhəcan çal. Elə iki qatar, üş qatar oxuyacaxsan, nəmənə istəsən verəcaxlar, qorxmaginan.

– Allah sənə ömür versin, çox yaxçı.

– Aşıx, sənin adın nədir?

Üz dolandırdı:

– Mənim adım Qurbanidi. Aşıx Qurbani.

– Çox yaxçı.

– Sənin adın nədir, toyçu qərdeş?

Dedi:

– Mənim də adım Hüseyin bəydir. Amma nökərəm haa, bəy demə ha.

Dedi:

– Bəylıx nədi, nökərrıx nədi?

– Ev var ki, nökər olasan, qorxma, bəy yerişi gedəsən elə bil. Ev var ki, xan olasan, o evdə nökərıx zindəganlıx eliyə bilməzsən. Belə.

Qurbanini sevməyinən bala-bala, danışa-danışa gəlir.

– Axı sən demək böyük yerdə nökərsən də?

– Dərbarın açıb-bağlıyandan amma nökərəm, o dərbarın nökəriyəm. Amma adıma da Hüseyin bəy diyəllər.

– Aşıx, sən haralısan?

Üz dolandırdı:

– Mən iranlıyam.

– İranlısan?

– Hə.

Bu Hüseyin bəy elə tülkü, səy bir adamdi. Səyasət-məyasət bilmir:

– Səni mən aparacağam bir yerə, amma ki demişəm amma kirixıb eləmiyəsən haa.

– Xeyir, kirixmaram. Oxumax dəyilmi?

– Bəli.

– Qorxma, sənin orda adamın elə mənəm orda. Gözlə, diyəsən qəribəm.

– Xeyir, bu işlər lazımdı. Heş narahat olmaginən.

Hüseyin bəy qabaxda, bu onun dalısıycan Qurbani, gəlirlər. Amma iki yol ayrımı var. Təğribən məsələn, buların yolu o zamandı ki, höhmü var, gedəcaxlar, ta qalır xiyabanda, məsələn. Onda savarı maşın yox, piyada gedillər bu yazıxlar. Bular bir az yol gedənnən sonra, qabaxda bir dənə böyüh bağ var. Bağdan getsələr məsələn, bir il çəkəcax yolları, yarım saat çəkəcax. Xeyir, o biri yolnan getsələr, iki saatdıx, saat yarımlıx yoldi. Dedi, bu qəribədi, özü də aşıxdi. Aşıx piyadə

getsə, gecə oxuya bilməz, sinəsi tutular. Aşıx gərək yəxin yolunan, vəsailnən gedə bir tərəfə.

– Qərdeş, niyə durdun?

Üz dolandırdı:

– Aşıx qərdeş, burda iki yol var. Yolun biri yarım saat çəkər, birin də getsax, saat yarım çəkər. Mən isdiyərəm səni bu yarım saatlıx yolu aparam.

Dedi:

– Hə, Allah sənə ömür versin. Məni uzax yolunan piyada aparma. Sinəm yorular yatar, oxuya bilmərəm. Xəcalət ollam.

– Amma bu yarım saatdıx yolda bir az xətərridi, haa, biləsən.

– Nə yoludi?

Dedi:

– Bu səni ki aparacağam o məclisə, buranın hökümətinin məclisinə, bu yarım saatdıx yol onun bir bacısı var, Pəri xanım. Bu bağ həman bağdi. Adına Hətəmxan baxçası diyillər. Quş quşluğu ilə qanad çalammaz, amma mən səni ordan aparacağam.

– Allah sənə ömür versin.

Qurbani qəlbində dedi, inşallah, diyəsən bala-bala işdi olacax. Bular gəldilər yetişdilər bağın qapısına. Hüseyin bəy elə tülkü saya adam idi ki, bağın ixtiyarı da bunda idi. Cibindən açarı çıxartdı, bağın qapısını aşdılar, keşdilər içəriyə. Hüseyin bəy bir fikir elədi. Dedi:

– Qonax!

– Bəli.

– Bir söz var haa, mən səni bu bağdan gətirrəm ha, amma bir dənə söz var, ha, onu da bilirsən, yox.

– Nəmənədi? Buyursan, bilərəm.

– Bu bağa quş quşluğuynan burda qanad çala bilməz. Mən səni bu bağınan gətdim, barigahın qabağına yetişəndə sənnən xahiş eliyəm ki, həmi başmaxlarımızı çıxardacıyıx əlimizə, şıqqıltı gəlməsin, həmi də gözuvu yumacaxsan ki, barigahı görmiyəsən.

– Niyə özün eliyəcaxsan?

Dedi:

– Axı, Pəri xanımın barigahı buradi. Mən səni o üzdən aparacəğəm ki, Pəri xanım barigahdadi. Gərək görmiyə heş kim oni.

– Eybi yoxdi.

Beş-altı qədəm getdilər, Qurbani dedi:

– Əmi, bir dayan. Sən deyən sözlər qutuldi. Mənim də iki kəlmə sözüm var axi.

– Nəmənədi?

Dedi:

– Mənim də üstümdə dədə-babadan, yeddi arxadan dönməmizdə bir beçə yarı sancı var. Sən də dua elə ki, mənim də bu sancım bu yolda tutmasın.

– Sancı nə?

– Neçədən neçəyə tutar, neçə saatdan neçə saata tutar.

Dedi:

–Vallah, üş-dörd il var, tutmuyib heç.

Dedi:

– Üş-dörd ildə tutmuyan sanci, məsələn, elə bu yarım saatdıx yolda tutacax?

Dedi:

– Xub, sən sözlərini necə dağ edirsən? Başmaxları çıxardax, gözlərivu bağlıyax. Mən də deyiram da. Şayət, məsələn, tutsa...

– İnşallah, tutmaz.

Dedi:

– Mən də deyirəm, inşallah, tutmaz. Vəli, xub daa sözdu da, danışırıx da.

Bular bir az gəldilər. Barigah yəxinləşirdi, görsənirdi. Bu lüldən bir dənə qəsir təşkil veriblər. Qız o saxtumanın içində zindəganlıx elədi. Amma gözü yoldadı ki, Qurbani, görəsən, nə vaxt gələcək? Bir az yol gəldilər. Hüseyin bəy dedi:

– Aşıx!

– Bəli.

Dedi:

– Başmaxlarıvı çıxart.

Dedi:

– Ağa, Hüseyin bəy bir dənə söz var.

– Nəmənədi?

– Bəs, mən İrandan piyada gəlmişəm, başmaxlarımı çıxartsam, mümkündü yeriyə bilmərəm. Əyaxlarımın alti qabardi. Yavaşca-yavaşca qədəmimi götürüm, gedim.

– Eybi yoxdu.

Gəldilər barigahın qabağına yetişəndə dedi:

– Qərdəş, qoy dəsmalımı çıxardım, gözlərivu bağlıyım.

– Kişi, özünü cəriməginən. Allah mənə ki, bu baxar gözü ki verib, sən isdiyirsən ki, mənim bu baxar gözümü bağlıyasan. Niyə?

– Nə oldu ki, burda nə var?

İki-üş qədəm getdilər, pirsəndi görsəndi. Pəncərələr açıx idi. Qurbani dedi:

– Pirsəndi toz eyləməz, aqil məcal tapınca.

– Hara gedirsən, kimdən ötürü gəlmisən bura?

– Mən barigahda oxumağı neynirəm. Mən gəlmişəm Pəri xanımdan ötüri. Pəri xanımın da barigahı da buradi. Hara gedirəm, sazı yavaşcana qoydu qucağına, otdi vəsətdə yerə.

Bir xiyaban var idi. Xiyabanın vəsətində əyləşdi yerə, Hüseyin bəy durub çiynin üsdən baxanda gördü, vay dədə, bu aşıx otdi.

– Aşıx, bə niyə otdin yerə?

Dedi:

– Qarnıma sancım dolanır.

– Sancıdan?

– Hə.

– Vay dədə, vay nənə, baba, dur gəl, başımızı kəsəllər burda bizim.

Dedi:

– Olmaz. Sancım tutub. Mən sənə dedim ki, sancım tutsa, iki qədəm qadir hərəkət deyil.

Hüseyin bəy baxdi o yana, baxdi bu yana, Allah, neyniyim qız indi küləfirəngi... pəncərə açıxdi. Görəsən, bu şıqqıltini eşidəcax, səsimizi eşidəcax? Allah, neynim, qaçırdı gizlin su girifinə. Qız gördü, bağda şıqqılti gəlir. Durdi əyaqə, baxanda bağa əvvəl gözü sataşdı Hüseyin bəyə. Görür, Hüseyin bəy girir su kürəsinə.

– Hüseyin bəy, bəs ora niyə girirsən? Orda nə qeyirirsən?

Belə baxanda dedi:

– Xanım, Allah bağışdıx versin.

– Hə, nə olub?

Dedi:

– Odu bax, məzəndə oturub yerə. Allah qoysa, burdan qonax aparram.

Pərinin gözü sataşdı Qurbaniyə.

Əzizim yar yarı,
Qərəbağlım yar yarı.
Bit tutar, qan qaçar,
Yetişəndə yarə.

Bir az tamaşa elədi gördü, hə, ağası yuxuda nişan verən oğlan. Həman saz qucağındadı. Bir az doyuncan tamaşa elədi. Baxdi-baxdi, üz dolandırdi:

– Hüseyin bəy, bu aşıx niyə oturub burda?

Dedi:

– Xanım, bu aşıx meydanda oxuyurdi. Sənin xandadaşınla şikardan gəlirdix bahəm. Bu aşığın oxumağını bəyəndi, mənə buyurdu ki, gecə neçəyə tamam olsa, bunu gətir barıgaha. Mən də bunu gətirirdim. Allah qoysa dedim, bu kəsə yoldan gətirəm, bu yazığın da üsdündə qafil sancısı var. Haman sancısı tutub bu bədbəxtin.

– Qızlar, bir az zəncəfildən, qəndabdan, şərbətdən...

Bala-bala yazıx bir şərrə düşüblər, qəndab axtarırlar, şərbət axtarırlar, zəncəfil axtarırlar. Yavaşca Hüseyin bəyə dedi:

– Hüseyin bəy, zəhmət çəkməsin. Zəhmətdərinə razı dəyiləm. Sancımın dəvası yanımdadı.

Hüseyin bəy dedi:

– Xanım, deyir, zəhmət çəkməsin, sancımın dəvası yanımdadı.

– Nəmənədi, oğul, bax gözdüyüblərmi?

– O sancılanıb özünü itiripdi.Yazıxdi, gör atmalıdi, sürtməlidi, işməlidi, çəhməlidi.

Əl atdı Hüseyin bəy aşığın cibini axtarır.

– Dərviş, nəmənə axtarırsan?

Dedi:

– Ağa, sancıvın dəvasını axtarıram da.

Dedi:

– Sancımın davası budu bax, bu yekəlıxda şeyi görmürsən?

– Sazdi?

– Hə.

– Məgər bu sazdı dəvası?

– Bəli.

– Bunu fəqət götürmişəm, mən də sancımdan ötürü. Harda sancım tutsa, iki-üş kəlmə çallam, oxuyuram ta mədəmidi ki mənim, sancım qoya.

– Ey-vay dədə, mən bu bağdan səni səsli-sədasız aparacaqdim. İndi sən oxusan, hammi eşidəcaxdı.

Qız dedi:

– Hüseyin bəy, nə deyir aşıx?

Dedi:

– Xanım, mən gərək bu sazı çalam, oxuyam mənim sancım gedə.

– Sən nə deyirsən?

Dedi:

– Mən razı dəyiləm.Bu bağa quş quşduğuynan qanad çala bilməz. Mən ki öydən gətirmişəm, bu indi burda çalıb-oxusa, səhər xandadaşın bilsə, məni öldürtdürər. Mənim balalarım yetim qalar.

Dedi:

– Eybi yoxdu, sən narahat olma. Ala, bu pul, sən get dur bir tərəfdə, otu, qulaq as. Qoy görax bu aşıx...

–Sən də get beli al əlivə, o tərəfdə o bağları qurtdala. Şayət, bir də gəlib eliyən olsa, görsə diyərəm, qorxmaginan.

Qurbani əl atıb sazi zilin zil, bəmin bəm, sinəsi üsdə. Bu səfər orda nə deyir, mən də deyim tamam qulaq asanlar sağlığına. Qurbani bir baxdı qızın bargahına, bir baxdı qızın bağına, öz-özünə dedi, pərvərdigar, görəsən, mən bu qızın bağına tərifi deyim? Görəsən, mən bu qızın özünə tərif deyim, ya bargahına deyim? Özü olmasa, bağ nəyə lazımdı, bargah nəyə lazımdı? Amma qızın iki dənə kənizi var. Birinin adı Axsax Xubandi, birinin adı Dilbərdi. Sağda, solda dayanıblar. Bular qulaq asırlar, görax aşıx nə deyir:

Pəncərədən mayıl-mayıl baxan yar,
Baxan dilbər, məni candan elədin.

Xoni düzər, əşq oduna yaxan yar,
Yaxan dilbər, məni candan elədi.

Ərz elədim, kənizin adı Dilbərdi. Dilbər ərəbicən könlünə deyir. Bu kəniz baxdi Qurbaninin üzünə, bir az-maz gücləndi. Pəri gördü ey-vah, bu Dilbər də uzanır. Üz dolandırdı:

– Bəs, sən niyə uzanırsan?

Dedi:

– Görürsən xanım, məni tərif eliyiblər.

Dedi:

– Sənin adın Dilbərdi.

– Bu ərəbicən Dilbər gözələ diyəllərdə. Məni deyir də.

Kəniz dedi:

– Ərəbi, farsi, türki bilmirəm. Mənim adım Dilbərdi, bu da ağzında Dilbər deyir.

Dedi:

– Oğlan, buların ipinin üsdə odunu yığmax olmaz. Şayət bəlkə gəldim bağdan, mən indi nə vaxta kimi gözüm qalıp onun yolunda. Bir ayrı ərə getməmişəm. Bunu yumurtdamışam.

Bəlkə, şayət, bu gəldi bağda bu qıza aşiq oldu. Odur ki, onu deyir:

– Gəl bir əlamət ver.

Qızın telləri tökülüb ağzi üsdə, narrarın üsdünə. Əl atıb o tellərin atdı dalıya. Qurbani gördü, əlamət verdi. Baba, mənim səndən sarı gərdanım yoxdi. O vaxtında aldı Qurbani sözün dübarəsin götürüb görax, nə cür deyir:

Qurban olum, səni doğan anıya,
Səni verdi, məni saldı bəlaya.
Siyah zülflər qabaxdadi, götürüb atdin dalıya,
Ayırıb məməni saçdan eylədin.

Qız gördü xeyir, o bərnamə dəyil. Dedi:

– Gördin, sən deyirdin məni deyir axı.

“Aşığın dili ağzında yansın, neyniyim axi” – Dilbər dedi, – gördüm mənim də adım Dilbərdi. Onun dili ağzında yansın”.

Dedi:

– Yanasan, sənin dilin ağzında yansın. Bilirsən də, o mənim nişanlımdı.

Dedi:

– Xanım, bağa o qədir burallar, əlinnən boyun bir olar.

Dedi:

– Eybi yoxdu.

Qurbaniyə dedi:

– Kənizdən artıx qız, buna bir söz deginən. Gör ürəyi var, məni burdan İrana – Azərbaycana apara biləcax yaniki?

– Aşıx!

– Bəli.

Dedi:

– Aşıx, sən oxuyursan sazın qoysun. Sənin gözün məndədi ki, mən telimi atdım daliya, atdım qabağa.

Dedi:

– Xanım, oxuyuram sazımı ver.

Dedi:

– Xub. Belə əllərini yığışdırginan, gözün o yan, bu yanda olmasın. Oxuginan, sazdan qurtul, sənin nə işin var, mən telimi atdım dala, atdım qabağa.

Amma Qurbani baxdı qızın qiyafəsinə. Dedi:

– Baba, mən İrandan çıxanda bu canımı qoymuşam sənin yolunda. Hər nə deyirəm elə da.

Belə deyir sözün dübarəsini:

Sən ki, əşq əhlisən, qulax ver dəmə,
Ağlaram, didələrin qərq olar qəmə.
Sarık oldu düymələrin, görsəndi məmə,
Məmən, dilbər, məni candan eylədi.

Xub, qızın bir dənə culqatı var idi, bizimdi. Neçə düyməsi varidi. Əslində o culqalardan var idi ki, apardı qələməhliçün olara şeir oxusun. Onnan işim yox. Qız əl atdı həman düymələri aşdi, ərzüsdə mərzlər töküldü eşiyə. Odu ki, Qurbani bu sözü oxuyur.

– Aşıx, gördün?

– Necə?

Dedi:

– Sənin kötək yönünü seçdim.

– Mənim?

– Hə.

Dedi:

– Sən öləsən, mənim hötəyimi görmüsən? Sözün həqiqəti nədi?

Qızın əllərində həna var idi. Qız əllərinə həna qoymuşdi. Qurbani dedi:

– Narahat olmaginan, mən elə billəm ki, varid olduğumuz an mənim qanıma yaxın olar. Heş narahat olmaginan. Elə bil mənim ölməyim-zadım bunun xasiyyətidi, gül yolunda can verər.

İstiyirdi Qurbani sözün xatəməsini desin. Deyim, tamam qulaq asanların sağlığına:

Qorxum yoxdu paşasından, xanından,
At oxları, peykan getsin canından.
Ağ əllərə Qurbaninin qanından,
Yaxan dilbər məni candan elədi.

Burda Qurbani qatarı tamam eliyir. Hüseyin bəy yerindən qalxdi əyağa. Dedi:

– Bir azcıq pul aldın, bu bir saatdı oxuyur. Oturmaginan, yerindən qalx əyağa, gedax. Gedax toy məclisinə. Kəndə-bacada oxuyarsan, mən orda xəcalət ollam.

Yerindən qalxdi əyağa:

– Aşıx!
– Bəli.
– Heş dalısın tikan-zad qoyub?
Dedi:
– Allah sənə ömür versin. Az-maz qoyub. Yığışdır, qoy köynəyinə sarı, gedax.
Gördü olmadı. Bu bir qətər oxudu bir şey eləmədi. Cibindən bir pul çıxartdi, atdi Hüseyin bəyin üsdünə:
– Hüseyin bəy!
– Bəli.
Dedi:
– Göti, bu pulu da göti, get orda bir az da sən otu.
– Başqa nə?
– Görüm bu aşıx nə deyir axı.
Qız bunu baxdi, Qurbaninin qiyafəsinə. Bir az tamaşa elədi, gördü, xeyir, Allah-talanın başının ayıx vaxtında bu oğlani xəlq eliyip. Qız o qədər tamaşa elədi, Qurbani bir baxdı, gördü, hə, qız özü elə yaxçı vaxtıdi. Dedi:
– Xanım!
– Bəli.
– İcazə versən, bir-iki kəlmə söz də diyəcağam sənə.
– Buyur da.
Xəbər almax ayıb olmaz, (çün Qurbani bu sözü burda oxudi. Gördü bala qovupdi. Axı adam-adamınan birdən-birə şuxlux eliyə bilməz. Odu ki, bu da birdən-birə istədi ki, qıza bu sözü desin. Sora özü peşman oldi.)Qız dedi:
– Hə, dadaş, bura bax görüm, sənnən mənim şuxluğum hardandi? Sən birdən-birə niyə belə şuxlux elədin? Sənnən mənim şuxluğum hardandi ki, bu sözü deyirsən?
Dedi:
– Xanım, qulaq as mənə, belə əvvəldən dostdum sənsən. Ayrı adamda ki yoxdi.

Xanım, əvvəlindən sənnən dosdux,
Dost bağına qədəm basdıx.
Amma sinən düşməz mənə yastıx,
Salıbsan yeri qoynunda.

Bu sözü dedikdən kənizlər gördülər, xeyir, baba, neçə vaxdı bunlar bir-birini tanıyır. Dedi, gəl görəsən pərvərdigar, bu qız məni ki bağda saxlıyacax, qoruyan eliyəcax, yainki aparacax bu həman məclisə məni. Üz dolandırdı:

– Xanım!

– Bəli.

– İcazə versən, bir dənəərzim var, onu qəbul eləsən, diyim.

Onu da belə deyir:

Ərisin dağlarin qari,
Tökülsün çaylara qari.
Qurbaninin gözəl yari,
Saxla sən narı qoynunda.

Söz tamam, vəssalam. Çün vəxt belə olmuşdi Hüseyin bəy yerindən qaxdi əyağa:

– Xanım!

– Bəli.

– Xanım, mən ölüm, xanım, razısan ki, bu aşığın üzünə söz gəlsin, mənim üzümə söz gəlsin?

– Xeyr, razı deyiləm.

– Bəs, razı olmasan, inşallah, mən bunu aparım gecə məclisə, orda bir-iki kəlmə oxusun, istirahətdığa ki, yenə, inşallah, gətirrəm bura. Ya xeyir, gətirmərəm bura, aparram bir ayrı məclisə. Gələrsiz, orda qulaq asarsız, oxuyar.

– Çox yaxçı.

Hüseyin bəy Qurbaninin götürdü. Əlbəttə, Abdulla xan bəylərbəyi bir dənə məclis təşkil eliyip. Həman o böyük şəxsilər ki, var o dustarı, həmsahibləribu gecə həm dilxoşlux eli-

yəciyix. Bu qədər də aşıx görmüşux, məclisin bir aşığı var. Amma Nazır Məmmədalı elə qəlbində eşir o yana, bu yana. Qurbanini gətirdi öz evinə. Öz məclisi ki, var idi mənzil bizimdi. Orda istirahətdıx elədi, gətdi ora. Qurbaniyə dedi:

– Nəmənə lazım olsa, durum gətirim.

Qurbani dedi:

– Heş zad lazım dəyil.

Dedi:

– Mən demirəm ki, məclisə sən məcbur gedəsən. Nəmənə lazımdi, durum gətirim. Bir az istirahətdıx elə, səni aparacağam məclisə.

Qurbani bir az istirahdıx elədi. Orda Abdulla xan bəylərbəyi, vəzir-vüzəra, əmir-üməra, Nazır Məmmədalı fəqət nəxşə çəkir hazırlığı Qurbaniyə. Buların bir beş dənə pəncərəsi var. Əlbəttə, Nazır Məmmədalı bir söz dedi:

– Sən ki deyirsən, buna vergi verilib. Bir söz var, mən ərz eliyirəm ki, ərş qarışığı bir adama vergi verilsə, duvarın o üzündə bilər nəmənə var. Özü də mən bunu bir məşq quruşmuşam.

İsdiyir Qurbani öz işini yağ təkə salsın, yazıx biçarəni. Dedi:

– Qurban, bu pəncərələrə özümüzdən bir ad qoyax. (Hələ Qurbanidə ki burda dəyil.) Xob, bu pəncərələrin adin əgər bilsə, eybi yoxdu sən diyəndi. Yox, bilməsə, bir könlün məclis ləyaqəti yoxdu. Ona bir şey verax, bir-iki kəlmə oxudax, gecə bunu yola salax, getsin.

Dedi:

– Eybi yoxdu.

– Nəmənə qoyax pəncərələrin adın?

Quranı gətdi qoydu arıya. Bular Quranı vərax-vərax elədilər. Gördülər, peygambərin mehrac ayəsi gəldi. Beş pəncərədi. Bu pəncərələrin hərəsin adına bir dənə şey qoydular. Tə-

zəllə pəncərə, təzəllə pəncərə. Maşallah, bu cür beş pəncərədi. Quran oxuyanlar xəlvərçin qoydular, o yerdə ki, saxlıyacaxlar Qurani, ora xələrçin qoyacaxlar. Gətdi pəncərələrin adını qoydu, Quranı qoydu pəncərənin içinə. Xəlvərçin var idi, saxladı orda. Bəli, bular bu cür məclisi təşkil veriblər. Qurbani o vəxtində Hüseyin bəyinən bahəm, libas filan geyinib əyninə, saz əlində varid oldi həman məclisə ki, orda vəzir-vüzəra, əmir-ümərа əyləşiblər.

– Salam.

– Əleykümə salam.

Amma Abdulla xan bəylərbəyinin Qurbaniyə göz sataşanda məhəbbət gözü açıldi. Gördü, xeyir, bu oğlan, doğurdan, gözəl oğlandi. Çün, həmi həmşəridirlər, Abdulla xan bəylərbəyi iranlıdi. Şah Abbas gəldilər, bizimki idi o zaman. Gəldilər hükumət eliyiflər. Bəli, keşdi, bir tərəfdə yer verdilər, əyləşdi. Əyləşdi, indi şam yiyəcaxdılar, ya məclisdə bir dənə şərbət idi, ya çay idi, paylandi, gətdilər. Üz dolandırdi:

– Aşıx.

– Bəli.

– İndi sən bizə üş-dörd dənə oxuya bilərsən, yainki yox?

Əlini qoydu gözünün üsdünə, dedi:

– Oxuram.

– Amma bir dənə söz var.

– Nəmənədi?

Dedi:

– Biz bu vəzirinən məşq quruşmuşux sənin barəndə. Bir daynamə var öz aramızda, əgər oları bulsan, diyə bilsən, nəmənə istəsən, verəcağam.

– Baş üstə. Əlbəttə, mən bulsam, diyə bilərəm, bulmasam, xeyr.

Dedi:

– Bax, pəncərə içində kitab var. O kitabdandi.

Kitabi qoyublar öz alarında. Abdulla xan bəylərbəyi və Nazır Məmmədalı şikarı vərəxlədi. Qurbani gördi, peygambərin mehrac davası gələndə orda saxladılar. Qurbani durdu əyağa.

– Qurban!

– Bəli.

Dedi:

– Mən sizdən bir dənə xahiş eliyirəm ki, hər kim aftafa götürəcax götürsin, hər kim bu məclisdən gedəcax getsin. Mən məclisdə oxuyanda qapı açıla, qapı örtülə, iki nəfər keçib oturar, bir nəfər durur gedir eşiyə, mən şirixlaram. Mənim qolum dağıtkardı belə. Əyləşsin, mənnən nəmənə soruşacaxsız, mən də başarıb diyə bilsəm demişəm, diyə bilməsəm eybi yoxdu, öldürün məni.

Həmin ki, ərz elədim Nazır Məmmədalı ilə Qurbani cəhli bəs eliyirdilər. Abdulla xan bəylərbəyi Gəncənin hökumətidi ki, bir məclis təşkil verib, şaddıx məclisi. Amma çün nazır Məmməadalıynan buların sözü düz gəlmədi, əyrilişdilər. Burda Qurbaniyə imtahan verirlər. Qurbani indi yemax, işmax nəmənə idi, o zaman yedirlər, işdilər, aradan yığışıldi. Bəli, Qurbani baxırdı o yan, bu yana. Gördü bəli, pəncərə içində bir dənə bizim dildə kitab var. Qurandi. Amma bu Quranın dərs oxuyanlar bilərlər, Quranı oxuyanlar. Qədimi, əlbəttə, ərz eliyirəm haa, Quranın arasına, Quran oxuyan xəlvərçin qoyasan. Onu, məsələn itməsin, çün çoxdi ayəsi, vərəqi çoxdi. Xəlvərçin qoyallar ki, itməsin. Qurbani gördü, bunun arasında bir yerdə bir xəlvərçin var, qoyublar. Durdi əyağa, Nazır Məmmədalı keşdi, bu Quranı vərəxlədi. Amma xəlvərçin olan yerdə saxladi. Qurbaninin gözü sataşdi, gördü bəli, həman ayəti. Qurbani yaxçı bi basavatdi. Həman ayədi ki, peygəmbərin mehrac ayəsində saxladılar. Qurbani dedi, bular məndən nəmənə soruşsalar, hətmən-hətmən, sərt-sərt bu meh-

rac ayəsinə lazeh söz soruşacax mənnən. Mən də huşumu yığım başıma. Əgərin ki, burda bir müxtəsər mən sözü çaşsam, hətmən öldürəcaxlar məni. Nazır Məmmədalı üz dolandırdı:

– Aşıx!

– Bəli.

– Bizim bu Nazır Məmmədalıynan arada bir cəhli-bəsimiz olub. Həmman bir-iki-üş kəlmə bir burda imtahan alacıyıx. Çox güzəşt eliyəcağam. Məzəd səni burda bəlkə qoydux, bizdən narazi olmuyasan. Çün cəhli-bəhsimiz var, güzəşt eliyəcağam.

Dedi:

– Qurban, buyurginan, nəmənə əmrin olsa, başardığım qədər xidmət eliyəcağam.

Üz dolandırdi:

– Bu pəncərələr ki, var dörd dənə bu tənəbinin pəncərəsi var. Bu pəncərələri biz Quranın ayəsindən ad qoymuşux özümüz. Bir Allah bilir, bir bu Nazır Məmmədalı bilir, bir də mən bilirəm. Buları əgər yaraşdırıb, biz diyən adı desən, sənnən işimiz yoxdu. Yox, diyə bilməsən, verəcağam boğazıva qurğuşun dolursunlar.

Əlini qoydu gözün üsdə:

– Baş üsdə.

Qurbani ərz elədi, qurban, mən bir müxtəsər nəxşəsin çəkərəm. Amma mənim də bir təvəqqəm var. Onu da lütf eliyəsən, qəbul eliyəsən.

– Buyur, görax.

Dedi:

– Çün burda ölüm ayəsi var, hər kim su işmağa gedəcax getsin, yainki qapı açılıb örtülsə, mən sözü itirsəm, məni hətmən özün buyurdun ki, verəcaxsan öldürsün məni. Mənim məclisimdə qili-qal olmasın. Mən ta adamın ki, sözü təhvil verim.

– Çox yaxşı.

Qurbani yerindən qalxdi əyağə, əl atıb sazı köynəyindən çıxardıb, sazın zilin-zil, bəmin-bəm, sinəsinin üsdə müstəcəm. İsdiyir bir az qalx görax, tam adam içində deyirdi, mən də ərz eliyim. Orda, Ağayi-Mustafayi, fəqət “Qürbəti” havasıynan oxuyacıyıx:

Cəbinin təcəlladı, cəmalın günəş,
Külli-şeyhahıva illad diyipdi.
İki qabəl qovsi qüdrəti eyni,
Bülüminəm ki, qanıma nə sayıpdi.

Əlbəttə, burdan söz ayrılır. Pəri xanım kənizlərinə üz dolandırdi:

– Uşaxlar, indi mənim xanağam aşığı oxudur. Durun gedax durax pəncərənin dalısnca, biz bir az qulaq asax.

Qızlar gəldilər. Kənizlər sağda-solda, Pəri xanım da özünə bir əl gəzdirib, yerə deyir minnətini çəhsən də, qədəmimi qoyacağam, çəhməsən xeyir. Dayandılar əvvəlin pəncərənin ki, Qurbani adın deyir, dayandılar həman pəncərənin qabağında. Qurbani odu ki, bu sözü dedi. Pəncərənin adını bular “təcəlla” pəncərə qoyublar. Qızın da cəmalın görmax cəbin alnına dəydi. Elə gözəldi qızın cəmali. Ağa, vəzir güclü adam olmasa, vəzir eləməzlər. Nazır Məmmədalı sözü seçdi.

– Qurban!

– Bəli.

– İndi sən diyəcaxsan ki, bu aşıx, bəli, mən diyən aşıxdi. O pəncərənin ki adın biz həman sözü qoymuşdux, bu pəncərənin adını dedi. Amma, vallah, bu sözü çaşdırdi.

Üz dolandırdi:

– Abdulla xan bəylərbəyi nəmənədi?

Nazır Məmmədalı sözü çaşdırdi. Ərz elədi, pəncərənin qabağında zənən-uşax var. Bu odu ki, o sözü oxudi. Hüseyin bəy əyləşib qapı tinində. Deyiblər ki, Qurbani bərnaməni baş-

damamışdan Hüseyin bəy bu məclisə qəlyan lazım oldi, sən gətirəcaxsan. Çay, şərbət, irahı, maşallah, hər nəmənə lazım olsa, peşxidmətsən. Bir ayrı adamın həqqi yoxdi, bu məclisdə yerində tərpəşsin. Üz dolandırdi, Hüseyin bəy:

– Bəli.

Dedi:

– Hüseyin bəy, dur əyağa. Ordan get gör pəncərənin qabağında kim var.

Hüseyin bəy qapını aşdi, keşdi o üz tərəfə, gözü düşəndə gördi, bəli, Pəri xanım gəlib dayanıb pəncərənin qabağında. Kənizlər sağda-solda. Hüseyin bəyin gözü sataşmaxınan qabaxdan səlam ərz elədi:

– Xanım!

– Bəli.

– Xanım, bu aşıxdan burda sənin xandadaşın imtahan alır. Allah mərdimazara lənət eləsin. Bu Nazır Məmmədalı mərdimazardi. Bu aşıx yazıxdi, bunu burda öldürəllər, çəkil, dur get bir az o tərəfdə baxginan.

– Baş üsdə.

– Xanım, amma mənə bir söz deyiblər haaa.

– Nə deyiblər?

– Get, gör eşikdə kim var.

Qız əl atdi, cibinnən məsələn, bu zamanın biri bir dənə əllilıx, ya bir dənə yüzlıx çıxartdı qoydu Hüseyin bəyin ovucuna. Dedi:

– Hüseyin bəy, özün biləcaxsan nə diyəcəxsan. Eşikdə nə var idi, nə yox idi?

Hüseyin bəy pulu aldi, gəldi məclisə. Abdulla xan bəylərbəyi üz dolandırdi:

– Hüseyin bəy, pəncərənin qabağında kim var?

Dedi:

– Qurban, bu vəzirin başına and olsun, pəncərə qabağında heş pişik də yoxdu.

Dedi:

– Aşıx, de sözün o birini.

– Afərin, afərin, bir hənalımı qoy kənara. Onnan sonra nəmənə istəsən, verəcağam.

Qurbani isdiyirdi, sözün o birisini desin. Deyim, tamam qulaq asanlar sağlığına.

Peygambər gedirdi ərşi-əlaya,

(İkinci pəncərənin adını "ərşi-əla" pəncərəsi qoyublar.)

Kimə nəzər saldi, kim durdi sayə?
Göyün mələkləri düzilmişdi ol təmaşaya,
Kimi dedi, nurdi, nə əcayipdi?

Həzrəti Peygambər əleyhissəlamı Allah-tala ki, ərşə dəvət elədi, mələklər Həzrəti Peygambərin işığına, gözəllığına heyrətdə qalmışdılar. Əlbəttə, Allah-talanın kərəmi cuşə gələndə xəlq eləmişdi Həzrəti Peygambəri. Söhbət həmin sərmənzil nəvadadi, bu dəvət üçün qız çəkildi durdi kənarda. Pəncərə qabağına gəlmədi. Sadəvarı söz dedi. Görürüsən, ağalar hammısi gülürülər məsələn, bu tilivizyonlarda ya güləşənləri, ya top oynuyanlari. Hansi tərəf bir qola zor gələndə o adamın tərfələri görürsən bir az şad olur. Məsələn, çəpik çalırlar. Çün Qurbaninin tərəfi Abdulla xan bəylərbəyidi. Qurbani sözü diyəndə eynən özü lüt sözün qoyur ki, meydanə, deyir:

– Nazır Məmmədalı.

– Bəli.

– Aşıx nə cür aşıxdi?

Dedi:

– Qurban, çox yaxçi aşıxdi.

– Görürsən, həqq aşığıdi.

– Bəli.

– Həqq aşıği sən ki necə qəblən ki, deyirdin gedin nəbadə mən də ərz eləmişəm, həqq aşığı duvarın bu tərəfində nəmənə olsa, o tərəfindən görər, bilər. Çün həqq aşığıdi.

Nazır Məmmədalı elə narahatdı, elə narahatdı az qalır, bağrı çatdasın. Dedi, dədə vay, gəl gör həman o Pəri xanım ki, deyirdi Qurbani adında bir oğlan sövmüşəm, əzəldən gələcax iranlidi. Mənim məşuqəm odi. Gəl, gör bu oğlan həman oğlan ola. Az qalır, bağri çatdasın.

– Dadaş.

– Bəli.

– Sözün o birsin de görax. Bu biri pəncərənin adını nə cür diyəcaxsan?

Qurbani götürüb görax sözün üçüncü bəndin nə cür deyir:

Peygambər qayıtdi ərşi-əladan,
Cəbrail vəh gətirdi o hüveydadan.
Cəmalımın şövqi düşib, təfsir-ayədən,
Ay şapkın eyliyib, gün, il qayibdi.

Dedi:

– Nazır Məmmədalı, sözü dedi, yainki yox? İndi mən diyən sözü gəlirsən, yainki yox?

Çün çox narahat oldi. Nazır Məmmədalının az qala narahatçılığının qəlbi yatsın. Dedi:

– Qurban, vallah, bir söz diyəcağam, məni öldürtdirmiyəsan burda.

– Nə diyəcaxsan?

Dedi:

– Sənin bacın gəlib durub pəncərənin qabağında, həyət tərəfdən. Bu onun şövqunə deyir bu sözləri.

Qərar kəsiblər bir adamın həqqi yoxdu ki, dursun qapıdan çıxsın eşiyə. Söz danışıblar. Nazır Məmmədalı bu sözü demədi, Abdulla xan bəylərbəyi üzün tutdi Hüseyin bəyə:

– Hüseyin bəy!

– Bəli.

– Sən bəyax getdin baxdın pəncərənin dalına. Eşikdə ki bir şey yoxudi?

Dedi:

– Xeyr.

Dedi:

– Bəs, bir zəhmətdi, bir dəfə də bax.

Hüseyin bəy durdi əyağa, qapını aşdi keşdi həyət tərəfə. Gördü, bəli, can alan cəllad yinə gəlib durub pəncərənin qabağında. Üz dolandırdi:

– Ay xanım, axı, o aşıx yazıxdi. Onun qanına baiskarlıx eləməginən. Onu burda öldürəllər. Çəkil sən, çəkil get bir az o yanda dur sən.

– Necə?

Dedi:

– Bu tünbətinə oğlu Nazır Məmmədalı elə bil bu aşıxınan kəl kimi döyüşürlər.

Bu elə bil bunnan tərəfdi.

Qız dedi:

–Mən bildim nə var. Mən ki bunun oğluna nişanlı eləmişdilər, mən getmədim, həman qərəzdi bu aşıxdi başdıyıp.

– Çox yaxşi. Bir yol dollanmarıx o yan tərəf. Narahat olmaginan, get.

Hüseyin bəy qəyitdi, varid oldu içəriyə.Nazır Məmmədalı üz dolandırdi:

– Hüseyin bəy!

– Bəli.

– Pəri xanım ordaydı da?

Dedi:

– Vəzir, sənin başıva and olsun, orda bir dənə pişik də yox idi. Sən bilmirəm hayandan görürsən, orda adam yoxdu.

Abdulla xan bəylərbəyi üz dolandırdi:

– Hüseyin bəy!

– Bəli.

– Pəncərənin dalısıcan, həyət tərəfdə kim var?

– Ərz elədim, qurban, heş kim yoxdu.

Dedi:

– Oğul, sən oxi.

– Oxu, dimağına baxmaginan, bu isdiyir səni kirixdırsın, səni burda biz öldürtdürax. Sən nəmənə ki, oxuyacaxsan bir zərrə hədəfi çaşdırma bu yana. Oxuginan, həlalını qoy kənara, şəhər, məmləkət nəmənə istəsən, verəcağam.

Qurbani gördi, bu Nazır Məmmədalı durəcənə-duracənə qəmiş qoyup. Dedi:

– Buna lazehdə bir kəlmə oxuginan.

Pəncərənin axımıncı sözü deyip, həmi də isdiyir ki, Nazır Məmmədalıya tohum eləsin. Mən də deyim, hammının sağlığına:

Kərəmin kanıdi, elmin bəyani,
Aşikar eyliyip dini-İslami.
Qurbani, gərə bəşərsən həqqivi tani,
Nəlayıx üzünə durma, ayıpdi.

Nəlayıx kimi deyir, bir azdan nəlayıx ibarətdi bu məclisdə Nazır Məmmədalını deyir. Deyir, yani layıx adam dəyilsən, nalayıx adamsan. Kaş, mən elə heş bu məclisə gəlmiyəydim. Nalayıx üzünə durmax ayıpdi. Qurbani sözlərini tamama yetiribdi. Çün o pəncərələr ki, ərz eləmişdim, pəncərələrin adın deyip, Qurbaniyə bir çuxa gətdilər. Qurbani əyləşdi bir tərəfdən, üz dolandırdi:

– Aşıx oğlu, elə aşıxsan.

Abdulla xan bəylərbəyi "aşıx oğlu aşıxsan" dedikcən, bunu tərif elədikcən Nazır Məmmədalının sancı dolub qarnına. Az qalır, bağrı çatdasın.

– Xob, nəmənə istəsən, verəcağam.

Dedi:

– Qurban, ayrı bir şey istəmirəm, sənin sağlıvı isdiyirəm. Nə istiyəcağam? Mən aşığam, ibarətdi mənim hədəfim söz oxumaxdan. Mən fəqət xanımın səlamətdığını isdiyirəm.

Nə qədir dedi:

–Nə isdiyirsən?

Dedi:

–Elə sənin sağlığıvı.

Abdulla xan bəylərbəyi üz dolandırdi həman Hüseyin bəyə:

– Hüseyin bəy.

– Bəli.

– Bu aşığı sən indi gecə keçib, bu da bir az oxuyub günüzdən də mükündü, məclisə zada getmiyibmiş, narahatdi. Aparasan buni, bir dənə otax verəsən, istirahətdıx eliyə. Səhəri, inşallah, gətirəsən, hə, görüm bu məndən hər nəmənə istəsə, hamı beş-on sayı bizə oxuyar, həmi də nəmənə istəsə, onun xidmətində varam.

– Baş üsdə.

Qurbani durub əyağə. Sazı qoyub köynəyinə, aşıx qisməti də məclisdən qurtaranda elə bilərsən, zahı ocaxdan qurtarıb. Çün niyə? Bədəni o qədir tərriyər, elə bil mumdi. Yorular da, dəh verib dəng almax, oxumax çox çətindi. Birdən kənardan duranlar bular müftədən qazanır bax puli, bəxdəvər başdarına. Amma bilmir ki, məclisi qurtarıncan dədəmiz yanır. Məclisə ki, varid olurux, toyu qurtaranda vaqəfən əgər qoyalar qapına. On kilovəstlıx gəlirıx. Çün niyə? Məclisdə töhmət bir dənədi. Qurbani durdi əyağa, çün imthandan çıxıb, bir az da sövinib. Hüseyin bəy apardi bunu bir dənə, bizim dildə, bir dənə otaxdi, ya bir dənə qəflidi, küləfrəngidi onnan işim yox, bir ali otaxda Qurbaniyə bir dəst qu tükündən yorğan-döşək açıb, Qurbani xurreyi-xaba büländ olsun. Üz dolandırdi:

– Aşıx.

– Bəli.

– Nəmənə qəza-filan meyl eliyəcaxsan, xidmətində varam.

Qurbaniyə o ki var Hüseyin bəy xidmət elədi. Ərz elədim, bir dəst qu tükündən yorğan-döşək açıb. Qurbani sazı qoydu başı üsdə. Libasların soyunub, xürreyi-xaba bülənd oldu. Qurbani orda yatmaxda olsun, bu açarlar ustad belə nəzmə çəkir, Hüseyin bəydə ki neçə dənə otağın açarı var, həman açarların tayı da Axsax Xubandadi ki, ibarət ola Pəri xanımın kənizidi. Pəri xanımı ilan vuran yətdi, bu Pəri xanım yata bilmədi. Axsax Xüban gördü, xeyir, eşinir. Dedi:

– Xanım, niyə yata bilmirsən?

Dedi:

– Axı narahatam.

– Axı niyə?

Dedi:

– Çün mənim məşuqəm, həman o aşıx ki, gördüz gecə oxuyurdu orda məclisdə. O mənim qonağımdi. O mənim məşuqəmdi. Axı indi o orda tək qalıp, mən də burda narahatam da.

– Xanım, narahat olmaginan. Əgər deyirsən, dur əyağa, gedax yanına.

– Gör neyniyəsən, amanın bir günüdü.

Belə rivayət eliyir ustadlar, o vəxtində Axsax Xuban durdi əyağa. Dedi:

– Xanım, sən əyləş, mən gedim görüm hansı otaxda yatıb, harda yatıb. İmkanı var əgər ya gedax oğlanı gətirax bura, ya oğlanı qəşəng oyadax, siz nəmənə söhbət eliyəcaxsız, söhbət eliyin.

Axsax Xuban durdi əyağa ki, ərz eləmişəm, o otaxlar indi beş dənə idi, on dənə idi, üş dənə idi, işim yoxdu neçə dənə otaxdi. Otaxların açarları həmi Hüseyin bəydədi, həmi Axsax Xubandadi. Axsax Xuban yetirib, həman otağın bir neçəsin

açarı salıb aşdı, keşdi içəriyə. Neçəsinə baxandan sonra gördü, bəli, otağın birində qonax xürreyi-xaba bülənd olub. Sazı qoyubdur baş tərəfdən, özü də xürreyi-xaba bülənd olupdu. Həri qəyitdi, yerin nişanladı, qəyitdi.

– Xanım!

– Bəli.

– Mən oğlanın yerini örgəndim. Dur əyağa, ya deyirsən gedax ora, ya deyirsən gedim oğlanı çağırım, gəlsin bura.

Dedi:

– Sənnən gəlməz. Mən gərək özüm gedəm.

Qız durdi əyağa, aynanın qabağında dayanıb, özünə bir kamilən ziynət verdi. Yerə deyir, minnətimi çəhsən, qədəmimi qoyacağam.

Bəli, söhbət həmən sərmənzili-məvadədi. Abdulla xan bəylərbəyindən Hüseyin bəy ki Qurbanini ayırıb gecə apardi otaxların birində istirahətdıx eləsin. Amma ilan vuran yatdi, Pəri xanım yatmadi. Üz dolandırdi kənizi:

– Ay xanım, niyə narahatsan?

– Ərz elədim Allaha, Allahdan gizlin dəyil, səndən nə gizlin. O oğlanı ki mənə vaqiyədə ağam Həzrəti Əli nişan verib, bir aşığa ki bir belə dünənnən gələndən baxiram həsrətinən. Bu mənim məşuqəmdi.

– Bəs neyliyax?

Dedi:

– Durum əyağa, gedim görüm, hansi otaxda yatir. Deyirsən, səni aparım ora,demirsən, gedim oğlani çağırım gəlim bura.

Axsax Xubandı kənizin adı.Durdi əyağa gəldi otaxların bir neçəsinə baxandan sonra otağın birinin qapısını ki aşdi keşdi içəriyə. Gördü bəli, bu oğlan xürreyi-xaba bülənd olub. Qərdəşim, gözəl adamın hər zadı gözəl olar. Yatmaği, durmaği, yerimaği, danışmaği, gülmaği, hətta ağlamağı da gözəl olar. Qurbaninin yanaxları elə bilərsən zunus almasıdi, elə bi-

lərsən qaşlar on dörd gecənin bulut altdan görsənir. Axsax Xuban qaşdi, qıza xəbər verdi:

– Xanım!

– Bəli.

– Oğlanın otağın örgəndim, yerin örgəndim. Əgər gedirsən, dur əyağa, gedax.

Pəri xanım durdi əyağə, aynanın qabağında dayanıb, yeddi qələm səlbi on dörd qələmin özünə ziynət verdi. Bala-bala gəlirlər. Gəldilər, yetirdilər həman yerə. Qız yavaşcana Axsax Xuban açarı saldi, qapıni aşdi, keçdilər içəri, döndü bağladi. Keşdi qız oğlanın başı üsdə əyləşib, amma yorganı bala-bala üzündən atdi kənara. Bəli, pərvin gözü düşəndə gördü hə:

Əzizim yar yarə,
Qərə bəğrim yar yarə.
Diz titrər, qan qaçar,
Yetişəndə yar yarə.

Gözü düşəndə Qurbaniyə gördü hə....

– Ey-vah kəniz, görəsən, bunu nə cür oyadax?

Kəniz bir baxdi Qurbaninin qiyafəsinə, üz dolandırdi:

– Xanım, icazə versən, mən oyadım.

Dedi:

– Nə? Sən oyada bilməzsən?

– Bə neyliyax?

Dedi:

– İcazə versən, mən bunu oyadım.

Amma Pəri xanım siyah zülflərindən bir cüt taraq eliyip, basıb ərz üsdə, nər məmələrin üsdünə, götürüb görax orda Qurbanini nə cür oyadır, mən də deyim tamam bu navara qulaq asanlar sağlığına:

Nə middətdi həsrətindən ölürəm,
Oyan bir yuxudan, gör nələr oldu.

Gecə-gündüz fəraqında yanıram,
Oyan bir yuxudan, gör nələr oldu.

Qurbani gördi, bəqioğlu taslar aşina səsi gəlir qulağına. O vəxtində Qurbani o yuxunun bəzi vəxti var, görəsən, adam sözü eşidir, amma ixtiyari yoxdu dursin əyağa. Qurbaninin qulağına həzin səda dəyir, saz səsidi, qız səsidi, suğum səsidi, bir də qaz səsidi. Bular yaxçı səslərdi. O vəxtində Qurbani özünü vurdu genə yuxululuğa. Ərz elədim, qadir dəyil gözüni açsın. Pəri xanım gördi heç əsər eləmədi, isdiyir sözün dübarəsin desin:

Nə müddətdi gözüm qalip yolunda,
Yar həsrəti qoyma qalsın dilimdə.
Bülbül cəh-cəh vurar, gülşənində, gülündə,
Oyan bir yuxudan, gör nələr oldu.

Rivayət belədi, ustad belə nəzmə çəkib, Qurbani gözlərin aşdi. Gözi sataşdi Pəri xanımın üzünə. Amma müqəyyət oldi, əyağa durmağa. Narahat oldi, özünü vurdi lap yuxuluğa. Üz dolandırdi həmən bu Axsax Xuban:

– Xanım!

– Bəli.

– Bu cürruxnan bu oyanmaz ki? Sənin o səsin adama bir az yuxu gətirir. Mən az qalıram yuxliyam, bu oyanmaz. Buni qoyaydin mən görüm nə modda oyadıram.

Amma Pəri xanım isdiyirdi sözün xatəməsin desin. “Göyçə gülü”ynən oxuyacıyıq:

Haca gedər hacıların hacısi,
Getməz ürəyimdən düşmən acısi.
Mən Pəriyəm, Abdulla xan bacısi,
Oyan bir yuxudan, gör nələr oldu.

Qız sözlərin tamam edib. Qurbani gördi, dədə, vay, Pəri xanım bir Axsax Xuban kənizi ki var yanındadi. Müqəyyəd oldi, yuxudan dura bilmədi əyağə. Gözün aça bilmədi. O qədər qaldi. Üz dolandırdi, Axsax Xuban bir fikir elədi. Dedi, canım,

bu oğlan ayılar yuxudan, bular burda qəşəh mehriban danışallar. Bəlkə düşsə, biz belə da, öpüşün üş doqquzun düşər yarım qəpiyə. Mənnən savab olacax. Mən nə iş görəcağam. Yaxçısı budur ki, elə sən özün odda yanırsan, bunu da yandır.

– Xanım!

– Bəli.

– Xanım, bir söz var, bir məsələ, onu da bilirsən?

– Nəmənədi?

Dedi:

– Diyəllər ki, qədim kişilər göylü balıx əti isdiyən, nəmənəsi gərək qoya buzlu suya. Biz indi gəlmişıx bura, xub, bu sənin məşuqəndi, nişanlındi. Nə vaxdi görməmisən gecənin nimi-şəqqidi, gəlmişıx bura. Şayəd indi qərə oğullardan, keşikdən bizi burda görsə, xub, xanım sındıranın səsi çıxmaz. Sənnən mənə bir söz deməzlər. Amma bu oğlanı səhəri öldürəllər. Onu da bilirsən, ya yox?

– Bə neyliyax?

Dedi:

– Bir nəxşə salaydıx, sən əvvəl kirıxdın. Dedin, bəs bu oğlan səninkidi. Elə nədir bu dünyada varsız, bu oğlannan sən varsan. Sən bir az mənə macal ver, mən bir nəxşə çəkəm, bu oğlanı gətirəm sənin barigahıva. İndi şayət, bizi burda görsələr, bu oğlanı səhər öldürələr.

– Bə neyliyax?

Dedi:

– Dur əyağa, gedax burdan. Mən bir nəxşə çəkərəm, bu oğlan özü gələr bizim otağımıza. Sənin mənzilivə, orda xub, yatırsız yatın, oturursuz oturun. Səhər işıxlana yaxın mən bunu hər nəxşeynən gətirib barigahında burda yatar, səhər Hüseyin bəy gələr görər ki, bu oğlan öz barigahında yatıb. Dur, biz gedax. Səni aparım ötürüm mənzilivə, mən gəlləm oğlani nə

nəxşeynən oyadacağam özüm billəm, nə cür gətirəcağam sənin mənziliva, genə özüm billərm. Onlar mənim öhdəmədi.

Amma, qərdəşim, Pəri xanımın bir qucax teli var. Durdular əyağa. Qurbani göz altdan hərdən baxir. Durandan sonra Qurbani gördi, zilflər dalıdan top olub, bir-iki qədəm bular hərəkət elədilər. Qurbani öz-özünə dedi, ey dili qafil, firsəndi fot eyləmə, aqil məgər adam ola. O vəxti Qurbani yerin içindən Pərinin dalısıcan baxmax, zilfləri yerinən sürünmax. Qurbani bir dəstgah şeir dedi. Götürüb görax, nə cür deyir. Ağayi Mustafayi, bunu da "Mirzədayi" havasıynan oxuyacıyıx:

Aylar, illər həsrətini çəhdiyim,
Üzü dönmüş bivəfaya, belə bax.
Gözəllərə sərxoş gəzmək mal olmaz,
Açılıpdi gümüş kəmər, belə bax.

Rivayət belədi, çün qız pərişan, bikef burdan bir nəticə ala bilmədi. Özü ki özünə ziynət vermişdi, sözdən belə anlaşılar ki, adam, mümkündü ki qızın kəməri belindəki kəməri bir ucu yernən sürdi. Odu ki belə deyir. Amma oğlanın səsi dəydi qulağına. Kənizə dedi:

– Kəniz!

– Bəli.

– Nətər eliyax?

Dedi:

– Narahat olma. Keş gedax, bayaxdan biz yalvardıx ona, bir az da qoy indi o yalvarsın bizə.

Qurbani gördü, əhəmiyyət vermirlər, gedirlər. Evin yıxılmasın, Abdulla xan əgər bilsə, bu bərnamədi. Sənin də iplərivi yandıracax, mənim də. Qoy bu sözü deyim, görüm mənə heş rəhmi gələcax. Çün bundan xatirəsdi. Abdulla xan bacısıdi. Xəlvətdən buna bir söz-möz deməz. Amma şayət, məni öldütdürəllər. Amma Qurbani isdiyirdi görax, sözünün ikinci kəlməsini necə deyir:

Otaxda qoymuşam Abdulla xanı,
Göylümə salmısan sən də gümani.
Mən biçarənin dini-imani,
Açılıpdır gümüş kəmər, belə bax.

Axsax Xuban rəyə gəlmişdi haa, qız təzədən qeyidirdi, ərz elədim çün Axsax Xuban dedi: "Əgər bu qəyitsə bu oğlanın yanına, mən elə oturub baxacağam. Bular qəşəhcənə eyş-işinən məşğul olacaxlar. Gəl yaxdı ki, özündən belə, bundan belə. Bəqioğlu keçəl var kimi, səndən olsun, məndən də olsun".

– Xanım, nə badə, nə badə birər geyin, geri gedax.

Dedi:

– Axı, yanmış, biz getdıx. Bu oğlanı kim gətirəcax?

Dedi:

– Axı mən dedim, gedərəm, gətirəram da.

– Bir də sən qeyidəsən, bu oğlan bəlkə durmadi yuxudan. Dədə vay, nənə vay, səhər olacax biz genə bir şey eliyəmmədıx. Nətər eliyax, neyliyax?

Amma Qurbani gördi, qız qeyitmədi. İsdiyirdi sözün xülasəsin desin:

Qurbaniyəm, ah çəkərəm, ağlaram,
Dərddilərin ürəyini dağlaram.
Nə müddətdir yar dalınca ağlaram,
Açılıbdır gümüş kəmər, belə bax.

Söz tamam, vəssalam. Qurbani də insafən elindən, günündən, qohum-qəbilədən, vətənindən ayrılıb, fəqət bir Pəridən ötürü.

Qız dedi:

– Xanım, narahat olmaginan.

Bu oğlan burda qalsın, Pəri xanımi Axsax Xuban apardi. Gecənin nisvi-şəbdi, yetirdi barigahına.

– Xanım, sən yolu nə cür deyisən de, mən ərən gedim oğlanı gətirəm bura.

Neçə rivayət diyəllər, Allah cəmi ölənlərə rəhmət eləsin, Aşıx Mükayila da rəhmət eləsin. Mən bu dastani, əlbəttə, Aşıx Mükayildən örgənmişəm. Deyərdi Aşıx Mükayil, Axsax Xuban gəldi, bir az saman götürdi, oğlana dedi:

– Mənim dalımcan gələrsən. Şayət, bahəm getsax bir moqeyi mənim məmurdan-filandan, görsə, bu işqal olar. Amma mən saman tökəcağam yerə, bu samanın rəddiynən gələrsən. Səni Pəri xanım barigahda izliyir, amma sazıvu da götürüb gələsən.

Qurbani dedi:

– Baş üsdə.

Qurbani durdi əyağə, libasların giyinib. Qurbani öz-özünə dedi, fürsəndi fot eləmə, aqil məcəlladan yatacıyıx vəxtində. Nəyə yatsın? Dur əyağa gör, Pəri xanım sənə nə deyir? Sən Pəri xanıma nə deyirsən? Durdi əyağə, libasların geyindi, sazı vurdi qoltuğuna, evdən çıxdi. Çün ərz elədim, bu Axsax Xuban yerə saman tökmişdi. Həman Hətəmxan baxçasınacan. Qurbani o vəxtində bəli, çün gecə qərənlixdi, gecənin qərənliği bir tərəfdən, qızın eşqi götürüb Qurbanini bunun dalısıcan gəlir. Amma bu kəniz bağa varid olanda işbuh elədi. Kirixdı, qapını bağladi. Pilləkanları şoqiynən çıxır ki üsdə, xanım, oğlanı gətirmişəm muştuluğumu ver, mənim əyanımı ver. Çün qapı bağlandi, Qurbani oracan yaxçı gəlmişdi. Orda qapıya yetirəndə gördü, həə, qapını bağlıyıblar. Əgər dursun qapını döysün, şayət, şaqqıltıya, səsə həmsayə oyanar. Ya oyannan qərəvul, gözçətçi filan. Bu işi dürəllər. Əgər Allah, bə bu məni çağırıb bə qapını niyə bağladi? Mən də burdan qeyidim gedim, bu bir şeyə oxşamadi. Neyniyim, nə cür eliyim? Bəqoğlu şəhərdə külə diyəllər. Bizim ana dilimiz, kət dilimiz, kətdərdə gilif diyillər. Bağın bir dənə gilifi var. Bizim dil külə, Təbriz dili. Qurbani o yana, bu yana baxdi, bir tərəfdən yol tapıb, bağa gedə bilmədi. Duvardan aşan dəyildi. Qurbani bir

dənə böyük kişinin oğluydi. Xan, bəy oğluydi. Gördü külə var, gilif. Yavaşcana sazı gilifdən uzatdı bağa. Nə müsibətinən tuğl olmasın, varid oldu bağa. Qız küləfirəngidə durub, Pəri xanım qapıya baxır ki, gözü qapıdadı ki, indicə mənim məşuqəm gələcax. Bir yolunda gördü külə tərəfdən, saz qoltuğunda Qurbani çıxdi. Salam ərz elədi.

– Xanım, salam əleykim.

Üz dolandırdı:

– Əleykümə salam.

– Xanım!

– Bəli.

– Qabaxcan qoy şikayəmi eliyim da.

– Nəmənədi şikayə?

– Bəs məni bu bağa dəvət eləmağınan, qapını dönüb bağlamağın nədi?

Axsax Xuban gördi, işdi bu.Üz dolandırdı:

– Bəy oğlu, güzəşt eləginən. Bu iştibah olub. Mən çün kirixdım, xanımdan bir ənam alacaqdım, o ənamın şovqu vurdu məni. Odu ki, qapını bağladım. Eybi yoxdu, buyur, gəl üsdə.

Qurbani pilləkanları çıxdı üsdə. Gördü nə cəlal, nə təkladi. Qurbaniyə indi şərbət var idi, şirin çay var idi, ya qəlyan var idi, işim yoxdu, Qurbani əyləşdi bir tərəfdən. Qurbaniyə şərbətlər, qəndadan, ya qəlyandan gətirdilər. Qurbani muxtəsər hala gəldi. Axsax Xubana üz dolandırdi:

– Xanım, sən çox zəhmət çəkmisən. Mənim o sazımı ordan verəsən mənə, bir qədər tərif oxuyacağam.

Baxdı gördü, Pərinin dövrəsində kənizlər. Yar-yoldaş xülasə ki, dövrəsində adam var. Ah çəhdi, Pəri üz dolandırdi:

– Bura bax görüm, sən niyə ah çəkdin?

Ərz elədi:

– Qulaq assan, deyim, xanım:

Günün hərarətindən yer qızaranda
Dünya başımıza dar olacaxdı.
İsrafil götürüb surun çalanda
Rövşən gözlərimiz tar olacaxdı.

Alma bir meyvədi tamı şırindi,
Heyvada ribadı, qandı, irindi,
Narda həbibindi, əffi dərindi,
Dənəsi cəsəddə, nar olacaxdı.

Gözəllər təşbehdi, dağın gülünə,
Uymaginan simasına, telinə.
Həvəslənib siqal vermə telinə,
Hər muyi-məhşəl güni bir mar olacaxdi.

Huşində silqədi, sinəmdə dağdi,
Dura-dura namusun bilmiyənlər həmişə sağdi.
Dövlətdən qismətin beş aşinadi,
Çəhdiyim əməhlər bütov zay olacaxdi.

Yığılar məxluqət, qurular məhşəl,
Sinələrdə kəfən, əllərdə dəfdər.
Vay halıva olsun, Aşiq Ələsgər,
O gündə bəs halın necə olacaxdi?

Bəli, söhbətimiz sərmənzili-məvadə qalıb. Yoldaşım Aşıx Mustafa, yoldaşım Heydər, balabanda şirkət eliyən Teymur Mustafayidi.

Qurbani Axsax Xubandan keçən navarda söhbətimiz həmin yerdə qalıb ki, sazın üsdədi. Qurbaniyə sazı verir, isdiyir görax nə deyirdi, ərz eliyim. Amma çün ordadi ki, Pəri xanım bikef məclsidəndi. Qurbani isdiyir görax Pərinin bikef olmağından neçə kəlmə söhbət eliyir, mən də ərz eliyim tamam qulaq asanlar sağlığına:

Durum, dolanım başuva,
Aşiqindən küsən dilbər.
Ağ üzündən bir busə ver,
Nə mən dilbər, nə sən dilbər.

Çün ərz elədim, Pəri xanım, az-maz elə hammısı bilirlər də, bu gözəl tayfasının eşvəsi-qəmzəsi hammıdan çox olar. Yəni gözəlin eşvə-qəmzəsi olmasa, gözəllığın bir əlamətin ibarətdi eşvə-qəmzəsindən. Çünki Qurbanini gətiriblər bağa, gecəni nisvişəbi. Deyir, qoy bir bustəsər buna eşvə-qəmzə eliyim görüm, bu da mənim halımca oynuyur, yainki yox? Qurbani odu ki, bu söz deyir. Pəri bir baxdi Qurbaninin qiyafəsinə, gecə axı bir adam az-maz yuxusuz qalsa, görəsən, bəli, rəngi-ruhu ağarıb. Pəri xanım baxdi Qurbaniyə, gördi, Qurbaninin yanaxlar elə bil zurus almasıdi, ali-qızrmızılidi. Ürəkdən bir ah çəkdi, Qurbani isdiyir, görax Pəri xanımın ah çəkmağına sözün dübarəsin necə deyir, mən də ərz eliyim hamının sağlığına:

İtirmişəm maralimi,
Dərd çəkmiyən saralimi?
Gülü-çiçəkli qəralimi,
Gecə də mənim yuxumu kəsən dilbər.

Kənizlər dolanırlar pərvanə kimi bu oğlanın dövrələrinə. Qız dedi, həə, qəlbində, Allah, axtardığımı tapmışam. Allah hammının ürəyinin istədiyini yetir. Mən də oların içində.

Qurbani bir fikr elədi. Dedi, gəl denən, ay oğlan, bu qız diyər, bəs, sən birdən əskik adamnan-zad olarsan ha. Gə denən, mən elə əvvəlindən bəy oğluyam, xan oğluyam haa. Özuvu nə gözlə görürsən ki, Abdulla xan bəylərbəyi hökuməti onun bacısısansa, məni də bir böyük adam nəzərində alginan. Amma Qurbani isdiyirdi, bu qatarın, xülasə, kəlməsin desin, deyim tamam qulaq asanlar sağlığına:

Qurbaniyəm, vəldən dəydi,
Bənövşələr boynun əydi.

Nə dedim, qəlbivə dəydi,
Bu mən dilbər, bu sən dilbər.

Sənə nə demişıx ki, bizdən bikef olmusan? Pəri xanım gördü, hə, elə yıxıldığı təxti-xabdı ki, yatdı yatacax. Yaxçı yerinə düşüb. Ustad belə nəzmə çəkir, Pəri xanım bir adamı dəvət eləsə, o qonax üçün bir tədarük görər. Qaldi ki, bu böyük xanəvadədi. Hər nəmənə desən, hazırdi. Gecənin nisvişəbdi. Qurbaniyə bir xidmət eliyir, çün bular nə vaxtı aşiqi-məşuqəsidi, bir-birlərini görməyiblər. Bəli, əlbəttə ki, Pəri xanımın kənizləri pərvanə kimi dolanırlar dövrəsinə. Qurbani həsrətinən baxır, ərz elədim da, Allah heş oğlani görduğu gündən dali qoymasın. Ah çəkdi Qurbani.

Dedi:

– Bu nökərrər, bu kənizlər, yəni burda bir özgə adam yoxdu. Ha bular hammısı mənimkidi. Gözdən narahat olarsan, bir moqeyin sözün filanın olsa, deməzsən.

Qurbani gördü, yani qız deyir, mən böyük adamam, xub, nökər, kəniz filan bular mənimkidi. Üz dolandırdı:

– Xanım, icazə ver, mən belə söyüd ağacı kimi yalqız yerdən çıxamamışam ki? Mənim də özümə görə adamım var. Qulaq asginan.

Amma Qurbani orda sazı çəkib sinəsi üsdə, kənizlər qızın sağı, solundadılar. Bir dəstgah isdiyir görax nə deyirdi, mən də ərz eliyim tamam qulaq asanların sağlığına. “Göyçə gülü”ynən oxuyurux:

Necə pedavra eyləməsin beçarə bülbül,
Bülbülü ayırsan çəməndən ayri.
Xar dolansa qızılgülün dövrünə,
Şəqaid açılmaz çəməndən ayri.

Qız sözü təhvil aldi. Üz dolandırdi:

– Narahat olmaginan, elə bu təşkilati ki, mən dedim, mənimdi. Məsələn, qorxma, sənin özüva lazehdi. Bu nökər,

bu kəniz, bu bağ, qəsri, bu küləfirəngi, təşkilat tamam özuva lazehdi.

Üz dolandırdı:

– Xanım, qulaq as, deyim:

Yolunan getməyə yoldaşlarım var,
Sirrivi demağa sirdaşlarım var.
Sənin elin, günün, qardaşların var,
Mənim kimsəm yoxdu, yar, səndən ayrı.

– Mənim burda bir adamım yoxdu.

Üz dolandırdi:

– Heş narahat olmaginan, bu təşkilat sənin özuva lazehdi.

Amma bir dənə söz var, qədim kişilər diyəllər. Yəni, məsələn, bir şeyi tapanda sövünər, itirəndə bir az döyər təpəsinə. Bu Qurbaniynən Pəri ki, eşi-uşa məşğuldular, bəzi sözlər yadına düşür. Hər dəfə adamın zindəganlığı təkmil olsa, Allah heç o oğlanı zindəganlıxdan dala eləməsin. Zindəganlığı təsvir olsa, bir adamın bəzi şeylər yadına düşər. Allah elin kefin saz eləsin. Elin kefi saz olsa, aşıx da yadına düşər. Ərzim ordadı ki, bular yeyirlər, içirlər, çörək fikri eləmirlər, paltar fikri eləmirlər. Qız birdən üz dolandırdi:

– Aşıx!

– Bəli.

Dedi:

– Aşıx, bu dəyqə ki, indi oturmuşux burda eyşi-uşən məşğulux, mənim xandadaşım duysa, səhər səni də öldürtdürəcax, məni də. Onu da bil haa.

Qurbani bir ah çəkdi.

Üz dolandırdi:

– Aşıx, səni məndən ayırsalar, nəzərində nə cür olar dünya?

Dedi:

– Xanım, qulaq asginan, onu da deyim.

İsdiyir görsün ki, məsələn, bu Qurbani bu qızı nə qədir sövür.

Hər kəniz ki otağı var idi özünün, öz otağında qu tükündən yorgan-döşək xürreyi-xaba bülənd oldular. Amma bir söz var axı, bir adam əlçə yeyir. Bu əlçəni uzaxdan görən adam görür, ağzı sulanır. Heş zad yoxdu haa. Əlçə yeyənin ağzı sulanmaz ki, onu görənin ağzi sulanar. Bu kənizlər ki, getdilər yatsınlar, yat da bu sadəlıxda dəyil ki, bular burda eyşi-uşa məşğul olsun, olar da getsin, orda rahat yatsınlar. Bəli, xub, hər kəs öz otağına təşrif apardi. Qurbaniynən Pəri qabax-qabax. Bir səndəl o yanda, bir səndəl bu yanda arada bir miz var. Əlbəttə, qız bir az, ərz elədim də, bikefdi. Yəni nəyin bikefidi? Qurbani fikr eliyir amma, görəsən, səhər çağı buna nə diyəcaxlar, nə demiyəcaxlar, mən bunu bir balaca burda imtahan eliyə bilseydim, çox yaxşı olardi. Qurbani üz dolandırdi:

– Xanım, elə bil çox bikefsən. Zəhmət verdıx, narahat elədıx, yuxusuz qoydux.

– Yuxusuz qalmadıx, səndən bir dənə mənim təqazəm var.

– Nəmənədi, xanım?

Dedi:

– Bəyaxdan oxuşax filan, bəşməkan olar, kənarda dursun. Mənim özümə bir qatar tərif diyə bilərsən?

Üz dolandırdi:

– Bir qatar niyə, əlli qatar diyərəm. Niyə diyəmmərəm?

Qız isdiyir ki, görüm bu bir şey bilir, səhər bundan bir söz filan-zad soruşsalar, diyə biləcax, ya demiyəcax?

Üz dolandırdı:

– Xanım, diyərəm.

– Şəxsən mənim özümə elə bir söz diyəsən ki, bu barigah, məsələn, bu saxtuman, bu təşkilat hammısına lazeh ola, tərif diyəsən.

Qurbani bizim kimi aşıx dəyil ki, bizlər səngi aşığıyıx. Amma Qurbani əşq aşığıdi. Qurbaninin sazi əlindədi. Sazı sinəsi üsdə kök elədi, isdiyir bir dəstə görax qıza nə cür tərif deyirdi, mən də ərz eliyim tamam qulaq asanların sağlığına. Mən ustaddan belə eşitmişəm dastanı, ağaların xidmətində də belə ərz eliyirəm. İsdiyir görax, Qurbani orda qıza nə deyirdi, mən də ərz eliyim tamam qulaq asanların sağlığına:

Bir gözəl sövmüşəm arif olan,
Şəmi-şöhrəti var ellər içində.
Dindirəndə şirin-şirin danışar,
Noğur-qəndi əzər dillər içində.

Çün qızın əlində, yəni bu böyük adamlar bekar oturmazlar. Baxma kasıbın arvadına. Bu böyük xanəvadələrdə bekar durmazlar. Görürsən arvaddı, aylıx dərdi. Kasıbın görəsən ya arvadı işdiyir bekardi, kişi o yanda, bu yanda bekarçılıxdan belə da. Qızın əlində bir dənə, bizim dildə dəsmal toxuyur, güllü dəsmal. Qurbani bir baxdı gördi, hə, bir dənə dəsmal bəziyib, nə cür gözəl güllər vurub dəsmala.

– Çox sağ ol.

– Xanım, tərif diyə billəm? Düzdi, ləyaqətim yoxdu. Sözümə fikir versən, tərif diyə billəm, əlimdən gəlir yəni ki, yox?

Üz dolandırdı:

– Çox sağ ol, yaxçı deyirsən.

Qurbani isdiyir sözün dübarəsin desin:

Sövməli bir canandi, adı Nəbati,
Verib Güləndama boyu-busati.
Əyləşib qəsdivə gözəl həyati,
Bəzir güldəsmala əllər içində.

Ərz elədim, qız əlində bir dəsmal toxuyurdu, dəsmala yaxçı güllər tapmışdi. Odu ki, o sözü deyir. Qız gördü, xeyir,

nə cür şair desən ləyaqətdi, biri də budi. Bala-bala öz qəlbində deyir, eybi yoxdi, sən məndən soruşduğunu soruşdun.

– Aşıx, bura bax görüm, öz sinəndən deyirsən, bu sözləri yainki bir adamın sözüdi?

Üz dolandırdi:

– Xanım, elə məxsusən sənin özuvə sinəmdən gəlir bu sözlər.

Amma Qurbani dedi, sözün xatəməsin desin. Deyim hammının sağlığına:

Sənan aşiq gəldi soldalı saza,
Qurbani sinəsi düyünlü dalda.
Çiçəhli baxçada, bülbüllü taza,
Bir gülü sövmüşəm güllər içində.

Qız gördü, xeyir, elə nə cür diyəsən, özü bir oğlandi. Ərz elədim, bular dövlətdi xanəvadədi. Bir az elə yuxunun vəxdi keşdi görəsən ki, bəli, Qurbaniyə bir dəst qu tükündən təxtıxa basıblar. Üz dolandırdi, mıxı mismara döndərən Allah var.

– Dur əyağa, qəşəngcənə libaslarıvı soyun. Beş-on dəqiqə hüşlənmax o da qənimətdi.

Əlbəttə ki, ağaların xidmətinə ki, ərz olundi, hər kənizi getdi öz barigahında, öz bağında, öz dilimizdə öz mənzilimizdə xürreyi-xaba bülənd olsun, ilan vuran yatdi, bu Axsax Xuban yatmadi. Çün Axsax Xuban günüzləri bu oğlana qurbağaya aşiq olan kimi bu oğlanın nöqərrəsiynən dolanır, amma bu dəyqəyə kimi bu oğlandan bir istifadə eliyə bilmir. Allah şeytana lənət eləsin. Həyanda şirin olar. Kəniz durdi əyağə, çəpiy idi, çadreydi, çarşabıdı onnan işim yox, yavaşca saldi başına. Əyaxları dərə-dərə gəldi, o barigahdaki Qurbaniynən Pəri var idi, gözü düşəndə gördü, bəli, bular ikisi çoxdandi yuxluyurlar. Çün Qurbani neçə vaxtı idi yuxusuzdi, yorgun-arqın elə sən diyən bir yaxçi istirahətdıx tapa bilmiyib ki, istirahətdıx eləsin. Pəri xanım da yaylaxda bəslənib. Nə zəhmətə düşib, nə yuxu-

suz qalıb, nə əli-əyağı qabar olub, buyün gecə bir üş-dörd sahat yuxusuz qalıb. Pəri xanım o tərəfdə çoxdan yuxluyur. Qız yavaşca, həman bu kəniz pilləkandan yavaşca-yavaşca çıxdı üsdə. Qapını aşdi, gözü sataşdi Qurbaniyə. Gördü Qurbaniynən qızın dərbən üş-dörd metir fasiləsi var. Elə bil, otağın o başında qız yatıb, çün qız ərxeyindi ki, bu oğlan mənimdi. İnşallah, işimiz düzələr, qəşəng el dəbiynən toy eliyəcax, mənim xancı aşım bu oğlana. Qurbani də deyir, bu gül mənimkidi. Hər movqeyini butaxdan dərsən, dərmişəm. Bu da belə asudə yatıb ki, bir moqeyini qədimdən dədədən-babadan ki, diyəllər, bu toyu ki, qoyublar. Bəli, bu toyda neçə dənə rəsmilər var. Bir rəsmisi də ibarətdi ki, ya Peygambərin təl maaşidi ki, peygambər buyurub. Görürsən ki, bir oğlani dörd ildi, beş ildi namizəddi bir qıza. Onun bir hədəfi var, gələr-gedər qızı aparar dolandırmağa, gətirər qoyar evinə. Amma işi olmaz qızınan. Diyəcaxsan, niyə? Ərusnamə gecəsi tayfanın bir intizarı var ki, bizim gəlinimiz, inşallah, bəli, gəlindi. Damat da ki damatdi. Qurbani əhəmiyyət vermədi, dedi, el uzunu toy eliyəcağam. Nə işin var? Vəli, amma bular yatmaxda olsun, Axsax Xuban varid oldu içəriyə. Qurbaninin yanaxlari elə bil on dört gecəlıx ay, bulut alttan çıxıb eşiyə. Elə qəşəg qıpqırmızı lalə kimi yanır. İndi yorğan idi, ülfənd idi, nəmənə idi atdi Qurbaninin üzündən kənara. Axsax Xuban dedi, firsəndi folt eyləməz. Qız əyağin qoydi, həman bu kəniz birin sağdan, birin soldan əyildi bu Qurbaninin üsdünə. Dodaxlar dayandi Qurbaninin üzünə, amma bu kəniz yaylaxda bəslənib. Nə isdi görüb, nə tüsdü. Aşbazxananın o yağli xörəklərindən yeyib, mələkdaşi kimi qoşadi. Qoşa batmandi, çox ağırdi. Çün yerin fərşi əyağı da yumuşaxdi, qız özünü saxlıya bilmədi, yatdi Qurbaninin üsdünə. Qurbani elə bildi ki, dam yatdi üsdünə. İsdədi qalxsın əyağə, qız gördü xeyrə, olmadi. Əgər xırda iş uzana, Pəri yuxudan səsə ayılar, abır-həyası bütöv gedər. Çəkildi durdu kənarda. Axsax Xuban

kibiridi cibindən çıxardıb, çirağa vurdi. Çirax yandi, baxdi Qurbaninin üzünə. Qurbani üz dolandırdi:

– Xanım, indi ki gəlmisən bura, o sazı ver mənə, mən də bir neçə kəlmə sənin bura gəlmağıva şeir diyəcağam.

O vəxtində Qurbani sazi aldi sinəsi üsdə, sazın zilin zil, bəmin bəm sinəsin üsdə müntəzəm, amma Qurbani isdiyir burda səyasətinən keçinsin. Dedi, gəl, həman bu qızın Axsax Xubanın başı şir başına oxşar, bu bir yanda səhər bir sözü-mözü diyər, məni öldürəllər burda. Nə haxnan gedəsən ölümə. Gəl burda dinən ki, elə səndən ötürü gəlmişəm. Mən elə bu baxçanı, bu bağı səninki bilirəm. Amma bir dəstgah alıb, görax nə cür deyir:

Girdim yarın baxçasına,
Bir gül dərdim gülə-gülə.
Küsdürrəm şeyda bülbülü,
Daha qonmaz gülə-gülə.

Şayət, mən birdən bu qıza bir söz-möz diyərəm, day bunnan bu yana mənə işimə təsir eləməz. Amma Axsax Xuban bu sözü Qurbani oxuduxcan qoltux altda qarpız yerləşmir. Qəhqəhə çəkir gülür. İsdiyir görax, Qurbani sözün dübarəsini necə deyir:

Naşi bağban, satma güli,
Həyan dur axçasın, puli.
Küsdürsən şeyda bülbüli,
Dahi qonmaz gülə-gülə.

Yani səyasətdə bir söz deyim, şayət, mənə elə bir söz deyərsən ki, bu Pərinin də həndərvərində dolanmaram. Qurbani bu sözləri oxuduxcan Axsax Xuban bar-bar artıqdı qarpızları. Qurbani isdiyir sözün xətmini desin.

Pəri xanım gördü qulağına həzin-həzin səs gəlir. Ay oğlan, elə bil bu aşıx təzədən durub əyağa, oxuyur:

Qurbaniyəm, bilməmişəm,
Didəm yaşın silməmişəm.
Böylə gözəl görməmişəm.
Canım aldi gülə-gülə.

Çün Axsax Xuban indi neçə saatdi, neçə gündi, neçə dəyqədi işim yox, hər vaxt Qurbaninin üzünə baxanda gülə-gülə baxıb. Pəri xanım elə bil qəflətdə yatmışdi, oyandi. Gözlərini aşdi gördi, cilax kəniz, bu da başdıyıb oxumaxda, belə gözəl görməmişəm. Dik durdu yerin içində, oturdi. Axsax Xuban gördi, qız durdi əyağə. Qurbani də qızın başı, bəqioğlu Axsax Xubanın şir başına oxşadir. Üz dolandırdi:

– Nə üçün gəlmisən?

Ərz elədi:

– Xanım, vallah gəldim, ondan ötürü gəlmişəm ki, bu oğlan təqibdədi. Axı mən bu bağa gətimişəm bu oğlani. Sən özün məni yolladın, əvvəl axşamdan gedib mən gətirmişəm bura. Bu oğlanı təqib eliyirlər, məmur dolanır onun dövrəsində. Gəldim bura ki, bu oğlanı, səni oyadax, görax bu oğlanı neynəməliyıx? Nə cür aparrıx, evinə ötrürrüx? O yatdığı mənzilə ötürrux.

– Təqibdədi?

– Bəli.

Dedi:

– Dur əyağa, (həman ərz eləmişəm, qızın kənizi iki dənədi. Birinin adı Dilbərdi, birinin adı Axsax Xubandi.) gecdi. O qızı da, kənizi də çağır, bu oğlanı nə cür gətirmisiz, özüz aparın qoyun mənzilinə. Səhər mənim xandadaşım, ya Hüseyin bəy, ya ayrı adam ayılsa, görsün ki, həman otaxda yatıb.

– Baş üstə.

Axsax Xuban dedi, hələ mənim bura gəlmağımnan bu sözünən bunu yuyax getsin. Şayət qız mənə bir söz-möz diyib eləməsin. Gecənin bu vəxti burda nə qəyirirsən?

Qurbani bu qıza qonaxdi. Qonax da diyəllər, ev sahibinin dəvəsidi. Harda yıxılsa, orda yatacax. Bəyaxdan deyirdin, üş-dörd saat bundan qabax ki, gedin gətirin bu barigaha. Çox yaxşı. Getdilər, gətdilər, dedilər, güldülər, çaldılar, oxudular, yedilər, işdilər, indi də deyir, aparın öz barigahında yatsın. Qurbani diyə bilməz ki, mən burda yatıram, ya xeyir gedirəm, orda yatıram. Qurbani bir söz diyəmmədi. Durdi əyağə, əl-əyağın yığışdırdi, sazın qoydu köynəyinə, libasların geyindirdi, Axsax Xuban qabaxda, Dilbər dalıda, Qurbani vəsətdə. Gəldilər, həman barigahda ki Qurbani əvvəl axşam libaslarını soyunub, xürreyi-xaba bülənd olmuşdi, qapıdan ötürdülər içəriyə. Demə, burda iş işi görsədir. Hüseyin bəy ki, axşam barigahdan Qurbanini çıxardıb, Nazır Məmmədlının ayrı məmuru var. Bu oğlanı təqib elətdirir ki, görüm bu oğlan hayandadi. O məmurlar zəndamlıyıblar ki, oğlan gəlib, gedib bağa, qızın yanına. Amma day bağdan qeyitməsi, qızın qeyitmağın bilmədilər.

Ağa, Abdulla xan bəylərbəyi səhər oldi durub əyağə, sübhanəni Qurbanini o qədir sövür, o qədir sövür, diyir, mənim yanımda bu oğlan olmasa, nə bir iskan çay içərəm, nə bir tikə çörək yiyərəm. Toğri nökəri çağırdi. Hüseyin bəy fərmandadi.

– Hüseyin bəy!

– Bəli.

– Qonağı neynəmisən?

Dedi:

– Qurban, otaxda, barigahda yerin salmışam. Xürreyi-xaba bülənd olub.

– Bəs get çağır, gəlsin. Mən sübhanəni onsuz yeyə bilmərəm.

Hüseyin bəyin xəbəri yoxdu, yazıx biçarənin. Hüseyin bəy gəlib Qurbanini oyadırlar. Nazır Məmmədalı həman barigahda hazırdı.

– Qurban!

– Bəli.

Sayğaşdı gətdi, qoydu Hüseyin bəyin qabağına, bəgoğlu Abdulla xan bəylərbəyinin qabağına. Abdulla xan bəylərbəyi Nazır Məmmədalıya üz dolandırdi:

– O aşıx, bizim qonağımızdı. Aşıx da bunun tükanıdi. O qədir sövürəm ki, onu, o burda dəyil, amma deyirəm sözümü sənə. O qədir sövürəm ki, onsuz bir iskan çay boğazımdan gedə bilməz. Yollamışam, gətirsinlər.

– Hardadi ki, gətirim?

– Barigahındadi. Hüseyin bəy deyir, aparıb barigahında yatırtmışam.

Dedi:

– Nə? Öz barigahında dəyil.

– Bə hayandadi?

Dedi:

– O günüz gedib ayrı yerdeydi. Qonaqdı.

– Necə qonaqdi?

– Bəli, qonaqdi.

Xub, qoy sabusar gəlsin, soruşax görax. Hüseyin bəy Qurbanini çağırıb, Qurbani durdi əyağə. Əl-üzünü yuyandan sonra özünə bir əl gəzdirdi. Hüseyin bəy baxdı gördü, xeyir Allah-tala kərəmi çuşa gələndə xəlq eliyib bu oğlanı. Varid oldular həman Abdulla xan bəylərbəyinin barigahına. Qurbaniyə yer verdilər, Qurbani keçib bir tərəfdən əyləşdi. Qurbani bir tərəfdən əyləşmaxda, hələ sübhanə yeyilmiyiblər, üsdü açılmıyıb ki, sən hayandeydin, mən hayandeydim. Elə ki, sübhanəni yedilər, içdilər, barigahda bir beş-altı nəfər əyan əyləşiblər. Nazır Məmmədalıdi, vəzir-vüzəra, Abdulla xan bəylərbəyi Gəncənin hökümətidi ki, yuxarı başda əyləşib. Üzünü dolandırdi:

– Hüseyin bəy!

– Bəli.

– Bəs sən necə qonax saxlıyırsan ki, sənin qonağından xəbərin yoxdu?

Ərz elədi:

– Qurban, hansı qonağımdan?

Dedi:

– Bu aşıxdan.

– Necə xəbərin yoxdu?

– Bəli.

– Hayandeydi bu, sən hayandan gətirdin?

Dedi:

– Mən bilim vicdanım, mən bilim Allah, nəyə qailsən ona and içim, mən getdim axşam o barigahda ki yatmışdi, həman barigahdan oyadıb gətirmişəm.

Dedi:

– Nə? İştibaddı?

– Sən bunu burdan axşamdan aparandan mən bunu təqib elətdirmişəm. Gecəni bir zamanından sonra bu aşıx qonax getmişdi.

Diyə bilmir hara gedib, kimə gedib. Abdulla xan bəylərbəyi üzünü dolandırdi:

– Nazır Məmmədalı.

– Bəli.

– Bu hayanda qonax idi? Sən ki deyirsən qonax getmişdi. Bu elə özü qonaxdi. Sən deyirsən bu qonax getmişdi, hara qonax getmişdi?

O vəxtində Hüseyin bəy üz dolandırdi:

– Qurbani, mən ölüm, bu gecə hardeydin, düzünü de?

Çün Qurbaninin vicdanı yalan satmağa, çün mən ölüm dedi. Hüseyin bəy dedi, baxırdi Qurbaninin üzünə. Abdulla xan bəylərbəyi dedi:

– Mən ölüm, hardeydin?

Hər adam mən ölümü qəbul eləməz. Çün Qurbaninin vicdani var idi. Yalandan kişi kişiyə “sən öl, mən ölüm” deməz. Yalan sözü qəbul eləməz. Qurbani isdiyirdi, yap düzünü desin. Bu kişi düz deyib, mən ölüm hardeydin? Sən gecə nə cür olub, hayendeydin düzünü deginan. Sazı çəhdi sinəsinə. İsdiyir bir dəstgah görax, hardeydi, düzünü desin.

Əşq əhli gərək utanmasın,
Əynin camini içəndən sonra.
İnsan bilər bir-birün qədrini,
Bu dünyadan göz ötüb köçəndən sonra.

Ay ağalar, didələrim dolmasın,
Möminlərin gül rəngi saralıbən, solmasın,
Dərd, ağalar, heş kim yoxsul olmasın,
İllahnan, yarı sinnidən keçəndən sonra.

Yarı sinnimdə bir yol gəldi qarşıma,
Körpü sallam gözdən axan yaşıva.
Bir vəxt olar huşum gələr başıma,
Fələk ömrümü, günümü biçəndən sonra.

Fələk ömür-günümü biçib, ağlaram,
Sinəm üsdü səri-sərpaz dağlaram.
Bir gün olar duz qapısını bağlaram,
O xaki, torpağa köçəndən sonra.

Elə eliyin ki, xaki torpağa verdim yanımi,
Xub, tanıdım sultanımı, xanımı.
Umud əli, kimlər kəsər yanımi,
Malla təlğ verib gedəndən sonra.

Abdulla xan bəylərbəyi Gəncənin hökumətidi. Nazır Məmmədalı, vəzir-vüzəra dövrəsində. Çün Qurbani ki, gecə Pəriyə qonaq olmuşdi. Ərz eləmişəm, Abdulla xan bəylərbəyi o ki, əlindən xidmət eliyirdi, qonax kafər olsa, hörməti vacib-

di. Nazır Məmmədalı gülürdü ki, Qurbani nəmənədi? Yükündə nəmənə var? Qurbanini Hüseyin bəy gecə apardi mənzildə istirahətdıx eləsin. Amma Nazır Məmmədalı nökərrəriynən bəqioğlu bizim dildə məmurlariynan Qurbanini təqib eliyirdilər. Məmurlar güdürdülər beləsin. Tul olmasın. Səhər tezdən Nazır Məmmədalıya quzarışın verdilər ki, Qurbanini ki gecə Hüseyin bəy aparıb, o barigaha, o saxtumana. Gecə bir azdan sonra Qurbanini apardılar bağa. Səhərə yaxın təzədən gətirdilər, ötürdülər otağına. Nazır Məmmədalı dəqiq bildi, bu quzarış verildi Nazır Məmmədalıya. Səhər sübhlə oldi, tezdəndi. Namazı-zadı qılıblar, gəldilər sübhanə yimağa. Nazır Məmmədalı əyləşib və Abdulla xan bəylərbəyi yuxarı başda əyləşib. Hüseyin bəy varid oldi. Gördü xeyir, çay-çörəh zad yiyilib-içilmiyib. Salam ərz elədi.

– Qurban, salamun əleykum.

Üz dolandırdi:

– Əleykümə salam.

– Bə qonağımız hani? Özün bilirsən ki, mən onu o qədir sövürəm, yəni məhəbbətim o qədirdi o oğlana ki, onsuz bir dənə çay içməyəcağam. Səhər tezdən təşrif aparginan, Qurbanini gətir sübhanə yiyax.

Hüseyin bəy getsin Qurbanini gətmağa. Amma Nazır Məmmədalı Abdulla xan bəylərbəyiyə ürəyi doludu, boşaltdı:

– Qurban!

– Bəli.

– Sən diyirsən bə, bu düz əməlli aşıxdı, doğurdan?

– Necə?

– Gecə Hüseyin bəy bunu öz barigahında yatızmağa. Günüzdən nişan qoyumuşmuş Pəri xanımın barigahına. Gecə gedib Pəri xanımın bağına.

Bular bu məsələdə burda gij qaldılar. Abdulla xan bəylərbəyi narahat olub və ürəkdən Qurbanini söyür haa, çün tə-

rəf qabağıdi, öz-özünə deyir. Görəsən, bunu nə cür nəxşəyə salax. Bu Nazır Məmmədalı elə bil bu kişiynən tərəf düşüb.

– Xub, qoy Nazır Məmmədalı, Hüseyin bəy aşığı gətirsin, özündən soruşarıx. Yaxçısın özü bilir də, hardeydi.

Ağa, Qurbanini həman Hüseyin bəy o barigahda ki yatırdıb, o barigahdan oyatdi. Durdi əyağə, əl-üzünə sudan səpər eliyib, libasların giyinib, buyur, gedax.

Üz dolandırdi:

– Hüseyin bəy, hara gedəciyix?

Ərz elədi:

– Aşıx, çün Abdulla xan bəylərbəyi səni o qədir sövür ki, səni səhər tezdəndən barigaha baş vurmuşam. Dövrə tamam ağalar əyləşiblər orda. Amma bir dənə çay içilmiyib.

Qurbani varid oldu həman məclisə ki, Abdulla xan bəylərbəyi yuxarı başda əyləşib. Salam ərz elədi.

– Səhəriniz xeyir olsun, inşallah.

– Abətiniz xeyir.

Qurbani keşdi bir tərəfdən əyləşdi. Amma Nazır Məmmədalı Qurbaniyə elə baxır ki, elə bil dəvə nalbəndə baxır. Çayı qoydular Qurbaninin qabağına. Qurbani çayı içib, baxır Abdulla xan bəylərbəyin üzünə. Çün Abdulla xan bəylərbəyi yaxçı adam idi. Yaxçı adam qiyafəsindən nişan verər. Nazır Məmmədalı kəzzabdi. Qiyafəsi nişan verir ki, bu qırx qazanın mayasıdi. Amma Abdulla xan bələrbəyi bəli, çün ürəyi safdi, qiyafəsi xoşdu. Bəli, çün ərz olundi Allahın xidmətinə, Abdulla xan bəylərbəyi üz dolandırdi:

– Qurbani, mən ölüm, sən bu gecə hayandeydin? Düzünü deyəsən.

Çün Abdulla xan bəylərbəyi dünən axşamdan bildi ki, Qurbaninin üzü bir dənədi. Əlli üzlü dəyil. Bu yandan bir söz danışax, o yandan bir söz danışax. Üzü bir dənədi. Yani, bu bir saf bir məsəldi. Amma himinən qandırdi ki, şayət, bir

movqeyini tərəf qabağıdi. Düz də desə, şikəst yiyəcaxlar. Qurbani qəlbində dedi, hərçi-pişayət, xoş ayət. Mən elə gecə hardeydim, elə sözün düzünü deyəcağam. Üz dolandırdı:

– Qurban, icazə versən, mənim sazımı gətirələr.

Qurbaninin sazını gətirdilər. Qurbani sazı köynəkdən çıxardıb, sazın zilin-zil, bəmin-bəm sinəsi üsdə müntəzəm, alıb bir dəstgahı bir "Qürbəti" havasıynan nə cür deyirdi. Mən də ərz eliyim, tamam qulaq asanların sağlığına:

Bu gün bir gözəlin seyrinə vardım,
Əğlim, camalımı heyran eylədi.
Bir tərif buyurdi, keşdi içəri,
Danışan əğlimi xəndam eylədi.

Çün burdan söz ayrılır. Toğri tərəf sözü qapdi. Nazır Məmmədalı üz dolandırdi:

– Qurban!

– Bəli.

– Bildin da, nə deyir.

Dedi:

– Xub, bu aşıxdi. Ya iranlıdi, ya qeyrəz yerridi. Sənəti aşıxdi bunun. Bu ki, evindən sazı götürür, çıxır şəhərrərə, kənddərə, bunu məclislərə dəvət edirlər.

Xub, ya arvad dəvət eliyə, ya qız dəvət eliyə, ya kişi dəvət eliyə, ya oğlan dəvət eliyə, ya şah dəvət eliyə, ya vəzir dəvət eliyə, onnan işim yox. Xülasə, işi belə işdəmaxdı, oxumaxdı, çalmaxdı. Bunun söz dimaxdi ki, görəsən, bu indi kimi deyirdi axı?

Ərz olundu xidmətinə, çün Abdulla xan bəylərbəyi axşamdan bu yana bilirdi ki, nə var nə yox. Az-maz, çox düşünmüşdü nə var, nə yox. Qurbaniyə qaş atdı ki, şayət, bir moqeyini mənim bacım Pəri səni də dəvət eləsə, gecə orda da olmuş olsan, düzünü deməlisən. Qaş-göznən danışırlar. Qur-

bani bəqioğlu paslar. Öz-özünə dedi, hay canım, hər piş ayət, xoş ayət. Gəl, sözün de, düzünü de. Üzünü dolandırdi:

– Qurban, qulaq as, daha deyim, kim məni qonax saxladi.

Belə deyirdi. Onu da "Kəşküloğlu"ynan tamam eşidənlər sağlığına:

Hətəm baxçasında lalə gülünən,
Əylənib, yanında qallam ilinən.
Yüz min, yüz min şirin dilinən,
Qurban, saxladi bir Pərim, qonaq eylədi.

Nazır Məmmədalı dedi:

– Qurban, burda da ayrı söz lazım dəyil. Görürsən ki, adınacan deyir.

İsdiyir Abdulla xan bəylərbəyi sözü çaşdırsın. Üz dolandırdi:

– Kişi, bura bax görüm, Pəri elə bir mənim bacımın adıdi? Nə çox Pəri. Bu Gəncəni axdarsan, beş min dənə Pəri var, beş yüz dənə Pəri var. Elə bir Pəri mənim bacımın adıdi? Şayət, bəlkəm bir ayrı adam...

– Qurban, işin üsdünü örtə bilməzsən. Pəri elə sənin bacındi.

Qurbani isdiyir sözün təxəllüsün, görax nə cür deyirdi, mən də ərz eliyim tamam qulaq asanlar sağlığına. Onu da "Xançobani" ilə deyim:

Mən olmuşam bu yolların hacısi,
Getmir ürəyimdən düşmən acısi.
Adı Pəri, Abdulla xan bacısi,
Saxladi öz bacın, mehman eylədi.

Bəli, söhbət həmin sərmənzili-məvadədi. Nazır Məmmədalı Qurbaninin ağzından bu sözü qurtarmax ki, adı Pəri, Abdulla xan bacısi. Bu sözdən söz anladi. Çün bilirdi əvvəldən.

– Qurban, buna ki, bir söz yoxdi. Day kişi özü qəşəng diyir da sözü.

Dedi:

– Nazır Məmmədalı, mən istəmirdim ki, day söz belə açılsın. Tülküsüz söz farş olunsun. Hamı bilsin. İndi ki, belə oldi, mənim bacım elə bu aşığınkidi. Çün bu həqq aşığıdi. Alami-röyada neçə müddət bundan qabax, sən düz deyirsən, mənim bacım sənin oğluva nişanlı idi. Vəli, amma bir dənə söz var, Pəri onnan bir müddət sonra nişanlı olandan sonra ki, yuxuda həman bu oğlanı vaqe elədi. Ağası Həzrəti Əli nişan veribmiş. Day buna bir söz yoxdu. İndi mən eliyə bilmərəm xub, qız bunukidi, bu da qızınkidi. Sən də hansı daş ağırdi, sal kəlləvə.

Üz dolandırdi:

– Qurban, bu sadəlıxda da dəyil. Bu Gəncədə heç olmasa, məsələn, buranın on min camahatı var. Bu on minin beş min nəfəri bilir ki, bu qız mənim gəlinimdi. Bu sadəlıxda sən gətirəsən Pərini verəsən bu aşığa. Bir dənə gəldi-gedər aşığa, mənim abır-həyam mahallarda gedər. Mən bir dənə çarşab örtəm, oturam arvaddarın içində. Bu sadəlığınan mən gəlinimi verməərəm ona.

Dedi:

– İndi gec oldi. Bacı mənimkidi. Mən elə yap sadəlığıynan da, hər nə cür desən də, verəcağam bu aşığa. Bir toy eliyəcağam, yazalar tarixinə. Sən get, hansı daş ağırdısa, sal kəlləvə.

Bəli, söhbət ki, həmin sərmənzili-məvarədi. Çün ərz olundi ağaların xidmətinə, Nazır Məmmədalıynan Abdulla xan bəylərbəyi və Qurbani, Hüseyin bəy əyləşiblər. Çox söhbətdən sonra, çün ağaların xidmətinə ərz eliyirəm, burda bir az suxınbərliği çoxdi. Güzəşt eləsinlər. Abdulla xan bəylərbəyi üz dolandırdi:

– Nazır Məmmədalı, bu aşığı ki, mən bir belə təbliqat elirəm, bu aşığa vergi verilib.

Üz dolandırdi:

– Qurban, mən qəbul eləmərəm. Çün sən buyurursan, vergi verilib, bu rahatdığınan mən gəlnimi verməræm. Mən camahatın yanında rüsvayi-cahan olaram. Çıxa bilmərəm eşiyə. Amma xub, mən bir balaca məclis qurram. Bir balaca imtahan verrəm buna. Əgər imtahanımızdan çıxdi, eybi yox, aparsın, imtahandan çıxmasa, verrəm cəladdar başını bədənindən ayırallar.

Dedi:

– Eybi yoxdu. Mən də qəbul elədim bu sözü.

Çün Abdulla xan bəylərbəyi gördü ki, bu oğlana vergi verilib.

– Bəs nə cür imtahan verəcaxsan?

Üz dolandırdi:

– Qurban, sən bir namə yazarsan Pəri xanıma. Pəri xanım kənizləri başında, indi bilmirəm əlli nəfərdi, otuz nəfərdi, on nəfərdi, qırx nəfərdi, onu mən bilə bilmirəm. Bullar hammısı bir dənəm giyinərlər. İla maşallah, çadra, çarşaf, hər nəmənədi libas. Əyləşərıx biz bir məclisdə.

Rivayət belə eşitmişəm, yani məsələn, Pəri xanımı da bir nəxşə badə veribdilər əlinə. Bu bir saqi kimi bir şey olar. Əgər bu qızlari, ayrı qızlıarda ki giyinəcaxlar həman bir rəhdə libasa. Bu hər qızın öz adına bir şey dedi və məşuqəsin də tanidi, xub, bu verrıx Pəri xanımi. Bu da Qurbani qəşəngcənə bir molla görürüx, gələr ən-katibədən başdıyıb oxuyar. Xeyir, diyə bilməsə, amadə baş qapının dalında iki dənə cəllad qoyacağam. Əgər bir müxdə bizim dildə çaşdi, bilmədi, elə o dəyqə verəcağam cəllada, başın bədənindən ayırsınlar.

– Xub, eybi yoxdu.

Abdulla xan bəylərbəyi bacısı Pəri xanıma ani dəyqə orda bir dənə namə yazdi ki, cərəyan modi-müdürçidi. Müdür bir bərnamə var. Bilmirəm, hammınız bir libas geyinəcaxsız. Gələcaxsız burda bir güjli bu aşıx imtahan verəcax. Belə bir

bərnamə qoyublar. Verdilər Hüseyin bəyə, Hüseyin bəy naməni apardi, yetirdi Pəri xanımın barigahına, gördü Pəri xanım söyüncək əyləşib.

– Ay Hüseyin bəy, mənə Qurbanidən bir xəbər ver.

Üz dolandırdi:

– Vallah, bilmirəm xanım, bu yazığın başının qəzası nəmənədi? Səhərçağı burda bir neçə kəlmə söz oxuyub, elə insafən də yaxçı, düz oğlandi haa. Görür öldürüllər biləsin, yalan danışmaxnan işi yoxdu. Elə söz hədəfi nəmənədi, odu, vəssalam.

– Hə, bu namə nəmənədi?

Dedi:

– Açıb oxusan, göracaxsan da.

Naməni aşdi, məcbur namədən xəbərdar oldu ki, gördü qərdeşi yazıb ki, burda bir balaca bərnamə var, Qurbaniyə imtahan verəciyix. Əgər imtahandan çıxsa çıxıb, çıxmasa,Nazır Məmmədalı deyir, cəlladdarı görmüşəm, başın bədənindən ayırsın.

Orda Pəri xanım kənizləri yığdi bir yerə. Hammısı ərz elədim də, bir rəh libas geyindilər. Hüeyin bəy gətirdi axı, bu böyük adamların həyəti əndırun-birunki eşitmisiz? Bir tərəf bağ, ara saxtuman, arası bir böyük həyəti, cənnəti-hovuz. Hüseyin bəy qızlara üz dolandırdi:

– Pəri xanım.

– Bəli.

– Siz gəlin, əlbəttə, mən içəridə sizdən qabax gedim görüm, vəz nə cürdi. İcazə olsa, gəlim, sizə ərz eliyim, buyurun.

Hüseyin bəy yetirdi içəriyə, gördü bəli, vəzir-vüzəra, əmir-ümərə əyləşib. Nazır Məmmədalı da o böyük adamları ki var idi, məclisdə olan, Abdulla xan bəylərbəyinin yanında olardılar. Əlbəttə, oları dəvət eliyir həman məclisə. Çün bundan xatirə ki, görür, burda Abdulla xan bəylərbəyi bu qızı elə verəcax bu aşığa. Bunun mahallarda abırısı gəzacax. Deyir,

bular bilsinlər ki, həqiqəti bu aşığa verilipdi bu qız. Ağası Əli, Həzrəti Əli buları bir-birinə buta verib. Keşdi içəriyə, salam ərz elədi. Üz tutdu:

– Qurban, naməni apardım verdim, əmriniz də icra oldi. İndi sizin mənim üçün əmriniz nəmənədi?

Vəzir Məmmədalı üz dolandırdi:

– Get, o aşığın gözlərin bağla.

Qurbani gördü, gözlərini bağlıyırlar. Dövrədə vəzir-vüzəra, əmir-üməra hammı əyləşib, üz dolandırdi:

– Qurban, icazə versəniz, mənim gözlərimi bağlamasın, mən iki rəkat namaz qılım, onnan sora mənim gözlərimi bağlasınlar.

Hammı dövrədən dedilər, eybi yoxdu.

Qurbani durdi əyağə, keçib həyətdə bir müxtəsər dəstəmaz aldi. Gəldi iki rikət namaz qıldi, Allahıyla öz arsında nə diyəcaxdı özü bilirdi. Rivayət bilədi ki, Qurbaniyə bir vergi verildi orda, ürəyinə bir qüdrət gəldi, elə bil o biri otaxda qapı bağlı, pərdə salıni nəmənə var idi, elə bil bu görür. Qurbani Allahınan niyaz eliyəndən sonra ki, keşdi əyləşdi öz yerində. Səs gəldi:

– Dadaş, indi sən hazırsan, gözlərin bağlansın?

– Bəli.

– Hüseyin bəy, keş, Qurbaninin gözlərini bağla.

Hüseyin bəy keşdi qabağa, Qurbaninin yeddi dəsmalınan gözlərini bağladi. Xub, indi sən bizə diyəcaxsan ki, o qapının dalısında, o dəhlizdə, o biri otaxda nəmənə var, onu sən bizə diyəcaxsan. Qurbani bir dəstgah alıb, görax orda gözləri bağli bir şey görmir zahirən, görax bular diyə bilir ki, qapının dalısınca nə var, biz də diyəciyix tamam eşidənlərin sağlığına.

Bəli, Qurbaninin sazını verdilər əlinə. Qurbani sazın zilini zil, bəmini bəm sinəsi üsdə müstəcəm, alıb bir dəstgah görax "Göyçə gülü"ynən nə deyir:

Qürbət yerdə külli-rəngim saraldi,
Qanlar oynar otağında saqinin.
İki qan içrə bir qani dolmuş,
Canlar oynar otağında saqinin.

Əlbəttə, Qurbani sözünü diyəndən sonra Qurbani ərz olundu xidmətinə, Qurbani bilirdi ki, duvarın dalısında nəmənə var. Onu diyir ki, bəli, qanlar oynar otağında saqının. O ibarətdi iki cəllad qoyublar qapının dalısında. Deyir, bir nüxtə sözü çaşdırsa, day ayrı söz yoxdi. İki qan içrə bir qanı dolmuş, canlar oynar otağında saqının, o da ibarətdi kimdən? Pəri xanımdan. Pəri xanım belə qərar qoydu. Nazır Məmmədalıynan Abdulla xan bəylərbəyi, Allah Nazır Məmmədalıya lənət eləsin, Nazır Məmmədalı çox zülm eliyir Qurbaniyə. Qurbaninin başına hələ oyun gətirir, vəli, amma Abdulla xan bəylərbəyi də çün həqiqəti, variddi bilir ki, bu oğlan həqq aşığıdi. Day isdəmir ki, hər nə desə, qəbul eliyim. Bu məclisdə, əlbəttə ki, ərz olundi, Pəri xanım saqilix eliyir. Saqilixda məsələn, nəinki məşrib gətirən saqi diyəllər, xub, bir adam ki, məsələn, məclisdə çay verir, qəlyan verir, elə bunun mənası xub, saqi. Bəli, Hüseyin bəyə dəstur verdilər ki, aşığı apar o biri otağa. Qurbanini Hüseyin bəy apardı o biri otağa. Abdulla xan bəylərbəyi üzün dolandırdi:

– Nazır Məmmədalı bəy.

– Bəli.

– Dahi nəmənədi sözün var? Nəmənə ki deyirdin, de.

– Mən bilirəm, yani sən özün də bilirsən ki, qapının dalısında nəmənə var?

Ərz elədi:

– Bəli, qapının dalısında iki dənə cəllad qoymuşam ki, bu bir nüxdə o yan, bu yan danışsa, səsim ucaldaram, varid olsunlar, otaxda bu aşiqi öldürsünlər.

– Qol, dahi sözün nəmənədi?

Üz dolandırdi:

– Qurban, xub, mənim üçün əmrin nədi?

– Nazır Məmmədalı, buyur görax, daha nəmənə soruşassan?

– Bir də onu soruşacam, aşıx gəlsin, görax bu otaxda nəmənə yanır. Bu otağı nəmənə eliyir, nəmənə yağıynan yanır. Və bu otaxda çay, şərbət paylıyan saqi kimdi?

Xub, Abdulla xan bəylərbəyi üz dolandırdi:

– Hüseyin bəy, get, Qurbanini gətir.

Qurbani məclisin vəsətində düz dayandı. Qurbanidən soruşurlar:

– Aşıx, onu buyuracaxsan ki, bu otaxda nəmənədi, saqi kimdi, saqigüzarrıx eliyir. İkinci, bu otaxda nəmənə yanır, nəmənə yağıynan yanır və bu otax işıx eliyir. Onu diyəcaxsan ayrı bir söz yoxdu.

Qurbani sazı çəhdi sinəsinə, ginə həmən havaynan götürüb görax orda nə cür deyirdi:

Qürbət eldə qan matahi satıldı,
Gözüm yaşı dəryalara qatıldı.
Rizə-rizə oldi, məzə qatıldı,
Bağrım yağı yanar otağında saqinin.

Bağrım bir dənə baqioğlu bizim dildə bir heyvandi. Onun yağından bir şəm təsvir vermişdilər. Həmin şam yanırdı o otaxda. Baxdı Qurbaninin üzünə, əlbəttə, Nazır Məmmədalı bu sözləri dedıxdan Qurbani çün həqiqəti diyir, az qalır bağrı çatdasın. Amma Abdulla xan bəylərbəyi söyünür. Çün sözü tapdi dedi axı. Bəli, söhbətimiz həman sərmənzili-məvadədi. Ərz olundi ağaların xidmətinə, vəli, amma söz burdadi. Çün Pəri xanım məclsidəki saqigərrıx eliyir, Abdulla xan bəylərbəyi gördü, bu Pərinin vəzi çox xərəbdi. Xəpələnib, qapının çiynində Pərinin kənizlərindən biri durub. Himinən qandırdı ki, o Pərinin üzündən ülfəndin aç, tər onu boğdi. Əlbəttə, nəinki uca

səsnən, himinən. Məclisin vəsətindədi Qurbani. O vəxtində kəniz yetirib, Pərinin ürbəndin üzünən aşdi. Qurbaninin gözü sataşanda Pəri xanıma gördü, Pərinin cəmali birə-yüz gəlir üsdünə. Elə söyündü, elə söyündü söyünduğundan qəşş elədi. Diyəcaxsan ki, Qurbani görmürdü, xeyir, görürdü. Qurbani həqq aşığı idi, gözün ki, bağlamışdılar, xeyir, bağlılıx ona dəlil dəyildi. Elə görürdü Qurbani. Vəli, amma qızın ürbəndin üzündən aşmax, Qurbaninin gözü sataşmax qızın cəmalına. Gördü, qız çox-çox gözəlləşib. Qurbani özündən getdi. Huşu başından çıxdi. Məclisin vəsətində yıxıldi. Yavaşca Abdulla xan bəylərbəyi himinən Pəriyə qandırdı ki, o səni gördi, sənin üzünü kəniz aşdi, o yıxıldı. Onu nə cür yıxmısan, özün qovluyacaxsan əyağə. Pəri xanım otdu yerə. Qurbaninin başın aldı dizinin üsdə. Kənizdən bir az sərin su isdiyir, yavaş-yavaş o sudan töhdü o yumuşax əllərinə. Suyu çilədi Qurbaninin üzünə. Qurbani haçandan-haçana gözüni aşdi, gördü, başı Pəri xanımın dizi üsdədi. Vəli, aman yadına düşdi, ay dili-qafil, burda vəzir-vüzəra, bura böyük məclisdi. Öz-özünə müqəyyəd oldi. Dik qalxdi əyağə. Üz dolandırdı Abdulla xan bəylərbəyi Qurbaniyə:

– Aşıx.

– Bəli.

– Nədən xatirə yıxıldın, niyə birdən-birə durdun əyağa? Onu diyəcaxsan bizə.

Ərz elədi:

– Baş üsdə.

Qurbani əlbəttə, bir səndəl gətirirdilər, həman səndəli qoydular Qurbani əyləşdi səndəlin üsdündə, isdiyir görax nə deyir, mən də ərz eliyim tamam eşidənlər sağlığına:

Kəm tutarlar Qurbanini sözündən,
Zəhər yağır müxənnətin gözündən.
Görcəyin cəmalın getdim özümdən,
Başımı gördüm, qucağımda saqının.

Söz tamam, vəssalam. Qurbani sözlərini tamam yetirdi. Üz dolandırdi Nazır Məmmədalıya:

– Nazır Məmmədalı!

– Bəli.

– İndi sən nə deyirsən bu sözə?

Üz dolandırdi. Çün nakəs adam sözündən qaçar. Görərsən, elə ha tərəfdən gətirsən həqiqəti diyəndə diyər, mən onu demirdim ki, çün Nazır Məmmədalı nakəsdi, Qurbanini bir belə zərurətə salan, bir belə ərziyətə salan bu Nazır Məmmədalıdi. Qəbul eləmədi. Dedi:

– Qurban, mən qəbul eləmərəm.

Amma bir rivayətdə Hüseyin bəy dedi:

– Bəli, bizim üçün nəmənədi əmriniz?

Abdulla xan bəylərbəyi üz dolandırdi:

– Hüseyin bəy, hələ dayan, tələsməginən.

– Nazır Məmmədalı.

– Bəli.

– Sən indi nə deyirsən? Qəbul edirsən bu bərnaməni, yainki yox?

Dedi:

– Xeyr, qəbul eləmirəm.

Bunnan xatirəsi bunun, Hüseyin bəy bunnan dostdu. Hüseyin bəy buna örgədir. Deyir, məclisi-əvvəl mən səni məclisə gətirəndə filan sözü diyəcaxsan, ikinci dəfə gətirəndə filan sözü diyəcaxsan, üçüncü dəfə gətirəndə filan sözü diyəcaxsan, xülasə, Hüseyin bəy bunu örgədibdi. Mən bunu qəbul eləmərəm.

– Bə nəmənə qəbul edərsən?

Məsələn, Nazır Məmmədalının bir nəzəri var, Nazır Məmmədalı doğurdan ürəkdən demir ki, mən qəbul eləmərəm, görür elə həqqəliyindəndi. Vəli, amma boynuna təlif gə-

lir. Qınamalı yeri yoxdu da yəni. Bu vəzir-vüzəra, işi bir dilə vurdular öz-özləri. Bilirlər nə var, nə yox. Amma cəmahət ki, bilmir. Cəmahət diyəcax ki, Nazır Məmmədalının gəlnini, filan yerdən aşıx gəldi, götdü apardi. Buna töhmətdi, abırsı gedəcax. Bu dəyil, bir dənə iş başlıyacax ki, bu Gəncədə uşaxdan böyükdən hamu bilsin ki, bu aşıx əşq aşığıdi, mən işdibah eləmişəm. Bu qız elə bununkidi. Yani bunu ünvan qoyub.

Üzün dolandırdi Abdulla xan bəylərbəyi:

– Bəli.

– Mənim bir də bir ərzim var, onu da qəbul eliyəsən.

– Buyur da.

– Buyün ki, bevəxdi-axşamdi. Sabaha dəsdur verəsən, carçılar düşə küçələrə, car çəkə. Sabah meydanda bu Gəncə əhli bu uşaq, böyük, arvad, kişi – hammı gülər ki, mən bu aşığa bir imtahan verəcağam. İndi bu məclsidə bu böyüklər bildi ki, bu həqq aşığıdi. Hətta mən özüm də elə qəbul eliyirəm. İşim yox. Vəli, amma bir dənə söz var. Gərək hammı bilsin, mənə töhmət yeri qalmasın burda. Dəstur buyurasan, tükan-bazarı sabah bağlıyarlar, cəmahət, uşax, böyük, cavan, qoca yığışarlar ora, bu aşığa bir mərzumun içində bir imtahan verax. İmtahanımızdan çıxsa, Pəri xanımınan buna bir toy eliyax, yazalar tarixlərə. Hamı tarixlərdə adı qalsın.

Bəli, söhbət həmin sərmənzili-məvadədi, bu məclisdən qərarı belə qoydular ki, indi bir gündən sonra ya sabah, ya biri gün, versinlər Gəncənin meydanını sulasınlar, süpürsünlər cəmahət yığışsın ora. Qurbanidən bir imtahan alsınlar. Cəmahətin yanında imtahan alsınlar. Bu məclis dağılışdi. Hüseyin bəy Qurbanini götürb aparıb, amma, qərdəşim, Pəri ilə Qurbaninin saəti, dəqəsi min il keçir, çün bir-birindən ayrı dolanırlar. Hüseyin bəy dedi:

– Əgər bir də bu qıza yaxın gedəsən, bərnamə türrəmiyincən, bə öyündü vəssalam. Fəqət kənar dolan, qoy görax neynəməliyıx.

Abdulla xanın dəsturuynan, Abdulla xanın hökümüynən belə əmri buyurdi. O güni carçılar çar çəkdilər, səhər sahat bizim dil səkkiz ya, doqquzdi, tükançı tükkanın açmasın, işə gedən işə getməsin, hamı yığışsın ora. Buyünləri orda bizim bir dərnəm olacax. Qədim də cəmahətin kefi saz idi. Bu cür müqəyatçılıx yox idi, möhnət ağır dəyildi. Cəmahət Allahdan elə bir iş axtarırdi. Cəmahət yığışdi. Gəncənin uşax, böyük handa bir adam o qoca adam tərpəşəmiyən olar gələ bilmədilər. Gəncənin meydanında iynə salmağa yer yoxdu.

Qurbanini Hüseyin bəy gətirdi meydanə, Qurbani gördü, bəli, meydanda o qədir camahat var. Qurbani dedi, Abbas Tufarqanlının sözi, elə bil buyünləri sözlərimi yaxçı yerinə yetirəcağam. Aşığın nə qədir dövrəsi çox olsa, bir elə şovquda oxuyar. Bir elə bildixlarını, sözü ziynətinən diyər. Vəli, adam az olandan sonra duvara dimiyəcax ki. Hüseyin bəyi yolladılar ki, Pəri xanımdan ötüri. Nazır Məmmədalı çün isidyir burda Qurbani kırıxsın. Heç olmasa bir əlli dənə qız bir sistim, bir libasda Pəriynən bahəm varid oldular meydanın bir guşəsinə. Qurbani əyləşib bir tərəfdən. Nazır Məmmədalı əyləşib bir tərəfdən. Amma buna suxanbərrik elədilər ki, bu aşığa biz burda bir bərnamə qoynumuşux, imtahahan verrıx, əgər bu aşıx biz diyənləri desə, neçə gündü bunnan imtahan alırıx. Bu Pəri, əlbəttə, bu Qurbaninkidi. Hamı bildi. Hüseyin bəyə, Nazır Məmmədalı və Abbdulla xan bəylərbəyi üz dolandılar:

– Aşığın gözünü bağla.

Qurbaninin yeddi dəsmalınan Hüseyin bəy gözlərini bağladı. Qurbaninin gözlərini bağlıyandan sonra kənizlərin birini yolladılar qızlara ki, qızlar gəlsin keçsin. Qurbaninin saz əlindədi. Sazın zilin-zil, bəmin-bəm sinəsi üsdə müntə-

zəm, isdiyir qızlardan biri gəlsin Qurbaninin qabağından sovuşsun. Qızın adi Xasa xanımdi. Qurbani bir dəstgah isdiyir görax, əhli-Gəncənin yanında o qızın gəlmağına nə deyir, mən də ərz eliyim tamam qulaq asanların sağlığına:

Əlində bir kasa gəlir,
Elə bil ki, yasa gəlib.
Əvvəl başdan Xasa gəlib,
Qızlar, qoyun Pərim gəlsin.

Çün qızın əvvəldə əlində kasa vermişdilər ki, görax bu biləcax, yainki bilmiyəcax. Həmi əlindəki kasanı bildi, həmi qızın adı Xasa xanımdi. Bu gəldi, rədd oldi, keşdi.

Cəmahət bildi ki, bunun adı Xasa xanımidi, əlində də bir dənə kasa var idi. Üz dolandırdı Abdulla xan bəylərbəyi:

– Nazır Məmmədalı, qəbul elədin, ya yox?

– Xeyir, qəbul eləmədim.

Hüseyin bəyə dedilər:

– Hüseyin bəy Qurbaninin gözlərini bərk bağlaginan.

Hüseyin bəyin cibində də bir dənə dəsmal var idi. Çıxartdi, dübarə neçə dənə dəsmalın üsdündən Qurbaninin gözünü, dübarə bağladı. Xub, dəstur verdilər, kənizlərdən biri də gəlsin. Kənizlərdən birisi Qurbaninin gözünün qabağında nə cür keçir, Qurbani götürüb görax diyə bilir, yainki yox?

Ələkdə ələnən duzdi,
Göydə sananmaz ulduzdi.
Bu gələndə Cibulduzdi,
Qızlar, qoyun Pərim gəlsin.

Çün bu kəniz bir az zirəkdi, adını qoyublar Cibulduz. Əlbəttə ki, ərz olundu, kənizlərdən ki gəldilər Qurbaninin gözünün qabağından keçirdilər. İndi üş qədəm, dörd qədəm Qurbaninin sözünü demamış, Nazır Məmmədalı deyir, baxın görün, soruşun görün o qızın adı hamandi, həman ki, bu Cibulduz ki, ərz eliyirəm, adını qoyublar Cibulduz, çün bir az zi-

rəkdi. Qızın çarşanın başından, bəqioğli, ürfəndin üzündən aşdılar, gördülər bəli, doğurdan da elə Cibulduzdi. Qızın gözlərinin üsdündə şeytan şıllax atır.

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, çün qəzəlxani,
Tutmaz bir-birindən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, taləzar olur.
Çeşməsindən abi-həyat car olar,
Dağıdır möhnəti, məlalı dağlar.

Yazın bir ayıdı çox yaxşı çağın,
Kəsilməz çeşməndən gözəl yığnağın.
Axtarma motalın, yağın, qaymağın,
Zənbur çiçəyindən bal alı, dağlar!

Yayın əvvəlində dönərsən xana,
Son ayda bənzirsən polqun bostana.
Payızın zəhməri qoyur virana,
Dağıdır üsdündən cəlalı, dağlar!

Ağ xələt bürünüb, zərnişan geyməz,
Heş kimi dindirib, keyfinə dəyməz.
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib gedəni pərişan eylər.
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Yoxlamaz hərami, həlali dağlar.

Köçüb ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı.

Ələsgər Məcnun tək yardan yaralı,
Düşüb səndən həmişə ərali, dağlar!

Bəli, söhbət həmin ki, ərz olunur ağaların xidmətinə, dastan Qurbaniynən Pəridəndi. Bizim söhbətimiz həmin sərmənzili-məvadə qalıb ki, Nazır Məmmədalı Abdulla xan bəylərbəyi və Qurbanidən xatirə ki, ərz eləmişəm, bir neçə dənə məclislər təşkil veriblər. Bu da elə bir məclisdi. Qızların bir neçəsi gəldi gözlərinin qabağından keşdi. Bu Nazır Məmmədalı da özü bir şey deyib. Öz buyurduğunu dədəsinə verməz. Özgənin deyəni də qəbul eləməz. Özgə həxdisə qəbul eləməz, nahaxdısa, genə qəbul eləməz. Qurbani qızların adın dedıxcan ki, ərz eləmişəm, dedilər, necə oldi, Nazır Məmmədalı haman qızlar ki deyirsən, addarın diyə bilir, yainki yox? Dedi, onun gözləri görür. Hüseyin bəy Qurbaninin yanındadi. Hər nəmənə bir iş olsa, Hüseyin bəy göracax Qurbaninin işlərini. Dedilər:

– Hüseyin bəy, bax, gör Qurbaninin gözləri görür, aşığın?

Abdulla xan bəylərbəyinin ağzından bu söz çıxmaxnan, Hüseyin bəy baxdi, gördi xeyir, bir şey bilmədi. Əl atdi cibindən bir dəsmal çıxartdi. Dübarədən dəsmalların üsdündən Qurbaninin gözünü genə bağladi. Dedi:

– Aşıx, bu nə yolu, de görax?

Əlbəttə, bu qızın bir dənə kənizi var. Adına Axsax Xuban deyirlər. Qıçı bir az şikəsdi, yeriyəndə axsar. Nöbət Axsax Xubanındı. İsdiyir gəlsin Qurbaninin qabağından keşsin. Görax Qurbani onun gəlmağını bilir, yainki yox? Mən də deyim tamam qulaq asanların sağlığına:

Uca dağlar başı duman,
Dadıza yetişsin imam.
Bu gələn də Axsax Xuban,
Qızlar, qoyun Pərim gəlsin.

Çün ərz olundu ağaların xidmətinə. Bu qızın da libasları əz-qəza əlezi libasıdi. Pəri xanımın libaslarındadi. Çün şəkk elə-

di Nazır Məmmədalı şayət, bu Pəridi, bu ki deyir, Axsax Xubandi, amma yerimağında çün ərz eləmişəm axsax idi, qıçı şikəst idi, axsıyırdı yeriyəndə. Nazır Məmmədalı yerinnən qaxdi, dedi:

– Qurban, gördün iştibahdi.

– Necə?

– O sənin bacındi.

Axsax Xubanın ülfətin aşdılar üzündən kənara. Gördülər, bəli, Axsax Xubandi.

– Nazır, nə cür oldi?

Day bir diyəmmədi. İndi nobə yetişir kimə? Nobə yetişir Pəri xanımın özünə. Pəri xanım gördü gəlir Qurbaninin qabağından keşsin, Qurbaninin ürəyi şad oldi. Xəbər verəmmirdi. İsdiyir görax gəlmağına Pəri xanımın Qurbani nə cür deyirdi:

Ərisin dağların qarı,
Tökülsin çaylara sarı.
Qurbaninin gözəl yarı,
Qızlar, qoyun, Pərim gəlsin,
Ala gözlü yarım gəlsin.

Çün Pəri xanım gəldi, hammıya agah oldi, hammı dedi ki, bəli, Qurbani gözləri bağli, ya açıx fərqi yoxdi. Nazır Məmmədalıya da sabit elədilər. Amma Nazır Məmmədalının ürəyində qara-qara qanlar keçir, kinayət ürəyindən çıxan dəyil. Çün gəlininə sahiblıx eliyir axı. Abdulla xan bəylərbəyi üz dolandırdi:

– Nazır Məmmədalı.

– Bəli.

– İnandın ki, bu həqq aşığıdi?

Ərz elədi:

– Bəli, inandım.

Qızın mənim gəlinim də olsa, xub, verdıx. Şayət, buyün, sabah, on gündən sonra, bir ildən sonra, bir aydan sonra toyu olsa, mən özüm bu kişiyə toyunda şirkət eliyərəm.

Qurbanini azad elədilər. Qurbani getsin, qəşəng asudə gəzsin, dolansın, Pəri xanımın bir dənə otaxlarından veriblər. Orda yeyir, içir, gəzir, dolanır. Bir gün, iki gün, beş gün, on gün, vəli, ərz olundi. Bu Nazır Məmmədalı da hərdən gəlir dərbara. Ürəyindəki ürəyindədi amma.

Günlərin bir gün idi. İndi bilmirəm bu macəradan bir az sonradı, on beş gün sonradı, on gün sonradı, 20 gün soradı, onnan işimiz yox. Bir dənə namə yazdı. Yazdı namədə ki, Qurban, çün mən sənə ağ qoymuşam, sən böyüksən, mənim iştibahımı güzəşt eliyəsən. Amma bir dənə şərtinən. Lütf eliyəsən, mənim bir dənə çayımı içəsən. Namədə yazdı, həman bu mənim ərz elədığım sözləri. Verdi bir dənə qasid, yainki, bir gün özü gələndə dərbara, naməni qoydu taxtısəltənətin bir tərəfində. Abdulla xan bəylərbəyi götdü yazdı. Qurbanini istədi, əlbəttə, Qurbani varid oldi Abdulla xan bəylərbəyinin barigahına. Salam ərz elədi. Salamdan sonra Nazır Məmmədalının naməsinin macərasın Abdulla xan bəylərbəyi Qurbaniyə dedi. Qurbani ərz elədi:

– Qurban, ixtiyar özündədi. Mən nə diyə billəm, getmiyax, nə diyə billəm gedax. Əmr qalıb sənə. Buyurursan gedax, buyurmursan getmiyax.

Qəlbində dedi, xub, burda bi kinayət var. Gedib bir tikə nan-pənir yiyarıx. Şayət ki, bu kinayətdə aradan götürülsün.

Bəli, vəxt verdilər, əlbəttə, Nazır Məmmədalının da özünün dövrəsi var idi. Dövrəsin çağırdi. Nazır Məmmədalı təşkil verdi qonaxlığı. Abdulla xan bəylərbəyi, əlbəttə, onun da yanında yoldaşları var idi, bir də Qurbani varid oldular bu məclisə. Abdulla xan bəylərbəyi gördü ki, kişi insafən elə qonaxlıx eliyir. Hər nəmənə desən, təkmildi. Yeyiblər, içiblər. Yeyib-içəndən sonra hər məclisin özünə görə bir sazəndə, alazandəsi olar. Bəli, o vəxtində ki, ərz olundi, ağaların xidmətinə Nazır Məmmədalının məclisində hər nəmənə idi qəza, yemax, işmax aradan yığışırdi. İndi üz tutdular, Qurbaniyə:

– Aşıx bəy, sən bizim bu məclisimizdə bir qətər şeir diyə bilərsən?

– Bəli, icazə versəz, durum ərz eliyim.

Qurbani durdi əyağə, bir məclisi o baş, bu başa gedib, amma neçə gün idi Pəri xanımdan da elə bil araları bir müxtəsər solmuşdi. Bildi ki, hətmən-hətmən, bu Pəri xanımı da çağırıblar. İndi zənən məclisi də bir yaridi. Arada bir pərdə var. Şayət, zənən səsi də pərdənin dalısından gəlir. Qəlbində dedi, dur əyağə, bir qədər söz oxi, həmi bu məclisə lazeh olsun, həmi Pəri xanım görax səndən niyə soyuyubdi? İsdiyir bir dəstgah, sazı çəkir sinəsi üsdə. Götürüb görax bu məclisdə nə deyirdi, mən də deyəcağam tamam qulaq asanlar sağlığına:

Ay ağalar, ay qardaşlar,
O gedən yara mən neyniyim?
Badə içib, məst olubdi,
Çeşmi-xumarə mən neyniyim?

Əzizim, yar anlar,
Yarın dilin yar anlar.
Sözü bayatıynan de,
Arif olsa, yar anlar.

Səda yetişdi Pəri xanımın qulağına. Gördü Qurbaninin genə səsi gəlir, amma məclisdə Nazır Məmmədalı baxır Qurbaninin qiyafəsinə. Deyir, sən öləsən, bu aşığın ixtiyaratını verələr mənə, yap bunun yekə tikəsin alıp verəcağam. Qəlbindən qara-qara qanlar keçir. Amma dövrədən deyirlər:

– Aşıx, sağ ol.

Görax Qurbani sözün dübarəsin nə cür deyir. Çün Qurbaniyə elə bil gələn günlər qabaxda agah olur ki, nə cür olacax bərnamə. Bu Pəri xanımın yolunda nətəri olacax. Odu ki, bu sözü deyir:

Yar gəlib, dərdini bilməz,
Gözümdən qan, yaşım silməz.

Əfidi ovsuna gəlməz,
Belə şahmarnən neynirəm?

Dövrədən dedilər:

– Aşıx, sağ ol. Çox yaxçı oxuyursan.

Amma Nazır Məmmədalı nəxşə çəkir qəlbində. Dedi, pərvədigar, aləmin-minallah, bu Abdulla xan bəylərbəyinə burda bir nəxşə çəkəm, bu aşığın hökümün verə mənim əlimə, aparam bunun başını erməni gülləsinə keçirim.

Abdulla xan bəylərbəyi üz dolandırdi:

– Aşıx, oxi, oxi. Oxi, çox sağ olasan ki, məclisimizi rovşən elədin. Məclisimizi şad elədin. Şayət, sən burda olmaseydin, bizim bu məclisimiz heş zada dəyməzdi. Yemax, işmax, durub qoyub gedəcaxdıx. Məclisə bir qatar oxumağın bizi şad elədin, Allah səni şad eləsin.

Qurbani isdiyir sözün xatəməsini desin:

Qurbaniyəm, düşdüm qəmə,
Didələrim doldi nəmə.
Əcəl yığışıb sinəmə,
İsdir apara məni.

Bu sözü oxumağınan Nazır Məmmədalı Qurbaniyə el üzünə dedi:

– Aşıx, çox sağ olasan. Sən bizim bu məclisimizi yap rovşən elədin.

Keçdi əyləşdi. Nazır Məmmədalı əyləşdi Abdulla xan bəylərbəyinin rubəndisində ərz elədi.

– Qurban!

– Bəli.

– Mənim sənə iki kəlmə ərzim var.

– Buyur.

– İsdirəm ki, çün mənim sənin yanında təxsirim çoxdu. Mən isdirəm burda səndən həlallıx alam.

Dedi:

– Kişi, məni xəcalət eləmə. Həlal xoşun olsun. Sən axı niyə məndən, niyə bizə xəcalətdıx verirsən?

Üz dolandırdi:

– Bu cür yox ki, arzum var ki, əlimdə bir qab şərab gətirəm. Sən içəsən, mənə həlal eliyəsən.

Nazır Məmmədalı gəldi özi, bir qab şərab doldurub, gətirib ədəb-bərəkallahnan verdi Abdulla xan bəylərbəyinə. Abdulla xan bəylərbəyi aldi, şərabi isdiyirdi içsin, Nazır Məmmədalı üz dolandırdı:

– Qurbani, məni həlal elə.

Dedi:

– Kişi, həlal xoşun olsun.

– İşdin bu məşuqi-şərabi, yaxsan öz sağlığıva. Bu xanımanın sağlığıdı.

Şərabın qabın yerə qoymaxnan qalxdı əyağa. Deyir, birin də, deyir, iksin də, deyir, üçün də ila maşallah, şərabınan bu kişinin huşunu əlindən aldi. Huşunu əlindən alınacağını, üz dolandırdi. Elə yaxçı bilmirdi ki, da o qədim məşrubi içdi. Bilmədi məclis nə halətdədi. Amma bir qolay alator gözü seçirdi ki, bu Nazır Məmmədalıdı, mənim qabağımda duran. Keyf havasına üz dolandırdi:

– Nazır Məmmədalı!

– Bəli.

– Çün sən məni şərmənd elədin. Böyük adamlardan həmişə bir ənam istərlər, məndən nə istəyirsən? Bu badəni sən mənə vermax? Onu nəzəriva alma ha, mən səni saqe hesab eliyirəm, xeyir, ev sahibi olasan, qonaxlıx eliyəsən. Durasan qonağın qabağında, əlində şərab verəsən. Mənim də ləyaqətim olsa, sənə bir leh, bir töhfə verəm.

Nə qədir diyəndən sonra, Abdulla xan bəylərbəyi diyəndən sonra Nazır Məmmədalı dedi:

– Sənin sağlığuvu isdirəm.

Çox dedi, birdən Nazır Məmmədalının qəlbinə gəldi. Dedi, bu aşığın əcəlin istəyir. Çün kef aləmində idi.

– Qurban, çox dedin elə bil, mən sənin sağlığıvu isdirəm. Quru sağlıxdan bir şey olmaz.

Dedi:

– İndi ki belə oldi, bu aşğın əcəlin, qədərin fərmanın ver mənim əlimə.

Çün kef aləmində idi. Foğriyət Qurbaninin qollarını bağladı. Qurbaninin qollarını bağladılar. Qurbanini isdiyirlər məclisdən çıxartsınlar. Qurbani baxdı dövriyəyə. Bəyaxdan xalqi şad eləmişdi, hammi gülürdi. Qurbaninin qollarını bağlıyanda dövrə narahat oldi. Qollarını bağlıyan fərrəşlərə üz dolandırdı:

– Məni hara aparırsız?

Dedilər:

– Aparax, səni öldürax.

– İndi ki, məni aparırsız öldürmağa, icazə verin, qollarını bağlamamış mən burda mən bir qatar şeir oxuyum.

Aradan tənabi idi, arakəsdi var idi. Qurbani əyağının birini qoydi tənabin o tərəfinə vəsətdə dayandi. Qurbaninin qollarını bağlamamışdılar. Qurbani sazı çəhdi sinəsi üsdə, Nazır Məmmədalı, Abdulla xan bəylərbəyinin qabağında dayanıb, hammının gözü Qurbanidədi ki, bu görax nə diyəcax. İsdiyir görax orda nə cür Məmmədalının donun nə cür biçir, mən də ərz eliyim.

Bəli, öz vəxtində ərz olundu, Allahın xidmətinə Qurbani məclisin düz vəsətində dayandi. Üz tutdi cəlladdara:

– Mənim qollarımı bağlamamış icazə verin, mən burda bir-iki kəlmə söz ərz eliyim, onnan sonra bağlıyın.

Hammı dedi, icazə verin, oxusun da.

Yeri Nazır Məmmədalı,
Həqq işini bitirməsin.
Göydən min bəla keçsə,
Heş biri də səni ötürməsin.

Nəmənə bəla keşsə, hammısı səni tutsun. Amma rivayət belədi, ustad belə nəzmə çəkir, Nazır Məmmədalının Qurbaninin ağzından bu sözləri çıxmaxnan Nazır Məmmədalının ürəyinin başından bir sancı tutdi. Nə yerə otura bilir, nə əyax üsdə özün saxlıya bilir. Hammı dayanıb, aşığa üz tutdular:

– Aşıx de, sözünü.

Aşıx götürüb sözün dübarəsin nə cür deyir, deyim tamam qulaq asanlar sağlığına:

Oturasan ağ otaxda,
Qan qusasan laxta-laxta.
Səni görüm ölən vaxta,
Dilin kəlmə gətirməsin.

Qurbaninin bu söz ağzından çıxmamış, ərz elədim Nazır Məmmədalının dərdi bir misqal idi, oldu bir xalvar. Elə vəz qarışıb, elə vəzi qarışıb yavaşca-yavaşca dizi üsdə çöhdi. Çün Abdulla xan bəylərbəyinin qabağında yerə. Abdulla xan bəylərbəyi əhəmiyyət vermir, çün narahatdi. Gördi aşığı aparırlar, vəli, amma sən diyən huşu başında dəyil ki, məsələn, sözünə ehtiyac eləsin. Qurbani isdiyirdi görax sözünün xətmini nə cür deyirdi, mən də deyim tamam qulaq asanların sağlığına:

Qurbani dərdini bilsə,
Ağlıyıb qan-yaşını silsə.
Uzax yerdən malla gəlsə,
O da gəlib yetirməsin.

O vəxtində rivayətdi ki, cəlladdar Qurbanini otaxdan çıxartmax, o vəxtində Nazır Məmmədalı orda tiri-mir uzanı bilmax, onnan işim yox. O, hələ orda nə cür olacax, onu ərz eliyərəm xidmətizə. Cəladdar Qurbanini götürdülər. Bir az yol aparıblar. Vəli, amma rivayət bu cürdü ki, çün ərz elədim, gecə idi. Bu məclis gecə məclisi idi. Cəlladdar bir-birinə dedi, baba, Nazır Məmmədalı bunun qətlinin fərmanını verdi bizə. Gecəni qərənlıxda bunu hara aparax? Aparax bunu bir yerdə

pünhan eliyax, saxlıyax. Səhər, sübh çağı, gün çıxsın, aparax bir tərəfdə öldürax da. Geceynən qaranlıxda hara aparax bunu biz? Apardılar Qurbanini amma bir yerdə çün insaflı adamdı, çün bu cəlladlar insaflı idilər. Gecənin qərənliği, saat 11-12 dövrəsidi, apardılar bu Qurbanini bir dənə otaxda saxladılar. Səhər sübh vəxtidi, gün tazə-tazə çıxır. Qurbanini oyadıblar. Qurbani durdi əyağa, namazın filan qılandan sonra dedilər:

– Qardaş, dur əyağa, gedax. Daha səni biz aparrıx.

– Aparırsız, məni öldürəsiz?

– Bəli.

Dedi:

– Mən ölümdən qorxmuram, göylü balıx əti isdiyən, nəmənəsini qoyar buzlu suya. Çün mən İrandan ki, çıxıb düşmüşəm yola, bu qızdan ötürü malımı, sərvətimi, canımi, ixtiyaratımi qoymuşam bu bivəfanın yolunda. Vəli, bunun yolunda başıma oyunlar gəlib. Məni aparırsız bari, o Hətəmxan baxçasına aparın. Onu mən bir görüm, onnan mən həlac zümmət edim.

Cəlladdar dedi:

– Eybi yoxdu. Səni aparırıx, Hətəmxan baxçasına.

Gəldilər, bağın qapısından keçiblər içəriyə, qızın barigahının qabağından keçəndə qıza xəbər verdilər ki, Qurbanini gətirdilər. Çıxdi küləhrəngidən baxanda gördü, həə, Qurbaninin qollarını bağlıyıblar, aparırlar. Bəli, söhbətimiz həmən sərmənzili-məvadədi, çün qız üz dolandırdi:

– Onun qollarını kim bağlıyıb?

Dedilər:

– Xanım, sənin xandadaşın buyurub, bunun qətlinin fərmanını verib. Biz də bağlamışıx, aparrıx öldürmağa.

– Niyə öldürəsiz?

– Day, bilmirik, niyəsin də xandadaşın bilir də.

Qız başladı hay-haynan ağlamağa. Qurbani gördü, qız ağlıyır.

– Xanım.

– Bəli.

– Ağlama, mənim sinəmə bir neçə kəlmə şeir gəlib. Oları oxuyum, tayinki sən narahat olmiyəsən. Mənim səni görməyim qaldi qiyamətə.

Ay ağalar, bidadına, dadınan,
Əcəb mən qapında fəryad eylədim.
Özüm öz əliminən yıxdım evimi,
Müttəhilər evin abat eylədim.

Əlbəttə, bu söz Qurbaninin ağzından çıxmamış ustad belə rivayət eliyir, cəlladlar baxdı bir-birinə, ağladi. Qız da ağladi, amma Qurbani də ağladı. Qurbani isdiyir ağlıya-ağlıya sözün dübarəsin görax nə cür deyir, mən də ərz eliyim tamam eşidənlər sağlığına:

Ala gözdən qətrə-qətrə yaş kəsdim,
Üz döşədim, yar yolunda baş kəsdim.
Şirin kimi sütun olub, daş kəsdim,
Minasib adını səhrat eylədim.

İsdiyir görax, sözün dübarəsin desin. Çün Qurbani anasından ayrılanda ustad belə nəzmə çəkir. Qurbaninin anasi Qurbaninin qoluna bir dənə bazıbənd bağlamışdi. Atasının yadigarı idi. Atası da Şah Abbasın yanında vəkil idi. Çün bazıbənd yadigar idi. Vermişdi ki, arvad mən gedirəm qürbət yerə. Mənim oğlum olsa, şayət, bu bazıbəndi məndən yadigar bağlarsan onun qoluna. Gələr, məni tapar. Qurbaninin həmin dəqiqə yadına düşdü ki, hevil oldu ömrüm, getdi güdaza, anamın da bu yadıgarından mənə bir istifadə, bir mənfəət yerinə yetirə bilmədi. Qurbani görax sözün xətmin necə deyir, mən də deyim tamam qulaq asanların sağlığına. "Orta Kərəmi"ynən oxuyuram:

Bəy oğlumun timarı var qolumda,
Qulları oynaşır saqi, solunda.

Qurbani deyir, vəfalı yar yolunda,
Heyif bu cavan ömrüm bərbad eylədim.

Söz tamam vəssalam. Bəli, o vəxtində Qurbani sözlərini tamama yetirdi, amma, qərdeş, qız əl atdı cibinə. Cibindən iki kisə pul çıxartdi, atdi cəladdarın üsdünə. Dedi:

– Məndə ixtiyarət yoxdu, mən diyəmərəm bunu aparıb öldürmiyin,amma aparın incitmiyin bir az.

Cəlladdar tullağı qoydular ciblərinə. Beş-altı qədəm ara aşdi Qurbani. Qurbani gördü, bir də qeyrəz mümkündi. Bilmirdi ki, öldürmiyəcaxlar.

Dedi, mən bir də bu qızı görəmmiyəcağam. Gəl bir qətərdə qıza lazeh aylıx oxuginən. Cəlladara üzün dolandırdı ki, məni öldürəcaxsız, amma mənim sizə zəhmətim çoxdu. Xahiş edirəm ki, mənə bir beş dəqiqə icazə verəsiz, mən bu qıza da ayrı oxuyacağam. Amma Qurbani bir dəstgah, cəlladlar baxır, amma narahatdılar. Qız da küləfirəngidən baxır, elə bil yorğun maral baxır şikarçının dalısıcan. İsdiyir bir dəstgah orda nə cür deyir, mən də deyim tamam qulaq asanlar sağlığına:

Mən sənin əlindən çəkərəm aman,
Dad sənin əlindən, aman ayrılıx.
Əydin qamətimi, bühdüm belimi,
Qoydun göyülüm evimi viran ayrılıx.

Amma rivayət bu cür deyir, qız çox narahatdi, hətta Qurbani özü də ağlıyır, cəlladdar bir quşədə də, deyirlər, ilahi, bu nə işidi bizi tapdı. Bu yazığı niyə bu cür elədıx biz. İsdiyir Qurbani sözün dübarəsin desin:

Əfsus ki, doymadım yar baxışından,
Bir çeşmə car olub çeşmim yaşından.
Duman kimi tüsdü qalxır başımdan,
Verdiyim ilqarım pozan ayrılıx.

Odur ki, ilqarımız var idi. Elə bil buyün pozdu. Fələk bizi bir-birimizdən ayırdi. Amma isdiyirdi Qurbani, çün qız çox na-

rahat idi, dəsmalı alıb əlinə, gözlərin yaşın silib, cəlladdar öz-özünə peşman olublar. Qurbani isdiyir sözün xətmin desin:

Qurbani deyər, bu gün axır zəmandi,
Yar yardan ayrılır, gör nə tufandi?
Amma zalim fələk mənə təm göndərdi,
Yıxdi göyülüm evimi viran ayrılıx.

Bəli, Qurbani sözün tamam elədi. Çün cəlladdar da məmmuriyətçılıxlarını qeyri-cəm eliyirdilər. Qurbanini götüdülər. İndi Gəncədən yarım ağaş, bir ağaş, ya iki ağaş kənarda bir bağda, məsələn, bir daşın dibində, yani ki, bir çeşmənin başında Qurbanini əyləşdirdilər yerə.

– Dadaş!

– Bəli.

– Sən özün gördün ki, bizə dedilər ki, apararsız başını bədəndən ayırarsız. Köynəyini də bələrsiz qanına, götürüb gələrsiz.

Qurbani dedi:

– Bəli, ixtiyar sizdədi.

İndi o cəlladdarın biri öz-özünə deyir, bizə deyiblər aparın bunun başın bədənindən ayırın. Şayət, biz bunu öldürmiyax, yazıxdi. Cəlladdarın biri əl atdi, əlbəttə, kəmərindən bir xənçəl çıxartdi. Qovzadi, istədi Qurbanini öldürsün. O birisi yoldaşı:

– Əl saxla görüm, neyniysən?

– Neyniyax?

Dedi:

– Bir dayan görüm.

Qurbani gördü öldürüllər. Qurbani dedi:

– Dadaş, müsəlmansan?

– Hə.

– Öləndə kəlmeyi-şəhadət var. İsdiyirsiz qoyun mən bir kəlmeyi-şəhadət deyim.

Qurbani əl atıb sazı köynəyindən çıxartdi. Qurbani kəlimeyi-şəhadət əvəzinə kağız yazır qıza. Görax nə cür yazır, nə cür deyillər:

İki bədən gördüm, altmış başı var,
Müddəsirdi onda qeyrəz suz olar.
İki sərrab gərdiş vurar, dolanar,
Gahdan iki, gahdan bir olar.

Yüz səhsən qolu var, oynar abınan,
Üş yüz qulağı var, sayı hesabınan.
Beş kəlmə danışar abı-tabınan,
Kəlməsindən göhər olar, dür olar.

Ələsgər də bu kəmalə yetişdi,
Bu sözləri cəm eliyən bir dənə huşdi.
Gah zaman bəzirgandi, gah da dərvişdi,
Gah zaman şah olar, gah vəzir olar.

Söhbətimiz həmanki sərmənzili-məvadə qalıb. Qurbanini cəlladdar aparıblar. Badi-səba yel əsirdi. Qurbani kəlimeyi-şəhadət diyə-diyə cibindən qələminən kağaz çıxartdi. Cəlladdardan biri dedi:

– Neyniysən?

Dedi:

– İsdirəm məşuqəmə bir namə yazam.

Badi-səbaynan görax nə cür deyir, nə cür yazır, cəladdar qulaq asır, mən də deyim tamam eşidənlər sağlığına:

Əgər gedən olsan yarın yanına,
Yarınan deginan, gülginan, kağaz.
Əgər xəbər alsan, yar, əhvalımi,
Yarın əhvalını bilginən, kağaz.

Bəli, o vəxtində cəlladdarın biri baxdı Qurbaninin qiyafəsinə ki, gördü hə, insaf dəyil, bu cür oğlanı öldürəsən. Vəli,

bunun əqidəsi çox safdi. Bad-səbadan namə yazır. Baxdı yoldaşın üzünə, dedi:

– Sən öləsən, əgər yoldaşım buna çəkil o yana desə, yap bu yoldaşımı öldürəcağam.

– Ağa, de sözün o birisin.

Qurbani isdiyirdi sözün dübarəsin desin. Deyim tamam qulaq asannar sağlığına. Onu da “Qürbəti”ynən oxuyacaq:

Bir namə yazıram qohuma, yadə,
Qadir Allah, özün yetir imdadə.
Denən yarım qaldi, Arazbarda, səhrada,
Yarınan dərddəri bölginən, kağaz.

Cəllad üz dolandırdi:

– Dadaş, de sözün xülasəsin.

Qurbani isdiyirdi sözün xətmini desin:

Biçarə Qurbani, nə batdın yasa,
Bülbül kimi salıblar dar qəfəsə.
Əgər yarım baxıb cavab verməsə,
Yarın qulluğunda qalginan, kağaz.

Bəli, Qurbani çün sözlərini tamam eliyip diyip, cəlladdarın biri qəlxdi əyağə:

– Dadaş!

– Bəli.

– Kəlmeyi-şəhadətuvu dedin?

– Bəli.

O birisi əl atdi, cəlladın əlinə:

– Neyniysən?

– Neyniyim?

Dedi:

– Tez ol, öldürax da. Başın bədənindən ayırax da.

– Kişi, utan, həya elə. Necə öldürüx bu gözəllıxda, bu əqidədə olan adamı öldürəllər?

– Bə neyniyax?

Dedi:

– Azad elə, qoyax gedax. Nə çoxdu çölün bərəndəsi, uçani, qurd-quş. Bir dənə bunun köynəyin çıxardax, bu qurd-quşdan birin öldürax, qəşəng qanına bəliyax, aparax, diyax, dadaş, bu Nazır Məmmədalıya ki, biz Qurbanini öldürdux. Amma bu şəritinən. Bu, dilindən burda təyid verə bizim yanımızda ki, neçə müddətə kimi bu məmləkətdərə dolanmıram.

Qurbani dedi:

– Baş üsdə.

Cəllad istədi möhməllıx eləsin. Baba, axi yalançi həməşə tamaşanı toğlaşdırır. Çün buna vəqələr vermişdi, bu cəlladdara sizə kənt verəcağam, bunu belə eləsəz, sizə belə ənam verəcağam. Buların biri artıx tamahlamı deyir:

–Kişi, bunu öldürməsax, bizim mənafəmiz kəsildi, bizim əlimiz bu ənamdan çıxdi.

Dedi:

– Kişi, istəmirıx ənamı, dur əyaqə.

Ağa, o vəxtində bular ikisi də razı olub, Qurbaninin qol boynuna salıb o üzündən, bu üzündən öpdülər, həlal-himmətinən. Qurbani də bulara qoli-şərəf verdi ki, neçə müddətdərə kimi day buların məmləkətdərin dolanmasın. Bular qeyidib gəlmaxda olsun, Nazır Məmmədalı bulara ənam vermaxda olsun ya versin, ya verməsin, işimiz yox. Eşit söhbəti Qurbanidən. Qurbani az gəldi, çox gəldi, həman gəldi bu Xüdafirin köprüsünə. Xüdafirin köprüsündən keşdi, addadı Arazı İrana. De orda, de burda amma Pərinin sovdası, əşqi-sovdası Qurbaninin başında dolanir. Az qalır Qurbaninin pihri başından fəraq eləsin. Çün axı deyib, gülüb, danışıb şayət, yanında bir neçə gün qonax qalıb. Bu macəra bu cür olandan sonra Qurbani az qalır dəli olsun. Qurbani bir saldi çıxdi, dedi, həlbəttə, əvvələn dərdivu diyəcaxsan o kişiyə ki, gözə görünməzdi – Allahdi. On iki imamma yalvarınca, bir Allaha yalvardım.

Onnan sonra bu məmləkətin, həlbət, bir hököməti var, bir işə yetişəni var. Gəl get o yan, bu yana ərzə vermax lazım dəyil. Sən elə gedəsən, mərkəzi tapasan. Bu bala-bala hərəkət elədi Qurbani. O şəhərdə gəldi üzü Təbrizə. İki gün bu Təbrizdə qaldi, bala-bala bu qədimdə bu vəsail yox idi, təyyarə, qatar, ila maşallah maşın. Bu vəsaillər yox idi. Qurbani yol yoldaşı tapır. O yannan, bu yannan görür, kərvan gedir, qoşulur olarnan ila maşallah tuğl olmasın, gəldi çatdi İsfahana. O movqeyinidi Şah Abbasın paytəxt İsfahandi. Şah Abbas təşkilat sahibidi. Ağa, bunun bir dənə ustabilndə böyüyü var. Əz-qəza Allah adamın işini rast gətirəndə bu cür gətirər. Allah heş oğlandan nəzərin kəsməsin. Qurbani gəldi yetirdi İsfahanın şəhrinə. İsfahanın şəhrinə yetirmaxnan bir tərəfdə əyləşmişdi bekefdən, məclisdən nə qədər ki, yorgun adam istirahətdıx eləmiyib neçə vaxtdi. Bekefdən məclisdən əyləşib bir tərəfdən bir quşədə oturub. Ağa, Şah Abbasın ustabilnin böyüyi, bir dənə rəisi var idi, çıxmışdi geşdə. Sağ-solunda atdı filan, o yerə gəldilər çatdılar ki, bu oğlana gözləri sataşdi. Gördülər, bir cəvan oğlandi. Əyləşib bir dənə səkidə. Amma qəm dəryasının içindədi. Elə gözəl bir oğlandi, həp əvəzinə alsan ağzıva, qırx günə kimi nəşəsi damağından getməz. Qurbani özünə bir hərəkət verdi, məclis görmüşdi, adam tanıdi. Qurbani gördü, bular şəxsiyyətdi adamdi. Yerindən qalxdi, salam ərz elədi. Ustabiln rəisi, böyüyiüz dolandırdi:

– Cavan!

– Bəli.

– Hara əhlisən, kimsən?

Çün olar farsıdılar, buna türkücən dedi kimsə. Ərz elədi, ağa, mən azərbaycanlıyam.

– Bəs, nə əcəb gəlmisən bura?

– Xub, bikaram bu cür. Əlimdən bir iş zad gəlməz.

– Heş əlindən gəlməz?

– Keşəvərzılıx əlimdən gələr az-maz.

– Bu ata-zada da baxa bilərsən?

Ərz elədi:

– Bəli, baxaram.

Əz-qəza burada mehtər lazım idi. Dedi, hə, bu Təbriz əhli, məsələn, Azərbaycan qisməti belə işlərdən yaxçı başda-baş, özü də işliyən olarlar. Yaxçısı budu, bu oğlanı götü apar, ver orda – ustadın yanında mehtərrıx eləsin.

– Dadaş!

– Bəli.

– Bizinən gələ bilərsən?

– Hara, qurban?

– Səni aparram mən, yazam bir dənə işə. Aylıx verəsən, yiyəsən, içəsən, qalasan orda qəşəng keçinəsən. Böyük yerə aparram müdür.

– Baş üsdə.

Ağa, buların dalısıycan düşüb, o vəxti ki yetirdlər şahın təşkilatına. Bəqioğlu bizim dil, buna bir on dənə, on beş dənə, iyirmi dənə at tapşırıblar. Qəşəng bu yiyir, içir orda da, özünə bir dənə otax süzür, istirahətdıx eliyir, gəlir yatır, dincəlir, durur gedir atdara baxır. Bular bu cür qalmaxda olsun, eşit söhbəti kimdən? Bəli, Şah Abbas, həlbəttə, ağaların xidmətinə ərz eliyim ki, Mirzalı bəy bir dənə şəhridə ustandər idi. Şah Abbas namə yazdi ki, özünü bir tezlıxnan yetirsən dərbara. Ağa, bunun naməsinin vəxdi bir yandan Mirzalı bəyə çatmax, Mirzalı bəy sahmanlaşıb İsfahana gəlmax... o yandan da ustabilin böyüyünə xəbər verdi ki, atdardan üş-dörd dənə yəhər əsbabın belində qoyub bərkitsinlər. Mən də bir çıxacağam səyahətə. Ustabilin böyüyi gəldi, Qurbanini tapdi:

– Ağa!

– Bəli.

– Filan atın zirzəməndin qoyacaxsan belində.

Qurbani də atdarın bilirdi ki, hansı at kimə layıxdi. Gördü o atdan indiyənəcən yəhər-əsbab belinə qoyulmuyub, neçə vəxdi ki, bu burdadi. Yavaşca soruşdi:

– Ağa!

– Bəli.

– Bu atdarın ki, yəhər-əsbabı ki, qoyulur belinə buları kim savaracax?

– Bunu Şah Abbas özü savaracax. Bu ata filənkəs savaracax.

Oların yəhər-əsbabın foğriyyət Qurbani belində bərkitdi. Qurbani fikr elədi, dedi: "Ay oğlan, pirsəndi foğt eyləməz, aqil məgər nadan ola. Sən neçə vəxtdi burdasan, sənə ki icazə yoxdu deyib Şah Abbas. Görməmisən də, heş imkanı da yoxdi. Sən də bura mehdərrığa gəlməmisən ki? Sənin burda bir hədəfin var, gəlmisən bir dərdivi diyəsən. İmkanı olmayacax sən gedəcaxsan sən Şah Abbası görəsən, təkrar dərdivi diyəsən. Yaxçısı, bu atdarın yapış cilovundan özün apar, Şah Abbasın üzəngisini bas. Şah Abbas ki, səvar olacax atın üsdünə, eliyə bilərsən o moqeyini, sən dərdivu diyəsən".

Foğri atdarın yəhər əsbabın belində bərkidib, atdarın bağladi cilovlarını bir-birinə, yapışdi qabaxdaki atın cilovundan. Ustabildən çıxartdi. Bəli, Şah Abbas ki, hara gələcaxdi, çün bunlar vələt idi. Harda ata savar olacaxdi, o rəis, böyüyü bilirdi. O qavaxda, bu da onun dalısıycan. O yandan Mirzalı bəy şəhrə dərvazədən varid oldi. Çün bu bir dənə ustandərdi. Əlbəttə, bunun başında beş dənə, üş dənə atdısı var. Şah Abbas da özü, gecə yarısı çıxır. Bular burda ata səvar olmaxda, o yandan Mirzalı bəy şəhrə varid olmaxda, Qurbani Şah Abbası ancan göz önündən ötürmürdü. Qurbani gördü, bəli, Şah Abbas keçib atın üzəngini basıb, əyaxlarını rikaba qoydi. Ata mindi, bular həm-hüm eliyincən Mirəzalı bəy o yandan yetirdi. Dedilər:

– Qurban, atdılar gəlir.

– Kimdi?

– Bəli, ustandərdi. Filan yerin ustandəridi, Mirzalı bəydi.

Xub, amma day qeyitmağa da Şah Abbas məcbur hala qeyidax. Vəli, getmağa da müxtəsər dayanıblar. Ağa, Mirzalı bəy yetirdi üzün əydi əlindən, üzündən öpdi, onnan işim yox. Ədəbi şahlığı yerinə yetirdi. Qurbani həsrətinən baxır, atasını da görmiyib, Şah Abbası da o dərqeyidən görmiyib. Amma Şah Abbasın gözü düşəndə gördi, bir cəvan oğlandi. Kədərdən durub beş qədəm kənarda. Şayət, atın cilovu da bunun əlindeydi elə. Atın üzəngisində bu oğlan basdi. Elə gözəl oğlandi, elə gözəl oğlandi. Amma Qurbani xumar-xumar baxır, Şah Abbasın üzünə, gözündən yaş elə bil baharın bulutu yağışı kimi axır. Şah Abbas üz dolandırdi:

– Oğul!

– Bəli.

– Niyə, bə əllərivi qoymusan qoynuva, niyə bə ağlısan? Dərdin nəmənədi?

Qurbani dərdi tüğyan elədi. Dedi:

– Ay oğlan, harda diyəcaxsan dərdivi? Day bura behtərin yeridi ki, sənin üçün rast gəlib. Nəmənə diyəcaxsan Şah Abbasa, elə burda diginan.

Qurbani isdiyir bir dəstgah zəbani-halınan, şayət orda çalıb-oxumax olmazdı haa. Qurbani qəblən o sözləri Şah Abbasa yazacaxdi, kağızı amadə-baş eləmişdi. Yazıb qoymuşdi qoynunda. Amma isdiyir görax orda, nə cür demişdi, nə cür yazmışdi, biz də diyax tamam qulaq asanların sağlığına:

Başına döndüyüm, ədalət şahım,
Sənnən ötürü İsfahana gəlmişəm.
Amma sənsən mənim o qibləgahım,
Sənin üçün bir dərmanə gəlmişəm.

Yani mənim bir dənə mərəzim var, səndədi dərmanı. Onnan ötürü bu dərmana gəlmişəm. Üz dolandırdi:

– Oğul!

– Bəli.

– Necə yəni sənin üçün bir dərmanə gəlmişəm. Nəmənədi o sözün, sözün üsdünü aşginan?

Qurbani isdiyir sözün dübarəsin desin:

Müsəlmanam, yalan gəlməz dilimə,
Bülbül kimin həsrət qaldım gülimə.
O, Pərinin əlin vermir əlimə,
Onnan ötürü bir dərmanə gəlmişəm,
Onnan ötürü bir fərmanə gəlmişəm.

Yani sən bir fərman verəsən, bu bərnamə cücərə inşallah. Şah Abbas üz dolandırdi:

– Oğul!

– Bəli.

Xub, hammı da durub dövrədən tamaşa eliyirlər. Amma Mirzalı bəy az qalır dörd dənə də göz borc eləsin, baxsın bu oğlanın üzünə ki, görür, elə gözəl oğlandi. Belə suğu xoş gəlir.

– Sənin adın nəmənədi, kimin oğlusan? Onu buyurginan, onun üçün sənə bir dənə nəxşə çəkim.

Qurbani isdiyirdi sözün xətməsini necə deyir? Mən də deyim qulaq asanlar sağlığına:

Göy geymişəm, qaraları bağlıyam,
Sinələri düyünlüyəm, dağlıyam.
Adımı xəbər alsan, Qurbanidi,
Mirzalı bəy oğluyam.
Mən xəstəyəm, sən dərmanə gəlmişəm.

Söz tamam, vəssalam. Amma Mirzalı bəy Qurbaninin ağzından söz tamama yetirməmiş, az qaldi özünü atsın Qurbaninin üsdünə. Çün yadına düşdi neçə vəxtdi namə yazır, cavap gəlmir ki, oğlum mənim hayandadi, neçə sinnindədi, nəyə qismətdədi, hangi iliçdə də dərs oxuyub? Bu sözlərdən cavap yoxdi. Anası bunun naməsinə cavab yollamır neçə müdətdər var. Bundan da

qail vəsail yox idi, ərz elədim. Xub, bu oğlan ağzından bu söz çıxmamiş Mirzalı bəy çəkib oğlunun alnından öpdi. O üzündən, bu üzündən ata-bala neçə vaxtdi. Üz dolandırdi:

– Oğul, neçə vəxtdi burdasan?

Ərz elədi:

– Ata, mən altı aydı burdayam.

– Qurban!

– Bəli.

– Bə mənim bu oğlum indi neçə vəxtdi mən məmləkətdərdə zəhmət çəkmişəm bu şəhərə. Sənin yolunda nə qədir canımı qoymuşam, malımı qoymuşam. Xülasə, ömrümü sərf eləmişəm. Mənim bu oğlum bəs neşə müddətdi sənin qalıpdi, heş bunun dərdin halı olmamısan.

Dedi:

– Mən nə bileydim, mənim elmi-qeyibim yox idi, bu sənin oğlundi.

Görax dərdi nəmənədi, çəkib Şah Abbas da Qurbaninin alnından öpdi. Aparıblar hər üçü dərbara Qurbanini.

Bəli, ərz olundi söhbət, Şah Abbas və Mirzalı bəy, Qurbanini apardılar dərbara. Əlbəttə, qəza nəmənə idi, çayı idi, şərbət idi, ya ayrı bir şey, işim yox, gətdilər yimax, işmax. Mirzalı bəy üz dolandırdi:

– Qurban, sənin icazəynən mən bunnan bir-iki kəlmə söz soruşacağam.

– Buyurginan.

Mirzalı bəy üz dolandırdi:

– Oğul!

– Bəli.

– Xub, mən qəbul eliyirəm, sən mənim oğlumsan, neçə müddətdir ki, mən evdən çıxanda şayət, sən ananın bətnində idin, ya olmuşdin, onnan işim yox. Vəli, bir dənə söz var, sən belə axi, Qərədağın İri kəndində o Pərini ki, diyirsən, o Pəri

kimdi? Elə bil sən o adamnan şikayət eliyirsən ki, o böyük adamdı. Axı səni olara kim tuşitdi? Oları sənə kim tuşitdi. Mən qalmışam məhəttəl.

Qurbani başını saldi əşağıya, muqayyət oldi. Şah Abbas üz dolandırdi:

– Oğul!

– Bəli.

– Muqayyət olmaginan, hər nəmənə dərdin var, burda deginan. Əlimizdən gələn sənə xidmət eliyəciyix.

Qurbani alır bir dəstgah, görax Şah Abbasın dərbarında, atasının müqabilində Şah Abbasın hüzurunda nə deyirdi. Biz diyax tamam eşidənlər sağlığına:

Yatmış idim xabı-qəflət içində,
Verdi muradımı gözəl Şah mənim.
Oyanıbən hər kəlamın söylədi,
Görsəndi gözümə qibləgah mənim.

Şah Abbas gördi qəşəng söz deyir:

– Oğul, gözəl Şah yani ki, kimi deyirsən? Həzərət Əlini də deyirsən də.

Başını saldi aşağıya, dinmədi.

– Oğul!

– Bəli.

– Sözün dübarəsini de.

Götürdü sözün dübarəsin görax nə cür deyirdi, mən də ərz eliyim, tamam eşidənlər sağlığına. Elə onu da "Şikəstə"ynən... :

Pərvanə tək mən də yandım oduna,
Xəbər aldım, Pəri dedi adına.
Ağam, Şahı-Mərdan özü yetsin dadıma,
Verdi muradımı gözəl Şah mənim.

– Oğul!

– Bəli.

– Sənin başuva bu oyunları gətirən, sən hayana getmişdin? Evimizdə gördün bu bərnaməni? Ya bir tərəfdə idin, məsələn, bunu yuxuda görürsən, aşkarda görürsən? Onu bizə diyəsən.

Qurbani dedi:

– Ağa, qulaq asın, onu da ərz eliyim.

Bəli, Qurbani götürüb sözün xətmin bu dillərnən deyir:

Qurbaniyəm, çıxıdm dağ səhrasına,
Quşimal verdilər gönül parsına.
Bir ləhzədə düşdüm yar sovdasına,
Verdi mətləbimi gözəl Şah mənim.

Ağa, söz tamam, vəssalam. Şah Abbasınan Mirzalı bəy gördülər ki, bu oğlan həqiqətən elə bil vergi verilib biləsinə.

– Oğul!

– Bəli.

– Sən o butanı ki deyirsən, nə cür Pəriydi bu?

Müqəyyət oldi atasına, əlbəttə, adam axı nənəsinə bəzi sözləri diyə bilər. Dədəsinə mümkün dəyil diyə bilməz, muqəyyət olar dədəsinə. Oradaki bir dənə şah məclisidi. Şah məclisində hər adam tapışa bilməz, hər adam sözün yerinə yetirə bilməz. Qurbani də bu sözləri çox üzə basandan sonra, Şah Abbas özü icazə verəndən sonra deyib. Vəli, eşit söhbəti Qurbanidən. Qurbaniyə bir ləhzə burda elə bil qüdrət verir. Şah Abbas dəstur verdi, bir dənə qələm, davaş, kağız özi Abdulla xan bəylərbəyinə ki, Gəncəyə hökumət eliyipdi, Şah Abbas bu dəstədə özü namə yazdı. O sözləri yazır ki, biz ki, səni ora hökumət eləmişıx, səndə nə ixtiyarət var, adam cəllada verəsən? Adam öldürtdürəsən? Bu nəmdə, bu nişanda bir oğlan gəlib bura, başının sərgüzəşti nəmənədi deyibdi. Hətta Mirzalı bəyin oğludu ki, filan şəhrin ustandarının oğludi. Sən ona qimət verirsən, nəinki verəsən cəllada. Naməni yazdılar, Qurbani yeriynən-yatağıynan ki, haracan cəlladdar məni gətdilər, hansı küçeynən gətdilər, hansı çeşmənin başında məni

azad elədilər. Məni həqiqətən cəlladdar özləri qol verdilər, azad elədilər. Bir dənə çöl heyvanını tutdular, başın bədənindən ayırdılar, buladılar Qurbaninin köynəyinə, apardılar verdilər Nazır Məmmədalıya. Xub, vəli, naməni yazdi, qoydu bir dənə paketə, verdi bir dənə qasidə. Bu naməni tezlıxınan mərkəbnən sabaha alasan, yetirsən Gəncədə həman Abdulla xan bəylərbəyinə. Bu yola düşüb gəlmaxda olsun.

Qurbani gördü, xeyir, bala-bala diyəsən "inşallah" oldi. Qurbaninin atası üz dolandırdi:

– Oğul!

– Bəli.

– Sən həqiqətin de. Bu yol bildıx sənə vergi verilib. Nə şəraitdə gördün o qızi, nə cür gördün? Sənə mən bir toy tutacağam, tarixlərə yazsınlar. Qurbani daha həvəsə gəlib, isdiyir görax atasına nə cür deyirdi qızan danışdığını, nə cür gördüm qızı, mən də ərz eliyim tamam eşidənlər sağlığına:

Başına döndüyüm, gül üzlü ata,
Oyandım yuxudan, yarı görmədim.
Amma fələk salıb məni bir yanar ota,
Oyandım yuxudan, yarı görmədim.

– Oğul!

– Bəli.

– Sən axi, o yarı ki, deyirsən havaxtacan onnan danışa bildin? Sənə köylü var, yainki yox?

Dedi:

– Ata, qulaq asginan, məni dağa-daşa atmaginan.

Qarrı dağlar kimin ot tutuban alışdım,
Axan çay tək dəryalara qarışdim.
Ata, sübhə kimi deyib-güldüm danışdım,
Oyandım yuxudan, yari görmədim.

Şah Abbas üzünü dolandırdi:

– Həqiqətdi, Allah Nazır Məmmədalıya nələt eləsin. Bu kişinin işini təkə bu salıb.

– Oğul!

– Bəli.

– Heş narahat olma, bu namə yerinə yetirməmiş, sənə bir dənə toy eliyəcağam. Sənə bir toy tutacağam, tarixlərə yazsınlar. Heç narahat olmaginan. Sözün dübarəsin denən, daha nə cür oldi?

İsdiyirdi onu da nə cür deyirdi,mən də deyim tamam eşidənlər sağlığına:

Haca gedər hacıların hacısi,
Getmir ürəyimdən düşman acısi.
Adı Pəri xanımdi, Abdulla xanın bacısi,
Oyandım yuxudan, yari görmədim.

Ağa, söz tamam, vəssalam. Amma Qurbaniyə bir dənə oçax qoydular ixtiyarında. Çün Qurbani neçə vaxtdi axi istirahətdıx eləmiyibmiş. Yazıx, birçarə dağlarınan, daşlarınan o qədir yol gəlib, əyaxlarının qabarları toxdamıyıb hələ. Neçə vaxdı ki, burda ustabildə qalır. Ustadı deyirlər zindəganlıx eləmiyib. Qurbanini yolladılar həmmamə. Bir dəst şahanə libas veriblər, Qurbani hamamda mürəttəb geyinib libasları əyninə. Elə bil vallaha, gün çıxdi bir tərəfdən. Qurbani gəldi. Bir dənə otax qoyublar ixtiyarında ta madami ki, Qurbani o vaxta kimin burda istirahətdığa məşgul olacax ki, Abdulla xan bəylərbəyi Şah Abbasın naməsinə cavab yazsın. Qurban, mən bu işə ya varam, ya mən bu işi görmüşəm, ya görməmişəm.

Bəli, söhbətimiz həman sərmənzili-məvadədi, Qurbani burda istirahətdığa məşgul olsun, bular burda qalmaxda olsun, eşit söhbəti kimdən? Qasiddən ki, qasid naməni gətirir Gəncəyə. Günə bir mənzil, teyyi mənazil, o zaman ayınan, ilinən, bu zaman müxtəsər dilinən, eşidənlərin sağlığına. Ağa, çün qasid əlində adres varıdı. Yeksərə gəlib çatdı tuğl olmasın, Abdulla

xan bəylərbəyinin barigahına. Bəli, qasidin əlində hökmü var, naməni çıxardıb. Gördü Şah Abbasdan hökm gətirib. Şah Abbas buna hökmü verib. Qasid keşdi Abdulla xan bəylərbəyi şikara getmişdi. Şikardan yetirdi.

– Qurban, sənin üçün bir qonağımız var, namə gətirib.

Varid oldu içəriyə. Əlbəttə, xoş-beş on beş, çıxardıb ədəbinən naməni qoydi Abdulla xan bəylərbəyinin qabağına. Abdulla xan bəylərbəyi məzmunu-namədən xəbəri oldi. Gördü, ahov, gedib iş folta. Həman bu Qurbani adında aşıx, Nazır Məmmədalı bunu cəllada verdi, aparsın öldürtdürsünlər. Cəlladdarın əlindən qurtulub, qaçıb gedib çıxıb İsfahana. İsfahanda təfsilət nəmənəymiş, Şah Abbasa deyib. Şah Abbas ondan xatirə bu naməni yazıb. Ağa, qasid neçə gün burda qalmağa məşğul olsun. Çün niyə? Abdulla xan bəylərbəyi fikir elədi, gördü, bu işi bu cür yumax olmaz. Yani baisi düzdü ki, Nazır Məmmədalıdı bu işin. Nazır Məmmədalı da gorbagor olub Çün Qurbani qarğış elədi Nazır Məmmədalının. Nazır Məmmədalı şayət eldi, cəlladdar apara Qurbanini. Nazır Məmmədalı yolda qutuldi. Heş otağından pilləkanları ənib əşağıya da firsət etmədi (vaxt tapmadı) Həman gorbagorun kı şənligidi. Qurbani qarğış elədi Nazır Məmmədalıya. Elə orda otdi. Götdü namənin cavabında beləsi yazdi. "Qurban, siz mümkündü bilirdiz, eşitmişdiz, sizin əliniznən mənim burda bir dənə Nazır Məmmədalı var idi. Bu macəraları mənim başıma gətirən, bu macəraları aşığın başına gətirən, mənim heysiyyatıma, namusuma toxunan işləri tamam bu Nazır Məmmədalı eliyipdi. Qurban, sən hər moqeyini, hər sahat, hər gün, hər dəyqə əmr eləsən nəmənə, mən xidmətində varam." Naməni yazdi, qoydular bir dənə paketə. Qasid təzədən neçə gün istirahətdıx eliyəndən sonra naməni qoydu cibinə, qeyidib gəlsin İsfahana. Qasid gəlmaxda olsun.

E1 yeridi, yalqız qaldın səhrada,
Çək əsrətin, çal çatığın çata-çat.

Hərcayılar səni saldı irağa,
Həsrət əlin yar əlinə çata-çat.

Aldı dübarəsin:

Qışda dağlar ağ geyinər, yazqara,
Sağ dəstinlə ağ kağıza yaz qara.
Əsər yellər, qəhr eyləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çata-çat.

Sözlər dodaqdəyməzdi, Aşıx Ələsgərdəndi:

Ələsgərin xəddi çıxdı çal indi,
"H e"yi "y e"yə, "dal" ı "re"yə çal indi,
Hərcayının kəlləsindən çək indi,
Çal çəngəlin, çək ciyərin çata-çat.

Bəli, söhbətimiz ağaların xidmətində, həmin sərmənzili-məvadə qalıb. Ərz olundi, o zaman payitaxt İsfahan imiş. Qurbanin hamama girib, mənzildə istirahətnən məşguldi, amma o günüdi ki, namıni qoyub cibinə ərxeyinyarə Şah Abbasla xüdahafizlik elədi. Və atası Mirzalı bəydən xüdahafizlix elədi. Düşdi yola, gülə əyməz, ustadlardan belə eşitmişəm, o zaman ayınan, ilinən, bu zaman o müxtəsər dilinən, tuğl olmasın, düşüb Azərbaycana tərəf, gəlir. O zaman da bizim sahil tərəfindəydi, qəfləbazlıx zamanı idi. Piyadə gedərdilər, piyadə gələrdilər. Qurbani rəvani-irah olub, Azərbaycana tərəf gəlir. Vəli, tuğl olmasın, bu şiiri ki, ərz eliyirəm xidmətizə, bir dənə böyük qasid bu dağlar Azərbaycandan üş dəfə dalıdi. Biri Şibbi gəlirdi, biri Mişov gəlirdi, biri də Muğamda Savalan dağıdi. Bular üçü mühüm idi. Qurbani o vaxt idi, adam mərdləri ki, axtarır, o mərddəri bir yerdən tapıb, ələ gətirsən söyünər, xoşhal olar. Qurbani yolda karıvannan bu cür söhbət eliyir, çobanı görür, çobanla bir cür söhbət eliyir. Və Şibbi gəliyində təblindən düşəndə gördü Azərbaycan görsənir. Ana yurdu görsənir. Qurbani dərdi tüğyan eliyib. Bir dəstə istiyir görax, Təbrizi görmağına, Azərbaycanı görmağına, nə deyirdi, tərəfimdən mən ərz eliyim, tamam dostlarım şad olsunlar:

Dər-dəsti qürbət eldə qalmışam,
Çoxdandı çəkirəm soraqın sənin.
Gələn qəflə-qatırın yolunu gözlüyür,
Yetişir qulağıma sorağın, Pəri.

Amma Qurbani, ustaddar belə nəzmə çəkirlər Qurbanidi, Xəstə Qasımdi, Ələsgərdi bular şairrıxda tək gəlib gedib-lər. Qurbaninin sinəsi ümman kimi movqə gəlib. İsdiyir, sözün dübarəsin desin:

Ali-ruyuma tökərəm yaşi,
Yolunda qoymuşam zarizan-başi.
Hər nəfərindi, hər sirdaşım,
Bir gecə olaram qonağın, Təbriz.

Rivayət belədi, əlbəttə, bu tərəfdə bir dənə Quru Yer var. Adı Quru Yerdi, amma bala dərya çatır. Qurbaninin gözü düşdi, Quru Gölün əyağına. Gördü sonalar – bizim dildə ördəklər, qazlar gölün dövrəsində oxuyurlar, qaqqıldaşırlar. Öz-özünə dedi, pərvərdigar, görəsən bu ördəklərin bura vətənidi? Aparasan bir ayrı yerlərdə saxlıyasan, bu cür xoşhal ola bilərsən tey? Olammazsan. Şair deyir:

Əzizim, vətən yaxşidi,
Geymağa kətan yaxşıdi.
Qürbət nə qədir məskən ola,
Qalmağa genə vətən yaxşidi.

Qurbani isdiyiridi sözün xülasəsin desin. Tərəfimdən ərz eliyim, tamam bu navarlara qulaq asanların sağlığına:

Göy vermişəm, qaraları bağlıyan,
Sinələri düyünlüyən, dağlıyan.
Qurbaniyəm, vicadnı tək ovluyan,
Çoxdandı almışam sorağın, Təbriz.

Qurbani sözlərini tamam elədi. Qurbani çün yolunan rəvani-irah olub, bala-bala öz-özünə şeir deyir. Biri yoldaşına dedi:

– Oğlan çox gözəl oğlandi, amma əfsus olsun, elə bil başına hava gəlib.

Bəqioğlu hammımız elə, kəddiyıx da. Üş dənə çoban, dört dənə çoban Qurbaniyə diyirlər:

– Cavan, hansı məntəqənin uşağısan, hardan gəlib, hara gedirsən? Elə bil narahatsan, öz-özünə danışırsan.

Qurbani dedi:

– Yoruldum sərvana, ayıldım çobana. Bir müxtəsər mənə qəza lütf eliyəssən, diyərəm hardan gəlib hara gedirəm.

Çobanların yerə salıb oturma xalısı olar. Cürdənəni atdılar yerə. Qurbani əyləşib, sabahdan iki dənə, üş dənə qərə qoyun sütündən sağib, qovutma istədilər. Gətdilər, qoydular Qurbaninin qabağına. Qurbani yedi-işdi, üz dolandırdi:

– Allah həmdi vermişəm, Allahlıx xətirinə. Allah cəmi müsəlmanın ürəyinin mətləbini versin. Allah mənə lütf eliyib, mən də Azərbaycan uşağıyam, gedirəm Azərbaycana.

– Xub, nəmənə nafisdi, hardan şikəsdığın var, əlimdən gələni xidmət eliyəm.

– Allah sizdən razı olsun.

Qurbani bala-bala rəvani-irah olub. Şibbidən yeriyib Seygavata. Seygavatdan bu yana basmışlar, ağalar, Təbriz məntəqəsində hammı tanıyır. Seygavatdan bir az bu yana gələndə gec qalmışdı Qurbani varid oldi bir dənə kərvansaraya. Vəxt qəralib. Kərvansaraya üz dolandırdi, gördü, müştərilər tamam qayıdasıdı hər kəsdə qoydu getdi evinə. Kərvansaranın nigəhbanına tərəf dolandı, dedi:

– Ağa!

– Bəli.

– Bu gecəni burda qalmağa yerin var, yainki?

– Oğul, hərəlisən?

Ərz elədi:

– Mən Azərbaycan uşağıyam ki, Qərədaği İridən gəlmişəm.

– Axı, elə bil sən bu yandan gəlirsən. Bu tərəfdən izafət eləmişdin.

Ərz elədi:

– Bəli, getmişdim bu yan tərəfə.

– Xub, heş pulun-mulun zadın var? Ya narahatçılığın var? Dur əyağa, pulun-zadın olmasa, mənim qonağım ol, sənə az-çox əlimdən gələni xidmət eliyim.

– Allah səndən razı olsun.

Qurbani ilə qəhvəçi gəldilər. Qəhvəçi buna dedi, evdə hər kəsi özünə görə xülasə, bir nanə-pənc ola. Qurbaniyə o ki, xidmət də elədilər. Yeyib-içəndən sonra, Qurbani üz dolandırdi:

– Usta, icazə versən əgər sinəmə bir qatar söz gəlib. Oları sizə diyəcağam.

– Oğul, nəmənə diyəcaxsan?

Qurbani isdiyir bir dəstgah görax nə cür deyir, tərəfimdən mən ərz eliyim, tamam bu navara qulaq asanların sağlığına:

Başına döndüyüm əyləşən canlar,
Dedim muradımı, gözəl şah mənim.
Çox müddətdi müntəzirəm, yol gedirəm,
Dedim muradimi, gözəl şah mənim.

Qəhvəçi bir baxdi Qurbaninin qiyafəsinə, Allah heş kimin qiyafətdən kasıb eləməsin. Çün Qurbaninin qiyafəsi qəşəng idi, gözəl avazınan, gözəl səsinən bu şeyi başdıyır. Bəli, yığışıblar dövrələrinə. Qəhvəçi üz dolandırdi:

– Oğlum, elə bil sən xoş-güləş adama oxşuyursan. Dərdin nəmənə idi, hansı şahın yanına getmişdin? Hanki şahın yanına qoymadılar.

Qurbani dedi:

– Dadaş, qulaq asginan:

Gözəllikdə gözəllərin gözüdi,
Danışanda sər-yaqubcan sözüdi.

Arif əhlidi, Abdulla xan bacısı,
Deyirdim muradımı, qibləgah mənim.

Qəhvəçi ariflərdən idi. Çün evdar idi. Gündə iki yüz-üş yüz nəfər adam yola salırdi. Qəhvəçi gördi bu bəy, aşıxdi. Elə bil bunun məşuqəsi var. Odu ki, deyir:

– Oxu. Nəmənədi dərdin mənə deginan. Dərdini deginan ləbləbiciyə, sənə xiyalın dilinnən desin.

Qəhvəçi bir baxdi:

– Oğlan, sənin adın nəmənədi? Öz adını buyur görüm. Bu məntəqədə mən Abdulla xan eşitməmişəm. De görüm, böyük adamdi?

Qurbani üz dolandırdi:

– Qulaq as deyim adını.

Qurbani nə cür deyirdi, tərəfimdən ərz eliyim, tamam eşidənlər sağlığına:

Qurbaniyəm, axtardığımı tapmışam,
Şahı-Mərdan damənindən tutmuşam.
Həqq yolunda mən həqqimi tapmışam,
Verib muradımı gözəl Şah mənim.

Qurbani sözün tamama yetirmax... Hər neçə vaxtdi qonaxdi, neçə müddətdi yol gəlir, qəhvəçi evdardi. Xanımına üz dolandırdi:

– Bu qonax qonax otağında, yogun-arqındi, yatsın. Yol qonağidi. Səhər uzax yol gedəcaxdi. İstirahətdıx eləsə, yatsın.

Bir qu quşundan yorgan-döşək açıblar, Qurbani söylünün fəri çatdiyir, çün mətləbi hasil olub. Pərvərdigara, görəsən, məndən sonra bir hadisə olmiycan, canlıya etibar yoxdi. Çün etibar yoxdi. Bu xiyalətdədi ki, Allah məndən sonra bari bu qızın başına bir oyun gəlmiyeydi. Heş olmasa, bir əlim dəysin əlinə. Daha qiyamətin günü intizarda olmasın. Qurbani üzürxeyirxaxlıx eliyib, namaz vəxtiydi, səhər tezdən durub əyaqə, namazın

qıldi. Qəhvəçi tezdən qəhvəni açardi. Sübhanəni hazır eliyiplər, Qurbanin qabağına bir müddət pul qoydi qəhvəçi. Dedi:

– Oğul!

– Bəli.

– Sən gedəcaxsan inşallah, xeyir işin var. Pulun-zadın olmasa, yol xərşdiyin olmasa, bu pullardan nə qədir götürürsən, götür.

Qurbaniyə Şah Abbas bir höküm verib, Qurbaniyə Şah Abbas bir dənə bəqioğli iki kisə, beş kisə pul verib onun üçün yoxdu. Qurbani üz dolandırdi:

– Dadaş, nə qədir pul xəşdəsəm, özümün xərşdiğım var.

Tuğl olmasın, Qurbani yetirdi Təbrizə. Öz-özünə dedi, bəlimən getdim səlamətdığınan çatdım, qız inşallah səlamət qaldi. Mən bu qıza burdan bir bazarrıx eliyim da bir. Burası Təbrizdi da, mən gedirəm Gənciyə. Addım gedəcağam o taya, şayət bəlkə heş Gəncədə o bazarın içi olacaxdı, bu Təbrizdə böyük şəhri var. Qurbani az-maz çox bəzmidə yungül, qiymətdə ağır bir balaca xurcun təyin eliyir. İla maşallah quşvarə, üzükdən, gərdandan, bilərzik, saatdan, belə şeylərdən, qoyub xurcuna. Günə bir mənzil təqvimini alıp, tuğl olmasın, özünü yetirib haman Xüdafirin körpüsünə ki, Xüdafirin körpüsündən Arazı addıyax o taya. Arazın o vəxti idi ki, Arazın qırağında olanlar bilərlər nə ərz eliyirəm. Qəşəng, dümduri, gülap kimi gəlib, neçə dənəsən əl sayılıblar bəqioğlu belə diyax, bostan əkən kim, buğda əkən kim, qarpız əkən kim ayrıb Arazdan kanallar su verirlər. Qurbani yetirdi həmin Xudafirin körpüsü tərəfinə. Gördü Araz fərqlənir. Qurbaninin təbi şeyi var, Qurbani Arazın axmağına, o dövrələrində bir muğdar məsail əkilmağına, isdiyir görax nə cür şeir deyirdi, tərəfimdən mən ərz eliyim, Allah tamam dostların kefin saz eləsin:

Yolum düşdi İsfahanın elinə,  
Fəqət eylədilər divanın, Araz.

Fəqət yağış axır sənin telinə,
Geyinib yaşıla Muğanım, Araz.

Rivayət bu cürdi, ustaddar belə nəzmə çəkirlər, Araz neçə vəxtdi, neçə cür axmağı var, neçə cür səslənmağı var. O yannan, bu yannan Qurbanin Xüdafirin körpüsində şeir deməyinə, yığışdılar dövrələrinə.

– Ay oğlan, elə bil aşıxsan?

Üz dolandırdı:

– Qulaq asın, çox müddətdi qürbətdə qalmışam, aşıx dəyiləm, vəli, vətən məni aşıx eliyipdi.

İsdiyir Qurbani dövrələrinə yığışmağa, uşaxlara görax nə dedi, sözün ikinci bəndin tərəfimdən ərz eliyim sağ olasız:

Neçə tərəfindən kanal çəkilib,
Dörd tərəfində sərgi, pambıx əkilib.
Bir vəxtim var baxanda belim bükülür,
Nahax qurulmasın divanın, Araz.

Şairin sinəsində söz düzmax elə bil məsələ dəyil. Üz tutdular:

– Cavan hansı məntəqədən, kimin oğlusan? Yaxçı şeirlər deyirsən. Müzaqə eləmə, aşıx olmuş olsan, adresi verəsən bizə, bizim yerimizə yaxçı toy-qəd olar, səni aparax toya.

Qurbani qəlbində dedi, baba, mən nə aşığıyam, mən Əlinin aşiqiyəm. Mən toylarda oxuyan aşıx dəyiləm axi. Üz dolandırdi:

– Uşaqlar, qulaq asın deyim, mən o siz deyən aşıxlardan dəyiləm. Mənim hər şeyim var, dostlarım, tanıyanlarım yığışdılar dövrəmə, olara xatir beş-altı qətər şeir deyərəm.

Qurbani isdiyir sözün üçüncü bəndin desin:

Nazır Məmmədalı mənə etdi zülumi,
Əlimdən aldılar gözəl gülümi.
Qurbaniyəm, itirmişəm elimi,
Bir də görmiyeydim tufanın, Araz.

Qurbani sözlərini tamam eliyir. Xüdafirin körpüsindən, usaxlardan xudahizfilıx eliyip, keçdi Gəncə şəhrinə. Əlbəttə, bi müddət bulara bələdçılıx varidi. Qurbani o zaman ol yolunan ki, gedib Pəri xanımın barigahına, həmin səmtinən bala-bala rəvaniynən vurub. Amma ustad belə nəzmə çəkir:

Məhəbbət bir bəla şeydi,
Giriftar olmayan bilməz.
Zimistan görmiyən bülbül,
Baharın qədrini bilməz.

Çün bir adam rahatdıxınan bir şeyi ələ gətirsə, səndən ərzişi olmaz. Ya ərziş bir şey ola, zəhmət çəkə onun üsdündə, görəsən, niyə məni qiymə-quyma dolasınlar, o şey mənim əlimdən getməsin. Çün zəhmət çəkib. Qurbaninin başı daşdan-daşa dəydi. Öz-özünə deyir, pərvərdigara, amin Allah, Pəri xanımla ikicə sahat bir yerdə oturub söhbət eləsə, bir belə zəhmətdərin bütün çıxarsan burdan.

Bəli, bir dənə ərz eləmişəm, həman yolunan rəvan-rahı, gördü, bir qədir cəmahət dayanıblar. Amma şora yetdi, elə bil şayət, məsələn, məzaristandı. Bir balaca uşaxdan soruşdi:

– Balaca, Məşədə-zada gedən var, ya Məşəddən gələn var? O camahat yığışıb ora?

– Oların heş biri.

– Bə nəmənədi, niyə yığışıblar?

Dedi:

– Bir dənə qız ölüb, onun namazını qılırlar.

– Kimdi, adı nədi?

Yazıx, biçarə şəhridi. Odu ki, adın soruşdu. Dedi:

– Vallah, bilmirəm ki, kimin qızıdi. Amma deyirlər Pəri gəlir arıya. Adı elə bil Pəridi.

Qurbaninin elə bil ürək qırıldi, düşdi içinə. Elə narahat oldi, qədəm gəlir-gəlmir özün yetirdi həman qəbistanlığa. Gördü, bəli, cəmahət durublar üstün topraxladılar. Bu yetiş-

məz qəbistana, olar hərəkət elədilər. Öz-özünə bir qəm basdi, öz-özünə fələkdən şikayət eliyip, amma dodaxlar tikilib, biri ağzında tərpəşmir. Narahat halınan götürüb fələkdən görax qəbistanda nə cür şikayət eliyir, mən də tərəfimdən ərz eliyim, tamam bu navara qulaq asanlar sağlığına:

Fələk sənnən cəng etməyə bir belə meydan ola,
Tut əlimdən firsət dəmin, nütfinən yeksan ola.
Mən getmişdim mürşidimdən dərdimə dəva bulam,
Bilmirdim ki, mən gəlincən xakinan ehsan ola.

O yandan, bu yandan gördülər bir cavan oğlandi. Amma durub qəbistanlığın kənarında nalə eliyir. Ərz olundu da, dövrələrində uşaxlar yığışdılar.

– Əgər fatə verirsən, bu sözər sən ayrı söz deyirsən.

Üz dolandırdi:

– Bala, qulaq asın, mənim fatəm belədi.

Qurbani isdiyir sözün ikinci cümləsin necə deyir:

Bir Pərinin, bir hurin sayəsində
Bir cavan yatmax gərək.
Tabutun sərv ağaci,
Kəfənin yaprax gərək,
Tez götürüb mənzilə çatmax gərək.

O yandan, bu yandan üz tutdular:

– Qərdəş, müsəlman dəyilsən?

Dedi:

– Əşhədu ənla ilahə illəllah, Əşhədu ənla Muhamməbən Rəsulullah, Əşhədu ənnə Əmir-əl-mumininə Əliyən Vəliyullah. Niyə müsəlman dəyiləm?

Qurbani üz dolandırdi:

– Bala, qulaq asın, sizdə söz yoxdi. Bu qələm mənim qələmimdi.

Qəlbində deyir, bir belə zəhmət, məşəqqət bütüni heç oldi. Amma isdiyir görax Qurbani sözün xətmini nə cür deyir, tərəfimdən mən ərz eliyim, tamam dostlar sağ olsun:

Bir bağa girə bilmirsən kilitdi, yan eyləmə,
Bir güli-kitdədən dəyilsən, dərib xəndan eyləm.
Tarixdən mina gəldi, Qurbani, qəm eyləmə,
Yazı yazan belə yazıb, çoxlara nişan ola.

Amma bu sədanı uşaxlardan bir neçəsi Qurbani söhbəti dəydi qulaqlarına.

– Dadaş!

– Bəli.

– Sənin adın Qurbanidi?

– Bəli.

Dedi:

– Biz bir macəra eşitmişıx, belə diyax, məsələn, bizim burda hökümətimizin bacısı, Abdulla xan bəylərbəyinin bacısı adı Pəridi. O Pəri Qurbani adına aşiq. Həlbəttə, İrandadi, gəlmişmiş bura. Nazır Məmmədalı verib onu öldürtdürüb. Səndə ki hansı Qurbansan?

Üz dolandırdi:

– Mənə düzgün xəbər verin görüm, bu Pəri ki, deyirsiz həman Pəri dəyil o?

Dedilər:

– Yox, baba, Abdulla xan bəylərbəyinin bacısı Pəri xanım dəyil.

Qurbaninin az-maz çox ürəyi təskin tapdi. Dizlərinə qüvvə gəldi. Bala-bala rəvani-irah oldu barigaha tərəf. Özün yığışdırıb, amma heç kimin cibini pulsuz eləməsin. Çün hökmü cibindədi. Qurbani neçə dəfə qədəm qoyub, pulu yox idi, saz almağa da pulu yox idi. Çün indi Şah Abbasdan hökmü cibindədi, özü də xuba, bəqioğlu ərz eləmişəm, bir bala xurcunu var. Vəzmidən yüngül, qiymətdə ağır doldurub sədəqə, sov-

qatdan, qırdan-qızıldan aparır qızın yanına. O vəxti idi, Allah adamın işini düzəldəndə düşmənin əliynən düzəldər. Hətəmxan baxçasından altı-yeddi qədəm sovuşmuşdi... Ərz eləmişəm Hüseyin bəynən Qurbani siğə vərəsdi, bu əhvalatı da ki, belə bir Qurbanini cəlladdar öldürdlər. O müddətdən narahatdi. Qurbaniyə həsrətinən baxır. Hüseyin bəy üz dolandırdi:

– Ay oğlan, səni elə mənim gözümə tanış gəlirsən.

Dedi:

– Sən Hüseyin bəy dəyilsən?

– Sən kimsən bəs?

– Məni tanımırsan?

– Tanıyammıram, vallah, üzünü görmüşəm, vəli, tanıyammadım.

Ərz elədi:

– Mən Qurbaniyəm.

Qurbaninin qolun saldi boynuna, o üzündən, bu üzündən bala-bala öpdü. Özün sora saldi qızın barigahına:

– Ay xanım, muştuluğumu verginan, Qubani gəldi.

Pəri xanım durub aynanın qabağında, özünə əl gəzdirdi.

– Hayandadi o oğlan?

Dedi:

– Xanım, budu, əvə gəlib.

Barigaha pilləkandan çıxdı dışarı, qollarını saldi Qurbaninin boynundan, Qurbaninin o üzündən, bu üzündən öpdü. Xəbər getdi Abdulla xan bəylərbəyinə. Abdulla xan bəylərbəyi elə bilərsən ki, elə söyündü, elə söyündi. Bu macəra ki, Qurbaninin başına gəlib, Allah nələt eləsin, Nazır Məmmədalı Qurbaninin başına bu oyunları gətirib. Çün Abdulla xan bəylərbəyi dəstur verdi, məclisdə şirinlıx, çay, şirin şərbət paylandi. Qurbaninin dövrəsi, Hüseyin bəyin dövrəsi, Abdulla xan bəylərbəyi dəstur verdi, Qurbaniyə yeddi gün, yeddi gecə toy başladılar.

# NƏCƏF

Şəhri-İsfahanda tacirbaşı varıdı, adına Məhəmməd tacirbaşı diyəllər. 40 tacir var dövrəsində. Səfər eylər şəhristanlara ad verə gedər. 40 tacir xalqa qulamlar, nökərlər dövlətində dəstə amədədi, dərvazeyi-İsfahandan çıxdılar. Məhəmməd tacirbaşı atın üstündə, qəflənin qabağında, Misirə səfər eliyirlər, gedirlər Misirə alverə. Misirnən İsfahanın arası bir mənzil saydı. Onnan ötürü Kuhə, Əlvəni dağlarının ətəyi, Həmədan şəhrinin üstüdü. Burda bir həftə çadrakat qurulub at-qatır yedirdərlər, çölün otundan, bulaxların suyundan istifadə elədilər. Ciblərindən xəşləməzlər at-qatıra. Onçün bir mənzil sayılır burda. Düşüb arxası çəmənində tühləri at-qatırın yəxdənləri belindən açılıblar, vurublar pərixanaya. At-qatır da çəməngahda yayılıb. Çadırları qurublar, söhbət elirlər. Yeyirlər, içirlər, istirahət edirlər. Burdan Misirə gedələr. İki, üş gündü burda istirahətdıxdadılar. Sübh vaxtı Məhəmməd tacirbaşı gediblər. Çəməngahın o qırağında da bir qədir pazır düşüb. Nökərlərdən birin yolladı:

– Gör o kimdi?

Gəldilər, cavab gətdilər. Gördülər, Əhməd tacirbaşıdı. Misridən gəlir İsfahana alverə, Misir tacirbaşısıdı. Xəbər verdilər Məhəmməd tacirbaşıya Misirdən gəlir Əhməd tacirbaşı İsfahana gedir alverə. Məhəmməd tacirbaşı çadırından çıxıb gəlir Əhməd tacirbaşının çadırına.

– Salam.

– Əleyküməsalam.

Əyləşiblər, söhbət elirlər. Hərəsi bir-biriynən danışır. Tacirdilər, ikisi də tacirbaşıdı. Danışa-danışa Məhəmməd tacirbaşı belə baxanda gördü, qapıdan içəridə iki nəfər oğlan durub, biri qapının sağında, biri solunda. İkisi bir boyda, bir sifətdə, bir danışıxda. Bulara gözü sataşanda elə bir ah çəkdi,

çiyinlər az qaldı başdan üzəyə doğrana. Əhməd tacirbaşı belə dönəndə gördü Məhəmməd tacirbaşını rəngi dəyişibdi.

– Ey ağa, sən niyə belə oldun, ağayı-tacirbaşı?

Dedi:

– Heş, baba.

– Mən ölüm, de görüm.

Dedi:

– Vallah, mən ölüm deməginən. Deyirəm, qəlbimdən o keçdi, Xudaya, çox şükür eliyirəm dərgahına, bu oğlannardan bir dənə də mənə verəydi də. Burda Əhməd tacirbaşı elə ah çəkdi, Məhəmməd tacir başısının ahını baltaladı.

– Bəs sən niyə ah çəkdin? Ağayı-tacirbaşı, sənin də arzun var. Bir belə mal-dövlət, xəzanə (pul-para sandığı) bir cüt budur oğul.

Dedi:

– Vallah, ağayı-tacirbaşı, qulamdılar. Üş-dörd ay vəxtləri qalıb. Qalacaxlar yanında, haqq-huquqların dəyişərəm. Xoşları gəlsə qalacax, gəlməsə gedəcaxlar. Qulamdılar.

Dedi:

– Bəs, qardaş, sən də mənim kimi əl ver, görüm.

İkisi əl verdi. Dedi:

– Bunnan ta ki bizim əlimizdədi, ixtiyar özümüzdədi. Sözümü qəbul eliyirsən?

Dedi:

– Bəli. Qardaşıx, şiğə qardaşlığı.

Əl verdilər, hər ikisi qardaş oldu.

Dedi:

– İndiyə qədər bir iş görəmməmişıx. Bir baş dönax.

Dönür qapıya. Böyük adam qapısından qovmaz adamı. Əhməd tacirbaşı qəbul elədi, qaxdılar, dəstəmaz aldılar. Gecəynən gündüzün ayrılan dəyqələridi, hər ikisi çadırda iki rükət hacət namazın qıldı. Məhəmməd tacirbaşının qəlbindən keşdi:

– On səkkiz min oğlan hüzurə gətirən, İlahi! Bizim nəzirimizi qəbul eyləginən. Sənə and verirəm öz izzəti-cəlalın xətirinə, bizi qapınnan qovmaginən, bizə evlad insaf elə.

Deyir, ağlıyır. Ağlıyan adam xəstə olur, xəstə olan adamı yuxu tutar. Elə gözün yumub-aşmax... Məhəmməd tacirbaşı gördü, səs gəldi qulağına:

– Oğlum, aş gözuğu.

Gözünü açanda gördü nurani dərviş, seyid başının üsdündə. Bir cüt alma əlində. Səsləndi:

– Məhəmməd tacirbaşı, al bu almanı, ye mənim əlimdən. Müjdə verirəm sənə, Xüdabəndi-həqiqət sənin nəziruvu qəbul elədi. Sizə əvlad intihab elədi. O almaların ikisi də sizə yetişəcax. Biri sənindi, biri qardaşın Əhməd tacirbaşınındı. Hansı götürsə, götürər. Hərəmlərinən sərf eləyin, Xüdabəndi-həqiqət sizə əvlad intihab elədi.

Gözün aşdı, gördü heş kəs yoxdu baş üsdə, amma o almaları ki... almalar başının ucundadı. Almaların biri qırmızıdı, biri ağdı. Əhməd tacirbaşını oyatdı. Dedi:

– Qardaş, nəzurumüzü Allah qəbul elədi. İndi bir cüt almadı. Əlvəndə sənə bu sözü deyirəm. Əlini vurma almalara, hər hansının birinin oğlu, qızı olsa, birlikdə nağaracıyıx, beşik kəsmə... Bir bizimkidi.

Əhməd tacirbaşı qəbul elədi.

– Məhəmməd tacirbaşı, indi hansını götürürsən, götür.

Qırmızı almanı Əhməd tacirbaşı götürdü Misir taciridi, ağ almanı Məhəmməd tacirbaşı götürdü İsfahan tacirbaşıdı. Birinin sərvəti yanında məsələn 20 min tümənlıx, birinin 30 min tümənlıx. Ay mənimki çoxdu, sən bir az qəytər mənə, mən bir az qəytərim sənə. Xeyir, Əhməd tacirbaşı matahan yəxdənlərdə, Məhəmməd tacirbaşı çatdı öz at-qatırını, qaytardı İsfahana. Əhməd tacirbaşı çatdı öz at-qatırına, burdan qayıtdı Misirə. Söhbətdən ərz oluna, yetirdiliər Misirə. Bu alma-

lardan ikiz elədi. Biri hərəmlərinə (yəni xanımlarına) verir, bir üzün özləri yedi. O günnən tarix qoydular. Müddət ki, üstündəki qurtarır şəhri İsfahanda Məhəmməd tacirbaşının xanımından bir oğlan. Misir tacirbaşısı Əhməd tacirbaşıdı. Xanımı Misirdə dizini yerə qoyub, bir qızı oldu. Bu ağlın ağsəqqəlinə böyük adamlar yığışdılar. Məhəmməd tacirbaşının otağına sindinin bu çağında (yaşının bu vaxtında) buna əvləd gərəkdi. Xüdabəndi-həqiqət bu oğlanı buna verib Nəcəf şahının xətirnə. Oğlanın adın qoydular Nəcəf, Ağa Nəcəf.

Misirdə yığışdılar Əhməd tacirbaşının otağına. Bəs bunu da Xüdabəndi-həqiqət verib, hurilər, pərilərin xətrinə verib. Qızın adı Pərzad, oğlanın adı Nəcəfdi. Yavaş-yavaş Əlvən mədrəsə, məktəb, gedillər, gəlillər. Yetiridi on yeddi, on səkkizinə ömrü əta eləmədi, Məhəmməd tacirbaşı buların toyların eliyə qata bir-birinə, daldan boylarına baxa. Dünyadan köşdü. Böyük adamdı, 40 gün, iki ay məclisi çəhdi. Bunu yerdən götdülər, şahabətə xəbər verdilər, tacirbaşı dünyadan köşdü.

Dedi:

– Xanlar.

Dedi:

– Bəli.

Dedi:

– Məhəmməd tacirbaşının elə yaxun adamı var, qoyam yerində, tacirlər dağılmıya başından?

Səsləndi:

– Qurban, eşitdığım bir dənə oğlu var. Özündən çox-çox qabiliyyətdidi, Nəcəf adında.

Dedi:

– Yollayın, Ağa Nəcəf gəlsin bu məclisə.

İndi qulamlardan yolladılar, Məhəmməd tacirbaşının oğlu Ağa Nəcəf gəlir İsfahanda Şah Abbas isdiyif.

Nəcəfi Şah Abbas istədi. Öz məclisinə, dərbarıbna. Nəcəf gəlib, pərdənin dalısında dayanıb icazə istədi.

– Buyur, görax.

Keçdi içəri, məclisdə ehtiramı bildirib, dayandı. Şah Abbas belə baxdı, dırnaxdan təpəyə, təpədən dırnağa. Gördü, məhəbbət coş eyliyir oğlana. Səsləndi:

– Oğlum, Məhəmməd tacirbaşının oğlu sənsən?

– Bəli, qurban.

– Al bu hökümü əlimdən.

Nəcəf aldı, belə baxdı, gördü yazılıb: "Oğlum, nə xiyal eyliyəsən, mənim atam dünyadan köşdü, mən yetim qaldım, dədəsiz qaldım. Mən sənə atayam, sən mənə oğul. Xəyal eləməginən, dəsti tacirnən matah düzəldin, bu səhərdə get alverə tacirlərnən. Qoy tacirlərin başı dağılmasın."

Nəcəf naməni öpdü, qoydu gözünün üsdünə. Nəcəf qayıdır, xəbər verdi tacirlərinə. Tacirlər matah tutdular, yəxtənləri doldurdular, istirlər alverə gedələr, Misir alverinə. Nəcəf səsləndi:

– Ağayı-tacirlər, darıxıram, isdirəm Əlvəndən gələm sizinən.

Dedilər:

– Ağa Nəcəf, olsun, eybi yoxdu, buyur, biznən gedax daha da darıxman, alverə örgəşəssən.

Nəcəf atın minib, tacirlər qəfləri yühlədilər at-qatırın belinə. Tacirlər adlarını desinlər, Nəcəf bularnan bahəm. Dərbazeyi-İsfahandan çıxdılar, Misirə alverə getdilər. Söhbətdə mənzil olmaz, qisanəsi, ərz eləmişəm. Alxasın çəməni düşərgahdı. Yetirdilər Alxasın çəməninə. Tacirlər dedilər:

– Ağa Nəcəf, burda bir həfdə istirahət eliyərıx.

Yühlər düşürüldü, çadırlar quruldu. Bir hafda istirahətdən sonra hərəkət elədilər Misirə. Qəzaya bu dəyqələrdə, bu günlərdə Əhməd tacirbaşı çıxıb seyrə, dolanmağa. Dərvazeyi-Mi-

sridə dayanıb ki, İsfahan dərvazəsidi. İsfahandan gedənlər, bu dərvazədən keçər Misirə. Əsa əlində dayanıb, Misirin dərvazəsində gördü İran tərəfindən toz qovlandı. Yaxınlaşanda gördü tacirdilər. Dal-qabax gəlirlər. Biri yorulub dalda qalıb, biri yeyindi, yorulmuyub qabaxdadı. Yetirirlər, dərvazənin bərabərində hammısı dayanar. Daldakılar da gələr yetirər toz içində, giyəllər gedərlər, kərvansaraylarına əyləşərlər. Əlvən qəflə yetirdi, dərvazənin qabağında durdu. Əhməd tacirbaşı soruşdu:

– Ayə, bu qəflə kimindi?

– Ağa Nəcəfin.

Dalı qəflə yetirdi:

– Ağalar, bu qəflə kimindi?

– Ağa Nəcəfin.

Dalısı gəldi.

– Bu qəflə kimindi?

– Ağa Nəcəfin.

Əhməd tacirbaşı fikir elədi, Ağa Nəcəf kimdi İsfahanda tacirbaşı, mən tanıyammıram. Səsləndi:

– Ağayı-tacirbaşı, Ağayı Nəcəf hansıdı?

Dedi:

– Bax, dalı qəflədə gəlir. Atın belində, qəflənin yanında gəlir.

Yetirdi, belə baxanda Əhməd tacir başının gözü sataşdı Nəcəfə. Gördü, bir dənə oğlandı, ruzigar anası moğməndi bərabəri yer üzünə nə salıb, nə salacax. Keçdi qabağa.

– Oğlum.

– Bəli, əmi can.

Dedi:

– Oğlum, Ağa Nəcəf tacirbaşı sənsən?

– Bəli.

– İsfahanda, tacir Ağa Nəcəf, kimlərdənsən, mən səni tanıya bilmirəm?

Səsləndi:

– Əmi can, şəhri-İsfahan nifsi-cahandı. Mən hansı məntəqəsindən nişan verim, sən tanıyasan?

Dedi:

– Oğul, mən sinnimin yarısını İsfahanda qurtarmışam. Hər hansı məntəqəsindən nişan versən, tanıyaram.

Səsləndi:

– Əmi can, mən Məhəmməd tacirbaşının oğluyam. Adım Ağa Nəcəfdi.

Ey göründü, qardaş oğludubu. O əmanət ki, saxlıyıb qızı, o qız bununkudu. Gülümsündü:

– Ağayi tacirlər!

Dedi:

– Bəli.

Dedi:

– Bu qəfləni siz aparın kərvənsərədə düşürün. Alverinizi eləyin. Qutulanda gəlin mənə deyin. Sizin qəflənizi mən öz cibimdən yola salacağam, gedəcəksiz. Ağa Nəcəfi mən apararam evimə qonax. Ağa Nəcəflə sizin işiniz yoxdu.

Bu tanımır bu Əhməd tacirbaşıdı. Tacirlər tanırdılar.

Dedilər:

– Olsun, ağayı-tacirbaşıdı, eybi yoxdu.

Ağa Nəcəfə dedi:

– Gəl mənimlə.

Tacirlər getdilər karsansaraya. Yühlər at-qatırın belindən açılıb vurulub bərxanaya, pərdələr salındi. Tacirlər yerbeyer oldu. Misir sultanından nümayəndə gəlib, pərdələr çəkildi. Matahat təklif verdilər, gördülər, tacir matahatıdı. Yər-yəxdanın içinin qiyməti, məsələn beş min tüməndi, üş min tüməndi yazılıb möhrü, dövləti üstündədi. Xəbər verdilər Misir sultanına, tacir matahatıdı. Dəstur verdi, olar, alverin eliyin. Tacirlər alver eliyir Misirdə, onnan işim yox. Ərz eliyim kimdən,

Əhməd tacirbaşından. Nəcəfi ötürdü bir dənə bağa, 40 gündə bu bağda Nəcəf dolanır. Nəcəfin nəzərində 40 dəyqə dəyil. Görün necə bizdə bağdı, səfalı, yetinməli. Budur, Nəcəf gördü gəldilər mənim dalınca.

Çağırdılar Ağa Nəcəf. Tacirbaşı istədilər. Ağa Nəcəf qalxıb gəldi Əhməd tacirbaşının otaxlarına çatdı. Pilləl追dən çıxdı. İçəri keçəndə gördü öz tacırlarından üş nəfər əyləşib Əhməd tacirbaşının yanında.

– Salam, ağayi tacirlər.

– Əleykümə salam.

Buna yer görsətdilər, əyləşdi.

– Ağayi-tacirlər, nə almısız?

Dedilər:

– Ağayi-tacirbaşı, matahatı, amad eləmişıx, satmışıx. Xərid eləmişıx. Yühlərimiz amədədi. Gəldi ki, icazə isdırıx səndən, bir müddətdi alverdəyix burda. İcazə versən, hərəkət eliyax İsfahana.

Nəcəf diyəcax, yox, getmiyax. Nəcəf bi zat bilmir ki. Əhməd tacirbaşı səsləndi:

– Ağayı-tacirlər, sizdən xahiş elirəm, buyünü möhlət verin mənə. Səhər Nəcəf gəlsin sizinən.

Dedilər:

– Olsun, eybi yoxdu.

Tacirlər durdu getdi öz yerlərinə. İndi bir Nəcəfdi, bir Əhməd tacirbaşıdı əyləşib.

– Oğlum.

– Bəli, ağayı-tacirbaşı, əmi can.

Dedi:

– Atan vəsiyyət-zad eliyip? Eləmişdi ya da eləməmişdi vəsiyyət buna.

Dedi:

– Vallah, tacirbaşı, eləcə də yadımdan çıxıb, bilmirəm.

Dedi:

– Gərək vəsiyyət eliyə bilə. Oğul, onnan siğə qardaşam, sənin atannan. Sən qardaş oğlumsan mənim. Məndə bir dənə əmanət var. O əmanəti sənə saxlamışam buyünlərim. Bir dənə qızım var. Oğul, o səninkidi. Qoy nişanələrini diyim sənə, onnan sora bu səfər aparandan sora deməginən, əmim məni allatdı.

Nəcəf başın salıb aşağı. Nəcəfin o vəxti dəyil evlənmax.

Dedi:

– Oğul, mənim bu qızımın əlvəni başı keçəldi.

Nəcəf qəlbində dedi, bu bir.

– İkinci, qıçı çolaxdı.

Nəcəf qəlbində dedi, bu iki.

– Üçüncü, əldən şirdi.

Nəcəf baxdı, bu üç.

– Dördüncü, gözdən kordu. Bu qız səninkidi, əmanətdi saxlamışam sənin. Götür apar gedəndə İsfahana.

Nəcəf baxdı gördü, bu bir dənə lümbət oldu. İlahi, adam adama bir tikə çörək verər, bu cür utandırar adamı? Qəlbindən keçir Nəcəfin. Mənə bu qırx gün burda çörəh verdi, bu lümbət oğlu verə mənə, şəhri-İsfahanda mənə güləlvalər. Bu nə cür beşikkəsmədi? Nə cür əmanətdi saxlıyıb?

Dedi:

– Oğul, cavap vermədin?

Nəcəf nəmənə desin.

– Ağayi-qazi.

– Bəli.

Qazini də gətirib saxlıyıb o biri otaxda, gətiriblər.

Dedi:

– Qazı, gir içəri.

Kitab əlində, dəftər əlində girdi içəri.

Dedi:

– Əyləş.

Əyləşdi.

– Mənim o qızımın əğdini oxu bu Nəcəfin adına. Kəbinin kəs.

Bobeylən Nəcəf çıxıb bunun bağın dindi, müddətdi burda çörək yeyib. Qəlbindən keşdi, adam adama bir tikə çörəh verə, budur, çörəyindən utandıra. Mənə gətdi bu çörəyi verdi, bu lümbət oğlu verə mənə. Kəbinin kəsildi Nəcəfin adına. Aha, aha... Nəcəf utandığından müqəyyətçiliğindən diyə bilmədi: "Əmi can, qurbanı kəsim. Bunu mənə niyə eləmisən, lümbət oğlu, aparam İsfahanda mənə gülələr. Kor, şiş, şəkər, çolax."

Əhməd tacirbaşı durdu getdi. Dedi:

– Oğul, hər zaman indi tacirlərin gələndə xoş gəldin, gözüm üsdə. Əmanətin də apar gedəndə.

Nəcəf baxdı, qəribçılığa keşdi. İlahi, bu nə cürdü. Bunnan ötürü verdi mənə çörək? Bu durdu, dəstəmazını aldı, iki rükət namaz qılır. Üzü qapıyadı. Bu burda namaz qılsın, Ağa Nəcəf. Ərz eliyim kimdən? Pərzad xanımnan. Xəbər verdilər:

– Xanım, atan biləyin verdi tacir oğluna.

Səsləndi:

– Dayəcan, qurbanı kəsim, mənim əvlənən, ər vəxtim dəyil. İkinci, şəhri-Misirdə bir dənə elə oğlan yoxudu atam məni verə? Saldı 40 metir yanar odun tərkinə, quyunun. Bu niyə belə elədi, mənə deməmiş?

Dedi:

– Xanım, kəbiniz də kəsildi.

Dedi:

– Onun oğlanlığı olsaydı, ona bir dənə qız tapılmırdı İsfahanda? Bəs oğlanlığı yoxdu, gəlib burda məni bədbəxt elədi. Dur gedax, görüm bu nə cürdü.

Yerindən qalxıb dayəsiynən gəldi Nəcəfi görə.Bu, nə cür oğlandı, atam məni bədbəxt elədi. Yetirdi, qapını açıb içəri girəndə Nəcəf namaz qılırdı. Gözü sataşdı bu qıza. Bir onu

bildi “Allahu Əkbər, əlhamdulillah”. Namaz-manaz bir daha aradan getdi. Qız gördü.

– Dayəcan, bu oğlandı?

Dedi:

– Bəli.

Dedi:

– Dayəcan, vəziyyətim xarab oldu. Yıxıllam, məni tut ha. Yıxılsam, abrım gedər.

Qocanın nəfsi cavandan itidi. Qoca dedi, elə sən tutan dərddən mən də tutdum.

– Salam, əmi oğlu can.

– Əleykümə salam, xanım.

Keçdi, dizbədiz əyləşdi. Nəcəfnən dizbədiz.

Nəcəf dedi:

– Xanım, mən demirəm dur get otaxdan. Əyləş, amma çəkil, bir kənarda dur. Naməhrəmsən mənə.

Səsləndi:

– Əmi oğlu, qurban kəsim. Nə naməhrəm? Bizim kəbinimiz kəsilib. Mən sənin xanımınam.

Səsləndi:

– Xanım, məni dübbəyə qoymayın. Qoy öz Allahımnan ağlıyım, gülüm görüm nə cür gəlir.

Dedi:

– Dayəcan, bu niyə belə danışır?

– Əhməd tacirbaşının qızı bir dənə döyül? Pərzad adında?

– Bəli.

Dedi:

– Xanım, məni dübbəyə qoyma. Əhməd tacirbaşı mənə bir dənə lümbət oğlu verib. Sən döyülsən.

– Necə lümbət oğlu?

– Şil, çolax, kor, keçəl. Bir dənə bu qızı verib.

Dayə dünyagörmüş idi, gördü, bunun kəhligi azıb bunun danışıxlarından.

Əziz eşidənlər, Nəcəf ki Pərzadnan əyləşib otaxda ikisi söhbət eliyir, dayə yanında. Dayə səsləndi:

– Oğlum, Əhməd tacirbaşı sənə ayrı söz diyib, sən baş tapmamısan.

– Nə diyib?

Deyir, bir qızım var. Buyünə kimi bu qızın kölgəsin naməhrəm görmüyüb. Gözü kordu, naməhrəmə baxmıyıb. Başı keçəldi, naməhrəm görmüyüb. Qıçı çolaxda, gəzəyən döyül. Əli şildi, oğru döyül. Buların diyir sənə, tam baş tapmamısan. Əhməd tacirbaşının bir dənə qızı budur ki, Pərzad adında, bunu da verib sənə. Kəbinin kəsilib, halaldı.

Nəcəfin bura gözü sataşdı qızın gözlərinə. Gördü gözü misli ahu gözü, yanaxlar qızılgülün təravətli. Gözəl xallar qaşınan gözün arasında dəyqədə birinən yolur, dan uduzu kimin milyon qiymətı. Zilflər bu çiyindən bu çiyinə tutub. Gördü, əlvən bir gözəldi, zilflər dəs-dəs, ahu gərdan, burun fındıx, dodax qəymax, diş inci, ləbləbi, zəbzəbi, gəl məni gör, dərdimdən öl, üryan, türyan – hammısı qarışıb bir-birinə. Nəcəfi dərindən bir nəfəs çəhdi, dedi, Xüdaya, çox şükür eliyirəm dərgahına, irazı oldum sənnən. Bir qədir söhbət elədilər, bir qədirdən sonra dayə qızı götürüb getdi. Sabah tacirlər gəlir, Ağa Nəcəfi isdirlər aparalar. Əhməd tacirbaşı gördü, İsfahana qız yola salırlar bu tacirlarnan gedə. Nə cür yola salım, səsləndi:

– Ağayı-tacirlər, üş gün mənə möhlət verin. Dördüncü gün Ağa Nəcəfi yola salam gedin, qızı yola sallam sizinən. İsfahanda gələ toy eliyəsiz.

Aha, tacirlər gördü, bu saxlıyıb qızınann ötürü. Qızın verib buna. Üş gün möhlətində dəstur verdi, bir kəcavə düzəldəsiz qıza. Üsdünü örtüyü 100 qədəm, 200 qədəm salsın da, günün şövqünü itirə ha. Necə kəcavə düzəldəsiz. O kecavanı

düzəltmaxda qıza xəbər verdilər, Ağa Nəcəf isdiyir apara İsfahana. Qız dayəsin götürdü yetirdi Nəcəfin otağına.

– Salam.

– Aleykəmə salam.

– Əmioğlu, kefin necədi?

– Hamınızın kefi yaxşı olsun.

– Əmioğlu, qurbanın kəsim, icazə verirsən, eşitdim gedirsən İsfahana.

– Dədən icazə versə, gedirix.

– İcazə verirsən ki, mən qədir sözüm var olara, ərz eliyəm bəyəm?

Dedi:

– Buyur görax, xanım, nəmənədi sözün?

İndi Pərzad siyahi tellərdən bir dəstə ayırıb, sədri məmələrin arasına götürüb Ağa Nəcəfə bustanəsiz bu sözləri deyir:

Başına döndüyüm, xan əmim oğlum,
Əmimoğlu, gəl getmə, qal bu məkanda.
Əgər getsən, səbrim heş tutmaz qərarım,
Mən ölüm, gəl getmə, qal bu məkanda.

– Misrin səfasın, həsrətin çəkir camahat, gələ qala Misirdə. Sən hara gedirsən?

Nəcəf belə başını qovzadı, səsləndi:

– Əmiqızı, can qurban kəsim, adam sözünün cavabını eşitməmiş, mən ölümsələri araya salırsan. Qulaq as:

Başına döndügüm, xan əmim qızı,
Alma, heyva, nariş, nar İsfahanda.
Əylən, geydirrəm ali-qırmızı,
Gedax, xiyali əylənək, dad İsfahanda.

Qız gördü, sözümə cavab verir. Elə bil, gedəcax. Əmi oğlu, qurbanın kəsim, qoy birində deyirm:

Babam xandı, özüm xanlar xanıyam,
Züleyxa tək mən Misrin sultanıyam.

Govhərin kanıyam, durma dəliyəm,
Sərrafı olursan, qal bu məkanda.

Nəcəf gülümsündü:

Goplar söylərlər dodax içində,
Qızıl gülü bəslənər yarpax içində.
Bir aynəbənd gülün, otağın içində,
Sənnən əyləşərdim, yar, İsfahanda.

Qız gördü getcaxdı, qalan dəyil.

– Əmi oğlu can.

– Can, əmi qızı.

– Əmi oğlu, qurbanın kəsim, qulaq as:

Eşqin səməndini minib çaparsan,
Bu sınıx göylümün evin yaparsan.
Əgər getsən, Pərzadı aparsan,
Əmim oğlu, getmə qal bu məkanda.

Nəcəf indi qəlbinin kəsində bildi nəmənə var:

Nəcəf deyir, xub qaşlərin qaradi,
Dərd əlindən bağrım başı yarədi.
İndi bildim, əmim qızı, muradı,
Gedax kamı dilin əl İsfahanda.

Qız gördü getməlidi. Qız bir qədir söhbət eliyənnən sonra dayəsiynən getdi öz yataqlarna. Qızın anası gördü, Nəcəfin sindi kiçik, qızın da sindi kiçik. Bu gözəllıx, gün kimi yanır bu qız. Nə cür eliyim? Bu İsfahana gedib çatacax, çatmıyacax, nə cür olacax. Aha, yadına düşdü. Sandıqlarında bir dənə dua var. Hər kəsin əli o duvaya dəysə, tilsimə düşər. Bu duvanı sandıqdan çıxardıb, gətdi saldı qızın boynuna. Dedi:

– Qızım.

– Bəli, ana can.

Dedi:

– Bir müddət, təqribən Nəcəf 25-30 sindinə yetərənə kimi, bu dua boynunda qalacax. Gör nəmən deyirəm sənə. Mi-

rəddər saxlıyasan bu duanı. Əmi oğlu Nəcəf qapını aşdı girdi otağa. Qalx əyağa, duanı boynundan çıxart, as duvardan mıxa. Əyləş, əmi oğluynan söhbət elə, danış, ye, iç, gül. Əmioğlu durdu, çıxdı qapıdan eşiyə, həmin duanı sal, genə boynunda, qalsın. Əmioğlu yanına gələndə duanı çıxart, as mıxa. Əmioğlu yanınnan gedəndə duanı genə sal boynuna.

Pərizad 25-30 sindinə yetirənə kimi... Onnan o yana niyət dedi:

– Nəcəfin sindi kiçikdi. Qurban, yolunu bilməz bu.

Ürəyində deyir, buna dilinin uzununa diyir. Amma 25-30-a yetirəndə bir adam desin, mən sənə nökərəm, bilər bunu buna qəlbidən diyir, ya dilinin ucundan diyir. Dostluxnan isdiyir məni bədbəxt eliyə. Düşmannıxnan heş kes, heş zad eliyə bilməz. Allahına and verirəm, öz izzəti-cəlalının xətirinə, heş bəndələrin ürək düşmanı eləməsin adama. Ürək düşmanın əlindən qutulacağın yoxdu. Hər nəmənə desə, diyəni eliyəcağam. Nənəsi bu vəsiyyəti qıza elədi, duanı saldı qızın boynuna. Kəcavə hazırdı. Qızı dayələr, kənizlər gətirib, ehtiramınan mindirdilər kecavaya. Kecavanın atdarın sürür nökər ney. Qəflələr yükləndi. Ağa Nəcəf atın üsdündə, qəflənin qabağında... müqəyyəd bir sindi kiçikdi, əmiqızıynan söhbət eliyəmmir. Əmiqızı Pərzad kəcavənin içindədi, Nəcəf atın üsdündədi. Qırx tacir dövrəsində hərəkət elədilər. Misirdən çıxıb İsfahana gəlirlər. Gəlib toy eliyə İsfahanda. Söhbətdə mərc olmaz, yetirdilər Alxasın çəməninə. Alxasın çəmənində, ərz elədim bir həfdə burda tacirlər istirahətdıx elədilər. Yorğunluxlarını çıxarırdılar. Çəməngahda dəstur verdilər, at-qatırın belindən yaxtanlar açıldı. Vurdular bərxanaya, pərdələr salındı yaxdanların üsdünə. At-qatırın da palanı, çulun götürə bellərinnən, ötürdülər çəməngahda bulaxların da suyundan içirlər. Tacirlər cərgəynən çadırların qurdular. Ağa Nəcəfnən Pərzadın çadırın iyirmi qədəm özlərindən kənarda qurdular. İkisi qoşadı. Niyə? Tacirlər bir-

birinə dedi, bular nadandılar. Zamandı müqəyyəddi, bəlkə gecələri söhbət elədilər əmqızısıynan, öz arvadıdı da. Görürsən, bizdən müqəyyəd olub, bizim yanımızda qızın kecavəyə yaxın gəlir. Qabaxda gedir, ya dalda gedir. İkisinin çadırını qoşa qurdular. İyirmi qədəm özlərindən kənardadı. Tacirlər də öz çadırlarında əyləşiblər, yeyirlər, içirlər, danışırlar. Nəcəfin də yeməyin öz çadırında verirlər. Qızın da yemağın öz çadırında verirlər. Altı-yeddi gündü burdadılar bustanəsiz. Nəcəf çadırdan çıxdı gecəynən gündüzün ayrılan dəyqələrində o başdan təzə isdiyir, olub ya olacax. Nəcəf çıxdı çadırdan eşiyə, elə bir çölün havasına baxdı, göyün ulduzlarına baxdı. Belə döndü tacirlərə gördü, baba, nökər, tacir, tüccar – hammısı öz çadırında yuxunun içindədilər. Əslən heş zaddan xəbərləri yoxdu. Göz sataşdı əmqızının çadırna. Qəlbindən keşdi, ilahi, yaxçı oldu. Tacirlər yatırdılar, heş kəs oyax döyüldü. Keçim əmqızının çadırında bir-iki kəlmə əmqızımnan söhbət eliyim, danışım. Səhər olanda keçərəm öz çadırıma. Nəcəfin Qulamı da çadırda yatır, öz çadırında. Nəcəflə bahəmidlər, bir çadırda yatırlar, Qulam da yanındadı. Allah sənə and verirəm, öz Allahlığın xətirinə, heş bəndəyin qabağına bildiyin qəzavü qədərlərdən çıxartmaginən. Heş kəs bilmir qabaxda nə cür cəryan gələcax başına. Özündən süvay heş kəsə demiyib bustanəsini. Qəza tutmasın, qıçın qoydu qızın çadırına. Gördü qız yatıb. Üzündən narın, mıncıx-mıncıx tər gəlir, yanaxdan belə axır tökülür, sinəsindən gəlir yerə. Elə bil o yağış dənəsi kimin torpağımıza düşər, xət salıb qızın təri. Nəfəsin aldıqda cəmalı birə dörd işıxlanır, gözəlləşir. Nəcəf gördü, dua var qızın boynunda. Amma Nəcəf bilmir ki, yaxasında nəzər duasıdı, görəsən istəhli duasıdı, nəmənə duasıdı? Nəcəf bilsə, əli dəysə bu duaya, düşə tilsimə, heş bu işi görər bustanəsiz? Əlin vurar, qız görsə əmioğlusu çadırdadı, yanındadı, dik qalxar, duanı boynundan rədd elər, çıxardar, asar duvara. İstədi bunu nazınan oyada,

qəzanın beş barmağı olar bustanəsiz. İkisini qoyar gözə, diyər, görmə. İkisini qoyar qulaxlara, diyər, eşitmə. Birin də qoyar ağıza, diyər, danışmaginən. Nəcəf istədi, bu qızı nazınan oyada. Əlin qoydu qızın alnına, belə üzünə, gözünə sürtür, buğazına. Gətirib, qızın döşlərinə ki, əlin vuranda Nəcəfin sirdik barmağı dəydi duaya. Dəyməliynən elə şəqqildədi, elə bil tabança atdılar qızın çadırında. Nəcəf oldu bir dənə göyərçin, libasları qaldı qızının başının üsdündə. Bir dənə kafiri şəm qabaxda yanır bustanəsiz. Səsləndi:

– Əmioğlu, gəl dalımca, mən getdim davaya.

Getdi dağların içinə. Qızın ayıldı. Bu şaqqıltıya ayıldı, qızın qəlbindən keçdi, İlahi, bu hər kəsdindən yuxudaydı. Mənim bir yerim qalmıyıb, əlin vurmamış ola. Hər yerimə əlin vurub. Xüdaya, sənə and verirəm, öz izzəti-cəlaliyə əmim oğlu Nəcəf olmasın. Qalxdı tələsik çadırından çıxdı, girdi Nəcəfin çadırına. Girəndə gördü Nəcəfin təxdi boşdu. Qulam təxdində yatıb. Gördü, əmioğlu düşdü tilsimə. Qəyitdi öz çadırına. Üzüquylu düşdü. Başının tükünü yolur, ağlır, sızıldır, pəh İlahi, nə cür eliyir? Bir belə üş gün, dörd gün burda baş-başa nökər deyil, mirzə, tacir, tüccar var. İndiyə qədər mənə bunların yollarında yaxun gələmmiyib, Nəcəf atın üsdündəydi. İndi Nəcəf yanında yoxdu. Mən bir dənə qız xəlyağı nə cür olacax mənim işim? Deyir və ağlır. Sora gördü zirəhlıx lazımdı. Elə dönəndə gördü, Nəcəfin paltarları başı üsdədi. Qız qalxdı yerindən, zirəhlıx eliyib libasın soyundu. Libasın soyunub, baxdı büxtələrə, baxdı yəxdənə. Qıfılı vurdu ağzına. Nəcəfin libasların başdan geyib, əyaxdan qıfıllandı. Zirehlərin götürüb, yığdı başında, təpəsində. Nəcəfin papağın basdı qaşların üsdünə, bərkitdi oldu Ağa Nəcəf. Çün ikisinində ləbləri bir almadan bağlanıb. İkisi bir almadı, almaya bənzirlər. İkisi bir-birinə bənziyir, bir boyda, bir danışıxda. Qız gözünün yaşını sildi, dedi, gedim Nəcəfin Qulamın oyadım, bu sirri Nəcəfin

Qulamına deyim. Qulam İsfahana kimi mənlə miğəyət olsun. Mənim yanımdan aralanmasın. Bir müddət dözüm görüm bir sərdüşümüz nə cür gələcax qabağa, İlahi. Nəcəfin libası əynində girdi Nəcəfin çadırına. Gördü Qulam yatıb.

– Qulam.

– Bəli, ağa.

Dedi:

– Aş gözünü görüm, məni tanırsan.

Dərdimi diyim buna. Bu bilsin ki, mənnən ayrılmasın.

Dedi:

– Ağa, qoy təzə yuxlamışam, indi durdum gördüm genə iş-güc görəcəyəm, yorulmuşam.

– Evin yıxılsın! Aş gözünü, görüm məni tanırsan?

Gördü bu xumallanır.

– Qulam, evin yıxılsın! Aş gözünü, görüm məni tanırsan?

Qulam durdu yuxudan. Üz-gözün sildi, belə baxdı, dedi:

– Ağa, niyə tanımıram səni, Ağa Nəcəfsən. Axı niyə tanımıram səni. Gündə sənlə birlikdəyəm.

Gördü tanımadı.

Dedi:

– Qulam, mən qoy dərdim var ürəyimdə onu sənə diyim, gözün mənim üsdümdə olsun.

– Ağa, nəmənə dərddi, mənə diyəsən?

Dedi, qulaq as:

Qulam, gözəl şövdüm, fərihləndim, uzandım,
Zənan getdi, gözlərimin ağları qaldı.
Bir ayrılıx düşdü, belimi qocaldım,
Çəkdi sinəm üsdə, dağlara qaldı.

Dedi:

– Ağa, mənim bu sözlərdən başım çıxmaz. Aşkar mənə de görüm, nə diyirsən sən?

Bizim üçün qarə geydi bu yerlər,
Çəhdi sinəm üsdə qırmızı millər.
Soldu bənövşələr, həm qızılgüllər,
Bülbül ölüb, viran bağları qaldı.

Qulam genə baş tapmadı bu nə deyir.

– Ağa, mənim bu sözlərdən başım çıxmaz. Aşkar de görüm, niyə narahatsan?

Əynimə geymişəm yarın libasın,
Çəhmişəm üsdümdən dəri libasın.
Nəcəf getdi, boş qoydu zovrətxənasın,
Çəhdi bu sinəmdən, dağları qaldı.

Dedi:

– De görüm, bu sözlər nəmənədi? Aşkar de görüm, niyə narahatsan?

Sinəm üsdən uşdu bir gövərcin,
O seyri calıya mən oldun laçın.
Bu Pərzaddı, qirahətdən qərq edib saçın,
Nəcəf getdi, sağı-solları qaldı.

Dedi:

– Ağa, baş tapdım. O qızı yaxçı oldu, öz əliynən burdan qəyidib gedib. Allah bizi isdirdi, o rüsvay elədi, caydı İsfahana gedəndə. O qız ayrı sözüdü bustanəsiz, ayrı cür deyirdilər. Lotu savabıdı, dost savabıydı. Mənə Misirdə dedilər, mən müqəyyəd oldum sənə diyəm bu sözü. Qız naməhrəmlərnən söhbət eliyən qızlardan döyül. Necə gəlib özü də olardan ötürü qəyidib gedəcax. Gedib qoy getsin. İsfahanda hər kəsin qızın desən, onu allam. Qız gördü gör nə yekəlıkdə böyük böhdanın (mənə yaraşmaz sözün) yekəsin mənə diyir. Bu günə kimi mənim kölgəmidə naməhrəm görməyib.

Bödan demə, böhtan tutar adamı,
Bu sözlərim ləli-cövhər mədəni.

Cəhənnəm odundan bətər adami,
Yandırır kasıblıx kül eylər eylər.

Böhtan demax lap günahdı, nə qəddər desən də. Qız gördü, bu Qulam tanımadı məni. Nəcəf yerində qərar verdi. Qəlbində dedi, Xüdaya, Qulam tanımadı məni, tacırlar da məni tanımasaydı, İsfahanı yetirsəm, özümü giryana yetirrəm. Gördü şəfəq atdı, getdi qəvzayı havzata. Qəyidib gəlib, qolların çırmalıyıb, bulaxdan dəstəmazını alıb, gəldi sübh namazını yerinə yetirib. Səndəlib götürüb qoydu çadırın qabağında beşiyə əyləşirsən, dedi, görüm tacirlər nə cür olacaxdı. Tacir- tüccar çadırlardan yuxudan qalxıb, gedən gedir qəvzayı-havzata, qəyidir dəstəmazın alır, namazın qıla çadırda. Çatan deyir:

– Salam, Ağa Nəcəf, salam, Ağa Nəcəf.

Gördü, tacirlər də tanımadı bunu. Tacirlər də tanımadı. Bu qızın getmağın Qulam tacirlərə yetirdi. Anladılar. Qız burdan qayıdıb gedibdi. Bu cür dedi cəmaət. Elə ki, çadırlar da sübhanələrin yeyib durdular, buyün yavaş-yavaş hərəkət eliyəcaxlar.

– Ağayı-tacirbaşı, icazə ver, qəbilə yühlənsin, gedax.

Dedi:

– Baba, hələ tezdi, səfalı yerdi, dolanırıx. Hələ bir-iki gün də istirahətdıx eliyax.

İsdir Nəcəfin yerin bilə, görax bu zağaların hansındadır. Onnan ötürü icazə vermədi çadırlar sökülə. Məşğulnuxnan günün arasında Qulama səsləndi:

– Qulam.

Dedi:

– Bəli.

– Qulam, çək atdarı eşiyə, bir çıxax, Əlvəndi dağların bir seyr eliyax, gəlax.

Mindi atın üsdünə. Qulam da yanıcadı. Hey o sözlərdən danışır, Nəcəfə deyir, qızın özü bilmir, bu qızdı. Elə bilir, Ağa

Nəcəfdi. Niyə diyir? Qızınan bunun ədavəti varıdı, bustanəsiz. Xeyir, bə niyə diyir? Gördü, az qala qəlbi qırıla, bağrı çatdıya. Bu sözləri yalannan diyib, isdiyir Nəcəfi söndürə ürəyində. Onnan ötürü deyir.

Əsli Nəcəf düşdü tilsimə. Pərzadın anası asmışdı duvanı boynuna. Pərzad yuxudaydı, oyatmadı çadırda. Əgər oyada, qızın nənəsi diyipdi, bu duanı boynundan çıxart, as duvara. Əmioğluynan söhbət elə, əmioğlu gedəndən sonra bu duvanı genə sal boynuva. Nəcəf bilmədi əli dəysə bu duvaya, tilsimə düşəcək. Nəcəf əlin vurdu duaya, düşdü tilsimə. Pərzadın çadırında Alxasın çəmənində. Getdi davaya. İndi bu bədəl Nəcəfdi bustanəsiz. Yəni qızdı, Nəcəfin libasın giyindi əyninə, abrının dərdindən. İsfahana kimi tacir-tüccar tanımasın diyə. İsfahanda özünü üryana gətirrəm. Ta bir müddət görüm Nəcəfin dərdin görüm nə cür gəlir qabağa. Günortaynan məşğulluğun arasıdı. Səsləndi Qulama:

– Bəli, ağam.

Dedi:

– Atdarı çəh, Əlvəndi dağlarında seyr eliyax, dolanax.

Tacırlar əyləşirlər çadırlarda, söhbət dərindədilər. Qulam atdarı çəhdi, bədəl Nəcəfi də. Nəcəfin Qulamın mindilər atdarın üsdünə. Üz döndərdi, Əlvəndi dağlarına. İsdir Nəcəfin yerin bilə, görə bu zağaların hansındadı Nəcəf. Görək nə cür gəlir axırda şərrin huşu. Yanaşı çıxdılar, yetirdi bustanəsiz düz Əlvəndi dağların lap başına. Ərz eləmişəm, Qulam elə hey tənhalı sözləri buna deyir:

– Ağa, divan olma, dəli olma.

Düşman dəyildi qızınan. Görürdü Nəcəfi, bilmirdi qızdı. Bilirdi Nəcəfdi.Az qala divan ola, dəli ola. Bu sözləri deyir, Nəcəfin qəlbin bir müxtəsər çiridə, bu qızdan Nəcəf bu cür də xiyalətə düşmiyə. Gördü, Nəcəfdən səda olmadı. Belə baxanda gördü həvaynan bir qətər bulud gəlir. Belə laybalay axır,

gedir günçıxana sarı. Gün batan tərəfindən bu buludlar gəlir bustanəsiz. Dedi:

– Qulam, atı saxla görüm.

Atı saxladı. Bir yerə baxdı, bir göyə. Qəlbindən keçdi, Xüdaya, buluddardan xəbər alıram. Əmioğlu Nəcəfin yerin bəlkə Xüdabəndi-həqiqət xətirinə nişan verər, mən bilərəm bu zağaların hansındadı əmioğlu.

Götürüb görax buludlardan necə soruşur Nəcəf:

Göydən gələn por sedalı[2] buludlar,
Bulud, heş xəbərin varmı yarımdan?
Ciyərim oldu, atar parə buludlar,
Bulud, heş xəbərin varmı yarımdan?

Gördü buluddan səs yoxdu.

Bulud qatarlanmış gedir elinə,
Məni qoydun müdahilər elinə.
İmam xətirinə, pəri yoluna,
Bulud, heş xəbərin varmı yarımdan?

Gördü buluddan səs olmadı. Bilir, bulud da səs verər adama? Tələsikdən deyir bustanəsiz. Həvlindən soruşur:

Pərzad, gərdişin əlindən bezarən,
Qələm alıb bəzmi-halı yazaram.
Yeddi gündü, İlahi bu məkanı gəzirəm,
Bulud, heş xəbərin varmı yarımdan?

Nəcəfin qulamı gördü, baba, bu az qaldı divanə ola, dəli ola. Genə həmin o tənhalı sözləri deyir. Qızın üzünə deyir:

– Qulam, cavab olmadı. Qəyitginən.

Atdarı döndərdilər, çadırlara çün hərəkət eliyələr. Dağın döşünə çatanda gördülər, baba, bu Qulam çox əndazədən çıxıb.

– Qulam.

– Bəli, ağa.

Dedi:

---

[2] Por sedalı – çox səs salan

– Saxla görüm, evin yıxılsın!

Saxladı atı. Dedi:

– Qulaq as, bir qatar sinəmə söz gəldi, ərz eliyim. Evin yıxılsın, yumurtanın ikisin düyünlədin bir-birinə, sən mənim sözümdən baş tapa bilmədin:

Qulam, subhi tezdən gül şanəsi dəstində,
Darıyıb zilflərin ha bılar qulac.
Bir il keçibdinən, dilək diləsə,
Axır mətləbinə ha bular-bular.

Bu dedıxlarının xəcalətdığını çəkəcaxsan, amma indi yox hələ.

Nurufun dəhanında, Qulam, dürdanə dedi,
Səyrafın dəstində dürdanə dedi.
Dərdini dərd bilməz nadanə dedim,
Ha namaz başına ha bular-bular.

O adama adam dərdin diyər ki, dərdinə əlac eliyə. Əlindən olsa, əlindən gəlməsə heş da.

Oxuduğum əlif indi deyildi,
Dərd dilin dərtli nənə deyindi.
Nazlı dilbər gözəl baxdi, geyindi,
Qamət nazlı, kəmər nazlı, bel nazlı.

Hər kəs hər kəsin dərdindən hal olsa, gərəy dərdinə əlac eliyə. Eləməsə, deyinə fərz qiyamətə boynunda. Əlindən gəlsə, gərək əlac eliyə.

– Qulam, dərdini dərd bilməz nədanə dedin. Anlamaz başına ha bular-bular.

Bu dedıxların xəcalətdığın çəkəcəksən, amma indi bu tezlıxda yox hələ.

Əlim yarın gərdənində qaldı,
Gəldimdə yaslanıb dərimdə qaldı.
Annamaz, dərd bilməz əlində qaldım,
Pərzad fəğan eylər başın ha bular-bular.

Evin yıxılsın! Söz başa çatdı dedin, baş tapmadım. Baş aşağı dedin, baş tapmadım. İki yumurtanı mən düyünlədim, birindən sən baş tapmadın. Qəlbində dedi, mən qızam, ya oğlanam. Bu libas Nəcəfin libasıdı mənim əynimdə. Abrımdan ötürü buları geyinmişəm. Axı Nəcəfinən dayim bir yerdəydin. Bə sən tanımadın mən qızam? Qəlbində dedi buları.

Qulam elə hey deyir. Əndilər Alxasın çəməninə bustanəsiz. Da atdan düşmədi Nəcəf. Səsləndi:

– Ay tacirbaşı, dəstur verin, at-qatırın yüklənsin. Tacir otağı üçün hərəkət eliyax.

Gördü, tanımadı tacir, tüccarlar, heş biri tanımadı, mən qızam. Nəcəf istədi, amma bədəl Nəcəfdi bu. Əsl Nəcəf getdi Həmadan dağlarında düşdü zağıya. Çadırları söhdülər, at-qatırı yühlədilər, çatdılar qatırın belinə, üz döndərdilər şəhri İsfahana. Danışa-danışa gəlirlər İsfahana.

– Qulam.

– Bəli, ağa.

– Nə qalmışıx, İsfahana?

Dedi:

– Ağa, üş ağaş qalmışıx.

Bir az da gəlir.

– Qulam, nə qalmışıx çatax İsfahana?

Dedi:

– Ağa, iki ağac. Ağa, bəyəm bələd döyülsən?

Dedi:

– Axı, mənim siftə alverə gəlmağımdı atamdan buyana. Özü də gecəynən çıxmışıx İsfahandan bu yollara, bələdçılığım yoxdu ki mənim. Biləm ki, nə qalmışıx.

Bir ağaş qala, soruşdu. Dedi:

– Bir ağaş qalmışıx.

Dedi:

– Qulam.

Dedi:

– Bəli.

İndi nəxşə çəkir Nəcəfin nənə-bacısına. Olar görüm necə bəlkə tanımıya məni.

– Qulam.

Dedi:

– Bəli.

Dedi:

– Qulam, Alxasın çəmənindən bu yana mənim bu başıma ağrı gəlib. At üsdəyəm, gözin məndə olsun haaa. Birdən o fikirim dağılar, atdan yıxılam. Toy fikrinə düşmüşəm, qol-qolum sınar, zəif ollam.

– Narahat olma.

– Mənnən miğayit ol haa.

– Ağa, xətam qalmadı, odu, İsfahan görsəndi. Bir az döz, çatasan.

Dedi:

– Ürək bulanma var, başım gicəlidi.

Hamı da bilirlər, bu qız qəyidib gedib. Nəcəf onun dərdindən az qalırdı divanə olar, qızın dərdindən. Danışa-danışa Nəcəfnən gəlir. Əlaltı bustanəsiz bədəl Nəcəf qız, əl üzünə, qış-qoluna, üz-gözünə, əllərinə atdan zəfəranı sürtdü, elədi bədənin üzün, gözün sapsarı heyva yarpağı kimi. Elə bir beş zat qalırlar dervazeyi-İsfahana. Nəcəf qışdırdı:

– Amandı, Qulam, məni tut.

Gürültuynan özünü verdi Qulama sarı. Yıxılanda Qulam əlin atdı bunun kəmərindən, saxlıyammadı. İkisi atdan dəydi yerə. Amma qəyindən dəymədilər, arəm düşdü. Özü də tapşırıbdı ki, mənim fikrim başımda olmasa, ay Qulam, özün yanımda olginən. Aparın öz mənzilimə. Mən bir həfdə-zat mümkündü özümü bilmiyəm. Yatırdınız otağımda, özün də otur mənim yanımda. Hərəkət eləmə o yan bu yana.

– Baş üsdə.

Buları diyir, qəflə dayandı, bular yıxıldı atdan. Durdu Nəcəfin yapışalı, gördü Nəcəf indi ölmüyüb, dünən ölüb. Tacirlər töküldülər Nəcəfin dövrəsinə:

– Qulam, nə oldu?

Dedi:

– Vallah, Alxasın çəmənində nişanlısı ki, qəyidib gedib Misirə, bu da tapılıb üsdünə. O qədəm fikir elədi, xiyalət elədi, indi axırda biləsın yıxdı da.

Gördülər Nəcəfin rəngi sapsarı heyva yarpağı kimin saralıb. Götdülər əllərinin üsdündə çün Nəcəfin İsfahanda öz otağı, öz tərsxabı hansıydı, o otaxda əyləşdilər. Təxdinin üsdünə uzatdılar. Tacirlər çün qəflə-qatır gəlib bular durammadılar burda. Qulama dedilər:

– Qulam, doxdur lazım olsa, bizə deginən, gəlax aparax doxtura.

Dedi:

– Xeyir ağa, doxdur lazım döyül. Fikridən belə olupdu. Zərər döyül.

Qulam yanındadı, tacirlər getdilər, qəflələrin yerbəyer eliyələr kərvansaralarda. Buni Nəcəfin nənəsi bildi. Özün atıb üsdünə:

– Amandı, oğul, qurbanın olum, nə olub bəyəm? Sən salamat getmişdin. Bə niyə qəyidəndə bu cür oldun?

Deyir və ağlıy, tühlərin yolur Nəcəfin sinəsinə:

– Mən sənin ananam, ay şöfiq, məni gör tanırsan, ya tanımırsan? Ananam sənin, nənənəm sənin.

Pərzad gözünü aşdı. Gözünü aşdı belə nənənin üzünə baxdı, nənəyə bir nişan verdi. Bildi, baxdı, bu nənəmdi. Nəcəfin nənəsi budu. Bu, başın uzadıb bacısı, öz bacısıdı. Bu hansı bacıdı bustanəsiz? Məhəmməd tacirbaşı bunu məçittən gətirib. Özünə qız eliyipdi. Sübh namazına getmişdi, namaz qıla.

Namaz qıla-qıla gördü minbərin dalından uşax səsi gəlir. Belə getmir, əlin saldı götürəndə, gördü bir dəsmalın arasına bürməlib bir dənə uşax. Gətirib bir dənə minbərin dalına, bunu götdü apardı. Tapşurdu xanımına, dedi:

– Bunu Allah sübh namazında yetirib mənə, mənim qızımdı.

Əvladdarı olmazdı. Bunu böyük xanım eliyəcəm, özümə qız. Seçilsin də alıb öz adına, bu Əsmər adında bu qızdı. Bu bunun bacısıdı. Bacısı özünü atdı üsdünə. Özünü atdı ta gözündən yaşı tökülür, ağlır.

– Qardaş, qurbanın olum, keçmisən Misirə alverə, bə qayıdanda niyə bu cür oldun? Bacınam sənin, Əsmərdi adım, aş gözünü.

Gözünü açır, belə baxır, qızın üzünə baxdı, baxdı, buna da bir yerdən nişan verdi, gördü, bu da bacısıdı. Dinmir amma. Genə gözün yumdu, danışmır. Qulam deyir:

– Gedib avlanıb. Sərnuşu belədi bunun.

De qohum, əqraba, tayfa-talıp, əmioğlu, bibioğlu hammısı gəlib Nəcəfin yanına. Gələn öz adıynan öz məriçılıx eliyir Nəcəfə. Açır gözün, baxır, amma danışmağı yoxdu, danışmır. Bir həftə, yeddi gün, bir həftədən sora silahıt qalmadı. Hammıya nəzər saldı, hammını tanıdı. İndi birdən başını qovzadı, qışqırdı:

– Qulam.

Qulam yetirdi, yanındadı.

– Qulam.

Dedi:

– Bəli.

– Qulam, hardaydın?

Dedi:

– Ağa, qurbanın olum.

Səvindiyindən az qala ağlıya Qulam. Dedi:

– Ağa, burayam.

– Nə cür oldu mənim sərvi-mülküm.

Bu halın ki, dəyqə bədəyqə bələddi, dəyqəsinə bələddi bustanəsiz. Bilir, kim gəlib kim gedib yanınca. İndi durdu.

– Mənim paltarlarımı qoyun hamama, bədənim narahatdı.

Dedi:

– Ağa, gəlib qarmalıyım?

Dedi:

– Yox, Qulam, mən elə özüm yuyunnam.

Nəcəfin paltarlarını qoydular hamama. Bu bədən, Nəcəfdən ərz elədim, qız dı ha. Geşdi hamama. Hamamda yuyunub, təmizlənib, tühlərin, zilflərin daradı. Bədənin qurudub libasın əvəz eliyib, genə külahı basdı gözün üsdünə, zilflər külhının altında. Börkünün altında tutdu, bərkiyib. Hamamdan gəlməkdə, otağında tacirlərə xəbər verdilər, Ağa Nəcəf alışdırdı. Çox da səvindilər tacirlər. İndi nənə oturub bir yerdə, amma bacısı belə baxanda əvvəldə gözlərinə qovzandı yerindən. Nənənin qulağına dedi:

– Anacan, bu qardaş dəyil.

– Qardaş dəyil, bə kimdi? Bəşər ad verəcəydim gələnnən neçə müddətdir gedib Misirdə, yollarda, yuxusuz, yorğun. Toz basıb rəngi dəyişilib.

Qız gözlərinə baxdı, gördü, gözlər qardaş gözləri dəyil. Qızın gözüynən oğlanın gözünün zamanın və göyün tabutu var. Qızın gözü şirin oliy, istəmli oliy. Gördü, qardaş dəyil. Bu sözü qız dedi nənəsinə, nənəsi inanmadı.

Dedi:

– Qardaşdın ki, qardaşındı.

İndi oturublar nənə-bala söhbət eliyirlər.

– Oğlum, Ağa Nəcəf.

– Can, anacan.

– Oğlum, atan həmməşə səfərdən qəyidəndə Şah Abbasa töhvəsi var. Nə var onun töhvəsin kəsəsən? İndi deyəcək Məhəmməd tacirbaşı aradan getdi, oğlu baş tapmadı, mənim töhvəmi gətirmədi.

Dedi:

–Anacan, olsun. Bir möhümdü, töhvə zərdişlıx bustanəsini qoydu zirzəminin arasına. Örtü çəkib üsdünə, verdi Qulamının başına.

Dedi:

– Gəl mənim dalımca.

Nənə, bacı tanımadı bu qızdı, ya oğlandı. Görürsən heş kəs, tayfa-tapı, qohum-əqrabalar. Yetirdi Şah Abbasın məclisinə. İcazə... Diyip:

– Buyursun.

Keçdi içəriyə. Vəsəti-məclisdə Şah Abbasın ehtiramın yerinə yetirib, Şah Abbas yer görsətdi.

Dəstur verib pərdə örtüyü götdülər, Nəcəf əyləşdi atasının səndəlində. Şah Abbas belə baxdı gördü, məhəbbəti daha da çoxaldı, qolun salıb Nəcəfin boynuna alnından, üzündən öpüş götürür. İşarət elədi, Qulam qədəm verdi içəriyə. Kövhəri gətirib qoydu mizin üsdündə, Şah Abbasına vəzirin qabağına alveri. Nəcəf əyləşib, Qulam daldalı çəkildi, çıxdı eşikdən intizarı. Şah Abbas dəstur verdi:

– Aleyi-xitam, vəzir, zirzəmin örtüyün götür, görax. Ağayı-tacirbaşı mənim ki oğlumdu, oğul eləmişəm özümə, mənə də töhəsi gətirib sifdə səfərində, alverində.

Örtüyün götdülər, belə baxdı yığcamda gördü, baba, Məhəmməd tacirbaşı buyünə qədər bu töhəni mənə gətirmir. Vəzir Şah Abbasa bu cür dedi. Şah Abbas da doğurdan töhəyə baxdı, gördü afərin. İndi də bunun nəzərində belə bir baxdı vəzirin üzünə:

– Vəzir, bərgü belin kopsun. Ağa Nəcəf bizim ikimizə də oğuldu. Nə diyax bu dizdə yazılçığın. Əlvən sihə töhəsini bərabərində.

Dedi:

– Qibleyi-aləm sağ olsun, vəkilsən?

– Vəkiləm.

Dedi:

– Vəzir, mən bu məslahatı bilirəm. Qızı sən biləcəksən. Toyu da hər gün mənim öhdəmədi. Mən də toy eliyəcəyəm.

Dedi:

– Qurban, sən verdin, mən də verdim da. Sənnən mənə məcat qoltuğumuz var.

Vəzirin qızın Nazı-dilbərin əldi budu Nəcəfin adına. Şah Abbas da tanımadı bu qızdı, ya oğlandı. Qızı qıza verir. Aha Nəcəf də miqəyyədçılığından diyə bilmədi, mənim indi evlanmax dövrüm diyəmmədim. Müqəyyəd oldu. Dedi:

– Keçəndə, Nəcəf, el-obaya xəbər ver, oğul, İsfahanın hər məntəqəsində beş gün tutulsun toyun, xərcin mənimdi.

Vəzir də alçaxgönlülüux elədi, qızın verdi sağa. Nəcəf gəlib çox dəstur idi, xəbər verdi cəryanın bu cür anasına.

Dedi:

– Olsun, oğul.

İsfahanın məntəqələri bəzəndi. Ağaşlar, xiyabanlar, sulanır, süpürlər Nəcəfin toyu başlandı Şah Abbas adına. Əsil Nəcəf Əlvəndi dağında cadıdadı. Bu bədəl Nəcəfdi. Yeddi gecə-günüz keşdi, səkkizinci saz çalmax, oxumax, oynamax, aşmax başa-baş oldu. Bu düşdü fikirə. İlahi, indi bu məni tanıyacax, vəzirin qızı. Mənim sirrimi açılacax. Bir müddət açılmıya, görüm sərdimi Nəcəf nə cür gəlir qabağa. O gün oldu qızın gəlin gətdilər, vəzirin qızın, Nazı-dilbəri Nəcəfin şəxdimanlarına. Qız-gəlin dövlətindədi, Nəcəf öz otağında. Fikir götürüb, ilahi, nə cür eliyim? İndi qızlar gecənin bir vəxdi ye-

dilər, işdilər, oynadılar, oxudular, dağıldılar. Vəzirin qızıynan Ağa Nəcəfi ərus otağına gətirdilər. Bu fikir elədi. İki dənə müşadələrindən qızın biri sağında, biri solunda Nazı-dilbəri gətirdilər Ağa Nəcəfin otağına. Gördü, beş-altı qədəm qaldı, ilahi, nə cür eliyim? Birdən yadına düşdü. Üzün döndərdi qibləyə, başladı namaz qılmağa. Müşadələr vəzirin qızın Nazı-dilbəri varid elədilər Nəcəfin ərus otağına. Qız dayanıb əyax üsdə qapının qabağında müşahidələr də sağ, solunda. Bir qədir durdular, gördülər, Nəcəf namaz qılır. Namazı bıraxmadı. Müşadələr bir-birinə dedi:

– Baba, bunun sihri azdı. Utanır, müqəyyəddi, bəlkə bizdən müqəyyəddi. Nazı-dilbərim, bu məşuqən, bu da sən. Allaha tapşırdım.

Müşahidlər qəyitdi, getdi.

Qızın indi ürəyindən bu keşdi, ilahi, düzdü, mən vəzir qızıyam, bu tacir oğludu. Mən icabətdən bunnan böyüyəm. Əmma bu yanına dönəndə mənim ixtiyarım bundadı, bu mənim sahabımdı. O qədir duracağım əyaq üsdə, qapı qabağında ta Nəcəf namazdan qutulsun, özü icazə versin, mən keçim, əyləşim. Bular bu qızın qəlbindən keşdi. Qız əyax üsdədi, Nəcəf elə əyilir, qalxır “Allahu-Əkbər”, əyilir, qalxır, “Allahu-Əkbər”. Ərus otağının bustanəsiz namazı var, vacipdi də qılasan. Amma qızınan söhbət eləməmiş pak qəlbinən qolların çırmalıyan, dətəmazın alan həmin otaxda üzünü döndərər dəryayı-Rəbbim bilər, iki rükət hacət namazın qılan o dəyqə Allahdan nəmənə istəsən, verir. Səhərə saxlamıyacax ha. O dəyqə verəcax. Çün özü Quranda dəstur verib. Yerin ərzu bəndələrimdən hər nəmənə istəsələr, əlvan gecə pakı-pakı iki rükət namaz qılalar, mənnən nəmənə çəkə, rüzi verəcəyəm. O dəyqə verəcəyəm, səhərə saxlamıyacağam. Özü də ərus gecəsi bustanəsiz ömir elə yazılan dəyil, ömüründən dəyil o gecə. Vəzirin qızı gördü, bu namazdan qurtulmadı. Səsləndi:

– Mən demirəm namaz qılma, bu gecənin namazı iki rükətdi. İki rükət namazın qıl, mən demirəm namaz qılma, qılırsan qıl səhərə kimi. Mənim qışlarım qurudu axı, əyax üsdə durmaxdan. Əzəldən icazə verginən, mən qoy keçim əyləşim.

Nəcəf isdiyirdi qız bu sözü danışa. “Allahu-Əkbər”, “Əlhamdulillah” namazdan qutuldu. Namazdan qutuldu, qalxdı ayağa. Qədim bu və belə əməl çoxudu belə. Böyük evlərin hamısında fələqqələr varıdı, ağaş fələqqələr. Düz gətirib qoydu otağın vəsətində yerə. Yapışıb qızın kəmərindən dalı üsdə qızı qoydu yerə. Tutdu qışların, qoydu fələqqənin arasına. Qızılgüldən, sarı güllərdən on-on beş dənə kəsib gətdi, durdu qızın başının üsdündə, otdu yerə. Dedi:

– Çəpəlin, biri çəpəl, hələ əlim dəymiyib, sən mənim boynuma mindin hindidən? Məgər sən bilmirsən, atamın deyini var boynumda? Atam deyin salıb öləndə mənə. Ərus gecəsi o günnən yeddi ilə qətər mənim atamın qəza namazı var. Mən yeddi ilə qətər atama qəza namazın qılacağam. Sən iki saat otaxda davam gətirəmədin. Bə bu yeddi ilini necə davam gətirəcəksən?

Deyir və çəkir qızın lüt qarnından. Qızılgülün çalıları batır qarnına, batanda peyvənd olur bustanəsiz. Çalıcı da çox iti olur, zəhirli olur. Vəzirin qızı əmanə gəldi:

– Tamamdı, Ağa Nəcəf, daha məni niyə öldürürsən? Anlamadım sözü, qalx, mən də mədət verim, yeddılığı bəlkəm üç ay, dörd ay yarım, beş ay, altı ay qılax qurtaraxda.

Dedi:

– Bu səfər indi gəldin quş qədər oldun. Qalx, dəstamazın al, mənnən bərabər qıl. Bu gecədə mənim gərək atama qəza namazı qılax, ta yeddi ili qurtulax.

Vəzirin qızı Nazı-dilbər də bu dövüşü qoydu başına. Bu qız bilmədi bu oğlandı, ya qızdı, tanıyammadı.

Başına döndügüm, mehriban oğlan,
Nə vaxt qədəm qoydun bu xanımanə?
Bir quş bir putayə pənah gətisə,
Puta olan onu verməz sübhanə.

Mənnnən iki kəlimə danış. Yamən şahının qızı dəyiləm dedi:

Cavan, əylənibən bu məkanda qalmırsan,
Şirin canın eşq otuna salmırsan.
Bu şəhri Yəməndə məni almasan,
Vallahi şikayət eylərəm oğru Xorasanə?
Mehliqa sənə sözü bildirir,
Dəsmal alıb, göz yaşını sildirir.
Gəl almasan, bu dərd məni öldürür,
Divanə tək salam çöllü-biyabənə.

Bədəl Nəcəf vəzirin qızının başına da bu börkü qoydu namaz qılmağa. İndi vəzirin qızı Nazı-dilbərnən bədəl Nəcəf əsil Nəcəfin dədəsinə ərus otağından deyib, yeddi il qəza namazı qılacax. Yeddi ildən sonra sənnən söhbət eliyəcəyəm. Vəzirin qızı da iki yannan qılırlar ki, tez-tez qutarallar. Bax bu İsfahanda nə Şah Abbas tanıdı bu qızdı, nə vəzirin qızı bunun ki, indi halal xanımı olub, bu da tanımadı. Bu börkü də qoydu başına. Nənə-bacı da tanımadı. Əlbəttə, qızın da kəbinin Nəcəf adına kəsilib. İndi bular burda namaz üsdə namaz qılsınlar. Sizə ərz eliyim kimdən, Həmədan valisi Əhməd xandan. Həmədan valisi Əhməd xan bi xandı, başında dağların şikarından ənib gəlib. Bunun bir çobanı var, davar yağar. Gördü, bunun davarı çatmır, Əlvəndi dağının qabağında qupquru torpax yerdə, topraxda heş zad yoxdu. Çoban qalxdı buna:

– Salam.

– Əleykümə salam, çoban.

– Çoban, burda niyə saxlamısan, evin yıxılsın, davarı? Torpaxlar üsdə?

Dedi:

– Ağa, indi dəyil, müddət bunnan qabaxdandı. O ki, yaylı çöldə qoyunları gətirib burda əyləndirrəm, istirahət edərəm, gətirrəm buraya. Aşiq olmuşam.

– Niyə?

Dedi:

– Ağa, o Məşəddə ov düş zağanı görürsən?

Dedi:

– Bəli.

Dedi:

– Ağa, orda bir dənə göverçin var. İndi vəxtə vəxt çıxır eşiyə. Vəxtidi, aşiq olmuşam ona. Çıxır belə səhralara baxır, Əlvəndə qəhqəhə çəkir gülür, sora ağlır adam kimi, sora oxur, aşiq olmuşam onun səsinə.

Dedi:

– Oğlan, bu iş olmaz.

Dedi:

– Ağa, başın çıxmaz. Bir az dayan sən burda, vəxtidi indi çıxacax.

Həmədan valisi atdılarına belə dedi, görax bu nə cür möcüzədi.

Çoban dedi:

– Ağa, ağa, çıxdı, bax. Çıxdi zağanın qabağına.

Həmədan valisi belə baxanda gördü, bəli, bir göverçin çıxdı. Zağanın qabağında durub. Məşəd də böyük dağdı. Əlvəndən birdən şəqqa çəkib adam kimi güldü, sora ağladı, sora oxudu bu öz-özünə. Gördü, əlin qoydu iki daşın arasına, getdi. Ağa, alıb elmi, dəfdəri cibindədi. Elm dəfdərin çıxartdı, belə vərəxlədi, gördü bu bəşərdi, insandı, düşüb tilsimə. Ta ya əvvəlinci tilsimi içindədi. Çox zəhmətdidi bunun tilsimin sındırmax. Fikir elədi, bunun da dərsin oxuyub, qoyub qoynuna. Nəinki bu dərsi onnan ötürü oxuyub camahatı bədbəxt eliyə,

çəkilə bir yana bərkidə. Bu onnan ötürü oxuyub bu dərsi qoyub cibinə, elimdi, bu cür foğarələrin dadına çata. Bir yerə baxdı, bir göyə. Gördü, tilsimdi də, qəlbindən bu keşdi. On səkkiz min aləm yuxuda yaradan, İlahi, mən gedirəm sən mənə kömək ol. Mən də bu adama köməklıx eliyim bəlkə. Günahdı, orda qalmasın tilsimdə Nəcəf. Allah da düzə çağırır. Həmədan valisinə Allah köməhlıx eliyir. Atı döndərdi üzü yuxarı, sürür, dönmür ki, zağa gözündən itə. Sürdü atı getdi, getdi, getdi çatdı daşlara. Daşlarda ki at çıxmaz ki, daşa çıxmaz ki. Amma aşkar Nəcəfin səsi Həmədan valisinin qulağındadı. Həmədan valisinin səsi Ağa Nəcəfin qulağındadı. Nəcəf gördü, bir dənə səmarə gəldi, daşlara çatanda çıxammadı. Burda dayandı. Gözləri dolub yaşınan, şəqaa çəkib hay-haynan ağladı. Ağlıya-ağlıya götürüb bustanəsiz bu sözləri nə deyir, görax bunnan nəcat olacax buna, ya elə qalacax tilsimdə.

Başına döndügüm, ey gələn ağa,
Amandı, ağa bəlkə məni qurtara.
Sən gələn yollara kəsilləm qurban,
İmdad sənnən, bəlkə məni qutara.

Həmadan valisi Əhməd xan gördü, sən öləsən, ta əvvəlinci tilsimin içindədi.

Alxasın dağları düşüb əraya,
Təbib yoxdu, məhrəm qoysun yəraya.
Heş bilmirəm Pərzad getdi həraya,
İmdad sənnən, bəlkə məni qurtara.

Nəcəfin qəlbindən keşdi, İlahi, mən çəməngahdan qızın çadırında düşdüm tilsimə. Əmqızım o çadırdan qalxdı, Misirə qəyitdi, İsfahana getdi? Yolda bu tacir-tüccarlar, nökər içində nə işlər gəldi bu qızın başına. Da onnan xəbər yoxdu ki, İsfahanda vəzirin qızını Nazı-dilbəri Şah Abbas verib toy eliyib, Nəcəf yerində işlədir. Nəcəf bilmir ki, deyir və ağlır. Nəcəf

qəlbindən keşdi, götür adıyı nişan ver bu kişiyə, bəlkə onu Nəcəf şahını xətrinə nəcət verə sənə burda:

**Nəcəf:**

Əmi, çağırram Sahibəs-Zaman,
Heş kəs olmaz dərgahından peşiman.
Sənə qurban olum, ey Şahı-Mərdan,
İmdad sənnən, bəlkə məni qurtara.

Həmədan valisi Əhməd xan dəfdəri çıxardıb, kitabı qoydu yəhərin daşının arasına. Belə baxıb vərəxlədi, gördü, qəlbi tilsimdədi. Bir yerə baxdı, bir göyə baxdı:

– Xüdaya, gedirəm bu cavanın tərəfinə. Sənnən köməhlıx istirəm. Sən mənə kömək elə, mən də bu oğlana kömək eliyim, burdan qutarax bunu.

Tilsimə çara, hər kəs getsəydi, qədim gücü çatıb sındırsaydı, qurtarmışdı, sındırammasaydı, zoru çatmasaydı, bu da gedirdi onun yanına. Tilsimin xəsyəti budu. İndi diyəsən tilsim-filan hammısı hədərdi. Ağayı-aşiq, dərviş elə hər nəmənə dinləyən deyilsən. Tilsimin, cadının bustanəsiz ayəsi var ha. Yetmiş min yer üzündən cadı yığmışdı Həzrəti Musanın dövrəsinə. Hərəsi bir cürə tilsim elədi, Musa düşdü qorxuya. Səs gəldi Musa, yenə həsənə vermışıx. Həsəni atdı yerə, bu tilsimlərin hammısını aradan apardı bustanəsiz. Nəinki aşıxların dilindədi.

Həmədan valisi səsləndi:

– Oğlum, davam gətir burda. İnşallah, inşallah, gəlirəm sənə sarı. İndi Ağa Nəcəf deyirəm biləyəm, ya da mən də gəlirəm sənnən yanıya, ikimiz orda həmsöhbət olax.

Qulaq as, oxur duanı:

Başına döndügüm, mehriban oğlan,
Qorxma, bala, sən caduya düşmüsən,
Ala gözlərdən, bala, bu canın qurban,
Qorxma, bala, sən caduya düşmüsən.

Alimlər oxurlar əlifdən beyə,
Yazıram, oxuram, duanı püflərəm göyə,
Bəzmi-ilahi tək Allah endirər yerə,
Qorxma, bala, sən caduya düşübsən.

Başına döndügüm, mənim cənanım,
Ah çəhsəm, yetişər bir naləm sənə.
Məhbubumsan, bəs mən kimə yalvarım,
Yəqin bil, yalvarır küllü-aləm sənə.

Həmədan valisi Əhməd xan Nəcəfi seyri-cadıbənd isdir Nəcəf beləsinə.

Alimlər oxurlar əlifdən beyə,
Oxuram duanı püflərən göyə.
Və izni-ilahi endirər yerə,
Qorxma, bala, sən caduya düşmüsən.

Çox ağlıyıb bağrım eyləmə figan,
Sənə qismət olar bağdan gülşən.
Adım Əhməd xandır, yerim Həmədan,
Çox bəlalı cadılara düşmüşən.

Səsləndi:

– Oğlum, eyzəm bir dayan orda. Əlimdə tərlan quşu atıram gəlsin. Əgər tərlan güvərcinə doğru gəldi, inşallah, nəcat verdim bəyə, çıxartdım. Güvərcin tərlana zor gəlsə, oğlum, mən də gəlləm sənin yanına. Həmsöhbət olax orda.

Belə kişilər vardı dünyada bustanəsiz. Bu elmi örgəşib qoyub boynuna, bunnan ötürü ha, nəinki camahatı bədbəxt eliyə. Elmi kitabın aldı əlinə, tərlanı saxlıyıb əlinin dalısında bu elmi oxur səvab, sağa tutur, sola tutur bustanəsiz. Yerə tüpürür, havaya tüpürür. Təşvil on yeddi xanə tilsimi başa yetirdi, tərlanə adəm atdı göyə. Xüdayə, sən mənə nəcat ver, mən də bu oğlana nəcat verim ki, qalmasın burda tilsimdə. Tərlan o əndazədə getdi, şikari tərlanı idi, getdi Həyavı səmti-

nə, gözdən itdi. Qırx atdısı da aşağıdan baxırlar. Gördü hənnan gejdən tərlan uzaqgaha enib, gəlir, elə gəlir, elə bil oldırımdı, oxdu. Yetirdi tərlan zağanın qabağında cəynaxların ilişdirdi bu gövərçinin dərsinə. Kip tutdu. İkisi də birdi. Heş biri heş birindən artıx, əskik dəyil. Amma Xüdabəndi-həqiqətin gücə çarı deyil, əyriynən arası yoxdu bustanəsiz. Allah köməhlıx eliyir. Guvərçin çəkilir zağaya, tərlan çəkilir eşiyə. Bir saat orda fəqət buların cəngiləri çəkir. Tərlan çəkir eşiyə, gövərçin çəkir zağanın içinə sarı.

Baxçalar gətirib tamam var olsa,
Dostum baxçasında dolu nar olsa.
Bir iyidə qənim ollam, yar olsa,
Dünyalar yığışsın, dağıda bilməz.

Nəzəri olsa bir adamın üsdündə, məmləkətdər bir olub, heş zad eliyə bilməzlər. Allahın nəzəri var. Çəhdi gövərçinin dərisin bədənindən cırdı, tək cırmağıynan Nəcəf şəqqildiyib oldu anadan doğma. Lümbülümlüt zağanın qabağındadı. “Mərhaba” sədası aşağıdan bülənd oldu əçmağına. Qırx atdı ki, dağ oldular Əlvəndi dağının dövrəsin tutdular. Çıxdılar on-on beş nəfər üş tərəfdən kəməndi atdılar zağanın üsdünə. Nəcəf əlin atıb kəməndi tutdu. Kəndirin düyünlərindən daşdan-daşa dırmaşıb çıxdı Əlvəndi dağının üsdünə. Əhməd xanın atlıları gördülər yügürdülər. Keşdi daşın dalısına, tələsik şalvarın, köynəyin giyib Nəcəf, bir dənə köynək, bir dənə şalvar giydi əyninə, yapışdı kəmərindən daşın dalısından çəhdilər. Əl tərlanı kimi dağdan əndirdilər, Əlvəndi dağının ətəyinə baxun. Həmədan valisi Əhməd xan belə baxanda Nəcəfə, paho, gördü, bir yerə baxdı, bir göyə. Səsləndi:

– Xüdaya, çox şükür eliyirəm dərgahı-cəlalinə. Yaxçı oğul yetirdin mənə.

Bir dənə qızı var bunun dünyada bir dənə qızı. Adı da top-tüfləsi kimi çox ağırdı Həmədan valisi Əhməd xanın. Dəs-

tur verdi, çadır otağı qurular. Çadırları qurdular. Həmədan valisi Əhməd xanın da çadırın qurdular. Nəcəf də əyləşib çadırda öz yanında. Qurbannıx kəsdi neçə dənə, davardan kəsdilər, ətdərin payladılar. İndi oturublar, yeyirlər, içirlər. Atlılar gülür, danışır, oynur, oxur. Nəcəf qəm dəryasının içindədi. Niyə? İndiyə qədər öz gücündə idi. Deyirdi, ilahi, görəsən bir gün olacaxmı Nəcəf olam, mən bu tilsimdən qurtulam. İndi qutuldu. Yuxarıda Allah, aşağıda Həmədan valisi Əhməd xan nəcat verdi qüvvəsinə. İndi əmqızı Pərzad nizəkan oldu gözünün qabağında. İlahi, əmqızı mən ki Alxasın çəmənində düşdüm çadıra, əmiqızı ordan Misirə qayıtdı dübarə getdi, ya İsfahana getdi. Ya bu gözəllıx ki, əmqızıda – Pərzadda varıdı, tay İsfahana çatana kimi bu nökər, nöyüd, tacir, tüccar, mirzələrin əlindən nə cür oldu bu? Sərdünişi nə cür gəldi? Genə qəm dəryasındadı. İndi bunun nəzərində dinmir, danışmır. Həmədan valisi Əhməd xan belə baxanda qəlbində dedi, oğul, səni Allah mənə oğul yetirib, aparaceyəm Həmədanda toy eliyəm, oğlum eliyəm səni. Qəlbində deyir. Gördü Nəcəf çox tutulub.

– Oğlum.

– Bəli.

– Bir mənə bax.

Səsləndi.

– İndiyə qədər elə bil ölüydün, torpax altında. İndi təzədən dirilmisən. Ya ana qarnındaydım, buyün gəlmişən dünyaya. Oxumax, gülmax, oynamax sənin malındı. Daha da qərq oldun qəm dəryasına. Mənə de görüm, sərdimçin nəmənədi?

Nəcəf götürüb belə baxdı, səsləndi:

–Ağayı-Əhməd can, icazə versən, qoy sənə dərdimi ərz eliyim.

Gözlər bulud kimin dolub, yaşı tökülür:

Fələyin əlindən şikayətim var,
Bu dünyada tənha qalan mən oldum.

Əyyub kimi canda yara bəslədim,
Şəmdə pərvanə tək yanan mən oldum.

Əyyub həzrəti Əyyubi diyir ha. Min bir qərə vermişdi haa.

Əlvən gedib ala gözlü həmdəmim,
Artırdı günbəgün möhnətim, qəmin.
Nuh tək qərq olub gəmim,
Gəmiçi girdabdan qalan mən oldum.

Sübh tezdən mən çağırram Sübhanı,
Leyli, Məcnun, Şirin söylə, bəs hanı?
Yusuf tək itimişəm o Züleyxanı,
Yaqub tək cəhanda qalan mən oldum.

Həbib Nəcəf qədəm qoydum bu dağə,
Bənövşələr sərməşiblər butağə.
Zənəxdandan pəri sevdim Buxara
Gözəl sövdim, Şeyxi-Sənan mən oldum.

Həmədan valisi Əhməd xan bu sözləri bundan ki, eşidib, gördü, çox sərvədi. Aparım gedim şəhsində, bəlkə bunun qəlbi açılar. Fərman verdi, çadırlar söküldü. Qırx atlı atlandılar atlarının üstünə. Nəcəfi götürüb söhbətdən ərz olunan dərvazeyi-Həmədandan güllə kimi keçib içəriyə. Əlvəndə qulamlarına deyibdi ki, həmin libası təmizləndi, libasın əvəz eliyip, gətdilər tapşırdlar Həmədən qazısına. İndi dizbədiz əyləşiblər. Yanında əyləşdi, söhbətdədilər. Fikri bunun cavabının, gözəlliğın yanındadı. Xüdaya, qəlbindən keçir, yaxçı oğul yetirmisən mənə. On gündü buyün Nəcəf Həmədan qazisiynən bir yerdədi bustanəsiz. Narın-narın söhbət eliyirlər, danışırlar. Bunun qızı Xanı xanım çıxıb bazara görüdü, baba, tar çalanlar, aşıqlar oxurlar, sözlərin axırın döndərirlər Nəcəf adına. Buyünlərim bu ətası oxuyan elmidən qız da oxuyub. Qızına da örgədib. Dayəsiynən əyləşiblər.

– Dayə can.

– Bəli, xanım.
– Dayə can, qurbaının kəsim, bu oğlan ki, cadudan atam qurtarıb gətirib şəhrisinə. Bu oğlan nə cür oğlandı?
– Məgər, xanım, görməmişəm nə cürdü?
Dedi:
– Xeyir, görməmişəm.
– Niyə soruşursan?
Dedi:
– Bu gün çıxmışdım bazara. Aşıqlar musiqiçilər hər kəs ki nə bəndi oxur sözlərin başdır Ağa Nəcəf adına.
Dedi:
– Xanım, şikargah bağında seyr elirlər bir saat, iki saat dolanırlar, qəyidirlər gedirlər. Mən billəm bu cavanı buyün.
Dedi:
– Mümkün dəyil. Nahardan sonra gəlax ataynan bağa da.
Dedi:
– Bəs, dayə can, biz qabaxdan gedax əyləşax bağda, ta bu cavanı görüm. Görüm bu nə cür oğlandı.
Qız dayəsin götürüb, sübh yetirdi şikargah bağına. Dayə səsləndi, bu qapıdan gəlirlər, çıxanda o birisi qapıdan çıxırlar.
Qapıdan əlli qədəm, yüz qədəm içəridə böyük qızılgül kolu var, sayəlidi. İndi döşəsədi, təkdi, xəlçədi, nəmənədi saldı qızılgülün kölgəsinə, dayəsiynən əyləşdi kölgədə. Elmi dilinin ucundadı. Elmi oxuyub bu yerə yetirib də. Elmi oxudu ağzında püflədi sağ-soluna. İndi bu hammıyı görər, amma bağa gələnnən əslən bunu görməzlər, bu kölgədə oturub. Elə bil seyri oxudu. Əyləşib dayəynən söhbətdədi. Saat üş varımı, dört mizanın da gördü, bağbanı bağın qabağında, qapıları açıb dayadı duvara. Yetəndə gördü, qabaxda atası Əhməd xandı. Dalısında bu oğlan, sağ tərəfində vəziridi. Üş-dörd nəfər ağsəqqəllərnən, alimlərnən bular varid oldular bağa. Qızın gözü təh Nəcəfə sataşmaqnan Nəcəfin iki qaşının arasından bir ox

dəlub düz qızın ürəyinin başını hədəf elədi. Daldan kürəklərin sümüyü sındı, bu yoğuruluxda söyüd dalların apardı atdı o tərəfinə. Dust əzizlər, bu adam öldürən oxları demirəm haa, məhəbbət oxlarından dəyir. Deyir:

– Dayə canı, amandı ixtiyarım əlimdən getdi, dayəcan. Yıxıllam, ağlım gedər.

Dedi:

– Xanım, narahat olma. Elə sən tutan dərddən mən də tutmuşam. Qocanın nəfsi cavankindən itidi. Hər hususda.

İndi gəlir at, qız gözünün qabağından qoymuyub ayrı o tərəfə. Addım-addım üst tərəfdən baxır. Elə ki keşdilər o taya, dalısı pisdi, qıza sarı. Daldan boyuna baxıb gözəllığına baxıb: "Ey ilahi, sən xəlq eləmisən bu cavanı yer üzündə? Tapılar tayı bu cavanın yer üzündə?" Bulardan qızın ta qəlbindən keçir. İndi bir saat, saat yarım Əhməd xanla bular bağda dolandılar, seyr elədilər, gəldilər, qapıdan çıxdılar getdilər, qəyitdilər məclislərinə.

Qız davam gətirəmmədi, atasının dalıca varid oldu məclisə. Məclisdə vəzir-əzəm əyləşib hərə öz (səndəlinin) istolunun üsdündə. İçəri girdi, salam verdi, amma ağlıya-ağlıya salam verdi. Elə ilik bağlıyıb gözündən yaşı töküb, baharın buludu elə bil, abı-leysan yağışıdı.

– Qızım, nə olub axı bəyəm, niyə ağlıyırsan?

Elə ağlır.

– Canım, de görüm, qızıma nə olub, bəyəm? Niyə ağlıyırsan?

Qız başın rovzadı:

– Atayı-mehriban, mənə çox olub.

– Axı mənə de görüm, niyə ağlıyırsan?

Səsləndi:

– Atayi-mehriban bu oğlanı ki, seyri-cadıdan qurtarıbsan gətirmisən, əyləşmisən yanımda. Bunnan soruş, görax, bunun

həqqi nəmənədi? Mən dayələr, kənizlər başında getmişəm bazarlığa, hamama xapaxap gəlib hamamın qapısnı örtüb, girib gürültüynən hamama, mənim üryan bədənimi görüb. Mənim bədənimi səhvidi. Dayə, kənizlərimin də bədənini görüb.

Həmədan valisi getdi fikrə, gördü on-on iki gündü, on beş gündü bu cavan mənim yanımda. Mənim yanımdan bir qədəm çəkilmiyib o yana. Anladı qızı, bunu görüb.

– Qızım.

– Bəli.

– Naməhrəm adam sənin bədənini üryan görüb?

– Bəli, atacan.

Dedi:

– Qəbleyi-məlhəm eliyim da.

Dedi:

– Atacan, başım çıxmır bu sözlərdən. Yani nə cür məlhəm eliyə?

Dedi:

– Səni verim bu oğlana, toyunu eliyim, məlhəm olum da. Day ayrı adam sənin üryan bədənini görməsin.

Qız ağlıya-ağlıya səsləndi:

– Atayı-mehriban. Gərək verəsən də. Verməsən də olmaz da, bunnan bir yarı adam mənim üryan bədənimi görmüyə.

– Qazı.

– Bəli, ağayı-aləm.

– Mənim qızımın əğdini oxut tey bu oğlanın adına.

Xanı xanımın kəbini kəsildi Ağa Nəcəfin adına.

Bədəl Nəcəf İsfahanda, Şah Abbas tanımır bu qızdı, vəzirin qızı Nazı-dilbəri verib, Nəcəf adına kəbini kəsilib. Amma o orda qız əsil Nəcəfin dədəsinə qəza namazı qıldırdı. O, börk də qoydu vəzirin qızının başına. Vəzir qızı da bilmədi bu oğlandı, ya qızdı qadındı. Dədəsinə qəza namazı qıldı bu. Ərus gecəsindən başdıyıb, yeddiyə qədər dədəmə namaz qıla-

ceyəm – qəza namazı. Bədəl Nəcəf İsfahanda evlənib əsil Nəcəfi də Həmədan valisi Həmədanda evləndirdi. Həmədan bəzəndi, xiyabanlar bəzəndi, xiyabanlar bəzəndi, necə bəzəndi. Çılçıraxlar qurulib, gün kimi çırax yanır hər tərəfdən. Hər tərəfdən necə yanır, necə yanır. Nəcəf Həmədan valisi Əhməd xan oğlan toyu elir qızına. Şikargah bağında bulara ərus otağı eliyib. İndi bunun nəzərində buyün yeddi gün təkmildi gecəbəgünüz bir yerdə söhbət elirlər. Cəlli-cəlalətin içindədilər. Buyünlərim Nəcəfi gətirib, qızın bağında təbil verdilər qıza. Ərus qaldı Şikargah bağında peşkəş elədi bu oğlana, Nəcəfə. Həmədan valisinin qızıynan Nəcəf Həmədanda ərus otağında söhbət elirlər, danışırlar. Ta bir gün, beş gün, on gün, qırx gün, qız gördü, bu cavan çox belə içəri baxır.

– Ay Nəcəf!

– Can, nazənin.

Səsləndi xanım:

– Ağa Nəcəf, qurbanın kəsim, əgər darıxıb eləsən, atamdan icazə alım, sərbaz versin, qulam versin, çıx dağlara, şikar ela.

– Bir elə iş olsa, elə bir yeddi ərxədən dönənin gedir behiştağı. Mən çox darıxıram.

– Bə mənim gözüm üsdə.

– Ağa Nəcəf, sən əyləş burda.

Qız yerindən qalxıb yetirdi atası Əhməd xanın yanına.

– Salam, ateyi-mehriban.

– Aleykümə salam, qızım.

– Atayı-mehriban, qurbanın kəsim, gəlmişəm icazə istirəm Ağa Nəcəfə.

– Qızım, nə icazəsi?

Dedi:

– Sərbaz verəsən, başında çıxa Əlvəndi dağlarına şikar eliyə. Darıxıbdı Ağa Nəcəf.

Səsləndi:

– Qızım, bir ləşkər, qoşun mənim ixtiyarımdadı. Mən də ixtiyarımı vermişəm Ağa Nəcəfə. Onu həmi damand eləmişəm özümə, həmi oğul eləmişəm özümə. O nə zaman gəldi sərbaz istədi məndən, şikarə gedə, mən dedim, yox, getməginən? Hər zaman göylü şikar istəsə, sərbaz götürüb gedər dağlara, şikar eləsin.

– Afərin, ateyi-mehriban, Allah sənnən razı olsun.

Qəyidib səsləndi:

– Ağa Nəcəf, qurbanın kəsim, indi icazə olundu dağlara şikarə çıxasan. Hər zaman getsən şikarə, atam sərbaz verir.

Sərbaz götürür, Həmədan dağlarına çıxır, Əlvəndi dağlarına şikarə, görax nə cür cavap gətirəcax.

İndi Xanı xanım atasından icazə alıb, Nəcəf Əlvəndi dağlarına çıxa şikarə bustanəsiz. Gəlib dedi:

– Ağa Nəcəf!

– Bəli, xanım.

– Ağa Nəcəf, qurbanın kəsim, atamdan icazə aldım, hər dəyqə çıxsan dağlara şikarına, azatsan.

Savasına Ağa Nəcəf qalxır yerindən, libasın geyinir əyninə, gəlir Əhməd xandan icazə alır. On nəfər sərbaz götürüb başında, mindi atın üsdünə, dərvazeyi-Həmadandan çıxdı. Əlvəndi dağlarına şikar eliyir. Şikarə gedə, dağların ətəyinə çatanda göz sataşdı Alxasın çəməninə, atı saxladı, sərbazlara dedi:

– Dədələrim, qardaşlarım, siz gedin dağlara şikara, mən enirəm bu Alxasın çəmıninə. Mənim bu çəməngahdan xoşum gəlir. Bulaxlarının suyu yaxşıdı, otu xoşdu, gülü gülahı çoxdu. Ənirəm çəməngahda, şikar elirəm.

Dedilər:

– Ağa, eybi yoxdu.

Sərbazlar dağıldı çöllərə, dağlara. Olar getdi. Ağa Nəcəf əndi Alxasın çəməninə. Atın üsdündə dolanır bustanəsiz. Do-

lanır, o yerdə ki, çadır qurulmuşdu, oranı tapa. Neynir tapa oranı, çadırın yerin?

Bir xanə saldırdım yar əyəğinə,
Gözəllər məskəni yar əyəğinə.
Abbas, əlin çatmır yər əyəğinə,
Döşən, döşək eylə, xalı sal barı.

Yani otduğu yerləri ziyarət eləginən. O nəzərinən ki gedib, o çadırın ki yerin tapa orda tilsimə düşüb, əmqızının çadırında oranı ziyarət eliyə. Onnan ötürü axtarır çadır yerini. Dolandı, tapdı bustanəsiz. Gördü, bəli, orda tacir-tüccarların çadırların qurmuşdular, yəxtənlərin o yerdə vurmuşdular barxana bizim də əmqızımnan mənim çadırımı qoşa burda qurmuşdular. Beş qədəm bir-birindən aralıydı. Bu yeri əmqızımın çadırıdı, Pərzadın o yuxudaydı. Girdim onun çadırına, istədim nazınan oyadam. Əlimi vurudm sinəsinə, dəydim duaya, mən düşdüm tilsimə. Atın cilovunu ağzından alıb, sərbi yəhərin qaşına. Atı ötürdü çəməngaha, dedi:

– Heyvan, bulaxların suyundan istifadə eləginan suyussan, o tərəfdən acıxdın, yeginən.

At çəməngahda dolanır. Onnan işim yoxdu. Nəcəf yetirdi o yerə ki, əmqızının yataq yeri kıravat deməkdi, burda qurulmuşdu. Burda düşmüşəm cadıya. İki rükət hacət namazını qılıb, üzün qoyub torpağa. Bayatı diyir öz-özünə, ağlır, gözündən yaş tökülür. İlahi, burda mənim əmqızım Pərzad Misirə qayıtdı. İsfahana getdi, nə cür işlər gəldi bunun qabağına, ya başına. Bulardan deyib ağlıyır. Ağlıyan adam xəstə olur. Xəstə olan adamı yuxu tutar. Nəcəf ağlıya-ağlıya üzüquylu burda yuxu tutur. Bir zaman ayılır, görür, gün əyilib, ikindi yeridi. Belə baxanda gördü çəməngahın o tərəfində də bir tacir düşüb, çadır, otax qurulub. Təzə gəliblər, mən yuxluyannan buyana gəliblər yetirib bura. Atı savurub, mindi atın üsdünə, gəldi bu tacirlərə sarı, görüm bu tacirlər kimdilər, har-

dan gəlirlər, hara gedirlər. Yaxınlaşanda belə baxanda gördü öz tacirləridi.

– Salam, ağayı-tacirbaşılar.

– Əleykümə salam, ağa.

– Ağayı-tacirbaşılar, qurbanın kəsim, bu qəflə kimindi? Tacirbaşınız kimdi?

Dedilər:

– Ağa Nəcəf.

Vay, Ağa Nəcəf mən özüməm də, qəlbində diyir də. Gördü bu tanıdı tacirləri, amma tacirlər bunu tanımır. Bu Ağa Nəcəfdi, tacirbaşlardı:

– Ağa Nəcəf?

Dedi:

– Bəli.

– Ağa Nəcəf, tacirbaşınız, ağayı-tacirlər hardadı?

Dedi:

– Allah veribdə harada?

Dedi:

– Necə?

Dedi:

– Əlvəndə gəlmişdıx alevərə getdıx. Misirdən qəyitdix salmatdıxınan, bir dənə töhə düzəltdi verdi Qulamın başına, apardı qoydu Şah Abbasın qabağına. Şah Abbas, tüm siftə töhə gətirmişdi, vəzirin qızı Nazı-dilbəri də verdi. Yeddi gecə-günüz İsfahanda Şah Abbas toyunun xərcin qoydu, toy elədilər. Dedi, mən sənin atanam, sən mənim oğlumsan. Ərus otağındaydılar, day bu dəfə alverə getdıx, istəmədıx narahat eləsinlər. Ərus otağından çıxcax, gələcax bizinən gələ alverə? Qalıb, İsfahandadı, amma bu dəfə qəyidəndə, Allah diyən olsa, yanımızca gətirəcəyıx, tacirbaşımızdı.

Can-can, əmqızı, qurbanın kəsim, gördün Nəcəf adına özün gör necə işlədin. İlahi, bə bu nə cür olub? Mənim Qula-

mım bunu tanımıyıb, nənə-bacım tanımıyıb. Tacirlərim onu tanımıyıb. Şah Abbas ki bunu tanımıyıb, bu qızdı, ya oğlandı. Vəzirin də qızın verib buna toy eliyib. Afərin, əmqızı, qurbanın kəsim, əmqızı. Gördü, Nəcəf adı İsfahanda lap top səsi kimi hamının qulağına çatır. Amma bədəl Nəcəfdi, ərz elədim. Dədəsinə qıza namazı qıldırır, vəzirin qızına. O tanımır da.

– Ağayi-tacirlər.

– Bəli, oğlum.

Dedi:

– Mənim bir dənə naməmi tacirbaşınız Ağa Nəcəfə aparasız?

– Olar, aparrux. Ağa, kimsən axı?

– Mən Həmadan valisi Əhməd xan damədiyəm.

Elə bunu eşidəndə tacirlər xırıltıynan qalxdı ayağa. Qalxdı əyağa, bustanəsiz, nə ehtiram eliyə, səsləndi:

– Atalar, babalar, mənə xəcalətdıx verməyin.

Əhməd xanın adını eşidilər butanəsiz ha. Oğul oturur bir məclisə, dədə salamatdı, sağdı dədə. Dədəmin sağlığında bu oğlan bu məhəbbəti millət, camaat eliyib, oğlanın qoltuxları yellənir. Elə bil ki, özünün sifətdərinə, oğlanlığına bular bir ərzi-qail olur. Elə ki, atası aradan gedəndən sonra görür, o ərzişin onnan bir dənəsi qalmadı. Camahat o ehtirama ərzişi mənə qoydu, indi baxtı silindi. Bəs mənim dədəm sağdı. Dədəmin xətirinə mənə bu ehtiramı eliyəydilər.

Abbas diyər, dörd bir yanım dağ ola,
Bağrım başım çallı-çarpaz dağ ola.
Bir oğlan ki, ata, anaya ağ ola,
Səqqəli əğarsa, genə gülməz.

Validеyin işi ayrıdı. Ölən günə kimi üzü gülməz. Nuşicanlıq iylə çörək yeməz, hər yerə pula görə dövləti da olsa, pulu olsa, valideyin işi ayrıdı bustanəsiz.

Həmədan valisi Əhməd xan daməndinin buna bu ərzi ki, ehtiramı qoydular. Ağa, ver naməni aparax. Səsləndi, namə dilimin ucundadı. Mən diyim, siz yazın kağıza.

– Bəli, buyur görax.

İndi əsli Nəcəf bədəl Nəcəfə namə göndərir Həmədandan. Görax nə cür göndərir:

Tacirlər, getsəz şəhri-İsfahanə,
Yetir ərzi halım yarə, bəzirgan.
Əgər qəyitsaz, bu şəhri-Həmədanə,
Yazsın ağ üstündən, qarə bəzirgan.

Tacirin ki, mizrəsi ki qələm əlində Nəcəfin ağzından çıxan sözü yazdı naməyə:

Bilməm, saqi, nələr etdi bu dünya,
Qürbət yerdə düşdüm sehri-caduya.
Naməmi yetirin o Pərzadıya,
Həsrətəm qoynunda narə, bəzirgan.

Nəcəf burda fikir elədi. Gördü burda sirri açılacax. Beş gün, üş gün, beş ay, üç ay burda Həmədan valisi Əhməd xanın qızını almışam. Bəs nə cür eliyim? Götürür Əlvəndə, sözün düzün atır meydana. Sözün əyirini atmaginən ki, meydana düşən dərdi-sərə, kələyə keçəm. Düzün desəm, mümkün deyil, nəcat ola biləyəm. Düzünü deməsən, iş burux düşər. Bəs neyniyim? Götür, elə Əlvəndə deginən:

İtirmişəm gülşanımı, gülümü,
Siyah tülmən məst eliyip gözümü.
Səvdim burda Əhməd xanın qızını,
Düşmüşəm elimdən arə, bəzirgan.

Əldə saxlır vicdan oxun səp-səpi,
Sinəm olub nazlı yarın hədəfi.
Əgər xəbər alsa, deynən, misgül gördüm Nəcəfi,
Yanıb pəği bir qurum arə düşübdür, bəzirgan.

– Ağa mirzə, görüm naməni.

Naməni belə verdi Nəcəfə, Nəcəf namənin sözlərinə belə baxdı, baxdı, baxdı, gördü, necə ki, ağzından çıxıb tacirin mirzəsi mirrəddəb yazıb kağızın üsdünə. Qələmi aldı əlinə, özü kağızda tovdu geri. Əvələn salam, ikinci hal-sanlı, üçüncü yazdı, əmqızı, qurbanın kəsim, sənin dərdin məni az qala xəta eliyə. İndi şad oldum. Eşitdim İsfahanda mənim adıma özünü yerbəyer eləmişəm. Saxlaşdırmısan özünü. Bu naməni sənə yazıram. Şəhri-ramazanda Alxasın çəmənində bu naməni yazıram. Çün tacirlərim, çün mən tacırlarımı tanıdım, amma bular məni tanımadılar. Həmədan valisi Əhməd xan seyri-cadudan mənə nəcat verib, məni qutarıb, gətirib Həmədana, Həmədanda oğul eliyib özünə, həmi damənd eliyib özünə, həmi oğul. Qızı Xanı xanımı verib mənə. Özü ki, o elmi oxuyub, qızına da örgədib o elmidən. İsdiyəm qıçıma arz açıqoyam, mümkündü qız mülamı çala, genə qalam uzağda. Amma isdirsən, mən səni görəm, sən məni görən, bir yerdə oturax söhbət eliyax, bu namə biliyəm yetişmağıynan nə qədər mənim familim var, qohum-əqraba, tayfa, talıp, dustum var, onların hammısın adın yazacağam kağıza. Həmədan valisi Əhməd xanın məxsus özünə yazyam bu naməni. Axırda yazasan ki, ağayı-Əhməd xan, eşitdik, çox şad oldux. Allah sənnən irazı olsun, biz səndən irazı oldux. Bir belə cəmaət gələr Həmədana, mümkündü narahatçılıx olar. Yeltən qıla. Amma bir nəfər adam yollasa, gəlsə İsfahana, bir nəfər adamın elə İsfahanda nə cür olsa, yeri var. Müddətdi ki, Ağa Nəcəf cadıdaydı. Bilmirdi, bu qutulacax, ya qutulmiyacax. İndi annadux, sən nəcat vermişən beləsinə, qurtarmışam sehri-cadıdan. Sənnən xahiş edirəm, Ağa Nəcəfi yolla gəlsin. İsfahanda bir Nəcəfdən ötürü bir belə cəmaətin gözü yoldadı, gecəbəgünüz. Biz də bir Nəcəfi ziyarət eliyax. Elə Nəcəf sənin oğlundu, bizim də dustumuzdu, qohumumuzdu. Sənnən çox xahiş elləm, Ağa Nəcəfi yolla gəlsin İsfahana. Biz

də onun bir didarın ziyarət eliyax. Əgər bu naməni yazdıran mümkündü. Bir yerdə görüşax, danışax, oturax İsfahanda mənnən bir yerdə. Bu naməni yazmasan, didarı qaldı qiyamətə. Həmədan valisi Əhməd xanın qızının qorxusundan belə addımımıda eşigə və ya kənara qoya bilmirəm. Qoysam bilirəm ki, salacax həmin tilsimə. İndi Ağa Nəcəf tacirbaşı qoydu paketa, verdi tacirbaşıya. Dedi:

– Tacirbaşı, sənnən xahiş eliyəm, bu naməni İsfahanda tacirbaşınız Ağa Nəcəfə verin.

Tacir öpdü kağızı, qoydu qoynuna. Bularnan əl verdi, əl aldı, mindi atın üsdünə. Gəlib dağdan sərbazların səslədi, yığdı başına, qəyitdi gün batan çağı şəhrə. Dərvazeyi-Həmədandan girdi içəriyə, bir dünya qəlbi açılıb, işıxlanıb. Niyə? Anladı əmqızı öz yerində, İsfahanda işlədir də. Qəyitmiyib Misirə, İsfahandadı. Yerin bildi, irəngi gəlib üzünə, şaddı. Həmədan valisinin qızı gördü Ağa Nəcəfin yüzə doxsan irəngi gəlipdir üzünə. Səsləndi:

– Ağa Nəcəf, qurbanın kəsim, buyün şadsan belə, çox əntiqə, çox xoşsan. İrəngin də düzəlibdi haa. Dünən, irəli gün çox narahat idin.

Dedi:

– Xanım, çıxdım Əlvəndi dağlarına şikarə, bir qədir dolandım, zihnim açıldı. Allah sənnən razı olsun.

Dedi:

– Haçan darıxdın, hər zaman mənə denən, icazə alım. Min atını, get dağlarda seyr eylə, şikar elə, dolan, qayıt gəl.

– Allah sənnən irazı olsun, xanım. Bildim.

İndi əyləşib, Həmədan valisinin qızıynan. Bir yerdə şikargah bağının səxdimanlarında söhbət elirlər, danışırlar.

Sizə deyim kimdən? Tacırlardan. Tacır səhər vaxtıydı, fərman verdi, çadır söküldü. At-qatırın yəxdənlərin çatdılar belinə, özü qabaxda, tacırlar sağ-solunda, dalıyca üz döndər-

dilər İsfahana sarı, gəlirlər. Söhbətdən ərz olunmaz dərvazeyi-İsfahandan bular varid oldular içəriyə. Getdilər kərvansaraya. At-qatırın belindən yəxtənləri aşdılar, vurdular bərxanaya. Alverdən gəlirlər. Özləri bir kəmin əyləşiblər, istirahətdıx eliyirlər. Nəcəfə xəbər verdilər. Ərz elədim, bu bədəl Nəcəfdi haa. Vəzirin qızıynan otaxda qəza namazı qılırlar əsil Nəcəfin dədəsinə. Xəbər verdilər:

– Ağa Nəcəf, tacirlər alverdən gəldi. İstirahətdıx elirlər.

Belə döndü vəzirin qızına, səsləndi:

– Nazı-dilbərim, qurbanın kəsim, xanım, sən namazıyı buraxma haa. Sən namaz qıl, neçə rükət qılsan, qənimətdi. Mən bir tacırlarımla söhbət eliyim, görüm zərər, ziyanları xoş dəyil ki. Nə cür gəliblər?

İşarətinən dedi, namazı buraxa bilmirəm, işarətinən dedi, xoş gəldi, get sən.

O gedəndən sonra vəzirin qızı keşdi əyləşdi, qəşəng eşqindədi, kefindədi, söhbətindədi. Nəcəf pillələrdən çıxanda düzəlir, üzünü döndərir qibləyə, başdıyır namazı deyir. Namaz qılıram. Bu cür qılır namazı bustanəsiz. Yetirdi tacırıların yanına.

– Salam, ağayı-tacırlar.

– Əleykümə salam, ağayı tacirbaşı.

– Buyur, görax.

Keşdi, əyləşdi:

– Ağayı tacirlər, nə cür gəldiz. Nə cür yetdiz? Misirdən gəlibsiz?

Dedi:

– Bəli.

– Alveriz nə cür oldu?

Bunun alverinən nə işi var? Bunun fikri dəyqəbədəyqə əmoğlu Nəcəf yanındadı. Dedilər:

– Ağayı-tacirbaşı, yaxçı gəlmişıx. Zərərimiz yoxdu, qazancımız da müxtəsər var.

Bunun zərər-ziyanla, ərz elədim, işi yoxdu.

– Gəldən, getdən, yolda-filanda söz-möz olmadı?

Dedilər:

– Xeyir, Ağa Nəcəf. Hər an gəlidi xidmətizə.

– Alxasın çəmənində çadırda buluşmuşduq. Həmədan valisi Əhməd xanın daməndi üzü oldu bilə bizə, bir dənə namə verdi sənə gətirəm.

– Aha, görüm naməni.

Elə naməni Pərzadın əlinə verəndə, naməyə ki baxıb, hələ paketdən çıxartmıyıb, gördü əmoğlu Nəcəfin qoxusu xutan ətirinin qoxusu kimin bürüdü aləmi. Aşkara sala bilir özünü, səvindiyindi. Saflaşdırdı özünü.

– Ağayı-tacirlər, siz istirahatdıx eləyin. Mən də gedim bu namədə baxım, görüm nələr yazıb, kimdi, nəmənədən ötürü yazıb.

– Xoş gəldin, ağayi-tacirbaşı. Gözüm üsdə.

Qəyidib Pərzad gəldi pillələrdən çıxdı, getdi istirahətdıx otağına. Keşdi öz otağına, namənin möhrün sındırdı. Elə ziyarət eliyir naməni bustanəsiz.

Şaddıx naməsini yarə yetirin,
Dust şad olsun, düşman girsin qarə, hey...

Qızı biy dünya şaddıxnan əmioğlunun naməsini oxur. Gördü Həmədan valisi Əhməd xan nəcat verib, cadıdan qutarıblar. Gətirib şəhrisinə, qızı Xanı xanımla verib beləsinə. Pərzadın qəlbindən keşdi, əmioğlu, qurbanın kəsim, bir Xanı xanım Həmədan valisinin qızı gəldi sənə, uruna biliş yoxdu. Əli milyon dənə o cür qızlar sənə gələr, hammısının kiçiyi mənəm. Hamısına kəniz olaceyəm. Hamısına kiçiy olaceyəm. Naməni qoydu qabağına bir böyük hava. Əvələn salam, ikinci əhval-cannız, üçüncü yazdı irazı bənddıx. Ağayı Əhməd xan, Allah sənnən irazı olsun, biz sənnən razuydux. Yazdı həqqətən Nəcəfi tanıyannar var, tayfa-tapı, əmioğlu, bibioğlu, xələ-

oğlu, nənə, bacı – buların hammısın adın saldı kağıza. Axırında yazdı, Ağayı Əhməd xan, bir belə adamın gözü, bir Nəcəfdən ötürü gecəbəgünüz gözümüz yoldadı. Sənnən xahiş eliyirik, Ağa Nəcəfi yolla gəlsin İsfahana, biz də bir ziyarət eliyax. Müddət düşüpdü, qismət gözümüz yoxdu görax. Yazıb, aşağısına da yazdı, Ağa Nəcəfin nişanlısı Pərzad. imzasın qoydu üsdünə. Gördü, sözün düzü, meydana gəlsə, yaxşıdı. Əyrisi gəlsə yox. Bu da o fikir elədi. Gördü, əmioğlu Nəcəf yazıb ki, mən Həmədan valisinin qızını almışam. Bu da yazdı Nəcəfin bir nişanlısı mənəm, İsfahandayam. Adım Pərzad. Kağızı qoydu pakedin arasına. Səhərisi də gəldi səsləndi tacilərə:

– Alverə gedəniz var?

Səsləndilər:

– Ağayi-tacibaşı, beş-altı gündü gəlmişıx. Gedəcayıx, amma indi hələ bu tezdıxda yox.

Dedi:

– Ayrı yerlərə yox. Bir yüngül matah götürün, Həmədan matahı, həmi bu namənin cavabın aparın Həmədan valisi Əhməd xana. Həm də bir yüngül alver eliyin Həmədandan qəyidin İsfahana.

Bu tacirbaşıdı, qəsri verdi, gərək gedəsiz. Qalxdılar, bir yüngül matah götdülər Həmadan matahı ki, Həmədanda satıla. Naməni də verdi tacirbaşıya. Tacirbaşı qoydu qoynuna. Dedi:

– Həmədanda Əhməd xana verəcəksiz naməni.

Nəcəf də əyləşib pəncərənin qabağında gecəbəgünüz gözü yoldadı bustanəsiz. Yollara baxır, gördü İsfahan tərəfindən bir toz qovzandı. Yoxunnəşəndə gördülər, tacirdilər gəlirlər. Nəcəfin qəlbindən keşdi əgər Həmədana dönsələr, Həmədan yoluna, bu namənin cavabın gətirillər. Yoxsa Misir yoluna dönsələr, namənin cavabı hələ yoxdu. Gəlhagəl, tacırlar döndü Həmədan yoluna. Həmədan yoluna dönəndə Nəcəf anladı, namənin cavabın gətirirlər. Həmməşə dururdu ki, aşkara

düşər, ya seyr eliyə dolana qıza, diyərdi Həmədan valisinin qızına. Məsələn, mən gedirəm filan yerə. Diyərdi, xoş gedibsən. İndi əslən demədi. Fikri namənin yanında, Pərzadın yanındadı. Qalxdı, pillələrdən düşdü, bağın xiyabanıynan tavna gedir. Həmədan valisinin qızı gördü, heş Nəcəf mənə demədi hara gedirəm? Özü də gedir eşiyə sarı. Gördü bağın qapısından çıxdı eşiyə. İsfahan tərəfindən tacir gəlir, olara sarı gedir. Özü-özünə dedi, qoy görüm haraya gedir, nə qədər gözdən itmiyib qoy getsin. Elə ki gördü, gözdən itə, dilimin ucundadı oxuyaram, elə ordan dönsün getsin zağaya. Bu da bunu fikir elədi. Gördü çatdı tacırlara.

– Salam, ağayi-tacirlər.

– Əleykümə salam, ağa.

– Ağayi-tacırlar, İsfahandan gəlirsiz?

– Bəli.

Gördu tacırlarıdı da. Amma olar bunu tanımır. Namə zadı göstər mənə yetişəcağız. Səsləndi:

– Tacirbaşı, namə gətimişıx, Həmədan valisinin özünündü. Ona verəcağıx.

Dedi:

– Həmadan valisinin daməndi mənəm. Siz zəhmət çəkməyin, naməni verin mənə, aparıb verrəm Həmədan valısına.

– Həmədan valisinin daməndi sənsən?

– Bəli.

Tacir naməni verdi Nəcəfə. Nəcəf qəyitdi bağa. Qız gördü, qəyitdi gəldi. Bağın qapısından girdi içəriyə bir tərəfdə bir bala havuz varıdı, saxdımanların qabağında. Bir dənə də qızılgül kolu varıdı xırdaydı. Əyləşdi. Suyu da var. Əyləşdi bala havuzun başında, qızılgülün kölgəsiində. Naməni açıb oxur, ağlıyır. Bu burda naməni oxusun, ağlasın. Həmədan valisinin qızı gördü, bu gəlmədi, əyləşdi orda. Durub səxdımanın qoluynan belə gəlib durdu Nəcəfin başın üsdündə. Gördü

kağız var əlində. Oxur, ağlır kağızı. Amma seçəmmir, uzaxdı, kağızı oxuya burda. Baxı-baxdı Nəcəf oxuyub kağızı qurtardı, bühdü, qoydu paketə, qoydu qoynuna. Durdu ki gələ qız gənə həmin yerinən qəyidib, getdi əyləşdi öz otağında otduğu yerdə. Gördü Nəcəf pillələrdən çıxdı. Gəldi qızın otağına keşdi:

– Salam.

– Əleykümə salam.

Bu qalxdı əyağa buna yer göstərdi. Əyləşib, belə baxdı:

– Ağa Nəcəf, sən hara getdin?

Dedi:

– Elə xanım, vallah, Şikar bağda bir baş dolandım, darıxırdım.

– Elə bil bağın qapısından çıxdın eşiyə. Xeyirdi, eşiyə çıxmamısan? O tacırlarnan nə söhbət elədin?

Dedi:

– Xeyir, mən tacir-tüccar görməmişəm.

– Ağa Nəcəf.

– Bəli.

– Bu havuzun başında əyləşmişdin, nəmənə baxırdın?

Dedi:

– Xanım, heş zada baxmırdım.

Dedi:

– Yox, elə bil bir kağız varıdı əlində oxurdun. Elə bil ağlamısan.

Ağlıyan adam axı gözü qızarar.

– Xeyir, xanım, niyə ağlıram? Aslan ağlamamışam.

– Ağa Nəcəf, ağlamamısan?

– Xeyir.

– Dur əyağa görüm.

– Neyniysən, xanım?

Dedi:

– Axtaraceyəm.

Babeyla gördü axtarsa, bunun yalançılığı çıxacax. Nəcəfin gözləri doludu yaşınan.

– Ağa Nəcəf, niyə narahat oldun?

Dedi:

– Xanım, narahat deyiləm. Nə sən axtarginən, mənim yalançılığımı çıxsın. Nə də mən danım sözümü. İcazə versən, sözün düzünü qoyum yerə.

Dedi:

– Bax, mən də elə onu axtarıram da. Sözün düzünü de görüm.

İndi götürüb namənin cavabını, gəlmağını Həmədan valisinin qızına Ağa Nəcəf bu cür deyir:

Dilin sənin lal edəydim, nə dedin yarın gedib,
Zülfündən olsun götürrəm, qorxuram mar incidir.
Bir neçə nuqtə ədəb xəlvərindən götürsün,
Bir dərdə tüccar olmuşam, dərd məndə car eliyib.

Yar, qapında xəstə düşüb, rəhmin gəlsin, sayılam,
Al üzündən bir cüt quşa, hər nə desən, qailəm.
Bülbül gülə, gül bülbülə, o zulfunə mailəm,
Düzdürürsən dəhanında ya sədəf, ya inci.

Əyyub kimi dərdə düşdüm, bax çiləmin dadına,
Dolanaydım nazlı yarım həm soluna, həm sağına.
Canım çıxdı, cəsəd qaldı reyyan qucağına,
Qoymayın məzarə məni, gör çarpayı incidir.

Zilfiyə şanə vuranda qaçma mənnən ixtiyar,
Gözəllığın veripdi sənə qüdrəti-pərvərdigar.
Başda Ələstun, didə kimi əldə saz,
Sənin misrin yarının geydığı zarı incidir.

Tacırlar naməni yetirdilər Nəcəfə. İntəxası bu bədəl Nəcəfdi. Əsil Nəcəf cadudadı. Belə baxdı, ey ilahi, nə cür eliyim? Naməni oxuyub qoydu qoynuna. Pillələrdən çıxdı üsdə.

– Ha belə, Ağa Nəcəf, ha belə qurbanın kəsim. Sözün düzün deginən, meydanə gəlsə, yaxıdı.

– De görüm niyə narahatsan? Nəmnədi cəryanun?

Nəcəf gözlərin bulud kimi dolub, yaş mücərgə gəlib. Elə sinəsinə tökülüb.

Səsləndi:

– Xanım, icazə ver, qoy ərz eliyim, dərdim nəmənədi?

Bir sirrim var, açıb deyə bilmərəm,
Ağlar qalıb, dost diyarı, ata-anam.
Gecə-gündüz şad oluban gülmərəm,
İllər boyu bu qəmxananda yataram.

Aha, Xanı xanım gördü oğlan mənim bu Şikargah dağı, aynalı otaqlarda aynalı duvarlarda yazılmış duvalar (sehr, cadu) ayına kimi adam görsədir, middətdə Ağa Nəcəf burda əyləşib bu otaxda buranı qəmxana hesab eliyir. Qızın qəlbindən bu keşdi. “Sən öləsən, Ağa Nəcəf, hardan gəlmisən oraya da gedəcəksən. Sən eşikdə qalmalı adam dəyilsən. Xub, Ağa Nəcəf, daha necə?”

– Xanım, icazə ver, ərz eliyim.

Dost söz-sorunda kəsrin səri,
Axur gilab kimi cəbrin, pəri.
Xanım, ya qurudu, ya dilmandı, ya pəri,
Yadıma düşəndə elə qəmə batıram.

Qız qalxdı, keşdi qapı tərəfinə. Səsləndi:

– Ağa Nəcəf, sən xiyal eliyirsən. Mən küçələrdən tapma qızam? Ya duvarlar dibindən götürən qızam? Həqqində diyəllər, kişinin balası olmaz arvada. Sən öləsən, sənin yerin elə o zağadı. Necə ki, ordan gəlmisən, genə geri oraya gedəsən.

Qız elmi oxuyub, dədəsindən örgəşib, həmin elmidən bunda da var da. Əlvən dodaxlarını tərpəşdirdi. İkincində, Nəcəf gördü ki, rənhlər dizindədi, sən öləsən, genə gedirəm həmin zağaya. Özün atdı qızın qədəmlərinə. Səsləndi:

– Xanım, qurbanı kəsim, sözün axırına qulaq asmamış nə oyun çıxa bilər? Qoy sözümün axırın diyim, onnan sora görüm, sən nə bilirsən, mən nə diyirəm. Xanım, baxdım şuxluuva tabım yoxdu, mən bunnan buyana bir dənə əslən şuxlux eləmiyəcəyəm, danışmıyacayem.

– Şuxlux?

– Bəli.

– Bu necə gəlib, Ağa Nəcəf, şuxlux olir?

Dedi:

– Xanım, şuxlux eliyirəm, qulaq as, qoy diyim sən kimsən? Xanım, şuxluğa tabın yoxdu, mən bilmədim sən bu gün şuxluğa tabın yoxdu. Mən şuxlux eləməzdim səninlə. Qulaq as gör, sən kimsən mənim nəzərimdə:

Baban xandı, özün xanlar xanısan,
Züleyxa tək sən Misrin sultanısan.
Yəqin bilmir Nəcəfin divanısan,
Qurbanındı evim, günüm, atınan.

Tapya-talıbım sənə qurbandı. Əl atdı naməni hırsnən belə çıxardıb, belə atdı qızın qabağına.

Dedi:

– Buyur, bu namə.

Qız götdü naməni əlinə. Götdü naməni əlinə, başdan oxuyub, gəldi yetirdi ətəyə. Pərzad Ağa Nəcəfin nişanlısı. Burada kağızı kəslədi.

– Ağa Nəcəf.

– Can, nazənin.

– Ağa Nəcəf, Pərzad kimdi?

– Xanım, mən ölüm, onu qər elə. Onu qərə çək. Onun adın çəhmə haa. Əslən onda ləyaqət yoxdu sənin qırx qədəmlığında peşvazıya dura. Ləyaqət yoxdu onda sənin əliyən su tökə. Sən hara, o hara?

Yazıq Nəcəfin nişanlısı, dedi, xanım, dedim onun adını çəhmə. Adın çəhmə. Bekara bərəkidi haaa. Şuxlux burdadı, nəinki aşkarın. Aşkara diyəmmir, qorxur. Genə sala biləsin tilsim caduya. Elə bil bular salıblar bunu tilsimə. O cür nəzərindən keçir.

– Xanım, şuxluxdu da bunnan bu yana eləmiyəciyəm də. Onda ləyaqət yoxdu, sənin əlinə su tökə.

– Ağa Nəcəf.

– Can nazənin.

– Ağa Nəcəf, qurbanın kəsim, gedirsən İsfahana?

Nəcəf boynun qoydu çiyninə. Səsləndi:

– Xanım, mən dedim getmiyax. Sənin necə insafın da, vicdan da yerbeyer olur bədənində. İnsafdı, bir belə camahatın gözü yoldadı gecəbəgündüz, tənha mənnən ötürü. Mənim yoluma baxırlar.

– Pərzad necə?

Dedi:

– Xanım, ərz elədim Pərzadın adın çəhməginən. Onda ləyaqət yoxdu sənin peşvazıya gələ. Əliyə su tökə, ləyaqət yoxdu onun.

– Ağa Nəcəf, qurbanın kəsim, əyləş bir burda görüm, sən burda – otaxda əyləş.

Naməni qoydu qoynuna bir əsa götürüb əlinə. Gürültuynan varid oldu atası Əhməd xanın dərbarına. Vəzirgan ki, belə dövrədə əyləşib hərə öz səndəlinin üsdündə. Gördülər, Həmədan valisinin qızıdı. Niqab üzündə qədəm qoydu içəriyə. Məşədi məclisdə atasının ehtiramını yerbeyer eliyib, qovzandı.

– Qızım, Xanı?

– Bəli, atayi-mehriban. Nə yaxşı, nəmənəyə gəlmisən? Sözüynən nəmdi?

Səsləndi:

– Atacan, icazə ver, sinəmdə bir qətər sözüm var. Onu ərz eliyim deyəm, onnan sonra görüm nə deyirsən, nəyə gəlmişəm.

Atacan, yar elindən namə vardı,
Eşidib başə gəlmişəm.
Gözü yolda qalan vardı,
Görün sənə nə həvəsə gəlmişəm.

Atacan, dağların qarı söküldi,
Axan çaylarə töküldi.
Əlim qəddi-dalı büküldü,
Görmürsən, əlimdə əsa gəlmişəm.

Qurbanındı qızın Xanı,
Gözəllər ciyəridi dani.
Atacan, icazə ver, seyr eliyax İsfahani,
Görmürsən, bir iltimata gəlmişəm.

Söz tamam, naməni qoynundan çıxardıb, qoydu atası Əhməd xanın qabağına. Əhməd xan naməni götdü əlinə. Başdan oxuya-oxuya gəlib yetirdi ətəyə. Pərzad Ağa Nəcəfin nişanlısı.

– Qızım, Xanı.

– Bəli, atayi-mehriban.

– Bu aşkarə xətdə baxmısan?

Dedi:

– Bəli, oxumuşam. Pərzad Nəcəfin nişanlısıdı. Bu cavanın nişanlısı var.

Dedi:

– Qızım, xiyalım nədi? Gedirsən İsfahana?

Nəcəf diyən sözü bu da dedi. Səsləndi:

– Atayi-mehriban, mən dedim getmiyax. Sənin vicdanın, insafın necə qəbul eliyir, bir ana dərddən ötürü, bir belə camahatın gecəbəgünüz gözü yoldadı. Nəcəfin yoluna baxırlar. İsfahan özgə yer döyül ki, xaric yer döyül ki, Həmədan, ya İsfahan.

– Bərəkallah, bərəkallah, afərin qızım. Qızım Xanı!

– Bəli, atayi-mehriban, üş gün möhlət verirəm.

Üç gün möhlət istədi. Həmədan valisi Əhməd xanın adı yer üzündə top gülləsi kimin geyinir. Gördü qız yola salır, İsfahana gedə. Eşitsələr Həmədan valisinin qızı gəlir, İsfahannan bunu peşvaz eliyəcaxlar. Gəlhagəl bir dənə atın üsdündə bir qız gəlir. Budiy? Adı da bu yekəlıxdadı Həmədan valisinin. Amma neyniyək dayə, kəniz, xacələrnən yollasam, kecavalarda camaat diyəllər ki, mənim hünərim nəmənədi və qız yola salmağım nəmənədi. Üş gün bunnan ötürü möhlət aldı. Qəyidib Ağa Nəcəfin yanına girdi. Üş gündə Həmədan valisi dəstur verdi, bir dənə kecava düzəldəsiz mənim qızıma, ərus kecavası. Üstünün örtüyünün şöhrəsi elli, altmış qədəm salsın, da günün şövqin itirə. Aynı şovqi kimi kecavanın şovqi düşə yer üzünə. Bu dəstur verib, kecava düzəldirlər qıza indi. Qız qəyidib Ağa Nəcəfin yanına. İsdir Pərzadın gözəllığını Nəcəfin öz dilindən eşidə, bilə.

– Ağa Nəcəf.

– Can, nazənin.

– Ağa Nəcəf qurbanın kəsim, atamdan icazə aldım. Gedirıx İsfahana, üş günnən sonra, amma bustəsiz bir qətər sinəmə söz gəldi, icazə versən, onu ərz eliyəm.

– De görüm, nəmənədi sözün?

Dedi:

–Qulaq as, qoy diyim.

Elə bil baxdı pahoo, isdir Pərzadın gözəllığını Nəcəfin öz ağzından eşidə.

Başına döndügüm, mehriban oğlan,
Söylə görüm, yarın nə məkanlıdı?
Eşit bunu mənim özümdən
O da mənim kimi zər-nişanlıdir?

Yəni o da mənim gözəllığımdadı? Ya mənnən qabaxdı gözəllıxda, ya dalıdı?

Ağa Nəcəf səsləndi:

– Xanım, sözü çox çox çeyniyəndə, çox diyəndə duzdan tutar, olar heş zad. Əlvəndə sənə ərz elədim, onun ləyaqəti yoxdur, sənin əliya su tökər. Vallah, billah geçsəm də, mən camahatın gözü yolda idi, mənnən ötürü. Bir müddətdi sehri-cadudaydım. Camahatı niyə doladın? Mən Pərzaddan ötürü getmirəm İsfahana. Mən ölüm adım gəl hələ.

Səsləndi:

– Ağa Nəcəf, xeyir, adın niyə gələ? Ağa Nəcəf, mən də dalı döyüləm gözəllıxda.

Gözəllər yığışır bizim qəsirə,
Həsrətimi çəkir, Şamü Bəsirə.
(Məğribnən məşriq həsrətin çəkir haa.Tərifləyir özünü).
Əgər meylin olsa, gedək Misirə,
Misir Həmədandan zindəganlıdı.

– Misirdə zindəganlıx eliyək. Misir Həmədandan şəfəcanlıdı.

Səsləndi:

– Xanım, İsfahan neqşi-cahan, İsfahanın həsrətini divanın o başından, həsrətindən gəlirlər İsfahanı görürələr, İsfahana baxalar. Bəs sən niyə İsfahan diyirsən, Misir gətirirsən dilinə?

Qız qəhqəhə çəkib güldü:

– Ağa Nəcəf, qurbanın kəsim, bu kəlməni isdiyirdim biləyinə. Amma qovl verəcəyəm, gedəcəyəm İsfahana. Pərzadın gözəllığını indi anladım.

Xarab qalsın, sellərimin qəsiri,
Mən olmuşam ala gözlərin əsiri.
Adın Xanıdı, özüm rövnaq nəsili,
İndi bildim Pərzad mənnən xoş nişanlıdı.

– Pərzadın eşqi çəkir səni İsfahana, Ağa Nəcəf. Bə niyə sözüvu çeyniysən, oynadırsan?

– Xanım, bu kitab, onun ləyaqəti sənin əliyən su töhməyə, sənin yanında əyləşə yerə, ləyaqət yoxdu onda. Sən hara, o hara?

Dedi:

– Ağa Nəcəf, əl-ayax çalma. Qovl vermişəm, gedəcəyəm İsfahana, narahat olma.

Qızın qəlbindən nəmənə keşdi. Lap gözəl olsun.

Hüsnünə maliyəm, ey mələkzadə,
Məni dərgahından qırma, a qada,
Harudu, Mariddən dəyil ziyadə,
Zöhreyi-çəngində bu giriftar olmaz.

Yeddinci arşın mələklərin adı Harıdnan Marud. Zöhreyi-çənk oların kənizidi. Pərzadın gözəllığı Harıdnan Marıdnan bərabərdir gözəllıxda. Bələ ki, dedi, Ağa Nəcəf neynəsin, görür deməsə, gedir tilsimə, caduya genə da. məcburdu gərək Pərzadı pisliyə.

Dedi:

– Xanım, onun ləyaqəti çox yoxdu sənin əliya su tökmağa. Mən onnan eşq aparmağa getmirəm. Dostu, rəfiqin gözü yoldadı, onnan ötürü.

Qızın nəzərindən o keşdi, onun gözəllığı olsa, məndə elmi var. Neyniyəcax mənə? Əgər gözəllığı mənə nişan verə, ifadəynən otura yanımda, ifadəynən danışar, deyərəm, xanım Pərzad, qalx bir əyağa, daldan bir boyuğa baxım görüm. Qovzaram vəsəti otaxda əyax üsdə biləsin. Dilimin ucundadı da. O elmi oxuyaram püflərəm biləsinə. Nə qədər dünya var buların otağın məşətindən mirzə kəm eliyə bilsin. Doğru deyil, da qız elmi oxuyubdu, gözəllıx nəyə dəyər? Heş zada dəyməz elmin qabağında bustanəsiz. Qız o fikir eliyir, buyünlərim üş gün tamam oldu. Həmədan valisi cavap yolladı, qızın bağında kecavalar hazırdı bustəsiz. Hər zaman göylü olsa getmağa,

mənim gözüm üsdə gəlsin. Ağa Nəcəf qalxdı, Xanı xanımla bahəm yetirdilər bağa. Qızın bağıdı bura. Şikarıya seyri bağıdı. Əyləşib səndəllərin üsdündə gördü, qırx kəniz, beş dayələr, xalzələr amadədilər. Kecavalar dəvələrin üsdündə qoşulub, qızın kecavası qabaxda bir nər dəvə, o dəvənin belindədi. Hər tərəfə pəncərəsi var. Seyr eləsin gedə-gedə, baxsın, seyr eləsin, şikar eləsin. Libasın əvəz eliyib, mərdanə libasın aməd eliyib qoydu buxçada, yanındadı. Mindi kecavanın üsünə dayə, kənizlər bahəm sağında və solunda bir ləşkər qoşun Həmədan valisinin ixtiyarındadı bustanəsiz. Fərman verdi, qoşun qalxdılar at belinə. Ağa Nəcəfə bir dənə at yəhərliyb, atın qızın rəhlər alnından, belə salır üzün gözün tutub, parpar parıldır. Kecavanın üsdünün örtaya yüz qədəm sağ-solda günün şövqin itirib. Ayna şovqi kimin qızın kecavasının üsdünün örtüyünün şöhrətidi. Üsdən ki gün vurur, ayna şövqi kimi calğanıb dağ-daşa düşür. Nəcəf mindi atın üsdünə, qabaxdadı. Dərvazeyi-Həmədandan üz döndərirlər, Allah versə, sağılıxnan gəlir əmqızını, inşallah, görə. Görax görə bilacax, ya xeyir. Mənzilbəmənzil, danışa-danışa gəlir. Üş ağaş qoşun sağsolunda gəldi. Üş ağaşdan sonra Həmədan valisinin qoşunu qəyitdilər Həmədana. Qızın kecavası yoluynan gedib İsfahana çatır. Qız kecavanın içindədi. Bir dənə dayəsi yanındadı. Özü də süt dayəsidi. Danışa-danışa gəlirlər, söhbət elirlər. Gördülər, Ağa Nəcəf getdıxca, İsfahana yoğunlaşdıxca bunun fikri narahat olur. Genə hərdən bir dönürdü bu tərəflərdə bir kəlmə, iki kəlmə danışırdı. İndi getdıxca qərqi-qəm dəryasına bülənd olurdu. Hələ qız bilmir.

– Dayəcan, nə qalmışıx İsfahana?

Dedi:

– Xanım, üş ağaş qalmışıx.

Bir azda gəlirlər danışa-danışa, söhbət elirlər.

– Nə qalıb?

– İki ağaş.
– Dayəcan, nə qalmışıx indi?
– Bir ağaş qaldıx. Odu, İsfahan görsənir.
Aha, gördü gəldıxca Nəcəfin fikri başından çıxdı.
– Ağayi-sariban!
– Bəli, xanım.
– Saxla görüm, kecavanı.
Kecavanı saxladı.
Dedi:
– Ağa Nəcəfə deyin, bir qəyitsin bura görüm.
Kecavalar dayandı. Qızın kecavası dalısında. Ağa Nəcəfi səslədilər. Ağa Nəcəf belə dönəndə gördü Xanı xanımın kecavaları dayanıb, atı döndərdi üz-gözün bir başladı döndərdi. Yetirdi qızın pencərəsinin bərabərinə.
– Salam, xanım.
– Əleykümə salam, Ağa Nəcəf.
– Xanım, niyə saxladın?
Belə qız gözünün altıynan baxdı buna. Nəcəf gördü qız bulud kimin dolub. Səsləndi:
– Ağa Nəcəf, qurbanın kəsim, Pərzadın eşqi İsfahana yoxunlaşıbsa, yavaş-yavaş fikrini başından çıxardır.
Nəzərindən keşdi, mən küçələr qızıyam. Duvarlar dibindən götürüb məni gətirmisən.
– Ağa Nəcəf.
– Bəli, xanım.
Dedi:
– And olsun Allahın birliyinə, əgər bu İsfahanda məni peşvaz eləsə, mən burdan qəyidərəm haa.
Ay dədə, Nəcəf gördü düz deyir da. Kiçik adam döyül ki, Həmədan valisinin qızıdı. Gərək bunu İsfahandan peşvaz eliyələr valideyinlər. Nəcəfin gözləri doldu yaşınan. Səsləndi:

– Ağa Nəcəf, qurbanın kəsim, niyə ağladın, niyə narahat oldun? Mən düzünü deyirəm.

Dedi:

– Xanım, demirəm sən ayrısını deyirsən. Sən diyən söz düzdü. Amma mənim burda bir adamın yoxdu ki, mən bir dənə namə yazam verəm, buna aparalar mənim əqrabama, tafyatalıbıma verələr. Məcburam, gərək özüm gedəm.

Fərman verdi çadır, otax burda düşsün. Sən əyləş çadırında, mən özüm gedim xəbər verim, xanım, səni peşvaz eləsinlər. Həx diyirsən, yalan dimirsən ki!

Qız düşdü yerə kecavadan. Kecavanı yatırdılar, qız düşdü. Dəstur verdi, çadır, otax qurulsun. İsfahanın bir ağaşlığında Xanı xanımın kecavaları quruldu. Dayə, kənizlər hərə öz çadırında, Xanı xanım da dayəsiynən öz çadıırnda əyləşib. Söhbət elirlər, danışırlar. Nəcəf atı sürdü, gəlir İsfahana. Bir qədir qalır ki, İsfahana çata gördü dərvazeyi-İsfahandan bir dənə sail çıxdı. Xurcun çiynində, əsa əlində. Gedir İsfahanı kəddərinə dolanmağa. Unnan, çörəhdən yığa gətirə bala-bulasına, saildi. Bunun yanında saxladı:

– Salam, sail qardaş.

– Əleykümə salam, atdı qardaş.

– Sail qardaş.

– Bəli.

– Bir söz mən sənə diyim, qəbul eylə sözümü.

– Bəli, ağa, buyur.

Dedi:

– Gəl libaslarımızı əvəz eliyax.

Nəcəfin fikri ordadı əmqızı Pərzadı gizlində görə danışa, axı namədə yazıb. Şah Abbas aleyi-ihtiram vəzirin qızın da verib mənə tanımır. Qızı qıza verib. Bu börkü qızın başına qoymuşam, dədəmə qəza namazı qıldırıram. Yeddiyə qədər getmişəm, dədəmə qəza namazı qılacayem ərus otağında. Burda və-

zirin qızı tanımıyıb məni. Mən qızam, ya oğlanam. Əlan namaz qılıram. Bir bunnan məhraməna söhbət eliyək görək sərnüşlərin nə cür gəlir qabağa. Onnan ötürü gedə gizlindən qabağa.

– Sail qardaş, libaslarımızı əvəz eliyax.

Sail belə başını uzatdı, səsləndi:

– Atdı qardaş, mən elə görsən özüm mitil libasın içindəyəm. Libasım yoxdu. Elə bala-bulanı ancax dolanmaxnan başımı saxlıyıram. Sizin kimi atdılar, ağalar bizim kimi füqəlara çatanda əl gedər cümlə beş girən, üş girən ona pul verər də. Nəinki, tohin elə bizə. Bə niyə tohin elirsən?

Baleylan, Nəcəf gördü sailin qəlbini qırıb, üzüb. Bustanəsiz şair qoymubdu ki, söz qutula. İşin nədi bir nəqabın söz diyəm, qəlbin mənnən ya inciyə, ya üşüyə, ya sinə. Qəlbi sındırmax da çox kələk bir işdi, çətindi. Gərək qəlbin husula gətirəsən. Nəcəf gördü sailin qəlbinə gəldi, çəkilib özünü atdı yerə. Əl atdı libasların soyunub, üst libasların belə atdı, verdi sailə.

Dedi:

– Sail qardaş, and olsun o Allaha, mənnən həqiqət diyirəm sənə. Buyur, libaslarımı giy.

Sail gördü, xeyir, elə doğurdan libasarın soyundu. İndi sailin bədənində, kürəklərində bir döşəkçə cırığıdı, yorğan tikəsidi, palaz yırtığıdı bərki etmişdi kürəklərində. Sail də əynindəkinin düyünlərini aşdı, belə atın dalısında verdi Ağa Nəcəfə. Nəcəf sailin libasın giydi əyninə. Sail də Nəcəfin libasın giydi əyninə.

– Sail qardaş.

– Bəli.

– Gəl atdarımızı da əvəz eliyax.

Dedi:

– Ağa, qurbanlığım, sənin atın var, mənim ki atım yoxdu.

Dedi:

– Sənin də atın var.

– Hani?

Dedi:

– Sən o əsaynan, xurcuniy ver mənə. Mən bu atımı verim sənə.

Sail əsasıynan, xurcunu çiynindən çıxardıb verdi Nəcəfə. Nəcəf də atın cilovun tovşurdu sailin əlinə. Sail mindi atın üsdünə, atı döndərdi. O getmaxıdı ki, getdi bir baş bəlli döyül. Peşman olar, təzədən alar əlindən. Götdü, çıxdı getdi atı. Nəcəf xurcın çiynində, əsa əlində bustanəsiz dərvazeyi-İsfahandan gürültüynən varid oldu içəri. Öz mənzilin, öz həyətin məhəlləsin tanır da. Düz getdi qapıya. Küçə qapılarının qabağında çiynin dayıyıb qapının səribərinə elə içəriyə baxır həsrət gözlərinən. Gördü çörək yapırlar bularda. Çörəkçiləri var. Bir nəfər çörək yapır. Nənəsi kündə salır. O bacısı ki məçiddən gətiribdi tacirbaşı, eliyipdi özünə qız, o da dəstəlir çurəhləri, cəm eliyir bir yerə. Baxdı ağladı, ağladı. Bir qədir sura başın rovzadı sail diliycə burdan bir pay istədi. Səsləndi:

– Allah yolunda mənə bir pay verin. Ev sahabının bacısının bədəni gizllədi bu səsi eşidəndə. Elə şirin gəldi bacıya bu səs, elə şirin gəldi. Başında tühləri qovzandı. Bir qucax çörəh qucaxlıyıb, qovzandı yerindən, gətirib verə bu sailə. Xoşu gəldi bunnan. Yetirdi qapının arxasından əlin belə uzatdı səsləndi:

– Sail qardaş, al bu çörəhləri əlimnən, qoyginən xurcuna.

Nəcəf əlin atanda ki çörəyə qızın göz sataşdı Nəcəfin gözlərinə. Elə tər gözlərinə baxanda, gördü qardaşdı. Əlvəndə də ərz eləmişəm, qız ki, bu behuş eləmişdi özün qəsdən nənə, hammı qohum-əqraba baxdı, bu qız baxanda gözlərinə qovzandı, dedi, anacan, qardaş dəyil. Nənəsi bir şapalax vurdu, beləsinə çəpər verdi, bə qardaş dəyil, kimdi? Səfərdən gəlib yəqin yollarda-zadda yuxusuz qalıp dəyişilib də. Gözlərindən bildi, bu qız gözüdü, kişi gözü dəyil. İndi gözlərinə baxanda gördü, Nəcəf qardaşıdı bu. Qız elə qışqırdı, qovzanıb millə-

məy dingildi yerə. Pəh behuş oldu. Çurəhlər səpələndi. Nəcəf də gördü bacısıdı da. Durub başının üsdündə, heş yana getmir. Nənə gördü qızın səsi gəldi, amma özü gəlmədi. Dedi, durum görüm. Belə yetirdi dalına. Ohhoo... Gördü qızın qış-qolu açılıb, yıxılıb behuş olub, çürəhlər səpələnib yerə dağılıb, sail də başının üsdündə. Qorxdu bu qaça. Səsləndi:

– Sail qardaş, keş, çörəhlərini yığ, get.

Qızın başın aldı qucağına, qızı ayıdır. Qovzan Nəcəf əlin kürəyə atanda qapıları çaldı, işçilər səsləndi, nökərlərdən iki nəfəri yetirdilər.

Dedi:

– Salın bu köppəyoğlu saili dışarı. Filan-filan kimdi, nə dedin, mənim qızım behuş oldu, yıxıldı bu cür, qış-qolu açıldı?

Bir sağdan, biri soldan vurdurur da. Kim vurdurur? Nənə vurdurur. Böyükdü bustanəsiz. Qeyri-adam da vura bilir Nəcəfi? Xeyir, baba. Amma əli elə qoltuğunda, elə dayanıb. Qız gözünü aşdı, gördü qardaşın vururlar. Elə qışqırdı bu nökərlərin üsdünə, dalı dur, əxməin birisi. Nökərlər, bəh, bu nə işdi? Dal-dalı çəkildilər. Tez dal-dalın çəkilin, belə döndü ananın üzünə, səsləndi:

– Evin yıxılsın, sənin süt iyində nəmənə var? Sən niyə bu cür elədin? Niyə bunu vurdurdun?

Götürüb bu sözlərinən anasına Nəcəfin gəlmağın deyir:

Başına döndügüm ana,
Anacan, qardaşım gəlipdi.
Sənə qurban özüm, ana,
Görmürsən, qardaşım gəlipdi?

Həmin nökərlər durub bu qıza baxıb şey dimağına, həmi də anası baxır. Bu söz nəmənə? Nəcəf də ki, durub başının üsdündə, heç dinmir.

Müsgülün qəlbinə dəydin,
Bənövşə tək qəddin əydin.

Əlin sınsın, necə döydün?
Görmürsən, qardaşım gəlibdi.

Əsmər tanır gözlərindən,
Doymamışam sözlərindən.
Səbir Misir qızlarından,
Nəcəf qardaşım gəlipdi.

Bu səs, bu küy pillələrdən dırmaşdı bədəl Nəcəfin otağına. Bədəl Nəcəf kimdi? Pərzaddı da. Nəcəfin libasın giyib əyninə olub Ağa Nəcəf. Gördü aşğadən səs gəlir. Belə qulağın verdi, ahan, gördü səbir Misir qızlarından Nəcəf qardaşım gəlipdi. Nəcəf söhbətidi Misir söhbətidi. Vəzirin qızı Nazı-dilbərə işarət verdi:

–Xanım, namazı bıraxma haa. Sən namazıy qılginən, mən görüm aşağıda nə qılha var.

Qalxıb yerindən pillələrdən gurhagurnan gəldi aşağıya. Elə baxanda, ay dədə, gördü əmoğlu Nəcəfdi. Sail donunda, libası köhnə. Aha, dedi, bəs necə eliyim, öz-özünə fikir elədi. Behuş ola, xeyir, özün saxlaşdırdı. Dilin qoydu dişin arasına bir söhdü bədəni, özün saxlaşdırdı. Səsləndi:

– Anacan, qurbanın kəsim, nə olub, nə səsdi?

Səsləndi:

– Oğul, bu sail köppoyoğlu, bacıya nəmənə dedi, bacın külə gətirmişik, elə biləsən yıxılıbdı, çörəhlər də səpələnipdi yerdə. Bilmirəm nə söz dedi? Onnan ötürüdü.

Yapışdı sailin kəmərindən, dedi:

– Di gəl görüm, Əsmərə nəmənə demisən?

Dedi:

– Oğul.

– Bəli, anacan.

Dedi:

– Onu üş mərtəbənin bulqurundan at xiyavana, dəysin qoy patdıya haa beyni.

– Baş üsdə.

– Siz gedin işinizə, mən indi bunun cəzasın yetirrəm.

Nəcəfi pillələrdən çıxartdı, camahatı dağıtdı. Dedi:

– Hərə getsin öz işinə.

Olar getdi. Addım-addım pilləri çıxırlar. Nəcəfi çıxartdı salona. Salonnan aparıb baş otağı ki, silah otağıdı oraya. Vəzirin qızı Nazı-dilbər gördi, Nəcəf bir dənə saili apardı istirahətdıx otağına. Öz-özünə dedi, yəni bular nəmənədi, bu kimdi? Bə bu saildi, bunu niyə gətdi içəriyə. Yetirib bustanəsiz öz istirahətdıx otağında Nəcəfi əyləşdirdi, səsləndi:

– Əmioğlu, qurbanın kəsim, bu libasları ki varidin pilləkana qoy. Vəzirin qızına çox hiylə vermişəm, ona bir müjdə verim, qəyidim gəlim danışax.

Nəcəf sail libasın əynindən çıxartdı, atdı yerə, indi bir dəst libas varid eliyir əyninə. Necə libas? Bir də bir libasları giyib indi bədəl Nəcəf yetirdi vəzirin qızının otağına. Gördü, namaz qılır. Hardan namaz qılır, baba, məcburdu da oturub da.

– Vəzir qızı, Nazı-dilbər.

– Bəli, Ağa Nəcəf.

– Mən ölüm, bir namazı qıl. Mən ölüm ötür, mən ölüm ötür.

– Ağa Nəcəf nəyə ötürüm? Qoy tez-tez qılax, bəlkə yeddılığı tez-tez, üş ay ərzində qurtarax da. Çox namazı qılacax.

Dedi:

– Bir ötür, namazımız elə bu dəyqə elə bəridi.

– Necə?

Dedi:

–Qulaq as, qoy diyim.

İndi əsli Nəcəfin gəlmağin Pərzad götürüb vəzirin qızına özünü nişan verir. Görüm necə gəlir qabağa bustanəsiz.

Bir ərzim var sənə, vəzirin qızı,
Sənin yarın, mənim gülüm gəlipdi.

Eşqin atəşinə salmışdı bizi,
Xanım, sənin yarın, mənim gülüm gəlipdi.

– Namazımız bu dəyqəyə qədərdi. Day namazdan qutuldux.

Vəzirin qızı öz-özünə dedi, bu nəmənə diyir.

Açılanda qzılgülün pəhliyəm,
Soruşanda gül-reyhanın pərliyəm.
Mən də sənin kimi bir qız əhliyəm,
İndi sənin yarın, mənim gülüm gəlipdi.

Qiblə tərəfindən gəldi bir atdı,
Onun gülü mənim gülümü yubatdı.
Xanım, Nəcəf budu, mənim adım Pərzaddı,
Amma hər iki sonanın yarı gəlipdi.

Əlin saldı Pərzad külahı başından götdü, elə atanda zilflər o çiyindən bu çiyinə düşdü. Əl saldı buğazında düyməyə, xırıltıynan belə çəkib, əşkaya. Vəzirin qızı elə belə baxdı, həə, gördü, oğlan elə bil gün, bir şəfəx verdi. Bu nəmənə? Qəhqəhə çəkib güldü Pərzad. Özünü vəzirin qızına nişan verəndən sonra qəyitdi qaşdı Nəcəfin otağına. Nəcəfi otaxda qoyub qaşdı da. Vəzirin qızı Nazı-dilbər yarım saat fəqət ola kirpik vurmadı. Yarım saatdan sonra qalxdı yerindən, qoy görüm, bu nə zaddı? Şeytanıdı, cadıdı, tilsimdi bu nəmənədi? Yetiridi qapıya, gördü Nəcəfnən Pərzad qol bir-birinin boynundadı. Qızın dalısı qapıya sarıdı Pərzadın, üzü otağın dibinə sarıdı. Nəcəfin üzü qapıya sarıdı, dalısı otağın dibinə sarıdı. Nəcəfi görmədi camalı, xeyir, qızın zilflərinin altında Nəcəfin başı, üzi, gözi gizlənmişdi. Qızın zilfləri qoymadı vəzirin qızı Nazı-dilbər Nəcəfin camalın və yiğıtdığını görə. Buların bu cür qol-boyun olmaxlığı görüb qayıtdı öz otağına. Qulamı çağırdı.

– Qulam.

– Bəli, xanım.

– Gəl bura görüm.

Qulam yetirdi, qələmi götürdü qoydu kağazın üsdünə, yazdı Şah Abbasa bu ərzəni. Səsləndi:

– Qibleyi-aləm sağ olsun, o dəyqə ki, bir dənə tacir oğlu sənə bir dənə tööhə gətirib, töhəyə baxdın, bu cavana baxdın, xoşun gəldi. Mənim atam sənin sözün yerə salmadı. Və mən sənin sözuvu istəmədim dala qəytərə. Mən vəzir qızıyam, bu tacir oğludu. Məni götdün verdiyində oğlana, bu oğlannan soruşmadın, bu görax məni isdir, ya alır. Ya isdəməmiş verirsən məni buna.

Buxarı görüm səndə olmasın,
Saralıban gül rəngi solmasın.
İki göyül bir-birindən olmasın,
Elə bil hər gecə marınan yata.

Qəlb bir-birin tutmasa, elə bilginən ilandı, tərpəşir yerin içində, qəlbi gərək istiyə. Bu oğlanı niyə danışdırmadın? Bu oğlan gözəllığına ərxayın olub o dəyqədə ki məni yollamısız Nəcəfin ərus otağına. O gecədən gündə qışlarımı qoyub fələqqəyə, bir dəstə qızılgülün çalığı tühlərində mənim qarnımda peyvənd eliyib. Batan çalı qarnımda, dərdə peyvənd olub. Dədəsinə qəza namazı qıldırır. Yeddi ilə qədər, deyir, mənim dədəmin qəza namazı var. Mənə vəsiyyət eliyib, ərus gecəsindən yeddi ilə qədər mənə qəza namazı qılginən. Məni də qatıb özünə, kötək zoruna dədəsinə qəza namazı qıldırır. Bir dənə ayrı qızın əyninə libasların geydirib onu ötürüb mənim otağıma, mənə qəza namazı qıldırır. Dədəsinin qəza namazını. Həyatı bu cürü deyil. Məni niyə verirdin? Niyə mən sənin sözüğu dala qaytarmadım, ya atam, ya mən?

İmza, vəzirin qızı Nazı-dilbər. Verdi Qulama, dedi:

– Şah Abbasa yetir bu naməni, ərzəmi.

Qulam kağazı apardı Şah Abbasa bu ərzəni aparsın, bunnan işimiz yoxdu.

Sizə kimdən ərz eliyim? Pərzaddan. Bir saat, saat yarımdan sonra başını rovzadı:

– Əmoğlu, Nəcəf.

– Can, əmqızı.

– Əmoğlu, qurbanın kəsim, vəzirin qızına bu beşə ona ait çox şəllər vermişəm. Qalx, iki yannan gedax, onun göyülünü alax. Onun göylü, qəlbi bizdə qalmasın.

– Gedax, əmqızı.

Nəcəfinən indi Pərzad oldu qız. Nəcəfin libasların atdı əynində ki, varid olduldar vəzir qızının otağına.

– Salam.

– Əleykümə salam.

– Nazı-dilbər.

– Nazı-dilbər, qurbanın kəsim, ölən günə qədər mən özüm sənin kənizinəm haa.

Ağayı-möhtərəm, Xüdabəndi-həqiqət püflüyə bir adamın üzünə, açıx qapı aça. Hər tərəfdən aça. Gözəllıx, qabiliyyət, boy-buxun, qılıx... Xüdabəndi-həqiqət yaradıb da. Nəcəfnən Pərizad ikisi də bir almadı. Bir-birinə bənzirlər. Səsləndi:

– Xanım, qurbanı kəsim, mən sənə çox şəllər vermişəm. Mənə həlal eləginən. Mən ölən günə kimin sənin kənizinəm.

Nəcəf də bu qəzeynən söhbət eliyəndə vəzir qızının gözü sataşdı Nəcəfin camalına və yiğiddığına. Belə bir atdan yuxarı, yuxarıdan da belə bir baxdı, Nəcəfin iki qaşın arasından bir dənə məhəbbət oxu gürültuynan vəzirin qızının dəydi, başından dəydi. Kürəklərin sür-sümüyü sovdu, apardı məhəbbət oxu heş bustanəsiz. Öz-özünə dedi, "çəpəlin biri, çəpəl, sən məni görməmiş, bu oğlanı danışdırmamış, sən bu ərzəni niyə yolladın Şah Abbasa?" Dedi, mən ərz eləməmişəm, verməmişəm buna bənd, əğl olunsun deyərəm, qurban, şuxlux eliyirdim sənnən. "İmtahan eliyirdim, görürdüm bunnan bu yana Nəcəf məni incitsə, mənim dadıma Şah Abbas çatar, ya çat-

maz? Ərzəmi dala eliyirəm, mən şıkayətçi deyiləm Nəcəfin əlindən. Orda taş sözümü keçirəmiyəcəm. Neyliyəcax mənə? Neyniyim? Götürgenən Ağa Nəcəfə xoş gəldin eləginən". İndi vəzirin qızı götürüb bu xoş gəldin deyir:

Başına döndügüm, mehriban oğlan,
Qədəm qoydun gözüm üsdə, xoş gəldin.
Sən gələn yerlərə kəsilər qurban,
Ala gözlüm, vəfadarım, xoş gəldin.

O vaxt ki bu nazlı yar məni ovurdi,
Bağrım, başım çarlı-çarpaz qoyurdi.
Ağa Nəcəf, qızılgülün çalısıynan döyürdü,
Qəsd eyliyirdi bu şirin canə, xoş gəldin.

Pəhh, Nəcəf gördü, elə ərzi-giley ilə bir yerdə oturmamış, söhbət eləməmiş xanım Əlvəndə ərzi-giley başladı mənə. Hələ qabaxca nə oyunlar çıxartmışıx, hələ mən bilmirəm ki, soralıxdadı da. Nəcəf döndü:

– Ay qızım, Pərzad.

– Can, əmoğlu.

– Əmqızı, qurbanın kəsim, qalx elə əqrəbəyə, talfa-talıba xəbər ver Həmədanm valisi Əhməd xan qızı Xanı xanımı gətmişəm, obanın bir ağaşdığında çadır zat qurulub. Düşüblər orda intizardılar. Elə-əqrəbəyə xəbər ver, onu peşvaz eləyin varid eləyin şəhri-İsfahana. Nazı-dilbər bunu eşidəndə üz döndərdi Pərzada sarı.

– Xanım Pərzad, qulaq as, qoy birində mən deyim, onnan sora:

Nazlı-dilbər diyən məniyəm belə,
Artdı dərdin oldu, qəminən belə.
Qalx ayağa, Pərizad, səninən belə,
Gedax o xanımı, xoş gəldin.

Pərzad el-əqrabaya xəbər verdi. İsfahandan ki, eşidən ki Həmədan valisinin qızı ki gəlir İsfahanda evindən çıxıb, üz

döndərdi dərvazeyə. Pərzad on-on beş dənə o mühimmi qızlardan, tacir-tüccar qızlarından dövrəsində, qabaxdadı. Cəmaət – arvad və kişi yolun sağında, solundan dərvazedən başdıyıb düzülə-düzülə gedir, dəstə gül əllərində bustanəsiz ki, Həmədan valisinin qızı nə cür nazınan gəlir. İndi bunun nəzərində Pərzad getsin peşvazınan. Nazı-dilbər də buların yanındadı. Bu getmaxda, ərz eliyim kimdən? Şah Abbasdan. Ərizə ki, yetirdi Şah Abbasa belə baxanda ərizəyə pahoo.

– Vəzir.

– Bəli, qurban.

– Dəstur ver, dar ağacı qurulsun görüm. Tez ol.

– Qibleyi-aləm sağ olsun, nə var ki?

Vəzir də demir. Dedi:

– Sən bir dəstur ver, dar ağacı qursunlar.

Dəstur verdi, üş-dörd dənə sərbədar Nəcəfi göydə qolu bağlı gətirin. Əxməğin birisi. Səni mən özümə oğul elədim. Dedim, qoy darıxmasın, dedim, nəbakə darıxsan, dedim atam öldü, mən yetim qaldım. O qızı ki, istiyirdi libasın giyindirib əyninə, o qızı da axtarın gətirin. İkisini də bir yerdə saxlayın. İkisini də bir yerdə dara asacağam. Bunu Nəcəf eşitdi.

– Mənnən sonra deyin heş hardaydın, bu əməli niyə eləmişəm? Soruşmamış adamı dara çəkəllər?

Cəmaət dövrəsində dəstəbədəstə, cəmahət yığışır İsfahanın cəmahəti meydana. Nəcəf qolubağlı dar ağacının altında, məmurlar da dövrəsindədi. Bular burda belə olsun, sizə deyim kimdən? Pərzaddan. Cəmaətə ki, xəbər verib, cəmahət qəhər-qəhər dərvazədən tökülür eşiyə, yolun sağ və sol durublar intizar, dəstə gül əllərində. Həmədan valisinin qızı Xanı xanım gəlir Həmədandan. Gülü səpələdilər başına. Ona görə cəna pəşvaz eliyib. Pərzad on-on beş addım yeridi bustanəsiz qabağa. Xanı xanım belə baxdı, vay, gördü, gəldilər qızlar. Düzdu, amma Nəcəf buların içində döyül. Səndəlin üsdə oturmuşdu ça-

dırın qabağında. Durdi, keşdi çadırın qapısın, yəxdənin qapısın açıb, o elmi dəftəri əlindədi. Elmi kitabı, sandığındaydı. Elmi dəftərin çıxartdı əlindən. Vərəxliyib belə baxdi, ikinci, üçüncü vərəqə baxdi, gördü Nəcəf dar ağacının altındadı. Pəh, bu naməni bu kağazı bunnan ötürü yazmışıx, yollamısız İsfahandan, yollamısız mənim dədəmə. Ağa Nəcəf tilsimi cadudaydı. İndi bu səfər dara çəhdilər. Nə zəhmətlər çəkib atam onu qurtarıb. O birisin də dördüncü vərəqi vərəxliyəndə gördü, vəzirin qızı Nazı-dilbər şikayətçidi bunun əlindən. Özü də gəlir mənim peşvazıma, bu qızların içindədi. Pəhh. Kitabı qoydu yerinə, çıxdı çadırının qapısından eşiyə. Əyləşdi səndəlinin üsdündə, on qədəm ya iyirmi qədəm qalan əlin belə qoydu. Dedi:

– Xanımlar, dayanın.

Pərzad atın cilovun yığıb, qızlar dövrəsində dayandılar.

Dedi:

– Qulaq asın mənim sözümə, mən nə cür kimi istəsəm, o gəlsin mənim qabağıma peşvazıma. İsdəmiyən qəyitsdin getsin. Qulaq asın:

Gözəlləri seyrə çıxmış qalada,
Hammı gəlsə, vəzir qızı gəlməsin.
Həx yanı çatlasın yüz min bəlada,
Hammı gəlsə, vəzir qızı gəlməsin.

Bir dənə vəzir dəyil ki, Pərzadın dövrəsindəki hammısı vəzirganə qızlardılar da. Pərzad belə döndü:

– Xanım, hansı günah eləmişik?

Dedilər:

–Xanım, biz günahkar dəyilik. Biz bir söz deməmişıx buna. Bə niyə belə dedi?

Dedi:

– Bilmirəm.

Gördü qızlardan qayıdan olmadı hələ. Dedi:

Həsrətin çəhməxdan yetişdim canə,
Dolannam başına, misli-pərvanə.
Qəsd eyliyirdin Nəcəf kimi cəvanə,
Hammı gəlsə, o sloy qızı gəlməsin.

Ahha... Pərzad özünə aldı bu sözü. Dedi, xətmən məni deyir. Qəlbindən keçirir, bu qız icazə verəydi, beş kəlmə mən bunnan danışaydım, onnan sora görəydim, nəmənə deyir. Qəlbində dedi, vallah, billah, əgər deyirsə mənim çadırımda düşüb tilismə, indi Nəcəf buna deyib da. Mən günahkar döyüləm. Məni oyatsaydı, mən duanı çıxardardım asardım duvardan mıxdan, duanı saxlamazdım yanımda. Anam demişdi mənə, əminoğlu Nəcəf gələndə duanı çıxart boynundan, kənar elə. Elə ki, əmoğlu yanından getdi, duanı yenə sal boynuna. Mənim xəbərim yoxdu bu işdən. Gördü, bunu deyir. Qəsd eliyib Nəcəf kimi cəvanə, hammı gəlsə, sloy qızı gəlməsin. Xanı xanım gördü qəyitmədi bu qız.

Xanı xanım sözün sizə bildirir,
Dəsmal alıb göz yaşını sildirir.
Yəqin bil ki, gəlsə bura öldürür,
Hammı gəlsə, o Nazı-dilbər gəlməsin.

– Bunnan ötürü dəvətnamə yazdırdı Həmədana? Nəcəfi mən gətirəm buraya, burda tutasız, dara çəkəsiz.

Pərzad belə döndü:

– Nazı-dilbər.

– Bəli, xanım Pərzad.

– Mən ölüm, narahat olma, haa. Nə bakə narahat ola haa. Səbr elə bu qızı bir varid eliyax dərvazədən içəriyə İsfahana. Sənin əvəzindən mən özüm vəkalətdıx eliyim. Bu qızınan üş kəlimə danışsan, bının məhəbbətin sal qabağa. Məhəbbətimiz düşər bunun qəlbinə. Beş kəlmə danışım sinəsiynən, sən narahat olma.

Burda vəzir qızı da bilmir ki, bu elə qurtuluş Şah Abbas yolluyub məmuru dalıycan, Nəcəfi gətiriblər dar ağacının altına. Bilə ki, əgər bu cürdü, qəyidər diyər, qurban, mən şuxlux eliyirdim sənnən. Nəcəf məni incitmiyib, onu yalandan diyirdim. Diyirdim görüm, Nəcəf mənə zulm eləsə, mənim dadıma çatar? İmtahan eliyirdi, qoymaz. Nazı-dilbər – vəzirin qızı atı döndərdi, başın saldı aşağıya. Aram-arəm, kor-peşman qayıdır İsfahana sarı. Bu qəyitsin, ərz eliyim kimdən? Xanı xanımdan. Səsləndi:

– Xanımlar, gəlin qabağa görüm.

Pərzad atı sürdü. Atı sürüb on qədəmlıxda atdan Pərzad əndi, qızlar da xırıltıynan gedə. Pərzad verdi qabağa dizlərin ikisni də qoydu yerə, başı əydi Xanı xanımın qabağında yerə, ehtiram elədi. Xanı xanım yapışıb bunun kəmərindən qozadı. Qovzadı əyax üsdə dedi:

– Xanım, dur görüm əyax üsdə. Xəcalətdıx vermə mənə.

Pərzad dayanır. Durubdur bununla üzbəüz. Deyir:

– Xanım Pərzad sizsiz? Nəcəfin nişanlısı?

– Bəli, xanım, kənizin mənəm.

– Götü görüm o niqabı üzünnən.

Pərzad niqabı belə atanda, pahoo, Həmədan valisinin qızının gözü sataşdı Pərzadın cəmalına. Üş qədəm dal-dalı çəkildi. Qəlbindən keşdi, evin yıxılaydı, Nəcəf. Bəs sən deyirdin, bu qızın ləyaqəti yoxdu sənin əliyə su tökə, sənin peşvazıya gələ. Diyəydin, Xanı xanım, sənin ləyaqətin yoxdu Pərzadın üş qədəmlığında əyax üsdə durasan, əlinə su tökəsən.

Hüsniyəm, ey mələkzadə,
Mən dərgahından geri qayıdanda.
Harıtı Marıtdan deyili ziyadə,
Zöhreyi-çəngində giriftar olmaz.

Gözəllıx hara, mən hara? Amma qəlbindın foğrənd yadına düşdü, ehtiyat eləmə, səndə elm var, xanım. Necə ki, Hə-

mədanda fikir eləmişəm o elmi yanımdadı. İndi gördü bu alçaxgönüllulux elədi. Mehriban danışdı mənnən. Gedırıx şəhrisinə bir yerdə olacıyıx. Əgər mənnən ifadəynən danışsa, necə demişəm o cür, gözəllığın mənə nişan verər, biləsin nizəsin eliyəcəyəm otağımda. Salaram tilsimə, nə qədər dünya var, qalar burda. Mənim elmim var, bunda gözəllıx varsa. Səsləndi:

– Xanım Pərzad, saldır.

Pərzad niqabı çəhdi üzünə. Çəhdi üzünə, qız keşdi çadırına. Mərdanə libasın geyinib, başdan geyinib əyaxdan qıfıllandı. On yeddi parça əsvabın bədənində bərkidib çıxdı eşiyə. Atın gətdilər qabağa. Cüt əlin vurub, alıcı quş kimin düşdü atın belinə. Bir Pərzada dedi:

– Xanım, sən mənnən gəlginən.

Dayə, kənizlərinə, xacələtinə dedi:

– Siz də kecavalara yığışdırın, gəlin şəhərə.

Heş kəsin hesabdan xəbəri yoxdu. Xanı xanım qabaxda, Pərzad bunun dalıca. Bərqi ildirim kimi dərvazeyi-İsfahandan girdi içəri. Pərzadın heş zaddan xəbəri yox. Meydanı aldı, belə baxanda, pahoo, gördü, baba, dam-duman, meydan hər yan doludu, qımqımıldır cəmaət, qəhər-qəhər meydana yığışır. Məsəddə dar ağacı var. İlahi, bu nə cür sirridi. Bu dar ağacı kimdən ötürüdü? Cəmaət yol verdilər, bular keçdilər qabağa. Pərzad belə baxanda, eyy, gördü Nəcəf dar ağacının altında, qolları dəsdətdi. Həmədan valisinin qızı əl getdi qəmzeyi-şəmşirə, isdir dar ağacını biçə. Neçə dənə məmurlardan ki var, bunun dövrəsində Nəcəfin, vura oların baş bədənindən gedə. Şah Abbasdı, vəzirdi, vəkillər üsdə – bolqumda əyləşiblər. Belə bir qalxdı, Pərzad əlin qoydu Həmədan valisinin qızının döşünə. Dedi:

– Xanı xanım, tələsiynən iş olmaz, səbr elə günahkar bizik, Şah Abbas dəyil. Şah Abbasın heş zaddan xəbəri yoxdu. Biz günahkarıx. Mən Şah Abbasdan alım Nəcəfi, götürüm gedax da.

– Alasan, götürax gedax?

Dedi:

– Bəli.

Dedi:

– Xub, buyur da, mən də elə onu isdirəm də.

İndi Pərzad atdan əndi, bir az piyadə yeridi Şah Abbasa sarı ki, olar işdə bolqumdadılar. Pərzad gözlərindən yaş bahar buludu kimi ənir, belə gəlir, yanaxdan tökülür sədri mərmərlərinin arasına. Qəlbindən keçir: "Qibleyi-aləm, üş dənə zəlil qızdılar. Bu qızların putaların əlindən almaginan. Sərnişi qəza-qədərdən sənin xəbərin yoxdu." Götürüb yalvarır Şah Abbasa, görax verəcaxdı Nəcəfi bu qıza, ya yox.

Şahım, sənsən sahı-Nəcəf,
Eylə günahına əbəd.
Varı qoşunun həzar-həzar,
Atar müjgan oxunu sən.

Xanı xanım baxır, əslən gördü, heş əhdinə gəlmədi Şah Abbasın.

Hanı bu bağın bülbüli?
Xəzan olub qızılgüli.
Çağırram atı-Düldülü,
Qurban, yetişsin dada o Şahi-Mərdan.

Pərzad ərzin eylər şahə,
Üzün döndər qibləgahə.
Əzizlərim bir yasini-tahə,
Hərsdən oxur dilim hərəb.

Xanı xanım dedi:

– Pərzad, aldın Ağa Nəcəfi? Gördün Şah Abbasın ehdiya gəlmədi, bu qız nəmənə diyir, nəmənə danışır.

Dedi:

– Dur dalda görüm, dur dalda.

Əslində atından ənib aşağıya, əl qəmzeyi-şəmşirdədi. Elmin kitabı da əlindədi. Hmm... atı sürdü, keşdi qabağa, üz döndərib Şah Abbasa. Dedi:

– Orda oturmaxnan dəyil, gəl aşağı görüm. Sən tanımırsan mən kiməm?

– Vəzir, nəmənə dedi bu qız?

Pərzada əhəmiyyət vermir sözlərinə, amma bunun sözün eşidəndə qulağına dedi.

– Qibleyi-aləm sağ olsun, iki zaddan dalı dəyil. Ya özünkilərdəndi, ya ərzinən deyir bu sözü, ya da bunda bir hünər var. Səni çağırır meydanına da.

Dadiynən gəldim girdim meydanə,
Şeyx oğluna denən, meydanə gəlsin.
Qorxunun faydası, heç yoxdu sənə,
Şeyx oğluna denən, meydanə gəlsin.

– Sənin özünü meydanına isdiyir.

Yatmış idim, özüm gördüm dişimi,
Mövlam düşsün mərd oğlanlar işini.
Ya kəsəllər başımı, ya kəsərəm başını,
Şeyx oğluna denən, meydanə gəlsin.

Bunnan ötürü bu naməni yazırdız Həmədan valisi Əhməd xana, Nəcəf gələ İsfahana.

Tanıyan, tanısın,
Həmədanlı Əhməd xanın qızı Xanıyam,
Bu meydanda da qənimimi tanıyam.
Yəqin bilsin, bu Nəcəfin dini, imanıyam,
Şeyx oğlu Şah Abbasa dinən, meydanə gəlsin.

– Vəzir, on nəfər ərslənə denən, vurmasınlar haa qızın üsdünə, görax nəmənədi bunun hünəri?

On nəfəri əlavət elədi, şəmşirinən yürüdü üsdünə. Qəmzeyi-şəmşirnən yumuldular bu qızın üsdünə.

– Ay çəpəlin biri çəpəl, nəmənə oyun çıxardırsan?

Otuz əddim qalmışdılar ki, Pərzada çatalar, ya Xanı xanıma, o elmi ki, dilində saxlamışdı, oxudi. Oxudi, püflədi. Buları mıx kimi mıxladı vəsətin üsdündə yerə. Addımların atammadılar qabağa. Bir elmi oxuyub, püflədi İsfahanın bu tərəfinə, üçüncü elmi oxuyub püflədi Şah Abbasın başı üsdə. İsfahanın bir tərəfinə göydən od yağır, bir tərəfinə birəm-birəm daşlar gəlir, elə bil güllədi, tökülür.

– Ey-vay, vəzir, neyniyax?

Dedi:

– Qurban, ver o oğlanı o qızın əlinə. Ver, amandı.

Dəstur verdi, oğlanı verin qızın əlinə, bu, Əhməd xan qızıdı. Nəcəfi tovşurdular Xanı xanımın əlinə. Bir sehr idi püflədi sağ, soluna, üsdə nə od yağdı bustanəsiz, nə də daş yağıdı. Az qalmışdı İsfahan alt-üst ola. Bu, özün nişan verdi, gördü, soruşdu, təqib elədi, dedilər, Əhməd xan qızıdı. Bu pillələrdən düşüb bu qızı istədi içəriyə. Pərzad da bunnan bahəm, vəzirin qızı da gəldi. Səbrişin soruşanda gördü, baba, bu dəyil, hünər Pərzadınkıdı. Bu, bu elmi oxuyub. Oxuyub bu elmə yetirb özünü. Pərzad görün neyniyib, Nəcəf tanımıyıb, nənə-bacısı tanımıyıb, görün necə libasda dolanıb, necə libasda gəlib. Mən ki, özü mənə bir tööhə gətdi, mən tanımadım bu qızdı, ya oğlandı. Hünər Pərzadındı. Elə düşündü xanım Pərzad, Xanı xanım diyənnən sora gördü, bu tilsimdən Həmədan valisi Əhməd xan bunu qutarıb. Dübarə qolun saldı ikisinin boynuna. Nəcəfi də çəkib qabağa dörd nəfərə yenidən xəbər verdi, yenə məclis qurulub. Şah Abbas Nəcəfin toyun eliyib, möhtəşəm toyudu. Üş gecənin toyunu bir yerdə eliyir Nəcəfə.

# BƏY ASLAN VƏ HÜSNÜPƏRİ

Ömür əmanətdi, ay dostlar,
Heş kəsin başı bəlaya dəyməsin.
Qoy sizi ağlatsa, vüsal ağlatsın,
Gözünüzə kədərin yaşı dəyməsin.

Arsızlıq eyliyib gülməyə nə var,
Ömrünün sonunu bilməyə nə var.
Mazlum gülləsiylə ölməyə nə var?
Kişiyə namərdin daşı dəyməsin.

Söhbət, əlbəttə, ustadın yazdığına görə, Misridən götürülüb. Misirdə yazıllar ki, Həsən Sultanın bir dənə qızı var idi, Hüsnüpəri. Hüsnüpəri yetirmişdi boya-buxuna. Hər tərəfdən şah oğlannarınnan elçi gəlirdi. Heç birinə bəyan eləmirdi. Onun bir dayəsi var idi, deyir:

– İndi nə vaxtacan qalmalısan evdə?

Dedi:

– Dayə, ta o günə kimi, ürəyim tuta bir oğlanı, inhtixab eliyəm ki, mən bu oğlana getməliyəm.

Dedi:

– Sən ölmüyəsən, sən qalasan evdə, day səni alan olmaz.

Dedi:

– Dayə, evdə qalam qalmıyam, o qadir qalıb gözləyəcəm ki, ta özümə bərabər bir oğlan olmasa. Özümdən gərək, beş dərəcə payin gərək, gözəlliyi mənə bərabər ola. Beş dənə iyidə bərabər ola.

Dedi:

– Qızım, onda bir iş görməlisən. Misirdə belə bir cavan tapa bilməssən. Odur ki, şah oğlanlarınnan elçi gəlir, tapa bilməssən.

– Bəs o cür cavanı hardan tapmax olar?

– İrannan. İranın cavanları tanınmənd olar, zirəng olarlar, pəhləvan olarlar. Deyirəm, İrannan dolanıb sənə ləyaqət cavan tapax.

Dedi:

– Dayə, onda onu kim tapıb gətirər bəs bura?

Dedi:

– Qızım, onun xərci çox olar, sən onu eliyə bilməzsən.

Deyir:

– Dayə, nə cür olar, mən şah qızı olam, bəs sənin dediyin o xərci tapıb verə bilmiyəm?

Dedi:

– İndi sən pul verirsən? Sən pul ver, sənin bu dövrəndə yeyərəm-içərəm, sənə zindəganlıx edərəm. Mənə elə pul verəsən ki, ta mən gedib sənin üçün bir cavan gətirəm.

Qız razı olur, dedi:

– Dayə, nə qədər pul istəsən, məndə var.

O vaxtın pulu ilə bir qərar kəsiblər. Dayə gəlib öz evinə. Özünə bir az zinyət... ta özünü salıb bir dənə al ceyranın surətinə. Qədim şah qızlarının yanında əyyar olardı, sehri-cadugər olardı, ta şah qızları istəseydi bir yerə getsin, cadu-sehr ilə bunları yetirərdi bir yerə. Dayə özün salıb ceyran surətinə. Özünə bir zinyət gəzdirdi. Ayə, dayə yol gəlməkdə olsun hara, şəhri-İrana. İranda sizə kimdən xəbər verim, İranın Xoy şəhrində İsmayıl xanın oğlu Bəy Aslandan. Bəy Aslan yetirmişdi boya-buxuna, ağa, heş kəs bunun əlinə yapışa bilmirdi. Bəs burda Bəy Aslan nə karə idi? Aslan Xoy şəhrində bir dənə tacir idi. Tacir oğlu deyədilər Bəy Aslana. Aslan dövrəsində bir neçə nəfərinən çıxmışdı şikarə. Dağda şikar eliyirdi. Bir zaman ceyran özün gətirib gördü, hə, şikarçılar şikara dolanırlar. Özünü verdi şikarçılara dedi, bunların içində kim ola bilər? Bəli, gördü bunların dövrədə bir dənə sərkərdəsi var, adına Bəy Aslan deyirlər. Elə bil hünər nişan verir ki, dağı buz od eliyəndə, elə

bil ildırım çaxır. Dayə bir qədər ceyran surətində gəlib bunlara sarı. Bəy Aslan belə baxırdı. Əlin qoydu qaşının üstünə, dedi:

– Ay bala, mənim gözümə dağdan bir dənə ceyran gəlir.

Dedilər:

– Bəli, sən elə qəşəng görürsən.

Dedi:

– Hər kəs məni istəsə, ceyranı tutmalıdır.

Ağa, hərə bir tərəfdən ceyranın üstünə qaçır. Amma ceyranı saldılar araya. Dövrədə dairə vurublar, dəstur verdi.

Dedi:

– Bu ceyran hər kimin üstündən getməli olsa, o saat çiyni kəsilməlidir, qıçının məsətindən keçsə, qıçı kəsilməlidir. Hər tərəfindən keçməli olsa, ora kəsilməlidir.

Dövrədən ciddiyyətlə ta əlləşirlər tutsunlar, ceyran köks elədi, dedi, bu dəsturu ki verir, elə bunun çiyninin üstündən getməlisən. Çün Bəy Aslan boyda bir az aşağı idi. Ceyran çövrülüb Bəy Aslanın üsdündən qaçmağa başladı.

Əllərini qoydu boynuna. Dövrədən hamı baxır bəyaxdan, elə tutulub, elə bil baharın bulutudu. Axı niyə bu vədə qaldın? Çün dedi:

– Dəsturu gördüz? Bəs mən indi şəhrə getməli dəyiləm.

Dedi:

– Niyə?

Dedi:

– Mən o ceyranın dalısycan getməliyəm.

– Axı, qardaşım, ceyranın dalısycan getdin, biz belə dövrə vurdux burda, tuta bilmədıx. Sən təh neyniyə bilərsən?

Dedi:

– Bəs mən gedirəm. Gətir bura bir nəfər.

Yoldaşlarından çağırıb, dedi:

– Mən diyənləri sən yaz, verəsən mənim atama. Atam bilsin ki, ta mən bu tezlikdə qəyitməli deyiləm.

Ağa, götürüb bunun yoldaşı yazır, Bəy Aslan da bu sözləri belə deyir, mən də oxuyuram tamam bizim navarlara qulaq asanların hamısının sağlığına. Onu da "Ceyrani Kərəmi" ilə deyirəm:

Başına mən dönüm, gül üzlü ata,
Gedibdir əlimdən şikarım mənim.
Gözlüyüb yolumu, sən yanma oda,
Gedibdir əlimdən şikarım mənim.

Yoldaşları dedi:

– Baba, bu daşları tök ətəgindən. Bir belə dövreynən o ceyranı tuta bilmədik, sən təh canıva neyniyəsən? Gedərsən, baba, bu meşələrdə, dağ-daşlarda vəhşi heyvanlara tuş gələsən. Anavın gözü yolda qalar.

Dedi:

– Qulaq as.

İkinci bəndin belə deyir:

Qızıgülü dəstə-dəstə dərərəm,
Dərib onu pünhan yerdə sərərəm.
Qismətim ola, ata, bir də gələrəm,
Gedibdir əlimdən şikarım mənim.

Yoldaşların elə ağlıyırlar ki, gəl, bu daşları tök ətəyindən. Gəl, sən bu yoldan qəyit. Deyir:

Könlüm quşu havalarda dolanı,
Allah xar etməsin heç bir cavanı.
Həlbəttə ki, taparam mən o ceyranı,
Gedibdir əlimdən qərarım mənim.

Yoldaşları genə danlıyır. Götürüb görax nə deyir:

Bəy Aslanam, ürək gəlipdir coşa,
Həsrət qaldım mən də qohum-qardaşa.
Özümü vuraram dağ ilə daşa,
Gedibdir əlimdən şikarım mənim.

Yoldaşları bir az da yalvar-yaxar eliyiplər, Bəy Aslan hesaba qoymuyup, yoldaşları ilə öpüş-görüş, yoldaşlarınnan ayrılıb. Yoldaşları gedib kağızı gətdilər, verdilər İsmayıl xana. Bəy Aslan atını sürüb bir qədir ceyranın dalısıcan. Dağdaş o qədir yol sürüb ki, axır Bəy Aslan yoruldu. İsdiyir Bəy Aslan bir qədər dincəlsin, ceyran başdıyır bunun bir az uzaxlığında otdamağa. Ta Bəy Aslan bunu gözündən itirməsin. Ağa, gecə-gündüz yol sürüb, ceyranı qovur, amma ceyranı tuta bilmir. Ceyran da bunu hara çəkir? Ceyran da doğurdan çöl ceyranı dəyil, qızın dayəsidi. Özün salıb ceyran surətinə, ta bu oğlanı gətirsin. Bir dəvir bunu qovub tuta bilmədi. İstiyirdi Bəy Aslan yorulsun dayansın, ceyran da dayanırdı. Ağa, elə ki, ceyran qaçırdı dayə surətində, elə bu da yorulurdu. Amma çün sehrə salmışdı özün, bunu tuta bilmirdi. Bir qədir yol gəliblər ta istiyirdilər Misrə yaxınlaşsınlar. Bəy Aslanı, süb azanı idi, yuxu tutdi. Başın qoydu yerə, atın bağlamışdı yerə. Ceyran da bunun bir tərəfində otduyur. Bəs bular burda qalmalı olsun, söhbəti eşidək kimdən, Misridən Həsən Sultanın qızı Hüsnüpəridən. Hüsnüpəriyə çün qırx gün möhlət verilmişdi oğlan gətirə. Bu qırx günü qız nətər darıxırdı, günnəri sayırdı. İstiyirdi o günlərə yaxınlaşsın, darıxdı, dedi:

– Dayə, bəli, bu qızları da götürəsən, mənnən çıxax bir şikargaha.

Dedi:

– Axı, qızım, şikargahdan təzə gəlmişik.

Dedi:

– Eybi yox, atamdan icazə alax, çıxax bir şikargahı dolanax.

Qız adam yolluyub ta Həsən Sultandan icazə alsınlar, qız şikarə çıxsın. Həsən Sultan icazə verib. Bəli, Hüsnüpəri qırx nəfər qız dövrəsində, geyindi əfsar libasını. Atdarın minib, çıxdılar şikarə. Qız şikargahda dolanırdı, o tərəfə bu tərə-

fə göz gəzidirirdi. Ağa, o gün idi ki, iki gün, üş gün qalırdı ki, ta bu qırx günə. Qız ceyran sürətində, bəli, gördü şikargaha yaxınlaşıb çadırlar qurulupdu. Bir az yaxınlaşmışam. Bu şikargahda bu çadırlar qurulub, Hüsnüpərininkilərdir.

Ceyran bir az gözləyib Bəy Aslan yetirən zaman özün bir körpü vardı, körpünü rədd elədi, vurdu çadırıların içinə. Çadırların arasında dayə yıxıldı. Bəy Aslan atın başın əydi, baxdı çadırlara. Gördü bular hamısı əfsar dərəcadadılar burda. Hüsnüpəri çadırdan çıxdı. Çıxanda gördü, bir dənə oğlandı, dayanıbdı çadırların müqabilində, elə bil dağı qoymusan dağ üsdə. Allahın göylü gələn zaman bu oğlanı xəlq eliyib. Əlin qoydu ürəyinin başına yavaşcana ikiqat olan kimi oldu. Dedi, görəsən mənim o dayəm getdi hayanda öldi? Bu oğlan elə gəlib bura bunu ötürməli olmasaydı, elə bunu ötürməzdıx. Heç onun gətduyun istəməzdux. Bu oğlan çox gözəl oğlandı, şücəətindən elə məlum oldu, beş nəfər deyirdim, yüz nəfər məlum oldu. Gəldi yaxına:

– Salaməleykim, cavan.

– Əleykim salam.

– Cavan, burda niyə durmusan?

Dedi:

– Xanım, mənim bir dənə ceyranım var idi, ceyranı qovdum, gəldi bu çadırıların arasında yox oldi. Mən ceyran dalısıycan gəlmişəm.

Dedi:

– Axı bir gözlərivi sil, gör kimə baxırsan?

Dedi:

– Xanım, mən kimə baxıram?

Dedi:

– Genə deyirsən?

Dedi:

– Axı danışdığım irəddi.

Dedi:

– Bəli, sən görmüsən məni, dərəc adamam. Sən görmürsən mən kişiyəm, mənə niyə xanım deyirsən?

O, əslən çün yorulmuşdi, çün neçə gün idi, ceyranın dalısıycan yol qovurdi. Ürək elə dərdə gəlib, dedi, mən burda ceyran axtarıram, bu da burda mənə çətəl çıxıb. Götürüb görək burda nə deyir, mən də ərz eliyim tamam qulaq asanların hamısının sağlığına:

Nurundan gördüyüm o şux camalın,
Ox atıb nizəsi geçti sinəmdən.
İpək yaşmax altdan pünhan dodağın,
Gizlətmə sədəfin, dürr, incin məndən.

Dedi:

– Bir az ağzı başına danışma. Sən öləsən, qırx nəfər adam dövrümdə var. Elə bir həmlə verərəm, xəm kimi atarlar.

Dedi:

– Axı mən sənə bir söz demirəm.

Dedi:

– Bəs sözün dedin, qulaq as cavabına.

Götürüb görək Hüsnüpəri Bəy Aslana nə oxuyur, mən də genə oxuyum dostlar sağlığına:

Sədəfin kəmiyyəm, dürri-mədəni,
Hər nə istəyirsən varımdı məndə.
Pərvaneydim, sorağ etdim səndə şəm,
Yaquti-göhərin, ləlindi məndə.

Dedi:

– Xanım, bəs sən qız olmasan olar, səndə nə qeyri.

– Sənə dedim, ağzı başına danışma.

Amma ürəyində: "Allah, bu cavan məndən sınmıyeydi, əvvəlcədən mən buna uşaxlıq eləsəm, deyəcək, görəsən, nə var?" Bəy Aslan götürüb o birisi bəndin belə deyir, məndə ərz eliyim genə dostlar sağ olsun:

Əynivə geyinmisən zəri-zibanı,
Üstündən örtmüsən tirmənli şalı.
Nə səbəbə etdin məndən pünhanı,
Gizlətmə qoynunda narını məndən.

Qızın camalı oğlanın üzünə işıx salır. Oğlan behal olurdu. Amma qız gördü, oğlan lap səbri qərarın əlindən alıb, dedi, gəl o birisi bəndin belə de, görax oğlan axırın hara gətirəcək. Qız götürüb "Heydəri"ynən:

Əhdim budur, qol boynuma salasan,
Dindirəsən, qəmli göylüm alasan.
Qədəm qoyub bizim bağa gələsən,
İstə alma, heyva, nar, inci məndən.

Oğlan dedi:

– Xanım, bəli, indi qızlığıvı boynuva aldın?

Dedi:

– Cavan, day tanıdın məni. Başımın tüklərindən çıxmışdı, nə cür tanıdın?

– Tanımadım, çün camalın məni hal edib, ordan tanıyıram, xanım. Bəs qulaq as, mən ceyranımı istirəm. Mənim ceyranım gəlib bu çadırların vəsətində yox olub. Sən elə bilərsən, mən şikarçıyam, bağda dolanıram. Yox, o cürə. Qulaq as, deyim:

Misri qılıç qınan çəkib soyluyum,
Sinəm üstü düyünlüyəm, dağlıyam.
Bəy Aslan, amma xanın oğluyam,
Şikarçı deyiləm, yar, incimə məndən.

Dedi:

– Sən elə bildin, mən elə aralıx oğlundan zaddanam?

Dedi:

– Cavan, birin dedin. Adın nədir, Rəşid, birin eşit. Qulaq as, mən də əksik kişinin qızı dəyiləm. Qulaq as, gör mən kiməm.

Onu da götürüb belə deyir:

Səhər-səhər çıxan dan ulduzuyam,
Aşıxların söhbətiyəm, sazıyam.
Adım Hüsnüpəridi, Həsən Sultan qızıyam,
İstəsən alasan, canındı məndən.

Dedi:

– Xanım, mən ceyran istirəm. Mən can almağa gəlməmişəm.

Atının başını döndərib getsin:

– Xanım, mən xüdahafizlik edirəm. Bəs mənim ceyranım bura gəlmiyib, heş mən səndən də ceyran istəmirəm. Sən elə bil söhbəti çöyürürsən ayrı bir yerlərə.

Ağa, Bəy Aslan üz döndərmişdi getsin, çün bədən acılıdı, yorğundu, ürək az qalır yerindən çıxsın. Qızın bir tərəfdən də əğli bunun başından ayırıb. İstiyir qəyitsin, dayə gördü, sən öləsən, qız oğlanı saxlaya bilmədi. Dedi, yanasan səni. Neçə müddətdir yol gətirrəm, indi burda bir saatdır deyişir, qız bir dana oğlanı əlində saxlaya bilmədi. Ağa, özünü salıb yenə dayə surətinə. Gəldi bu başda, kəsdi zəbanın qabağını:

– Cavan, salaməleyküm.

– Əleykümsalam.

– Bəs hara gedirsən?

Dedi:

– Xanım, mən gəlmişdim burda şikarım – ceyranım getmişdi, ceyranımın dalısıcan. Ceyranım da getdi bu çadırın vəsətində yox oldu. Qeyitmişəm bu tərəflərdən görüm axtarıb tapa billəm, ya əliboş gedərəm.

Dedi:

– Cavan, bəs burda dayan, sənə düz deməzlər. Olar bizim öz adamlarımızdı. Mən soruşum, görüm orda ceyran olsa, sənin ceyranını alım, gətirim.

Gəlib, yetirdi Hüsnüpəriyə:

– Salam.

– Əleykümə salam.

– Dayə, bir belə müddətə hardasan?

Dedi:

– Boynun sınsın! Bir belə müddəti həniz oğlanı gətirmişəm. Bir dənə oğlannan səhərdən deyişirsən. Ona bir dənə cavab tapıb deyə bilmədin, burda qalsın.

Dedi:

– Dayə, belə başına dolannam, bəs həmən oğlanıdı?

Dayə, sənə qurban olum, amandı, qoyma cavan əldən çıxa.

Dedi:

– Day mən eliyə bilmərəm. Buracan gətirmişəm, bırdan bıyasın özün bilərsən.

Dedi:

– Dayə, sənin başuva dolannam, day bir də mən o cavanın dalısıycan gedə bilmərəm. Gör əlində nə əlacun var?

Dedi:

– Day mən bunnan buyanasın eliyə bilmərəm. Yorulmuşam, yorğunam, o qədir atdın dağı-daşı dolandırıb ki... Salıb atın qabağına piyada qaçmışam.

Boynundan qız gərdanbəndi çıxardıb, belə verdi dayəyə. Dedi:

– Dayə, sənə qurban olum. Dayə, əlimdə əlacım yoxdu. O qədir sənə ənam verəcəyəm ki, sən ölmiyəsən, pul altında itəsən.

Dayənin genə əğlin oğurruyub, dayə düşdü yola. Qaçıb gedib tez cavanın qabağından çıxdı:

– Salaməleykim, cavan.

– Əleykim salam.

– Cavan, bə hara gedirsən?

Dedi:

– Xanım, istirəm gedim daha bəs ceyranımın dalısycan.

Dedi:

– Cavan, qulaq as, mən ceyranıvın yerin deyim.

Ta görək cavana nə oxuyur:

Dolanım başuva, gün üzlü cavan,
Əyləşib burada qala bilərsən.
Mətləbivi versin, o Şahı-Mərdan,
Əyləşib burada qala bilərsən.

Dedi:

– Xanım, mənim burda qalmağımla mənə ceyran olmaz. Mən nə müddətdir ceyranımın dalısıycan gəlirəm. Dedi, bəs mən burda qalmaqnan mənə ceyran verəllər?

Dedi:

– Qulaq as:

Dərin-dərin dəryaları keçibsən,
Dolu-dolu peymanələr içibsən.
Arayıban yaxşı-yaman seçibsən,
Əyləşib burada qala bilərsən?

Dedi:

– O çadırlarda, sənin ceyranın ordadı. O ceyranı ki, əxtarırsan, elə o ceyran burdadı.

Dedi:

– Kimə rast gəldin, kimlə danışdın?

Dedi:

– Bir dənə qız çıxdı, mənə cavab verdi.

Dedi:

– Elə orda dayanmalısan. Qulaq as, gör nəmənə deyirəm:

Qələmdir qaşlari, ala gözləri,
Ürəyimdə çoxdu, cavan, eşqin közləri.
Gördün ki, orada gözəl qızları,
Hansın sövsən, birin ala bilərsən.

Dedi:

– Xanım, elə xanım oradikdə eləmək niyyətiynən verəllər mənim əlimə?

Dedi:

– Cavan, mən sənə sözdü deyirəm.

Dedi:

– Axı, xanım, mən burda eliyə bilmərəm. Mən qürbət eldən gəlmişəm. Mən İrannan gəlirəm. Nə müddətdir at sürürəm, mən ceyranı qova-qova gətirmişəm. Mənim atamın, anamın gözü yoldadı.

Dedi:

– Cavan, qulaq as.

Axır kəlməsin dayə götürür, Bəy Aslana belə oxuyur. Mən də oxuyuram tamam ürəyi dərdlilər sağlığına:

Yazıx dayə yol gəlməkdən əridi,
Əşq atəşi cavan canın bürüdü.
Həsən Sultan qızı Hüsnüpəridi,
Əyləşib yanında qala bilərsən.

Dedi:

– Axı, xanım, Həsən Sultanın qızın gətirib mənə verməzlər.

Dedi:

– Cavan, mən sənə nə deyirəm sən sözə bax.

Cavanı qeytərib bala-bala çadırlara gəlməkdə olsunnar, ağa, Hüsnüpəri belə baxırdı, gördü, dayə cavanı qeytərib gəlir. Çıxdı qabağına peşvaz, peyandaz, cavan, buyur. Bəy Aslanı aparıblar çadıra. Çay-çörək, xoş-beş, on beş, müşgü-ənbər gətirirlər dayələr səpirlər Bəy Aslanın üstünə. Biri tərin silir, biri ta bunun əyaxların yuyur, Bəy Aslana isdirahatdıx verillər.

Qız dedi:

– Cavan.

Dedi:

– Bəli.

Dedi:

– Nə müddətdir sənin yoluvu gözdüyürəm. İndi nə olmuşdu, burda bir sözdən ötəri atmışdın məni, gedirdin?

Dedi:

– Axı, xanım, mən ceyran dalısycan gəlmişəm. Mən qız dalısycan gəlməmişəm.

Dedi:

– Cavan, elə o ceyranı ki axtarırdın, mən idim, ayrı ceyranımız yoxdu.

Ağa, qız isdiyir Bəy Aslana görax da burda nəmənə oxuyur, mən də oxuyum tamam bu navarlara qulaq asanlar sağlığına. Qız götürüb çadırda Bəy Aslana nə deyir, mən də ərz eliyim qulaq asanlar sağlığına:

Başına döndüyüm gül üzlü cavan,
Gözlürəm yolunu xeyli zamandır.
Ala gözlərinə mən ollam heyran,
Gözlürəm yolunu xeyli zamandır.

Oğlan dedi:

– Bax bura görüm, sən mənim yolumu gözlüyürsün, səni mənə kim demişdir, sən məni hardan tanıyırdın?

Götürüb görək qıza nə cür deyir, mən də tamam eşidənlər sağlığına:

Sənə qurban olum, alagöz Pərim,
Malım yoxdu, canım sənə qurbandır.
Yolunda qoymuşam bu başı-canı,
Malım yoxdu, canım sənə qurbandı.

Qız elə söylüyür, hərdən bir baxır dayənin üzünə, hərdən bir baxır kənizlərə. Bu cavanı pişvaz eliyir, görüm bu cavanın üsdü-başına ətirdən, əyaxların yumaxdan, nahar gətirməlisiz, nahar gətirin. Ağa, qızlar elə pişvaz eliyir, Hüsnüpəri götürüb oğlana nə deyir, mən də ərz eliyim siz şad olasız:

Çoxdandı almışam sənin sorağın,
Gecə-gündüz çəkirəm iştiyaqın.
Dolanum başuva, əziz qonağım,
Bu gün bizə böyük toydu-bayramdı.

Dedi:

–Xanım, biz elə burda başlamışıx toyu mən İrandan yol gəlmişəm. Mənim atam-anam var. Mənə burda toy eləməy olmaz.

Dedi:

– Axı, cavan, mənim də ata-anam var.Yoxdu dəyil ki.

Dedi:

– Bəs, xanım, qulaq as deyim da:

Səni gördüm, bir od düşdü bu canə,
Dolanım başuva misli-pərvanə.
Əgər gedər olsan mənlə İranə,
Malım, canım, hər nə varım qurbandı.

Dedi:

– Cavan, sən apar məni dağ başında saxla. Hara getsən, gedəciyəm səninlə. Nə müddətdir sənin kimi cavanın həsrətini çəkirəm. İndi tapmışam səni, ötürə billəm?

Götürüb qız belə deyir:

Mən Hüsnüpəriyəm, baxsan sözümə,
Müjganın ox kimi dəydi gözümə.
Gözlədim yoluvu, dözdüm dözümə,
Rüstəmi-dastan Gərşasibi-sandı.

Bəy Aslan cavab verir:

Razı olma, gözəl, səndən ayrılam,
Xaliqdən yetişdi mənə bir ilham.
Bəy Aslanam, gözdüyür yolum atam-anam,
Soruşsan yerimi Xoydu, İrandı.

Dedi:

– Cavan, mən bilirəm, sən iranlısan. Sənin kimin cavan azara tapılar bu yerrərərdə. Bu hünər, bu şucaət, bu gözəllik ki var, mənim gözəlliyimə çıxar gözəllik yoxudu. Sənin gözəlliyin mənim gözəlliyimin üsdünə gəlib.

– Dayə.

– Bəli.

– Dayə, dəstur ver, şərab məclisi qurulsun, bu cavan da yorğundu, burda bir dincəlsin, bir şərab içsin.

Qızlar gedib şərab gətirdilər. Saqiçi şərabı dolandırırdı, qız bir göz vurdu. Dedi:

– Dayə, bu oğlanın şərabın üzərinə bir behiştarı vurasan. Ta bunu burdan götürək.

Ağa, qızların biri dərman varidi Bəy Aslanın huşdan başdən gedib, qız dəstur verdi. Götdülər Bəy Aslanı qoydular bir dənə sandığa. Çatdılar atların üsdünə, ta hara Misrin dərbarına sarı yol getməkdə olsunnar. Ta gətirib ha çatdılar Misirə. Sandığın ağzın açan zamanda gördülər Bəy Aslan huşdan çıxıb, əsla halı özündə yoxdu. Qız dəstur verdi:

– Dayə, evin yıxılsın, aman verirəm, zəhər yaxşılaşdıran dərmanı gətir, bu cavan əlimnən getdi.

Dayə dəstur verdi, qızlar zəhər yaxşılaşdıran gətiriblər. Veriblər, bu oğlan huşa gəlsin. Huşa gələn zaman qızlar gülab verir, biri əyaxların yuyur, biri üzünə su səpir, ta cavanı hala gətiriblər.

Ağa, cavan hala gələn zaman nə cür oldu? Bəy Aslan yuxudan ayılan zaman gördü, bir nəfər buna bir sillə vurdu, Bəy Aslanın gözlərinin ikisi də çıxdı, düşdü yerə. Yuxudan ayılan kimi ökütmə çalıb ağlıyırdı. Qız o üzünə keçirdi, bu üzünə keçirdi, cavan, sənə nə oldu? Mən səni sandıxda gətidiyimə görə ağlıyısan? Niyə ağlıyısan? İllətini mənə de. Ağa, Bəy Aslan götürüb burda görək qıza nə deyir:

Başına döndüyüm, qurban olduğum,
Yaralı bülbüləm, xanım, gül ayrı düşdü.
Ala gözlərinə mən olum qurban,
Qaldı vətən sarı, el ayrı düşdü.

Qız elə ağladı:

– Cavan nə oldu? Mənnən xoşun gəlmədi? Mən sənnən ayrılmağıma razı olmadım, bu işi gördüm.

Dedi:

– Xanım, qulaq asax, o cür dəyil:

Şeyda bülbül ayrı düşməz gülündən,
Şanə olub, xanım, aslanaram telindən.
Namərd fələk ayrı saldı elimdən,
Qaldı vətən sarı, el ayrı düşdü.

Qız ağlıyır, Bəy Aslan ağlıyır, dövrədə kənizlər, dayələr də ağlıyır. Qız elə yalvarır:

– Cavan, sən Allah, söz nə olub onu mənə diyəsən. Düzün de görüm, nə olub? Ürəyim az qalır çıxsın yerindən.

Dedi:

– Xanım, qulaq as, deyirəm.

Onu da belə deyir:

Dərin-dərin dəryalara dolmuşam,
Heyva kimi saralmışam, solmuşam.
Xanım, buyünləri bir vaqiyə görmüşəm,
Bülbül ayrı düşdü, gül ayrı düşdü.

Qız dedi:

– Cavan, isdiyirsən bu sözünnən məndən ayrılasan. Bu ayrı düşdü, ayrı düşdü, nəmənə deyirsən?

Dedi:

– Xanım, mən yuxu görmüşəm, yuxuda gördüm bir nəfər vurdu, mənim gözlərim çıxdı.

Dedi:

– Cavan, elə bundan ötür ağlıyırsan? Baba, yuxu düz deməz. Görmək, görməməkdi, inək təpədi, öküz nəmənədi bu sözlərdən.

Dedi:

– Yox, olmaz, xanım, çün yarim vaqədə gördüm mən, sillə dəydi, gözlərim çıxdı. Burda bir iş olacax, xanım, olmağına.

Götürüb axır kəlməsin belə desin, mən də oxuyum tamam el sağ olsun:

Şeyda bülbül cəh-cəh vurar güllərdə,
Məcnun kimi məskən etdim çöllərdə.
Bəy Aslanam, ha adım qaldı dillərdə,
Yaralı bülbüləm, gül ayrı düşdü.

Dedi:

– Baba, sən əgər yuxuya görə deyirsənsə, yuxu düz deməz. Səni biz sandığun içində gətirmuşux. Halbahal olufsan?

Dedi:

– Xanım, mən də bir söz demirəm ki...

Xəbər verib anasına. Dedi:

– Ana, bəli. Sənə bir dənə cavan gətirmişəm İrannan ki, üsdünə ki cavan tapılmaz.

Ağa, qasid naməni aparıb versin anasına. Anası xəbərdar olub, dedi:

– Neçə yerdə şah oğlannarından mənim qızıma elçi gələ, vermiyəm, getmiyə. Bu günləri bir dənə yoldan keçən bir oğlana deyir, aşıq olmuşam.

– Gəl özün bax gör, nə cür bir oğlandı.

Anası kənizləri ilə düşüb yola, ta gəlib görsün, qız gətirən oğlan nə cür bir oğlandı. Ağa, uzaxdan yetirməmiş oğlan bu cür çıxıb çadırdan eşiyə, ta oğlanın camalına baxsınlar, qızın nənəsi görən kimi dedi, həə, qızımın bəs haqqı var imiş söz deməkdi. Dedi:

– Hər kəs məni isdiyir, bu oğlanı alqışlasın. Bəli, ağa yetirən gümanı puluna gələn yığdılar bu oğlanın ətrafına.

Dəstur verdilər kimə? Həsən Sultana. Həsən Sultan amadə olsun, ta damadı gəlir. Necə damadı gəlir dedilər, həm qızın dayəsi qıza bir oğlan gətirib, ta gətirirlər onu sən də görəsən. Dedi:

– Vallah, bir qız bir oğlanındı. Mənim qızım lap şah oğlu olmasın, bir dənə yolçu oğlu olsun, sövüb gedib, sövənə zaval yoxdu.

Qız dedi:

– Bəs, atam bu sözü ki deyib neynəsin.

Həə dedi:

– Bir nəfər yollasın, malla gətirdin, ta bizim kəbinimizi kəssin. Deməк olmaz, bu oğlan burda qalmalıdır.

Həsən Sultan dəstur verib, bir nəfər qazi gətirdi. Ta Hüsnüpəri ilə Bəy Aslan kəbinlərin kəsdirsinlər, amma qızdar deyir, gülür, Hüsnüpəri oynuyur, amma Bəy Aslanın ürəyi heş qəmdən açılmır. Niyə? Həmin gördüyü yuxuya xatir. Qızlar dövrədə çalır, oynuyur, Bəy Aslan əlin qoyub alnına, hərdən Hüsnüpəri keçir dövrəsinə:

– Cavan, genə nə olub?

Dedi:

– Xanım, elə yuxudan bir az narahatam.

Dedi:

– Baba, qoy toyumuz başlansın, görək dünyada nə var, nə yox?

Dedi:

– Axı, xanım, mənim də atam, anam var. İranda mənim yolumu gözdüyürlər. Olar da gərək mənə toy tutalar.

Dedi:

– Eybi yoxdu, deyirsən lap toyu burda qət eliyib, gedək, İranda toy eliyək.

Dedi:

– Axı, xanım, sənin də atavın, anavın arzusu var. Eybi yoxdu, gedərux, orda da toy tutarıx.

Ağa, toylar başlanıb burda qırx gün toy tutsunlar. Toy qutulandan sonra dedi:

– Qızım, səni mən Allaha tapşırıram. Bəy Aslannan İrana yollamalıyam.

Ağa, Bəy Aslan gəmgin əyləşib, Hüsnüpəri gəldi ki, atamdan bir şad xəbər gəlib.

– Nəmənədi?

Dedi:
– Bizi İrana yollamalıdı.
Ağa, Bəy Aslan götürüb qıza burda belə cavab deyir:

Başına mən dönüm, gül üzlü gözəl,
Günbəgün artır xiyalım mənim.
Yanıram şəminə misli pərvanə,
Günbəgün artır məlalım mənim.

Dedi:
– Cavan, elə bil sən mənim lap ruhumu qəfəsdə oynadısan. Axı bir belə deyirəm, gülürəm, dövrənə dolanıram, genə sənin ürəyin açılmır.
Dedi:
– Axı, xanım, ürəyin özü açılar. Sən ürək açmaqla ürək açılmaz. Gərək ürəyi Allah aça.
Götürüb görək qız nə deyir:

Başına döndüyüm, gül üzlü cavan,
Bilmirəm ki, nə deyir qüssən sənin.
Yetişdi dadıva Sahibəs-Zaman,
Bilmirəm ki, nə deyir qüssən sənin.

Dedi:
– Xanım, elə qüssəmi deyirəm də, sənə ayrı bir söz ki, demirəm. Qüssəmi də deyirəm, yaxçı bilirsən. Bəs qulaq as.
Götürüb o birsin belə desin:

Mən müştaqam sənin kimi ceyrana,
Yanıbdır qürbətdə bağrı, dönübdür qanə.
İnşallah, xanım, səni yetirrəm İranə,
Onda ucalacax cəlalım mənim.

Dedi:
– Baba, mən bir söz demirəm, məni yetir İranə. Mən də deyirəm, gedək İranə də. Bəs, mən deyirəm getmə İranə? Sənin orda cəlalın ucalacax, mən də razıyam gedək ora. Sənin qəm-qüssən də dağılsın, cəlalın da ucalsın.

Bəs götürüb qız belə desin, mən də ərz eliyim:

Şeyda bülbül, gül üstünü örtübdü,
Duman, çiskin dağ başından gedibdir,
Atam bizə bu gün bir toy tutubdur,
Bilmirəm ki, nə cür xiyalın sənin.

Dedi:

– Xanım, bəs indi ki dedin, qulaq as:

Bəy Aslanam, qürbət eldə qalmışam,
Qəmim yoxdu, xanım, sən gözəli almışam.
O günkü gün haa bir vaqiyə görmüşəm,
O gün ki gəlmir qərarım mənim.

Dedi:

– Cavan, sən Allah, o yuxunu yadından çıxartmıyacaqsan? Nə vaxtacan elə yuxudan deyəcəksən? Evin tikilməsin, mənim bağırımı çatlatmadın?

Dedi:

– Xanım, özümdən dəyil ki.

Dedi:

– Baba, başından çıxart. Hüsnüpəri deyir:

Bilməm nədir xiyalın,
Günbəgün artcaq cahı-calalın.
Dağıt, getsin qəlbindəki məlalın,
Qalmasın ürəkdə, qəm-qüssən sənin.

Dedi:

– Xanım, bax sənə görə ürəyimdə nəmənə qəm-qüssəm var ötürdüm, amma bunnan burda başıma bir iş gəlsə, muzubabalı sənin boynuva.

Dedi:

– Cavan, niyə mənim boynuma?

Dedi:

– Axı sən mənnən əl götürmüsən? Vəli, bunnan bir iş gəlsə başıma.

Deyir:

– Axı, cavan, mən neyniyim? Bəs cavan bir iş görüm.

Dedi:

– Hələ bir, iki, üş gün burdeyix, atamnan icazə alım, çıxax, bu şikargahı bir dolanax. Bu dağ-daşda bir zehnin açılsın, gedax-gələx olmasa.

Deyir:

– Xanım, onda da tövlədən heş kəs gəlməsin, elə ikimiz gedərux atlarımıznan, bir az dolanux, bəlkə ürəkdi açıldı-açıldı, day bilməx olmaz.

Atasınnan icazə alıp, atların bahəm miniblər. İş gərək Allahdan gələ. O qəzavə qədər ki, adamın başına gələcək, Allah tərəfdən adama bir iplər eləcax bu işlər. Ürəyi agah ola. Bəy Aslan heş kəsi qəbul eləmir, qızla ikisi bahəm atların miniblər şikargaha tərəf.

Ağa, bular burda şikargaha getmaxda olsunlar söhbəti eşidax kimnən, Rum padişahının bir dənə dərvişi var idi. Adına Kökəh dərviş deyərdilər. Bunun bir dənə ahəngi var idi. Bir dənə xoşgüllüyü var idi ki, dünyaya bərabər idi. Dərviş dolanırdı, gəzirdi hər tərəfdə, bir dənə qəsidə oxuyurdu. O günnər idi ki, yatmışdı, yuxuda gördü, Misir yerində bir dənə qız gəlib dünyaya. Gözəlliyi dünyaya bərabərdir. Dedi, gərək gedəm, mən bu qızı görəm, görəm nə cür bir şeydi. Ağa, dolana-dolana gəlib çatmışdı hara, Misir elinə. Gəzirdi dərbarın dövrəsində, gördü qızlar, gəlinnər elə deyirlər-gülürlər, şaqqıltı səsləri gedir asumana. Dedi:

– Bala, burda nə xəbər var?

Dedilər:

– Həsən Sultanın bir qızı var, Hüsnüpəri, onların toyudu. Toyların tutmuşux, onlar gediblər şikargaha dolanmaga, biz də burda oların dalısıycan deyib-gülürüx.

Dedi:

– O qız hayanda olar?

Dedi:

– Gediblər şikargaha. Ələn gələrlər.

Ağa, bular şikargahdan qeyitməkdə olsun, dərviş qəsidəni oxuyurdu xoş ahəngdə.

Qız yetirdi, dedi:

– Bəy Aslan!

Dedi:

– Bəli.

Dedi:

– Bunu görürsən?

– Hə.

Dedi:

– Bu dərvşdi. Mən buna bir qədir pul verərəm, sənə dua edər, inşallah, sənin o qəlbindəki o mərəzin aradan gedər.

Dedi:

– Xanım, eybi yoxdu.

Gətirib dərvişə dedi:

– Bəli, mənim bu namizədimdi. Təzə namizəd olmuşuq. Ürəyi çox narahatdı, sən Allah, sənin o inandığın, bunu bətər bir dua eliyəsən.

Dərviş bir baxdı gördü, hə, o yuxuda gördüyü yar, düz gəlibən elə gözünün qabağına. Elə ürəyində dedi, xanım, elə səni axtarırdım. Nə duası desən, eliyəcəyəm. Başlıyıb dua eləməyə. Bəli, dərviş dua eləməyə əllərin götürüb Xudaya sarı: "Allah bunun bu mərdinə şəfa ver. Allah, bunlara yaxçı yol ver. Allah, bunları başa çıxanlardan elə." Qız hərdən bir baxır Bəy Aslanın üzünə, amma dərviş nə fikirdədir. Ağa, qədim şəkil çəkən kamırası yoxdu ki, götürələr, bir dənə qızın əksin salalar. Dərviş bir dənə kağız əlində, bir ruçka yavaş-yavaş qıza dua eliyir, həmi danışdırır, həmi qızın əksin çəkir. Qıza düzgün nəqqaşdarlıx eliyip əlində, yavaş bulardan xudafizlik eliyip, qeyitdi Ruma.

Ağa, bular burda qalmaxda olsun, söhbəti eşidax hardan, Rumdan. Rumun padişahı gündə bu dərviş gələrdi bulara, bir az söhbət elərdi, ta buların ürəyi açılardı. Bu günki gün idi ki, dərviş söhbət eliyəcəydi, dərviş yox idi. Çün getmişdi o yuxuda gördüyünün dalısycan.

Dedi:

– Ay bala, bu dərvişdən nə xəbər?

Dedilər:

– Qurban, biz bu gün dərvişi göra bilməmişıx.

O günkü gün soruşub, sabahları dərviş genə gəlmədi. Dedi:

– Bu dərviş qapıdan girəndə bunun görüm hayanda başı qarışıfdı.

Cəllad isdiyir, bu dərvişin boynun vursun. Ağa, dərviş o zaman çatır ki, Rum şahının ürəyi nətər acıxlı idi. Qapını döyüp, ta cəlladlar qapını açıbdılar.

Cəllad deyir:

– Boynun vurum?

Ağa, qədim cəlladlar üş dəfə həmlə edərdilər. Ta ikiminci dəfəyə kimi hər kəs bir dənə vasitəçi olsa, o vasitəçini gözlərdilər. İkiminci dəfədə bir də isdiyirdilər ki, həmlə eləsinlər.

Dedi:

– Qurban, ərzim var. Əvvəl ərzimi deyim, ondan sonra öldürsən də, öldürərsən.

Dedi:

– De görüm, nəmənədi.

Əlindəki əskini yavaşca qoydu müqabilində yerə.

Dedi:

– Qurban, sənin üçün bir dənə tööhə gətimişəm.

Rum şahının gözləri sataşanda Hüsnüpərinin əksinə, isdədi bir yıxılsın, genə özün saxladı.

Dedi:

– Dərviş, evin xarab olsun, bu nədi, hardan gətimisən?

Dedi:

– Qurban, bu Misir elində Həsən Sultanın qızı Hüsnüpəridi. Onu sənin üçün bir dənə tööhə gətimişəm.

Dəstur verdi, Gülgülgənyara dedi, mənim o əğyarım neçə illərdi yeyir, içir, yatır, heş mənə bir karə gəlmiyib. Xəbər verin Gülgülgənyar. Gülrəng gəlib əksə baxdı.

Dedi:

– Qurban, mən bunun özün gördüm, vəli, Misiri bilmirəm haradı.

Dedi:

– Misir elində Həsən Sultanın qızıdı.

Ağa, Gülgülgənyar padişahdan icazə alıb özün saldı bir dənə kabutər surətinə, qalxdı havanın üzünə. İndi bu burda Misir elinə gəlməkdə olsun. Xəbəri eşit kimdən, görək Hüsnüpəri Bəy Aslanı götürüb gedər çıxar dağa.

Deyir:

– Xanım, baba, şikargaha getməknən belə ürək açılmır.

Deyir:

– Cavan, şikargaha gedəndə genə halıva fərq eliyir.

Götürüblər bir şikargah, iki şikargah, üçümincində qərar qoyublar. İndi burda Bəy Aslan deyir:

– Xanım, bəli, gəl yorulmuşux, hələ burda bir dayan, mənim ürəyim ağrıdı. Bu qəmli adamı elə yuxu basır.

Deyir:

– Yuxşaxların bir qatdıyasan, mən bir başımı qoyam dizun üstündə bir az istirahətdıx eliyəm. Elə ki, bir halım özümə gəldi, durax gedək.

Ağa, bular burda yatmaxda olsunlar. Söhbəti eşit Gülgülgənyardan. Gülgülgənyar gəldi, Misrin elin dolandı, dərbarın dövrəsində qızlara tərəf-bu tərəfə nəzər salıb, axır tapa bilmədi.

Dedi:

– Pərvərdigara, mən bu padişahın yanında bir belə yeyib, içib yatmışam, mən burdan əliboş qeyitsəm, mənim zəhmətim hədər olar, özün mənə bir nəzər elə.

Yavaş-yavaş özün verdi Misrin kənarına sarı. Gəlib gördülər şikargahda bir çadır qurulub. Bir oğlan, bir qızdı. Qız oturub keşik verir, oğlan başın qoyun dizinin üsdünə yatıbdı. Belə baxdı, gördü sən ölmiyəsən, bu qızı elə bil Allah öz qüdrətindən göylu cuşa gələndə xəlq eliyib. Belə baxanda gördü oğlan bundan da dörd bərabər gözəldi.

Dedi:

– Evin xarab oleydi, dərviş, mən bu oğlanı bu qızdan necə ayıra bilim? İş tapammırdın özüva?

Amma dedi, çarəm yoxdu, aparmasam olmaz. Aparsam da, bu oğlanınan qızın muzdı-babalı oturar, dərvişin dədə-babasına. Ağa, gedib oturdu çadırın rubəsundu bir daşın üsdündə. Başlıyıb xoş ahəngilə qərarı səsində oxuyur, qız beləsində baxanda gördü bu gözəl quşdu oxuyur.

Dedi, ha, yaxçı oldu. İki dənə balaca daş atdı gördü, quş getmədi. Dedi, bu quşu durram yavaşca Bəy Aslanın xəbəri olunca tutaram, gətirəm, bu da görər ki, mən nə cür şikar eliyirəm. Bu elə bil uçan dəyil. Yavaşca Bəy Aslanın başın götürüb qoydu yerə, durdu quşu tutsun gətirsin. Elə əlini atırdı quşa, gördü quş qalxmadı, dedi hə, yaxçı oldu. Gülgülgənyar saldı bunu tilsimə. Əyaxların da bağladı. Yavaş-yavaş qızın gözləri baxdıxca, gördü bu yekəldi, yekəldi oldu bir qafil, yekə bir quş qalxdı havanın üzünə. Qız ha qədər elədi əllərin götürsün, gördü, əllər bağlıdı. Görüb üzündə çün tilsim batil olanda qız baxdı gördü, bəli, bu bir dənə əğyardı.

Dedi:

– Evin xərab olsun, məni hara aparırsan? Bəy Aslan qaldı orda.

Dedi qalxanda:

– Çarəsi yoxdu, aparmalıyam.

Dedi:

– Baba, o mənim ərimdi.

Dedi:

– Baba, onnan ər olmaz. Ərdə gətirər arvadı qoyar, çöldə yuxlar? Arvadı da nigahban qoyar?

Bir dəfə ucadan səsləndi:

– Bəy Aslan, evin xərəb olsun, mən getdim.

Ağa, Bəy Aslan gözlərin açdı. O tərəfə, bu tərəfə baxdı gördü, havanın üzündə bir şey qərəlir. Bildi ki, bunu əğyar aparıb, götürüb özü-özünə, öz vəsfi-halına, öz günnərinə belə deyir:

Qərib yerdə açdım hicran kitabım,
Zarı qoydun mən fəqiri, düşküni.
Ağam katib olsa, yaza bilməz hesabın,
Kimsə bilməz bu fələyin köksünü.

Fələy, sən mənnən nə yaman başladın? Mən elə bilirdim elə, mənə axir nə olacaq. Mənim niyə axi işimi ahu-zara salırsan? Götürüb o birsin belə deyir:

Bahar olsa, bağban bağda gül əkər,
Dolanıb başına çox cəfa çəkər.
Bülbül ağlar, gözdən qanni yaş tökər,
Xar çəkərmiş qızılgülün əşkinə.

Deyir, əmma elə ağlıyır, gözlərindən yaş baharın bulutu kimi ələnir. Ağa, götürür axır kəlməsin belə deyir:

Dolu-dolu peymanəmi doldurdum,
Saraldıbən gülüm rəngin soldurdun.
Fələk, mənə minnət vurma beş günü,
Mənə bu beş gündə nə minnəti var?

Ağa, qızın atın gətirib cilovun doladı başına. Düçarından ta bir dana əliynən vurub, dedi:

– Heyvan, gedərsən Misrin elinə, xəbər verərsən ki, Bəy Aslanın sövgilisin əğyar apardı.

Düşüb çöllərə, burda orda bi qədir yol gəlir, dayanır, yorulur, ağa, bilmir amma hara gedəcəyini. Ağa Bəy Aslan burda avarə dolanmaxda olsun, gələk görək, əğyar qızı hara gətirib? Əğyar qızı gətirib, Rumun dərbarında qoydu yerə. Rum padişahı dəstur verdi hərəmxanasına, tökülün, mənim sövgülüm gəlib. Amma xəbəri yoxdu ki, bu sövgili ya bununkidi, ya ayrısınınki. Çün dərviş əksi gətirib vermişdi, Rum padişahı da xəbərsiz idi. Ağa, dəstur verdilər qıza, apardılar peşmal tayanda. Qızlar yığılıb dövrəsinə, biri gülüb salır, biri başın darıyır, biri başmaqların silib qıza gətirdilər, ta hərəmxanaya. Qız hərəmxanada ağlıyır. Deyirlər:

– Gələn xanım, bəs sən niyə ağlıyırsan? Sən gərək şükr eliyəsən Allahuva ki, səni gətiriblər Rum padişahına xanım.

Hüsnüpəri deyir:

Bilməm nədir dövranın,
Əlimdən gedibdir nazlı ceyranım.
Çöllərdə qalıbdır o bəyaz xanım,
Odur ki, açılmır xiyalım mənim.

Qızlar yığışıb başına, ay xanım, sən Allah, elə söz oxu bizim də qəlbimiz şad olsun. Bə niyə ağlıyirsan, bizi də qəmli eliyirsən? Dur, çıxax gedək bağa, bağda bir dolanax, zehnin açılsın. Qızlara oxuyur:

Qızlar, görün mənim müşgül halımi,
Mən neynirəm bu baxçanı, bu bağі.
Fələk məni ayrı salıb elimdən,
Vurubdur sinəmə düyünü, dağі.

Axı, ay xanım, sən Allah, elə başdan qəmdən danışır. Elə söz de, bizim də qəlbimiz açılsın, çıxax bağ-bağatı dolanax.

Deyir:

– Mən neynirəm bağ-bağatı. Dedi:

– Qulaq as.

O birisin belə deyir:

Baxça nəyə lazim, bağ nəyə lazim,
Tərlanın yanında sar nəyə lazim?
Bülbülün yanında xar nəyə lazim,
Bülbül uçub boş qalıbdır bu tale.

– Ay xanım, yollarda ki, bülbül boş qalıbdır bu dağ. Bizi allatmasən, yarımdan bu şeyi ərz eliyib gedəcəm biriniz qalmayacaqsınız.

Dedi:

– Günah nəmənədi?

Dedi:

– Axı gətirib məni salmısınız bura. Mənim belə ərim var ee, məni ərimdən əğyar ayırıb. Məni padşah azad eləsin, mənnən buna arvad olmaz. Mənim özümün namusum var.

Amma götürüb o birisin belə deyir:

Bağban gül əkib səfasın sürməz,
Aşiq məşuqin vəfasın bilməz.
Yaralı ürəyim sınıb, düzəlməz,
Məgər lütf eliyər ruxsari şegerd.

– Xanım, nə cür olub, axı səni kim gətirib bura?

Dedi:

– Məni əğyar gətirib.

– Bəs sənin dediğin göz bəbəyin hayanda qalıb? Xanım, vallah, bu işin əsli var, biz də sənnən irağ barmağın tutsan, ora getməliyix. Bu şahın başına bir oyun gətirək, anadan olan günü bilməz.

Ağa, götürüb axır kəlməsin belə oxuyur:

İlahi, mən qurtarmadım bu qəmnən,
Abu-leysan tökülür didəmdən.
Mən Hüsnüyəm, canım çıxmadı təndən,
Behişdə göreydin bu qəsri-tale.

Ağa, dəstur verdilər ki, Rum padişahı gəlir sövgülüsün görməyə. Qızlar çəkilir o yan, bu yana gəlsin Rum padişahı

sövgilisin görsün. Rum padişahı gəlib, baxdı gördü, sən ölmiyəsən, bu dərviş ki, əksi gətirib o nəqqaşlıx ki, eləmişdi hələ çoxunu yerinə yetirə bilmir. Allah qıza o gözəllik ki, verib dedi:

– Xanım, səni Allah mənə yetirib, məni sənə. Zalım dünyada da fikrin eliyən bir ərzin qalmıyıb.

Qız elə ökütməynən ağladı ki.

Dedi:

– Xanım, bə niyə ağlıyırsan?

Dedi:

– Mən sənə sögülü olmaram.

Dedi:

– Niyə məni bəyənmirsən? Onda verrəm cəlladlar burda boynuvu vura, rahatdaşasan.

Dedi:

– Mənə qırx gün möhlət verəcəksən. Mənim yanımda xanımlardan, dayələrdən olmalıdır. Daha heş kəs mənim yanıma gələr bilməz, ta özün da.

Dedi:

– Baba, mən səni gətirmişəm, heş olmasa, burda gündə sənnən beş dəqiqə danışım, mənim zehnim açılsın.

Dedi:

– Görürsən bu üzüyü?

Dedi:

– Hə.

Dedi:

– Bunun qaşı zəhridəndi. İsdiyəsən mənə sarı gələsən, üzüyümün qaşı zəhridi, yanaram, dünyadan gedərəm. Ta qırx gün mənə möhlət verməlisən.

Ağa, qırx gün bu burda möhlət almalı olsun, padişah qəbul eləməkdə olsun, qızlar gəlib axı bəs, Hüsnüpəri niyə qəmginsən, niyə ağlıyısan? Xanımlara, qızlara götürüb görək burda nə deyir:

Başına mən dönüm yığılan qızlar,
Bəladan açılmır heç başım mənim.
Bülbül necə bağda güldən ayrılar,
Odursa, ayrılıb sirdaşım mənim.

Dedilər:

– Xanım, sənin bu sirdaşın kimdi? Bala, bunda söz var imiş, bu ağlıyırmış. Xanım, sən Allah, sözuvu de görək, pişyar elə görək nə olub?Ağlama.

Deyir:

– Qulaq as:

Könlüm bu havaları dolanır,
Qəmim gəlir, qəm üsdünə qalanır.
Sövdücəyim bilməm harada qalıb,
Odur ki, açılmır xiyalım mənim.

– Xanım, bax, sənin bu sövdücəyin kim ola? Sənin elə bir sözün var, bizə tikyarı demirsən. Aç sözünü, de.

Götürüb nəmənə nə deyir:

Ölüyə əmanətdi, ay dostlar, bilin,
Heş kəsin bəlaya başın dəyməsin.
Qoy sizi ağlatsa, visal ağlatsın,
Gözüzə kədərin yaşın dəyməsin.

Arsızlıx eliyib gülməyə nə var?
Ömrün sonunu bilməyə nə var?
Mərdin gülləsiynən ölməyə nə var,
Kişiyə namərdin daşı dəyməsin.

– Ay xanım, əgər sən ölməsən, bu sözündən bir baş qurtarax, səninlə burdan getməliyix. Ta özümüzlə bu şahı nəqşə çəkməliyix.

Ağa, qızlar burda şaha nəqşə çəkməxda olsun, biz gedax görax, bu Bəy Aslan orda nə cür oldu? Bəli, Bəy Aslan o evdəki qalmışdı, qızı əğyar aparmışdı, vəli, bilmirdi hara aparıb. O səmtə ki, aparırdı, o səmtə sarı gedirdi. Amma bilmirdi sa-

ğa gedəcax, ya sola gedəcax. Bir qədir gəlib ta yorulmuşdi, atın bir tərəfdə bağlıyıb düşmüşdü. Ta neynəsin? Bir tikə çörək yesin, ta ha özünə gəlsin. Ürək dərdə-qəmə gəlmişdi, o keçən günləri, başının bəlası... Bir o yuxunu ki görüb onnan narahatdı. Götürüb belə deyir:

Gecə-gündüz ah edərəm, ağlaram,
Mənim kimi qəmi yüz olan vardı.
Həsrət qaldım yarin gül üzün görəm,
Ya Rəbb, bu dərdimnən kim xəbərdardı?

Ağa, öz-özünə deyir, gözlərinin yaşını rüxsarına rəvan eliyir, o birisi bəndin belə oxuyur:

Fələk saldı məni yaman çöllərə,
Mən bülbüləm, həsrət qoydu güllərə.
Bilmirəm ki gedib hansı yollara,
İxtiyarım əldən nazlı yaralıdı.

Ağa, özü belə deyir, ağlıyır, amma ürək nanə yarpağı kimi. Hərdən bir ürəyində deyir, baba, mətləb belə başlıyıb, axırda bir yola düçar eliyəcək. Özünə bir az səbr eliyir, oxuyur, götürüb o birsi bəndin belə deyir:

Qəza kəməndinə düçar olmuşam,
Saralıban heyva təkin solmuşam.
Çöllərdə gəzməkdən zinhar olmuşam,
Bilmirəm ki, nədir bəxti-yarıdı.

Bəxtin getdikcə parçalanır. Beş günlük düynyada bir gün görmədim. Elə gözlərim ağlar qalacax. Axır kəlməsin belə deyir:

Yandı bağrım, Allah, döndü bir yana,
Həsrət qaldım mən gül üzlü ceyrana.
Bir dənə söyləsəm, mən Bəy Aslana,
Gedibdir əlimdən namusdur, ardır.

Ağa, bir az ağlıyandan sonra, ta durub atın minir, yol getməyə məşğul oldu. Gəlib dağdan, dərədən aşıb bir qədir yol gələndən sonra bir dağın başından əlin qoydu gözlərin üsdünə,

baxdı gördü, qabaxda bir dənə meşə görsənir. Elə yaxşı oldu, bu tərəfnən gedərəm, axır bir yerə çıxacax. Ta atı da ayırıb meşənin bir tərəfində bağlaram. Allah heç oğlannarın işin əyməsin. Gördü, bəli, meşədən heyvanlar hər tərəfdən həmlə eliyirlər. Baxdı bir özünə, bir şansına, bir keçəcəyinə, bir gələcəyinə. Götürüb görək nəmənə deyir, mən də oxuyuram:

Sadiqi-qədəm, ismim Bismillah,
Sən bilirsən ki, kimin bağrı bütündü.
Ədəb gəlib göz evimdə dolanıb,
Qəlb evində yalqız zülmə çətindi.

Ağa, istiyirsən namusum əldən gedəndən sonra məni də heyvanlara öldürtdürəsən? Elə ürəkdən yanır, götürüb o birisin kəlməsin belə deyir:

Dərd əlində yanan bağrım talandı,
Qəmim gəldi, qəm üstündən qalandı.
Əcəl gəlib göz evimdə dolandı,
Şahı-Mərdan imdadıma yetirdi.

Ağa, özünün dediyi və dönüb amadə etdiyi və atının üsdündə o birisi bəndin nə cür deyir:

Bu namərd fələyin nə işi mənnən
Həsrət qoyub məni hayannan.

Mən öləndə, Hüsnü, sən gəl yanıma,
Bəy Aslanı bu yerlərdən tap indi.

Ağa, sözünü deyib özünü vurub meşənin heyvanlarının üsdünə tərəf. Ağa, ta qolundan gələn qüdrətdən meşənin heyvanların o tərəfdən ta heyvanların bir qədir qazıb aradan çıxmışdı. Yorğun halətində düşüb bir tərəfdə yatır, qəm ocağına getmişdi. Bəy Aslan bir qədir yatandan sonra, ağa, üsdünə kim gəlib? Ləngəri-mərdi Mürtəza Əli. Bir zaman Bəy Aslan gördü, bir nəfər çağırır:

– Bu halətdə niyə yatmısan?

– Ərz edirəm, ağa, mənim halım çox pərişandı. Namusum əlimdən gedir. Özüm bu hala düşümşəm.

Buyurdu:

– Oğlum, bu halətə düşübsən, oğlan gərək dəlalət çəkə axı, mətləbinə yetişsin.

Ərz edə:

– Ağa, mənim namusum getdi.

Mübarək barmağıynan işarə elədi, zəhmi çəkərsən, namusuna yetərsən, namusun xələl elə, namus əlindədi. Heş zad o namusuva... Əlin tutdu, bu tərəfə getsən, gedib tapa bilərsən. Ağa, get.

Belə gedəndə gördü, ağa gözündən qaib olur. Gözdərin açıb, üş dəfə salavat çövürüb, çəkib üzünə. Ağa, mərkəbin minib həmin səmtə tərəf yol gedirdi. Bir qədir getdi, gəldi bir dağın başına yetirəndə əlin qoydu əmudin üsdünə, baxdı gördü, qabaxda bir şəhri görükür. Dedi, bəli, bu şəhri olsa, hər tərəf olsa, ölüm burda. Ağa, özün vurub şəhrə sarı yetirdi. Dərbarasına yetirəndə gördü ki, bəli, iki nəfər qabaxda gedir, çağırdı:

– Qərdeşim, bəli, yorulmuyasız.

– Sağ olasan, sən də yorulmayasan.

– Burda sudan verən olar?

Dedi:

– Qərdeşim, niyə şəhri dəyil?

Dedi:

– Əgər burda bir nəfər olsa, mən onu qorumalıyam.

Dedi:

– Sən mənə qonaq ola bilərsən. Yaxçı vaxtında gəlmişəm, şahın bugünnəri toyudu. Toy məclisinə gəlmisən? Sən gedəsən dərbarda. Çox gözəl.

– O dərbarda nə üçün, nə verillər?

Dedi:

– Şahın bir dənə əyyarlarınnan şaha gedib bir dənə qız gətirib. Qırx gün də möhlət alıb. O qırx günü yetiriblər, ta bugünnəri qırx günün möhləti də qurtulub, buyünnəri toyları başına vurur.

Deyir:

– Yaxçı, onları mənə nişan verə bilərsən?

Dedi:

– Bəli.

Dedi, ağam nişan verən yol buradadı, gəlib tapmışam.

– Ağa, oları mənə nişan verə bilərsən?

Bəli, gəldik yola. Elə saldılar, o elə saldılar ki, Hüsnüpəri qızdarın içindeydi. Qızdar yığışmışdı Hüsnüpəriyə, dövrə vururdular. Gəlib külafrənginin qabağıynan gedirdi.

Dedilər:

– Ay qız, bu şəhrə nabələd adam gəlibdi, amma bizim yerin adamlarına oxşamır, hamı durub onun tamaşasına.

Hüsnü deyir:

– İcazə versən, külafirəngidən mən də baxa bilərəm?

Ağa, bir qədir qalır ki, küdafirənginin qabağına Bəy Aslan yetirsin. Hüsnüpərinin gözləri sataşanda gördü ki, Bəy Aslan gəlir. Bir dəfə səsləndi ki, mənim namusum gəlib, qızlar pərəm-pərəmə düşdi. Bəy Aslanın gözləri sataşanda gördü, hə, Hüsnüpəri küləfirəngidən baxır, amma Peyğəmbərdən əvəz alıb. Hüsnüpəriyə belə bəzək-zad da vurublar. Gözlərinə ayrı cür gəldi. Ağa qılıncı döndərib sinəsinə götürüb görək Hüsnüpəriyə nələr deyir:

Bizdə gəldik bu günəş nurun toyuna,
Sövdücəyim, hər bəzəyin tamamdı.
Zər-ziba çox yaraşır boynuna,
Sövdücəyim, hər bəzəyin tamamdı.

Elə hökmüynən ağladı, ay xanım, qulaq as, deyim:

Qoşun gəlib dörd dövrəmi alıbdi,
Qəddimin fərmanı əldə yatibdi.
Ay qız, de görüm rəngin niyə pozuldu?
Köylüm edib, dərdim edib virandı.

Deyir:

– Rəngin pozulmasın neynəsin.

Ağa, padişahın gözləri sataşanda gördü qəsrinin qabağında bir nəfər bəy dayanıb. Üsdən baxır, atdan bu da oxuyur. Sazı əlində, şəmşiri basıb sinəsinə oxuyur. Dəstur verdi, oğlan görən kimdi? Onu tutub gətirəsiz bura, görüm neyniyir burda? Ağa, qoşunu dövrədən həmlə eliyip, Bəy Aslan götürüb o birisin belə oxuyur:

Dolu-dolu peymanələr doldurram,
Saraldıban, gül rəngimi soldurram.
Bəy Aslanam, mən bunları öldürrrəm,
Sövdücəyim, hər bəzəyin tamamdı.

Bəy Aslanın söz ağzından qurtaran kimi, bir zaman gördü ki, dövrəsin aldılar. Səsləndilər:

– Ağa, sən kim olasan, burda oxuyursan?

Dedi:

– Necə bəyəm?

Dedi:

– Şah dəstur verib, onu tutun gətirin bura.

Dedi:

– Axı, mənim günahım nəmənədi, tutasan aparasan şahın yanına?

Dedilər:

– Oxumax, şahın hər qadisinin müqabilində sən nə oxuyursan?

Dedi:

– Baba, elə ağzıma gəldi, elə bura şəhrə girəndə ürəyim qəm verib oxudum.

– Sizin şahınız kimdi, dəstur verin, indi onu gətirin bura. Gəlin, sizin qulağınıza yavaşca söz deyim, onu padşahınıza yetirəsiniz.

– Qulağımıza niyə deyirsən, ucadan denən, hamı eşitsin.

Dedi:

– Gizlin sözdü.

Ağa, bunların bir o tərəfdən, biri bu tərəfdən gəlib, yavaşcana əl eliyib bunların qulaxlarına, çəkib qulağın qopardıb qoydu ovuşdarına.

Dedi:

– Aparın padşaha deyin ki, o qulağ qopardan qonaxdı, gəlib bizim şəhrə.

Əllərində qulaxları gediblər dərbara sarı, necə gedillər. Gedirlər görürülər bunların baş-qulaxları bütov qızarmış gəlir. Padişah baxdı gördü, bəli, bu iki nəfər ki yollamışdır, buların qulaxları çıxıf ovuşdarında gəlir.

– Oğlan hanı?

Dedi:

– Qurban, bizim qulaxlarımızı çəkif qoyuf ovucumuza, özü də deyir, gedin deyin, qulaq qopardan qonaxdı bu qonax.

Dəstur verdi, bu cavanı tutasınız. Dövrədən həmlə eliyib, qoymayın, amandı, bu cavan əldən çıxsın. Dəstur verdilər, hər tərəfdən qoşun atdarı. Bəy Aslan atın üsdündə şəmşirin çəkib bir dəfə “Mərdi-Murtəza Əli” çağırıb qoşunun üsdünə həmlə elədi. O yandan, bu yandan o qədər vurub ki, qoşun havza çalıb, qoşun ta geyinib dərbara sarı qaçsın. Ağa, geyinən izahla gəlir, qoşun o qədir çoxaldı ki, Bəy Aslan bir zaman gördü ki, qoşun əlindən yer yoxdi. Bəy Aslan qoşunu bu halətdə görəndə, ağa, şəmşirin çövürüb sinəsinə Həzrəti Əlidən imdad istəyir:

Zeynəb qalıb qoşunların əlində,
Şahı-Mərdan, imdadıma yet indi.

Heş ana oğlunu görməz bu dəmdə.
Şahı-Mərdan, imdadıma yet indi.

Ağa, qoşun isdiyir həmlə eləsin, deyir:

– Ağa, iki dəyqə mənim vəsiyyətim var. Vəsiyyətlərimi eliyirəm. Onnan sonra da amadəyəm. Bir mənəm, yüz min sizsiz. Öldürsəz də, mən burdan qaşmıram ki.Ama icazə verin, sözümə davam edim.

Götürüb o birsi bəndin belə dedi:

Yaralıyam, ürək gəlibdir coşa,
Mənə dəstur verib, həmlədir hər yandan paşa.
Bu dağı görsətmə ha qohum-qardaşa,
Şahı-Mərdan, imdadıma yet indi.

Ama deyir-deyir, ama bədənləri elə qızışıb. Şəmşiri götürüb sinəsinə, axır kəlməsin belə oxuyur:

Bəy Aslanam, dada yet, şeşbər Heydərim,
Dar günümdə meydanda xəcalət seyr etmə məni.
Bəy Aslanam, qoşun isdir məni öldürməyi,
Şahı-Mərdan, muradıma yet indi.

Ağa, söhbəti çox uzun eləmiyax, Bəy Aslan şəmşirini çəkib, hücum edib qoşun üsdünə. Qoşun o yannan bu yana, bu yannan bu yana yarım şəhlər aradan elə gedir ki, elə bil ildırım kövlə çıxır. Qoşun bir zaman həlakə elə yetişdi ki, hamısı qaşmax mənzurunda oldular. Qaçan qaçıb, qaçmıyan əlində bir bala pərçəm düzəldib təslimə gəlibdir. Padşahın gözdəri birdən savaşanda gördü, bəli, qoşunu bir əli təslim pərçəmi düzəldiblər, bu cavanın qabağına gedirlər.

Dedi:

– Vəzir, Allah evivi yıxmasın, bular ki, təslimə getdi, biz də təslimə getməluyux? Bu qədər padşahlıx elə... Amandır, özüvu götür, məni də, bu şəhridən çıxax. Ta özümüzə bir tərəfdən imdad tutax.

Ağa, bular şəhridən çıxmaxda olsunlar, Bəy Aslan bir zaman gördü, bəli, qoşun dövrədə hamısı təslim-tərkəmə əlində gəlir, ta əl saxlıyır. Atının başını yığıb, bir tərəfdə pünhan oldi. Qoşun gəldi:

– Ay qardaş, bizi niyə öldürürsən, axı dərduvu de, görax bizim əlimizdən çıxan xata nəmənədi? Bizim həyatımızı... Bizi sən niyə qırırsan? Sən nəmənə dedin, biz sənin sözuva baxmadıq? Allah bu padşahın evin yıxsın. Biz sənə neynəməliyix?

Bəy Aslan dedi:

– Hər kəs məni isdəsə, "kəlimeyi-lailahaillahı" deyib müsəlman olacax.

– Ağa, gələn "kəlimeyi-laillahaillalahı" deyir, biz indi neyniyax?

Qoşun burda çönmaxda olsun, gələx görax bu Hüsnüpəri neynədi? Hüsnüpəri qızları yığıb başına:

– Siz Allah, Bəy Aslanın indi yorğun vaxtıdı, mənim də ürəyimin yumşax vaxtıdi. Gəlin, mən bunun müqabilində iki kəlmə sözüm var, oları oxuyum. Onnan sora sizə görüm nə deməliyəm.

Qızlar dövrəsində qulluğuna durub gəlirlər. Hara? Bəy Aslan ta çəkilib bir pünhanda dayanıb. Qızlarınan Hüsnüpəri gəlir. Bəy Aslanın müqabilində görək Bəy Aslana nəmənə oxuyur:

Başına döndüyüm, gün üzlü cavan,
Nə əcəb yetişdin bu gündə mənə?
Sənə kömək olsun, şahı-Xorasan,
Nə əcəb yetişdin bu gündə mənə?

Dedi:

– Xanım, mənim bir az vəzim xarabdı. Bu haldə mənə bu sözləri ki, oxuyursan mənə, heş bilmirəm nə deyirsən?

Dedi:

– Cavan, axı mən bilirəm sən niyə narahatsan? Vallah odur ki, görmüsən o cür nəzəruva gəlsin. Qulaq as, deyim:

Dərin-dərin dəryalara dolmadım,
Saralıban heyva təkin solmadım.
Allaha şükr edirəm ki, cavan, mən yar olmadım,
Nə əcəb yetişdin bu gündə mənə?

Dedi:

– Xanım, əgər yar olsa, bu şəhri bir şəhir eliyəcəm. Bir nəfəri yəhudi tapılmasın.

– Cavan, mənim hələ ürəyimdə yəhudiynən işim yoxdu. Ürəyimdə şadam ki, bu qırx günü burda qurtulmuşam, axır arzuma çatmışam. Ürəyim şaddı, sənə oxuyuram. Allah da səni şad eləsin.

Götürüb axır kəlməsin belə oxuyur:

Hüsnü deyir, əlif qəddim bükərdim,
Ceyhun kimin göz yaşımı tökərdim.
Gəlməseydin, zəhri-zamın içərdim,
Nə əcəb yetişdin bu gündə mənə?

Deyir:

– Xanım, o halım yoxdu indi sənnən danışmağa, əgər məni isdəsən, qeydəsən gedəsən evə. Mənim bu şəhridə çox işlərim var. Bir baxım görüm mən, bu şəhridə, kənarlarında nəmənədilər.

Dedi:

– Qurban, olara bilsin geri dönüb gələrlər. İsdəsən, işin yolu meyxanalar yıxıb, məçid düzəldacaxsuz. Onnan bu yana məçid işinə baxacaxsuz.

Dedi:

– Baş üsdə. Sən hər nə əmr eləsən, biz sənin əmruva tabeyix.

# LÜĞƏT

Acılıx salmaq (d) – soyuqluq yaratmaq, arasını vurmaq
Alahı (d) – başqa
Amadə (f) – hazır
Badə (f) – şərab, çaxır
Bahəm (f) – bir yerdə, bərabər, birlikdə
Bala (f) – 1) yuxarı, üst; 2) boy; 3) uca, yüksək
Barxana (d) – anbar
Börk (d) – papaq
Busə (f) – öpüş
Bülənd (f) – yüksək, uca
Bürc (ə) – 1) qalanın çıxıntısı və qülləsi; 2) tək qala, qüllə
Büsat (ə) – 1) kilim, xalı, səccadə; 2) satmaq və ya nümayiş etdirmək üçün döşənmiş əşya; sərgi; 3) təntənə, dəbdəbə, təmtəraq
Cəbr (ə) – zülüm, zor işlətmə
Cəndərtə (d) – tamada
Cəng (f) – müharibə, savaş
Culqatı (d) – geyim növü
Çapılıb (d) – tikilib, hörülüb
Çeşmi-xumar (f) – xumarlanmış göz
Damən (f) – ətək
Didar (f) – üz, camal
Dübarə (f) – ikinci dəfə
Dübbə (d) – müəyyən dialektlərdə bu və ya digər şəxslə bağlı işlənən müraciət forması. (Məsələn, Bakı dialektində “qədeş” müraciət forması kimi)
Dürr (ə) – inci, mirvari
Əhli xiblət (d) – söz sahibi
Ərş (ə) – qübbə, taxt-tac
Ərşi-əla –göyün ən yüksək təbəqəsi
Ərus (ə) – gəlin
Əsləhər (d) – silah zamanı
Əta (ə) – vermə, təqdim etmə
Fəhm (ə) – anlayış, idrak, zəka
Fərağ (ə) – 1) vaz keçmə, tırk etmə; 2) istirahət; 3) rahatlıq, aludəlik

Gəza (d) – yemək
Giriftar (f) – düçar olmuş, tutulmuş
Gövhər (f) – cəvahir, inci, daş-qaş
Göyül (d) – könül, qəlb
Guş (f) – qulaq
Həmlə (ə) – üzərinə atılmaq, hücum
Həmsayə ( d) – qonşu
Hüveyda (f) – bəlli, aşkar
Xabı-qəflət (f) – qəflət yuxusu
Xaliq (ə) – xəlq edən, Yaradan
Xəndan (f) – 1) gülən, gülərək; 2) tamam açılmış gül
Xomi (d) – Ərdəbil dialektində "bidon", yağ, su kimi məhsulların saxlanıldığı qab.
İdamə (ə) – davam etdirmə
İxtiyar (ə) – seçmə, bəyənmə
İltifat (ə) – 1) çevrilib baxma, dönüb baxma; 2) diqqət, etina, maraq; 3) təklif, mükafat; 4) mehribanlıq, lütfkarlıq
İztirab (ə) – 1) sızıntı, 2) əzab-əziyyət
Kan (d) – məkan
Kan (f) –mədən, mədən quyusu; 2) bir şeyin çıxdığı və çox olduğu yer, mənbə
Keşəvərz (d) – əkinçi
Külah (f) – papaq
Qail (ə) – 1) deyən, söyləyən; 2) inanan; 3) etiraf edən, iqrar edən; 4) rəvayət edən, danışan; 5) razılıq verən, razı
Qaryarçılıq (d) – qaravulçuluq
Qərətyazı (d) – səhv yazılmış yazı
Qəzavət (ə) – dini müharibə
Qili-qal (ə) – dedi-qodu
Qovzamaq (d) – başın üsdünə qaldırmaq
Quşimal (d) – qulaqburma
Quşvarə (d) – sırğa
Ləc(d)–sözünü qəbul etməmək, birisi ilə münasibətin qura bilməmək
Ləşkər (f) – qoşun, ordu
Manih (d) – əngəl
Mehman (f) – qonaq

Məddi məni (d) – öymək, mədd eləmək
Mədəd (ə) – kömək, yardım
Məğrib (ə) – günbatan, qərb
Məh (f) – ay
Məlal (ə) – usanma, sıxınma
Mənzur (ə) – nəzərdə tutulmuş
Mərkəb (ə) – minik, minik heyvan
Məşriq (ə) – Günəşin doğduğu yer, şərq
Məzənd (d) – təəssüf
Muyi-məşəl (d) – şam, çırağı yandırmaq üçün istifadə olunan, ip, filtr
Mübdəli (ə) – giriftar, düçar
Müxtəsər (ə) – ixtisar edilmiş, qısaldılmış
Müxtəsər (ə) – qısa, qısası, qısaca
Münkir (ə) – inkar edən, qəbul etməyən
Mürəttəb (ə) – tərtib olunmuş, sıralanmış
Müsəlla (d) – namaz qılınan yer
Müsəlli (ə) – gündə beş dəfə namaz qılan, molla
Müttəhi (ə) – birləşmiş, birgə
Nəcat (ə) – qurtulma, xilas olma, salamat qalma
Peykan (f) – kirpik
Peyman (f) – əhd, söz vermə
Pər (f) – qanad
Pərçəm (f) – kəkil
Pirsənd (d) – sitayiş edilən yer, tapınaq
Pişi-xəyal – göz qabağı
Pişvaz (f) – qarşısına çıxmaq, qarşılamaq, qəbul etmək
Posd (d) – cəsarət
Puli-Zəncam (d) – zəncam pulu, pul vahidi
Pünhan (f) – gizlinlik, xəlvətilik
Püznik (d) – acılı söz
Rəvan olmaq (f) – yola düşmək
Rizə (f) – tikə, parça
Rizvan (ə) – razı qalma
Saxtuman (d) – yaşayış yeri, ev, bina
Sail (ə) – dilənçi

Sayə (f) – kölgə
Səməd (ə) – əbədi, daimi, əbədi yaşayan
Səng (f) – daş
Sər (f) – baş, kəllə, təpə
Sərbaz (f) – əsgər
Sərgərdan (f) – avara, boş-boşuna
Sərvər (f) – başçı, rəis
Suz (f) – yanma, alışma
Suz (f) – yanma, alışma
Sübhan (ə) – 1) Mədh, tərif, 2) Allaha verilən ad
Şahi-Mərdan (f) – "adamların şahı" Həzrəti Əliyə verilən ad
Şayəd (f) – ola bilər ki, ehtimal ki
Şəhadət (ə) –şahidlik, şahid olma
Şəqaid (d) – gül adı
Şəmadət (d) – birisinin gördüyü işi dəyərsiz, lazımsız hesab etmək, qınamaq
Şəmşir (f) – qılınc
Şuxlux (d) – zarafat etmək
Teyyi mənazil (d) – bu mənzildən, o mənzilə getmək
Təcəlla (ə) – əyan olma, zahir olma
Təkmil (ə) – mükəmməl, təkmilləşdirilmiş, kamil
Təlx (f) – acı, zəhər
Təlqin (ə) – öyrətmə
Tənabi (ə) – ip, örkən
Tərh (ə) – çəkmə, rəsm etmə
Tərxas (d) – arzu, istək
Təsip (d) – himayə etmək
Təyid (ə) – qüvvətləndirmə, təkid etmə
Tiğ (f) – qılınc, xəncər
Timar (f) – baxma, qulluq, xəstəyə, heyvana və s. xidmət
Vəsət (ə) – orta, ara
Yazı (d) – çöl
Yeksərə (d) – birbaşa
Zəmhəri (f) – çox bərk soyuq, şaxta
Zimistan (f) – qış
Zindəgan (f) – diri, canlı

# MÜNDƏRİCAT

**ÖN SÖZ................................................................ 3**

**ŞAH İSMAYIL........................................................ 14**
**QURBANİ ............................................................. 88**
**NƏCƏF................................................................ 228**
**BƏY ASLAN VƏ HÜSNÜPƏRİ.................................... 312**

**LÜĞƏT................................................................ 351**

**Güney Azərbaycan folkloru,**
**X kitab.**
Bakı, Elm və təhsil, 2020.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığan:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Korrektor:
**Məhsəti Süleymanova**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 356 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.